AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodik jurnal*

2023, 1 (38)

BAKI-2023

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 1 (38), 2023

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2020-ci ildən tarix və antropologiya elmi istiqamətləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Tarix elmləri doktoru, professor Abbas Seyidov** *(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Xəqani Məmmədov**
**Tarix üzrə elmlər doktoru, professor Fəzail Vəliyev**
**Antropologiya üzrə elmlər doktoru, professor Əliağa Məmmədli**
**Tarix üzrə elmlər doktoru Eynulla Mədətli**
**Tarix üzrə elmlər doktoru, dosent Sevinc Əliyeva**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yasin Qaraməmmədli**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Ərəstun Mehdiyev**
**Tarix üzrə fəlsəfə doktoru Kərəm Məmmədov**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədova** *(məsul katib)*

# QAFQAZ ALBANİYASININ ANTİK DÖVR HƏRB SƏNƏTİ YAZILI MƏNBƏLƏRDƏ

**Bayramov Cavid**
**AMEA Arxeologiya, Etnoqrafiya və**
**Antropologiya İnstitutu**
**javidbayramov@yahoo.fr**

***Açar sözlər:*** *Qafqaz Albaniyası, antik dövr, hərb sənəti,yazılı mənbələr, Qafqaz Albaniyasının ordusu, silahları, hərbi formaları*

*Məqalədə Qafqaz Albaniyasının antik dövr hərb sənəti yazılı mənbələr əsasında tədqiq edilmişdir. Antik dövr müəllifləri (Herodot, Arian, Plutarx, Strabon, Dion Kassi və s.) Qafqaz Albaniyasının hərb sənəti haqqında əsər-lərində məlumat vermişdir. Bu müəlliflərin əsərlərində Qafqaz Albaniyasının hərbi-siyasi vəziyyəti, ordusu və xarici güclərə qarşı mübarizəsindən bəhs olunur. Yazılı mənbələrlə bərabər, arxeoloji qazıntılar nəticəsində tapılan hərb sənətinə aid arxeoloji materiallar (xəncərlər, ox ucları, dəbilqə) müqayisə olunmuşdur.*

# ANTIQUEMILITARY ART OF CAUCASIAN ALBANIA IN WRITTEN SOURCES

**Javid Bayramov**

***Keywords:*** *Caucasian Albania, antiquity period, military art, source written, army, weapons, military uniforms*

*This article studies written sources about classical antiquity period military art of Caucasian Albania. Thus, the classical authors (Herodotus, Arrian, Plutarch, Strabo, Cassius Dio etc.) give information about the military art of Caucasian Albania. In the works of these authors, the military-political situation of Caucasian Albania, the state of the army and the struggle against foreign forces were mentioned. Along with written sources, archaeological materials (daggers, arrowheads, helmet) related to the military art that were found a result of archaeological excavations compared in this article.*

# ВОЕННОЕИСКУССТВОДРЕВНЕГОКАВКАЗСКОЙАЛБАНИИВ ПИСЬМЕННЫХ ИСТОЧНИКАХ

**Джавид Байрамов**

***Ключевые слова:****Кавказской Албании, античный период, военное искусство, письменные источники, армия, оружие, военная форма*

*В статье исследуются сведенияантичных письменныхисточников о военном искусстве древнегоКавказской Албании. В произведениях таких авторов как Геродот, Арриан, Страбон, Плутарх, Дион Кассий и др. можно увидеть информацию о военном искусстве Албании, используемом ими вооружении, их военно-политической локализации в регионе, а также об их борьбе с внешними силами. В статье проводится сравнительно изучение письменных источников и археологических материалов (кинжалы, наконечники стрел, шлемы и.т.д.), обнаруженных в результате археологических раскопок.*

Bəşər tarixində sinifli cəmiyyətin yaranması ilə ictimai-siyasi, iqtisadi ziddiyyətlərin mövcud olması, siyasi maraqların toqquşması müharibələrə səbəb olmuşdur. Tarixin müxtəlif dövrlərində dövlətlər siyasi, iqtisadi-ticari maraqlarını təmin etmək üçün müxtəlif vasitələrdən istifadə etmişlər. Müharibə də bu maraqları həyata keçirən üçün vasitələrdən biri olmuşdur. Məhz bu səbəbdəndir ki, alman hərbi nəzəriyyəçisi, Prussiya generalı Karl Von Klauzevits «müharibə siyasətin başqa vasitələrlə davamı» (4, p. 67) olduğunu deyirdi. Müharibənin siyasətin başqa yollarla davamı olması fikri təkcə müasir dövr müharibələrinə aid edilə bilməz. Qüvvələr arasında balansın pozulması, maraqlarının toqquşması bəşər tarixinin müxtəlif dövrlərində mövcud olmuşdur. Bütün bunlar isə müharibələrin baş verməsi ilə nəticələnmişdir.

Tarix boyu xalqlar arasında gedən mübarizə, müharibələrin baş verməsi hərb sənətinin yaranmasına və inkişafına səbəb olmuşdur. Antik dövr hərb sənəti haqqında bilgilərə o dövrün yazılı mənbələrində rast gəlinir. Həmin dövrün yazılı mənbələrində (antik dövr müəlliflərinin əsərlərində) təsvir olunan tarixi hadisələrdə qədim dövlətlərin orduları, hərbi potensialı, hərb işinə münasibətləri əks olunmuşdur. Qafqaz Albaniyasının antik dövr hərb sənəti haqqında Herodot, Strabon, Tit Livi, Plutarx, Kornelius Tasit, Arrian, İsgəndəriyyəli Appian, Dion Kassi, Ammian Marsellin kimi müəlliflərin əsərlərində məlumat vardır. Bu müəlliflərin əsərlərində qədim Azərbaycan ərazisində mövcud olmuş Albaniya dövləti haqqında qeyd olunmuş məlumatlar əsasında o dövrün hərbi-siyasi mənzərəsi, qoşunlarının vəziyyəti, əsgər sayı, istifadə etdikləri silahlar və s. haqqında bizdə aydın təsəvvür yaranır.

Antik dövr yazılı mənbələrində Pompeyin Albaniya dövlətinə qarşı apardığı işğalçı müharibə haqqında bilgilər verilərkən albanlara qarşı döyüşlərdə iştirak etmiş əsgər və hərbiçilərin şahidliyi, onların verdiyi məlumatlar qeyd olunmuşdur. Strabonun "Coğrafiya" əsərində Albaniya və Roma qoşunları arasında baş vermiş döyüş, Albaniya dövlətinin hərbi vəziyyəti, ordusu haqqında bilgiləri döyüşün canlı şahidləri Posidoni və Mitilenli Feofanvermişdir.Bu mənbələrdə təsvir olunan hadisələr, verilən bilgilər bizə Albaniya dövləti haqqında, digər dövlətlərlə hərbi, siyasi, mədəni, iqtisadi münasibətləri haqqında bilgi əldə etməyə və aparılan arxeoloji qazıntılar nəticəsində həmin dövrə aid aşkar olunan arxeoloji materiallarla müqayisə edib, doğru nəticə çıxarmağa köməklik edir.

Albaniyanın hərb sənəti haqqında yazılı mənbələrdə ilk dəfə e.ə. V əsrdə yaşamış qədim yunan tarixçisi Herodotun (e.ə. 484-425) "Tarix" əsərində məlumatlara rast gəlinir. Herodot "Tarix" əsərində Əhəməni hökmdarı Kserksin b.e.ə. 480-cı ildə Yunanıstana hücumundan bəhs edərkən Əhəməni ordusunda kaspi tayfalarının iştirak etdiyini qeyd etmişdir. «Kaspilər dəri paltar geyinirdilər. Onların özünəməxsus qamış yaylarıvə palaları[1] var idi. Təchizatları belə idi. Başlarında Artifiosun qardaşı Ariomardos var idi » (10, VII, 67). Herodot kaspilərin süvarilərindən bəhs edərkən yazırdı: «Baktriya və kaspi atlıları piyadalar kimi geyinmişdilər » (10, VII, 86). Qeyd etmək lazımdır ki, Kserksin ordusunda kaspilərin silahlanması midiyalılar ilə eynilik təşkilik edirdi. Onlar da ox, yay və qısa qılıncla silahlanmışdılar.

Albaniyanın ordusu, silahı və s. haqqında, ümumilikdə isə hərb işinə münasibətləri haqqında yunan coğrafiyaçısı, tarixçisi Strabon (e.ə.60-b.e.20) 17 kitabdan ibarət "Coğrafiya" əsərinin on birinci kitabında bəhs edir. Strabon verdiyi bilgilərdə əsasən Posidoni və Mitilenli Feofona istinad etmişdir. Belə ki, Mitilenli Feofan alban döyüşçülərini görmüşdü. Müasir hərb tarixində metodoloji yanaşmada olduğu kimi qədim tarixdə də qədim dövr müharibələrində döyüşlərdə iştirak edən döyüşçünün şahidliyi etibarlı hesab edilir. Strabon albanların hərb işinə münasibətindən danışarkən albanların «müharibə üçün daha çox şeyə sahib olmadıqlarını» (17, XI, 5) öz əsərində qeyd etmişdir. Arxeoloji qazıntılar nəticəsində hərb sənətinə aid aşkar olunan materiallar bu fikrin əksini göstərir. Əsgər Əliyev bu haqda yazırdı: «Arxeoloji tapıntılar alban ordusunda ox və kamandan, habelə nizədən geniş istifadə olunduğunu göstərir. Xeyli miqdarda belə silahın tapılması albanların hərb işinə laqeydliyini deyil, əksinə, onların hərbi cəhətdən bacarığını sübuta yetirir» (6, s. 67). Albanların piyadaları, süvariləri yüngül və ağır silahlarla döyüşməkdə qonşuları qədər bacarıqlı olması fikri Strabonun adı çəkilən əsərində öz əksini tapmışdır. O, Roma ordusuna qarşı döyüşən alban ordusu haqqında danışarkən bunları qeyd

[1]Qısa, əyri qılınc növü. Geniş ucu olan və qulpuna doğru daralır.

edirdi: «Onlar 60 000 piyada və 22 000 süvari ilə təchiz olunmuşdular. Bununla da Pompeyə qarşı bütün güclərini riskə atdılar» (16, XI, 5). Strabon albanların istifadə etdikləri silahlar haqqında da məlumat verir. Albanlar faktiki olaraq döyüşlərdə ox, yay, xəncər, nizə, zireh və qalxandan istifadə etmişlər. Strabonun da yazdığı kimi albanlar iberiyalılar kimi dəridən hazırlanmış dəbilqə taxmışlar. O həmçinin albanların zirehli atlardan da istifadə etdiyi haqqında məlumat verir (16, XI, 19).

Qeyd etmək lazımdır ki, Mingəçevir, Şamaxı, Qəbələ, Qax, Şəki, Ağdaş, İsmayıllı, Tərki, Qarabudaxkənd və s. kimi yerlərdə aparılan arxeoloji qazıntılar nəticəsində albanlara aid silahların, Ağsu rayonunun Nüyidi qəbirstanlığından, Qəbələdən Tola ilə Sultannuxa kəndləri arasında yerdə yerləşən Uzuntala adlı yerdən, Şamaxının Dəmirçi kəndindən albanlara məxsus dəbilqənin tapılması yazılı mənbələrdə qeyd olunan məlumatların doğru olduğunu təsdiq edir. Arxeoloji qazıntılar zamanı albanların hərb sənətinə aid edilən qılınclar, xəncərlər, nizə ucluqları, at əsləhəsi, zirehli geyim və s. aşkar edilmişdir. Qılınclar, xəncərlər, nizə başlıqları Mingəçevir, Şamaxı, Qax,
Qəbələ, İsmayıllı, Şəki, Dağıstan və s. kimi ərazilərdən tapılmışdır. Qeyd edim ki, 1964-cü ildən etibarən Fazil Osmanov tərəfindən İsmayıllı rayonu ərazisində yerləşən Mollaisaqlı və Qalagah abidələrində aparılmış arxeoloji tədqiqatlar nəticəsində dəmir xəncər və nizə aşkar edilmişdi. Xüsusilə, Mollaisaqlı kəndi ətrafında sarkofaqlar F.Osmanov tərəfindən tədqiq olunmuşdu. Bu abidədə qazıntılar zamanı 1 nömrəli gil sarkofaq aşkar edilmişdi. 1 nömrəli qəbirdən saxsı qablarla
yanaşı, dəmir oraq, xəncər və mizraq da tapılmışdı. «Dəmir oraq və xəncər kəllənin altına qoyulmuşdu. Ümumiyyətlə, qəbrə qoyulan avadanlıq, əsasən ölünün başı ətrafına düzülür» (8, s. 54). At əsləhəsi və qədim alban döyüşçüsünün zirehli geyimi 1974-cü ildə Quba rayonun Rustov kəndinin cənubunda, Qamqam kəndindən 1,5 km aralı, Çaqaçuq çayının sol sahilində, təpənin üstündə yerləşən qəbirstanlıqdan arxeoloji qazıntılar nəticəsində tapılmışdır. Qeyd etmək lazımdır ki, buradan aşkar olunan zirehli geyim Azərbaycan ərazisində antik dövrə aid tapılan yeganə zirehli geyimdir. «Zirehli geyim, nizə və ox ucları, xəncər və qılınc adlı-sanlı döyüşçüyə, bəlkə də sərkərdəyə aid qəbirdən tapılmışdır. Zirehli geyim skeletin boğaz hissəsindən qarın boşluğuna qədər davam edərək, iki qat şəkildə - yəni arxa və ön hissə bir-birinə bitişik şəkildə döş hissəyə salınmışdır. Geyim korroziyaya uğradığı üçün onu təşkil edən kiçik dairəvi halqalar bir-birinə möhkəm yapışaraq qalın təbəqə əmələ gətirmişdir» (7, s. 62). Əsgər Əliyevin də qeyd etdiyi kimi arxeoloji qazıntılar zamanı aşkar olunan bu zirehli geyimi bütöv halda götürmək mümkün olmamışdır. Zirehli geyimi təsvir edərkən Ə. Əliyev qeyd edir ki, zirehli geyimdə kiçik zəncirvari halqalar bir-birinə sıx keçirilmişdir. Çiyin hissədə zirehin eni 50 sm, boğaz hissədən qarın boşluğuna qədər uzunluğu 40

sm-dir. Geyimin qolları, skeletin çiyinlərini dirsəkdən az yuxarı hissəyə qədər örtmüşdür (7, s. 62). Göründüyü kimi albanların zirehli geyimi zəncirvari zirehli geyim tipinə aiddir. Zəncirvari zirehli geyim tipi Şərqdə ellinizm dövründə mövcud olmuş, qədim albanlar son antik və ilk orta əsrlər dövrünə kimi bu tip zirehli geyimdən istifadə etmişlər. Qeyd edim ki, son dövrlər İsmayıllı rayonunun Çərmədil kəndi, Qəbələnin Səlbir və Soltannuxa kəndi, Yardımlının Urakəran kəndində Bilgəh ərazisindən, Şəkinin Fazıl kəndində Təpəbaşı abidəsindən, Kiş-Doxun və s. ərazilərdən hərb sənətinə aid edilən dəmir xəncər, qılınc, nizə başlıqları, dəbilqə və s. aşkar edilmişdir.





(Nizə başlıqları[2])

Roma tarixçisi Tit Livinin (e.ə. 59 yaxud 64 – b.e. 17) 35 kitabdan ibarət "Roma tarixi"adlı əsərində klassik antik dövrün təsvir olunan hadisələri, Romanın apardığı işğalçılıq müharibələri və s. ilə bağlı Albaniya dövləti haqqında da məlumatlara rast gələ bilərik. Tit Livinin əsərində Pompeyin Bosfor kralı Mitridatla apardığı müharibədə Pompeyin İberiya və Albaniya ərazisinə hərbi müdaxiləsi haqqında bilgi əldə etmək olur. «Mitridatı təqib edən Pompey uzaq və naməlum torpaqlara daxil olur. Pompey, ona ərazilərindən keçməyə razılıq verməyən iberiyalıları və albanları məğlub edir» (12, p. 899).

Lukkulun, Pompeyin Qafqaza hərbi yürüşü, albanların Roma işğalçılarına qarşı apardığı mübarizədən (e.ə. 66-65) təkcə Strabon, Tit Livi deyil, Plutarxın (46-125) həm "Lukkul" həm də "Pompey" əsərlərində məlumat verilmişdir. Plutarx "Lukkul" əsərində e.ə. 69-cu ildə Roma sərkərdəsi Lukkulun Armeniyaya hücumundan bəhs edərkən Armeniyaya köməyə gələn qonşuları arasından albanların da adını çəkir (13, p. 141). Plutarx Albaniya ordusu haqqında "Pompeyin həyatı" adlı əsərində yazmışdır. Albaniya ordusu

[2] Ceyhun Eminli, Emil İsgəndərov. 2014-cü ildə Qəbələnin Səlbir ərazisinin V qazıntı sahəsində və Soltannuxa kəndində aparılmış arxeoloji qazıntıların hesabatları / Qəbələ Arxeoloji Ekspedisiyası: Hesabatlar, Tapıntılar 2014. " Qəbələ " seriyası № 6, Bakı, 2016, s. 196.

haqqında məlumat verən Plutarx yazırdı: «Onların 60 000 piyadası və 12 000 süvarisi var idi. Amma onlar pissilahlanmışdılar və əksəriyyətinin müdafiəsi üçün yalnız heyvan dəriləri var idi. Onlara hökmdarın Kozis adlı qardaşı komandanlıq edirdi» (14, XXXV). Plutarxın təsvir etdiyi döyüş e.ə. 65-ci ildə Albaniya və Roma qoşunları arasında Alazan çayı sahilində baş vermişdir. Həmin döyüşdə Albaniya hökmdarı Oroysun qardaşı Kozis alban qoşunlarına başçılıq etmişdir. Mənbədə də qeyd olunduğu kimi Alazan çayı sahilində baş vermiş döyüşdə Kozis Pompeyin üstünə qaçır və onu mizraqla vurur. Lakin Pompeyin zirehi onu ölümdən xilas edir. Pompey isə cavab zərbəsi ilə Kozisi ölümcül surətdə yaralamışdır. Plutarx bu döyüşdə Terme çayı *(Thermodon)* ətrafı dağlardan gələn amazonların da iştirakını qeyd edirdi. «Romalılar düşmən cəsədlərini soyarkən amazonların çəkmələrini və qalxanlarını tapdılar»(14, XXXVI). Plutarx amazonların albanlarla həmsərhəd olmadığını, hər il iki ay ərzində Terme çayı sahilinə yaşamağa gəldiklərini sonra isə ayrılıb ayrı yaşadıqlarını əsərində xüsusilə qeyd etmişdir.

P.K.Tasit (58-120) "Salnamələr" adlı əsərində Roma imperiyası ilə bağlı nəql edilən tarixi hadisələrdə Albaniyanın da adını çəkir. Tasit Romanın Şərqdə apardığı işğalçı müharibələrdən bəhs edərkən Roma imperiyasının dörd legionunun Suriyadan başlayaraq Fərat çayına qədər uzanan ərazinin, İberiya, Albaniya və digər krallıqların yerləşdikləri böyük imperiyaya bağlı geniş ərazinin tabeliyində olduğunu (18, IV, 5) qeyd edirdi. O, həmçinin Romanın ikinci imperatoru Tiberi Klavdi Neronun (e.ə.14-37) hakimiyyəti illərində Roma ilə Parfiyanın Armeniya üstündə müharibə apardığından (e.ə. 35-ci il) danışarkən İberiya və Albaniyanın da bu müharibəyə cəlb edildiyini qeyd edirdi. İberiya hökmdarı Farasman bir neçə qoşunla Armeniyanı və paytaxtı Artaksatı tutur. Tasit qeyd edir ki, «Artaban bunu eşidəndə oğlu Oroda təcavüzkarlardan qisas almağı tapşırır. Ona parfiyalılardan ibarət olan bir ordu verdi və agentlərini muzudlu əsgərlər cəlb etmək üçün göndərdi» (18, VI, 33). Həmin mənbədə eyni zamanda qeyd olunur ki, İberiya hökmdarı Farasman Parfiyaya qarşı albanlar və sarmatlarla ittifaq qurmuşdu. Qeyd edim ki, İberiya-Albaniya-Sarmat birliklərinə qarşı Parfiyanın bütün qüvvələri süvarilərdən ibarət idi. İberiya hökmdarı Farasmanın qoşunlarında isə piyadalar daha güclü idi. Meşələr ölkəsində yaşayan iberiyalılar və albanlar məşəqqətli və əziyyətli həyata daha çox dözürlər (18, VI, 34). Məhz bu insanların orduya cəlb olunması ilə Parfiya birliklərinə qarşı hərbi birliklərini gücləndirmişdilər. Flavius Vegetius Renatus "Roma Hərb Sənəti" *(De Re Militari)* adlı əsərində nəzəri cəhətdən də əyalətdə və şəhərdə yaşayan kişilərin orduya cəlb olunmasından bəhs edərkən əyalətdə yaşayan kişilərin silaha daha çox meyilli olduğunu qeyd etmişdir. Bunun səbəbini onunla izah edir ki, əyalətlərdəki insanlar açıq havada işləyərək böyüyürlər, günəşə və kölgəyə əhəmiyyət verməzlər, hamamlardan və lüks həyatdan bixəbərdirlər, bəsit düşüncəlidirlər, aza qane olurlar, hər cür işə

tab gətirəcək dirənişə sahibdirlər, cüt sürürlər, çuxur qazırlar və yük daşıyırlar (9, I, 3). Flavius Vegetius Renatusun da qeyd etdiyi kimi, bölgələrdə yaşayan insanların çətin, ağır həyat şəraiti, fiziki cəhətdən hazır olmalarına görə Roma ordusuna cəlb olunmuşdular. İberiya-Albaniya-Sarmat birlikləri ilə Orodun başçılıq etdiyi Parfiya ordusu arasında baş verən döyüş haqqında isə onu qeyd edə bilərik ki, digər hərbi birliklər kimi alban hərbi birlikləri də döyüşdə xüsusilə seçilmişdilər. Döyüşü təsvir edən Tasit yazırdı ki, albanlar və iberiyalılar Parfiya süvarilərinin zərbələri və onlara yaxınlaşan piyadaların zərbələri arasında ikiqat təhlükə altında qalaraq atlarından düşürlər. Farasman və Orod arasında baş verən döyüşdə Orod yaralanır, ən cəsur mühafizəçiləri tərəfindən qorunur. Lakin Orodun öldüyü barəsində yalan məlumat Parfiya ordusunu elə məyus etdi ki, onlar rəqiblərinin qələbəsini qəbul etdilər (18, VI, 35). Beləliklə, Tasitin Albaniyanın hərbi-siyasi vəziyyəti haqqında yazdıqlarından Albaniya dövlətinin regiondakı önəmi, hərbi gücü, qonşularla münasibəti və s. haqqında bizdə aydın təsəvvür yaranır.

II əsrdə yaşamış Roma tarixçisi Arrian (85-146) "Anabasis" adlı əsərində albanlar haqqında məlumat vermişdir.O, b.e.ə. 331-ci ildə III Dara ilə Makedoniyalı İsgəndər arasında baş verən Qavqamela döyüşündən bəhs edərkən Atropatın başçılığı altında midiyalılarla birlikdə kadusilərin, albanların və sakasenalıların sıraya düzüldüklərini qeyd edirdi (2, III, VII). Hindlilərin, albanların və midiyalı oxçuların Makedoniyalı İsgəndərin ordusuna qarşı döyüşdükləri barəsində də əsərində məlumat vermişdir. Qeyd etmək lazımdır ki, Qavqamela döyüşündə Əhəməni ordusunun tərkibində albanlar və sakasenlər sağ cinahda mövqe tutmuşdular. III Daranın olduğu mərkəz hissədə zadəganları ilə bərabər, elit qvardiyası farslar, qızıl alma – *golden apple*s hesab olunan hindlilər, qaryalılar və midiyalı oxçular yerləşmişdilər.

İsgəndəriyyəli Appianın (95-170) "Roma Tarixi" adlı əsərində Albaniyanın Romaya qarşı apardığı mübarizəsindən bəhs etmişdir. Həmin əsərdə Pompeyin Mitridatı Kolxidaya qədər təqib etməsi,.Kür çayı sahilində baş verən döyüşdəAlbaniya hökmdarı Oroysun və İberiya hökmdarı Artokusun 70 000 nəfərlik qoşunla Roma ordusuna qarşı döyüşü haqqında bilgilərə rast gəlmək olur (1, XII, 103). Qeyd etmək lazımdır ki, eramızdan əvvəl I əsrdə baş vermiş döyüşdə Plutarx kimi İsgəndəriyyəli Appian da Kür çayı sahilində baş vermiş döyüşdə amazonların iştirak etdiyini əsərində yazırdı. O yazırdı ki, girov və əsirlər arasında bir neçə qadın və az yaralanmış kişilər var idi. Onlardan çox da uzaqda olmayan amazonlar bu hökmdarların köməyinə gəlmişdilər. Albanların Roma işğalçılarına qarşı apardıqları mübarizədə hansı döyüş taktikasından istifadə etdikləri yazılı mənbələrdən də məlum olur. Kamal Əliyevin də qeyd etdiyi kimi alban qoşunu təbii şəraitdən istifadə edərkən hücum taktikası ilə bərabər müdafiə taktikasından istifadə etmişdir.

Düşmənlərlə vuruşmada albanların itlərdən də istifadə etdiyini qeyd edirdi (11, s. 936).

Antik dövr müəllifləri içərisində Romanın siyasi xadimi, konsul, Roma tarixçisi Dion Kassi (155-235) də Pompeyin Qafqaza yürüşü, albanlar və romalılar arasında (e.ə. 66-65-ci illər) baş vermiş döyüşlərdən "Roma Tarixi" əsərinin üçüncü cildində bəhs etmişdir. Dion Kassi əsərində e.ə. 66-cı ildə albanlar və romalılar arasında Kür çayı sahilində baş vermiş döyüş haqqında məlumat verir. Albaniyanın şimal-qərbində, Kür və İori çaylarının qovşağınadək ərazini əhatə edən Kambisena ərazisinə hərəkət edən Pompeyin ordusu aclıqdan və susuzluqdan əziyyət çəksə də yolun böyük hissəsini qət edə bilmişdi. Ərazinin çətinliyi nəzərə alsaq belə bir sual yaranır ki,Roma ordusu bələd olmadığı bu çətin ərazilərdən necə keçmişdi. Dion Kassi bu barədə yazır:«Əsirlər arasından olan bələdçilər onları ən münasib yolla aparmadılar və çayın onlara heç bir faydası olmadı. Çünki onların içdikləri su çox soyuq idi və çoxları üçün zərərli idi» (5, XXXVII, 3). Heç bir müqavimətlə rastlaşmayan Roma ordusu Kür çayını keçir. Kür çayı sahilində baş vermiş döyüş haqqında Dion Kassi bunları yazırdı: «Buna görə də o, süvarilərini qabaqcadan onlara nə etməli olduqlarını bildirərək önə çəkdi, qalanları isə arxalarında diz çökmüş vəziyyətdə saxladı və qalxanları ilə örtülü idilər. Bu da onların hərəkətsiz qalmasına səbəb oldu ki, Oroys yaxınlaşana qədər onların varlığından xəbərdar olmasın»(5, XXXVII, 4). Beləliklə, Albaniya hökmdarı Oroys süvarilərlə döyüşməli olduğuna inanır və Roma ordusuna qarşı hücuma keçir. Pompeyin alban ordusuna qarşı istifadə etdiyi taktika sonda nəticə verdi. Roma ordusunun piyadalarının və süvarilərinin qəfil zərbələri nəticəsində çoxlu sayda alban döyüşdə həlak oldu. Kür çayı sahilindəki döyüşdə məğlub olan albanlar Roma ilə sülh müqaviləsi bağlamaq məcburiyyətində qaldılar. Kür çayı sahilində albanlar və romalılar arasında baş vermiş döyüş yazılı mənbələrdə yuxarıdakı kimi qeyd olunur. Samux və Mingəçevir döyüşün mərkəz əraziləri olduğuna görə burada aparılan arxeoloji qazıntılar mühüm əhəmiyyət kəsb edir. «Azərbaycanın cənubu, Kürdənaşağı hissə romalılar tərəfindən tutulduğundan sonra mühüm cəbhəni Kür çayı təşkil edirdi. Çay arasındakı meşələr müdafiə üçün əlverişli idi. Albaniya şahı Orisin ətrafına toplanmış əhali üçün çoxlu silah lazım idi. Belə bir vəziyyətdə qəbirlərə silah qoymağa imkan yox idi. Məncə buna görə də bu dövrdəki qəbirlərdə silaha təsadüf edilmir»(15, s. 22-23).Saleh Qazıyevin də qeyd etdiyi kimi, Pompeyin Qafqaza yürüşü zamanı Roma ordusuna qarşı mübarizə üçün silaha olan tələbata görə qəbir abidələrində silahlara təsadüf olunmamışdır. Bunun səbəbini isə belə izah edirdi: «82000 qoşunu silahlandırmaq üçün çox böyük silah ehtiyatına malik olmaq lazım idi. Müharibə zamanı silahların xeyli hissəsi atılır (ox və mizraqlar) bir qismi sınır və sairə. Bu silahları biz ən azı on qat artırsaq 820000 silaha ehtiyac olmalı idi. Buna ehtiyat silahları və müharibədə iştirak etməyən əhalidəki silahları da əlavə

etsək ümumiyyətlə silaha olan ehtiyacın bir milyona çatdığını güman etmək olar»(15, s. 23). Beləliklə albanların müharibə zamanı silaha olan ehtiyacları qəbirə silah qoymaq adətinin pozulması ilə nəticələnmişdir.

Antik dövrün son mərhələsində (Qərb tarixşünaslığında gecikmiş antik – *antiquité tardive* adlanır) Roma tarixçisi Ammian Marsellin (330-395) Roma imperiyasının tarixindən bəhs edən "Görülən işlərin tarixi" (*Rerum gestarum libri XXI*) adlı əsərindəAlbaniya dövləti haqqında bilgilər verilmişdir. O, Lukul və Pompeyin Qafqaza yürüşündən danışarkən romalıların Albaniyaya, Massagetlər ölkəsi adlandırığı Alanlar ölkəsinə, Xəzər dənizinə kimi olan ərazilərə nüfuz etdiklərini, Pablius Ventidius Bassus və Mark Antoninin də bu ölkələrdə qələbələr qazandığını (3, XXIII, 5) qeyd edirdi.

Beləliklə, antik dövr yazılı mənbələrindən də göründüyü kimi Roma imperiyasının Yaxın Şərqdə, Qafqazda apardığı işğalçılıq müharibələri Roma və Albaniya qoşunları arasında baş verən döyüşlər, albanların Roma ordusuna qarşı apardığı mübarizə, qazanılan hərbi təcrübə nəticə etibarilə onların hərbi qüvvələrinin güclənməsinə, hərb sənətinin inkişafına səbəb olmuşdur.

Albaniya dövlətinin İberiya və Sarmatlarla müttəfiqlik əlaqəsi, Parfiyaya qarşı birlikdə mübarizə aparmaları və s. onu deməyə əsas verir ki, Albaniya qoşunları döyüşkənliyinə, hərbi bacarıqlarına görə qonşularından geri qalmamışdır. Onların 82 000 əsgərdən ibarət güclü orduya sahib olmaları düşmənlərini daima onlarla hesablaşmağa məcbur etmişdir.

Antik dövrün hərb sənəti ilə bağlı nəzəri olaraq qələmə alınmış əsərlərdə antik dövrün inkişaf etmiş dövlətlərinin ordularında əsgər seçimi, istifadə edilən silahlar, ordularının döyüş strategiyası və s. haqqında verilən bilgiləri, antik dövr müəlliflərinin əsərlərindəAlbaniyanın hərb sənəti haqqında verilən məlumatlarla müqayisə etdikdə bu dövlətlərin hərb sənətinə antik dövrün böyük dövlətlərinin, imperiyalarının təsirinin olduğunu görmək olar.

## Ədəbiyyat

1. Appian. Appian's Roman History. II volumes. London, Cambridge, Massachuetts, Harvard University Press, 1962, 477 p.
2. Arrian. Anabasis of Alexander. I volume. London, Cambridge, Massachuetts, Harvard University Press, 1967, 450 p.
3. Ammien Marcellin. Les dix-huit livres de son histoire.Tome second. Chez George Jacques Decker. Imprimeur du roi, Berlin, 1775, 418 p.
4. Carl Von Clausewitz. De la guerre. D. Naville (trad), Paris, Minuit, 1955, 755 p.
5. Cassius Dio. Dio'sRomanHistory. III volumes. London, W. Heinemann; New York: Macmillan, 1914-1927, 519 p.

6. Ə.Əliyev. Alban silahlarına dair yazılı mənbələrin arxeoloji tapıntılarla müqayisəli təhlili. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri (Tarix, Fəlsəfə və Hüquq seriyası), 1981, №1, s. 66-70.
7. Ə.Əliyev. Qədim albanların zirehli geyimi. Tarix, İctimaiyyət, Coğrafiya tədrisi, № 3, 1976, s. 61-63.
8. F.Osmanov, Ə.Haqverdiyev. Mollaisaqlı qədim yaşayış məskəni. Tarix, İctimaiyyət, Coğrafiya tədrisi, №5, 1976, s. 52-57.
9. Flavius Vegetius Renatus. Roma Savaş Sanatı. İstanbul, Kronik, 2019, 167 s.
10. Herodotos. Tarih. İstanbul, Türkiye İş Bankası Kültür Yayınları, 2019, 852 s.
11. K.Əliyev. Albaniyanın qoşunu və silahı haqqında. Bakı 1957. Azərbaycan SSR EA məruzələri, XIII cild, №8, s. 935-938.
12. M.Ph.Le Bas. Commentaire sur Tite-Live. Paris, J.J.Dubochet et Compagnie, Éditeurs, 1840, 911 p.
13. Plutarch. Plutarch's Lives. Lucullus.Volume V. John D. Morris & Company. Philadelphia. 1860, pp. 110-162.
14. Plutarque. Vie de Pompée.Paris, Librairie de l'hachette, 1845, 388 p.
15. S.Qazıyev. Mingəçevirdən tapılmış bəzi silahlardan.Bakı 1951. AMM, II cild, s. 5-30.
16. Strabo. The Geography of Strabo. V volumes. London, Cambridge, Massachusetts Harvard University Press, 1961, 542 p.
17. Strabon. Géographie de Strabon.Tome Quatrième. Livre XI. Paris, Imprimerie Royale, 1814, 339 p.
18. Tacitus. The Annals of Tacitus. Book I to VI. London, Swan Sonnenschein& Co. Lim. New York: The Macmillan Co, 1906, 295 p.

# ROTŞİLDLƏRİN AZƏRBAYCAN NEFT SƏNAYESİNİN İNKİŞAFINDA ROLU

**UOT-94**

**Nübar E. Bəşirli**
***Bakı Slavyan Universiteti***
***Azərbaycan Dillər Universiteti***
***nubarbesirli@gmail.com***

***Açar sözləri:*** *Rotşildlər, Azərbaycan, Bakı nefti, kerosin, Alfons Rotşild, xarici kapital*

*Məqalədə XIX əsrin sonları XX əsrin əvvəllərində Rotşild qardaşlarının Azərbaycanın neft sənayesindəki sahibkarlıq fəaliyyətindən bəhs olunur. Rotşildlər Bakı neft sənayesində "Nobel qardaşları"ndan sonra ikinci əsas xarici kapital hesab edilir. Rotsildlərin Bakı ilə Batumu birşləşdirən Zaqafqaziya dəmir yolunun çəkilməsi ilə 1883-cü ildən başlanan fəaliyyəti Bakı nefti uğrunda təxminən 30 illik amansız mübarizənin əsasını qoydu. Rotşildlərin Bakı neftinin inkişafındakı rolu məqalədə obyektik şəkildə öz əksini tapmışdır. Rotşildlərin simasında Fransız kapitalının Bakı neft sənayesində təmsil olunması və Çar Rusiyasnın bu məsələdəki əks mövqeyi məqalədə geniş şəkildə işıqlandırılmışdır.*

# ROTHSCHILDS' ROLE IN THE DEVELOPMENT OF AZERBAIJAN OIL INDUSTRY

**Nubar Bashirli**

***Keywords:*** *Rothschilds, Azerbaijan, Baku oil, kerosene, Alfons Rothschild, foreign capital.*

*The article talks about the entrepreneurial activities of the Rothschild brothers in the oil industry of Azerbaijan at the end of the 19th and the beginning of the 20th century. The Rothschilds are considered the second largest foreign capital in the Baku oil industry after the "Nobel brothers". The activities of the Rothschilds, which started with the construction of the Transcaucasian railway connecting Baku and Batumi in 1883, laid the foundations of the 30-year relentless struggle for Baku oil. The role of the Rothschilds in the development of Baku oil is objectively reflected in the article. In the article, the representation of the French capital in the form of*

*Rothschilds in the Baku oil industry and the opposition of Tsarist Russia on this issue are discussed in detail.*

## РОЛЬ РОТШИЛЬДОВ В РАЗВИТИИ НЕФТЯНОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА

**Нубар Баширли**

***Ключевые слова:*** *Ротшильды, Азербайджан, бакинская нефть, керосин, Альфонс Ротшильд, иностранный капитал*

*В статье рассказывается о предпринимательской деятельности братьев Ротшильдов в нефтяной промышленности Азербайджана в конце 19-начале 20 века. Ротшильды считаются вторым по величине иностранным капиталом в бакинской нефтяной промышленности после «братьев Нобель». Деятельность Ротшильдов, начавшаяся со строительства Закавказской железной дороги, соединившей Баку и Батуми в 1883 году, заложила основы 30-летней неустанной борьбы за бакинскую нефть. В статье объективно отражена роль Ротшильдов в освоении бакинской нефти. В статье подробно рассматриваются представительство французского капитала в лице Ротшильдов в бакинской нефтяной промышленности и противодействие царской России по этому вопросу.*

**Giriş.** Hələ XlX əsrin ikinci yarısında Bakıda mexaniki qazma üsulu ilə neft çıxarılmağa başlanıldığı bir vaxt Bakı dünyanın neft sahəsində əsas iqtisadi cazibə mərkəzlərindən birinə çevrilmişdi. İlk öncə rus tacirləri Kokorev-Qubonin qardaşlarına aid Suraxanıda ilk xüsusi rafin fabriki açılmış, onun ardınca əraziyə xarici kapitalın axını başladı. Sahibkarlar içində ən böyük sahibkar olaraq da Pirallahı da parafin fabriki açan Vitte, Nobel qardaşları və Parisin maliyyə evinin sahibi Rotşildlərin adı ilk sırada dururdu. Batum neft sənayesi və Ticarət Cəmiyyətini satın alaraq 16 may 1883-cu il tarixində Xəzər-Qara dəniz Neft və Ticarət Cəmiyyətinə çevrilən Rotşildlər neft sənayesində maliyyə dəstəyə ehtiyacı olan yüzdən çox şirkətə kredit verərək özlərindən asılı vəziyyətə salaraq, qısa müddətdə Bakı neftinin Avropa ölkələrinə əsas ixracatçısı mövqeyinə yüksəlmişdi. 1877-1878-ci Rusiya-Osmanlı müharibəsi sonrası imzalanan Berlin konfransı ilə sərbəst ticarət limanı olması səbəbiylə Batumun Rusiyaya verilməsi ilə bərabər Rotşildlər böyük yatırımları ilə sürətli bir şəkildə Batumu neft depolama mərkəzi halına gətirmiş, buradan gəmilərlə dünyanın müxtəlif ölkələrinə neft və neft məhsullarını ixrac etmişdi. Yenə Bakı-Batum dəmiryolunu da Xəzər -Qaradəniz neft və Ticarət Cəmiyyəti” inşa etmişdi. Osmanlı imperiyası da daxil olmaqla bir, çox dövlətlərin də borc

aldığı, Avropanın sayılı milyarderlərindən hesab edilən yəhudi əsilli Rotşildlərin Bakı neft sənayesinə yatırım etməsi ilə Azərbaycan nefti uğrunda mübarizənin nəhayyət ki, yeni mərhələsi başlamışdı [2,128].

**"Rotşild qardaşları Azərbaycanda".** İsveç təbəəsindən olanNobel qardaşlarından bir qədər sonra, 1883-cü ildə Parisdə yaşayan baron Alfons de Rotşildi təmsil edən fransız bank kapitalı da Bakıda məskunlaşmışdı. Lakin dünya bazarına çıxmaqdan ötrü nəinki etibarlı, həm də alternativ yollar tələb olunurdu. 1880-ci ildə yardım almaq məqsədi ilə Rotşildə müraciət etmək qərara alındı. Nəticədə Rotşildin Bakı neft sənayesinə gəlişi üçün əlverişli şərait yarnmış oldu. Tügendhet və Hamilton bu hadisəni belə təsvir edirlər: "Rotşildlərin əsas məşğuliyyətlərinin bank işi olmasına baxmayaraq, bu ailənin Paris qolu neft sənayesi ilə sıx bağlı idi. Baron Alfons de Rotşild Birləşmiş Ştatlardan gətirdiyi nefti və Rusiyadan idxal etdiyi külli miqdarda nefti emal etməkdən ötrü Adriatik dənizində, Fiumdakı rahat bir yerdə olan nefttəmizləyici müəssisənin sahibi idi. Rotşildlər Batum dəmir yolunun tikintisi üçün məhz bankir kimi pul verməyə razı oldular. Lakin əvəzində neft mədənlərinin sahiblərinə məxsus aktivlərin girov kağızlarını və ixrac etmək üçün neft almaq hüququnun verilməsini tələb etdilər.

Alfons Rotşildin vasitəsi ilə Çar Rusiyası bir sıra istiqrazları Fransa hökumətinə buraxdı. Beləliklə də Bakı ilə Batumini birləşdirən Zaqafqaziya dəmir yollarının inşası Alfons de Rotşildin verdiyi istiqrazlar hesabına 1883-cü ildə başa çatdırılmışdı. Bunun nəticəsidir ki, o, Bakı neft müəssisələrinə güzəştli sahiblənmə hüququ qazanmışdı.Hələ 1884-cü ildə təxminən 5,6 milyon pud müxtəlif neft məhsulları Rusiya nefti üçün qərbə qapı açan Zaqafqaziya dəmir yolu vasitəsi ilə daşınmışdı və bu da dünya neft bazarları uğrunda uzun sürən kəskin mübarizənin başlanğıcını qoymuş oldu. Rotşildlər kerosinin komisyon satışına müqaviləni müəssisələr üçün güzəştli əsasda bağlayırdılar. 1884-cü ildə şirkətin Bakıdan xaricə apardığı neft məhsullarının həcmi 2,4 mln.pud olmuşdursa, artıq 189-cu ildə bu göstərici 30 mln.puda çatmışdı. Rotşildlərin "Xəzər-Qara Dəniz Cəmiyyət"i, Zaqafqaziya dəmir yollarında mövcud sayı açıq-aşkar tələb edilən daşıma vasitələrinə tələbi ödəmək üçün kifayət etməyən məxsusi vaqon-sisternləri yerləşdirmək icazə almaqla 1887-ci ildə 300 vaqon-sistern yerləşdirmişdi. 1888-ci ilin dekabrında Bakıya göndərilən ağ neft doldurulmuş 3932 vaqondan Rotşildlərin 1800-nü qəbul etdi [4,148].

1883-cü ilə Rotşildlərin kapitalı sayəsində Bakıdan Avropa ölkələrinə neft və neft məhsullarının (əsasən kerosin) ixracında mühüm rol oynayan Bakı-Batumi dəmir yolunun tikntisi tamamlandı. Bu dəmir yolunun inşası ilə Batumi dünyanın vacib liman şəhərlərindən birinə çevrildi. 1888-ci ildə isə artıq Xəzər-Qara Dəniz Neft Sənayesi Cəmiyyəti Zaqafqaziya Dəmir Yolunun bütün vaqonlarının demək olar ki, yarısını öz sərəncamına almışdı. Kampaniya 1883-

cü ildə mühəndislər A.A.Bunqe və S.S.Palaşkovski tərəfindən təsis olunmuş "Batumi neft sənayesi və ticarəti cəmiyyəti" (B.N və T.C) bazası əsasında yaranmışdır. Lakin "B.N və T.C" ilk başlanğıcdan müəssisənin fəaliyyətini genişləndirmək üçün vəsait çatışmazlığına məruz qalırdı. Rus hökumətinə və rus kapitalistlərinə müraciətlərin isə heç bir nəticəsi olmurdu. Müəssisənin maliyyə vəziyyəti o qədər sarsıldı ki, onun səhmləri "Rotşild qardaşları" Paris Bankir evinə girov verildi. 1885-ci ildə "B.N və T.C", "Xəzər-Qara dəniz cəmiyyəti" nə çevrildi. Cəmiyyətin kapitalı 6 milyon rubl təşkil edirdi. 1886-cı ildə "Xəzər-qara dəniz cəmiyyəti"nin nəzarət aksiya paketi Rotşild tətəfindən ələ keçirildi [5,40].

Beləliklə, şirkət ən qısa müddətdə çoxsaylı kiçik və orta sahibkarlıq müəssisələrini özündən asılı vəziyyətə salmış və iri partiya neft məhsullarını öz əlində toplamağı, Rusiyanın daxili bölgələrindən keçməyən, əsasən Qara dəniz limanlarına gedən Zaqafqaziya dəmir yolu ilə ixrac üçün neft məhsullarının daşınmasına faktiki nəzarəti həyata keçirməyi bacarmışdı.

Bu cəmiyyətin əsas simalarından biri, neft müəssisələrini bilavasitə idarə edən Paris evinin baş mühəndisi Jorj Aron olmuşdur. Mədənlərə rəhbərlik edən isə Nobel mükafatı laureatı Lev Landaunun atası mühəndis-texnoloq David Landau idi. David Landaunun anası yarı alman, yarı fransız olmuşdur.

Rotşildlərin Bakı şirkətinin fəaliyyəti həm də yaradıcılıq axtarışına yönəldilmiş, qabaqcıl yaradıcı düşüncəni hər cür dəstəkləmiş, neft və neft məhsullarının sənayedə və kənd təsərrüfatında istifadəsinin yeni istiqamətlərini açmışdır.

Səciyyəvidir ki, Rusiya ixrac ticarətinin birləşdirilməsi işində əsas rolu 1887-ci ildən başlayaraq yerli mallarla bərabər digər 40-50 Bakı neft sənayeçilərinin ağ neftinin komisyon satışı ilə A.Rotşildin firması oynadı. Biznes fəaliyyətinin dəqiq təşkil edilməsi nəticəsində 1888-ci ildə Rotşildlərin firması vasitəsilə ağ neftin xaricə daşınması 16 milyon pud təşkil edirdi ki, bu da Rusiyanın bütün ixracatının 58% -ni təşkil edirdi. Üstəlik, Rotşildin öz şirkətlərində bütünlüklə 2,5 milyon pud məhsul hasil edilmişdi [4,148]."Rotşild qardaşları" bank evinin Bakıdakı fəaliyyəti artıq 1890-cı ildə, yəni "Xəzər-qara dəniz cəmiyyəti" 7 il işləyəndən sonra belə səciyyələndirilirdi: "Çoxları Rotşildin Bakı neft sənayeçilərinin sırasına qatılmasını böyük səbirsizliklə gözləyirdi: onlar ümid edirdilər ki, Rotşild öz kapitalı ilə bütün neft işinə güclü təkan verəcək. O zaman Rotşildin kapitalı ilə bütün neft işinə güclü təKn verəcək. O zaman Rotşildin kapitalı çoxlarına xeyli cəlbedici görünürdü. Həqiqətən də, adıçəkilən ticarət evinin peyda olması neft sənayesini xeyli canlandırmışdı.

XIX əsrin sonu "Xəzər-Qara Dəniz Neft Sənayesi və Ticarət Cəmiyyəti"nin ümumrusiya və beynəlxalq səviyyədə tanınması ilə əlamətdar olmuşdur. Belə ki, 1889-cu ildə Paris Ümumdünya Sərgisində Cəmiyyətin

Bakıdakı zavodunda benzoldan hazırlanan çoxlu əla boyalar nümayiş olundu. 1896-cı ildə Nijni Novqorodda keçirilmiş Ümumrusiya Sənaye və İncəsənət Sərgisində şirkət "çox keyfiyyətli neft məhsullarının böyük miqdarda istehsalına və Rusiya bazarlarında ticarətinin təşkilinə görə" qızıl medala layiq görüldü. Və nəhayət, 1900-cü ildə Parisdə keçirilən Ümumdünya Sərgisində bu şirkətin ekspozisiyası ən yüksək Qran Pri mükafatına layiq görüldü.

1890-cı ildəBakıneftininixracının 42%-i Paris bank evinin nəzarəti altında idi. Balaxanı, Sabunçu və Ramanadakı neft mədənləri də Rotşildlərə məxsus idi və onlar Bakının kənarındakı Qara şəhərdə ən iri neft emalı zavodu tikmişdilər. Bu, kerosin, benzin və yağ istehsal edən, sürtkü yağları buraxan ayrı-ayrı zavodlardan ibarət bütöv bir sənaye kompleksi idi.A.Rotşild ömrünün son günlərinədək Bakı neft biznesini öz nəzarəti altında saxlamışdı. Vəfatından sonra isə Bakı ilə bağlı işlərlə onun kiçik qardaşı baron edmont məşğul olmağa başladı. Bakı biznesindəki əsas simalardan biri də neft müəssisələrinə, neftin və neft məhsullarının satışı və daşınmasına bilavasitə rəhbərlik edən “Rotşild qardaşları” Paris evinin baş mühəndisi Jorj aron idi.

Bundan əlavə, qazolin, qudron, dizel yanacağı istehsal olunurdu. Bibiheybətdə qaz zavodu, elektrik stansiyası, dəniz suyunu təmizləyən qurğu, çoxlu sayda işçi və texniki heyəti olan mexaniki emalatxanalar, əslində, neft mədən avadanlıqları və borularını təmir edən və ehtiyat hissələri və qazma alətlərini hazırlayan zavodlar tikilişdi. 1893-cü ildə Fransa neft kapitalının Bakı neft sənayesində iştirak payı təxminən 10 milyon rus rublu məbləğində ifadə edilirdi. 1904-cü ilin məlumatlarına görə, Fransa kerosinə olan ehtiyacının 71,1%-ni Bakının hesabına ödəmişdir.

Rotşildlər cəmiyyəti xeyriyyəçiliyə pul ayırmaqda da xəsislik etmirdi. O, Bakının sənaye bölgələrində, əsasən fəhlələrin övladlarının oxuduğu iki məktəb binası tikmiş və saxlanmasını təmin edirdi. Təhsil ödənişsiz idi. Şirkət yalnız 1890-cı ildə yaşayış xərclərinin çox cüzi olduğu səkkiz əsaslı ev tikib yeni sakinlərinə təhvil vermişdi. Şirkətin idarə heyətinin üzvləri gimnaziyaların və ticarət məktəblərinin himayəçisi kimi çıxış edirdilər və bu, daim təhsil müəssisələri üçün pulsuz subsidiyalarla müşayiət olunurdu [1,2].Burada qeyd etmək lazımdır ki, işçilər üçün xüsusi kurslara ehtiyac olması barədə məsələ bir çox illər ərzində Rusiya Texniki Cəmiyyətinin Bakı filialının iclaslarında və yerli mətbuatda müzakirə edilirdi. Məsələnin həlli vəsait çatışmazlığı səbəbindən hər dəfə təxirə salınırdı. 1897-ci ildə Xəzər-Qara Dəniz Cəmiyyəti Ağ şəhərdə neftçi fəhlələr üçün xüsusi kurslar təşkil etdi. Bu kurslarda dərslərə Xəzər-Qara Dəniz Cəmiyyətinin neft emalı zavodunun rəhbəri Aleksandr Quxman və mühəndis David Landau rəhbərlik edirdilər. Oxşar kurslar müəssisələrini yeni avadanlıqlarla təchiz edən digər iri özəl firmalarda da fəaliyyət göstərirdi.

Əlavə etmək lazımdır ki, müxtəlif xeyriyyə məqsədləri üçün ianələr təkcə Bakıdakı Xəzər-Qara Dəniz Cəmiyyəti tərəfindən deyil, həm də Parisdə yaşayan və heç vaxt Bakıda olmayan Rotşild qardaşlarının özlərindən də verilirdi. Məsələn, Müqəddəs Nina Qadın Xeyriyyə Cəmiyyəti təhsil müəssisəsi üçün uyğun olan binanın yenidən qurulmasına həm Bakıdakı Xəzər-Qara Dəniz Cəmiyyətindən, həm də Parisdəki Rotşildlərdən hərəsindən 2000 rubl bağışlanmışdı.

Bakı nefti və Abşeronda neft işinin inkişafı ilə maraqlanan D.İ.Mendeleyev nəhəng sahibkarlar arasında Xəzər-Qara dəniz neft kəmərinin tkilməsinə dair kəskin fikir ayrılığı ndan xəbər tutanda məyusluğunu gizlətməmişdi: “Əgər mən indi Bakı sənayesinə dair məsələlərlə daha məşğul olmuramsa, bunun səbəbi Bakı-Batum neft kəmərindən imtina ilə, mənim şəxsi fikrimə görə, Bakı nefti məsələsinin rus sənayesinin inkişafı baxımından arzuolunmaz istiqamətə yönəldilməsinə bağlıdır”. Alim Rotşildlərin və Nobellərin Qafqazda neft işinin inkişafındakı mühüm rolunu etiraf edərək vurğulardı: “Bakıda yalnız iri zavod sahiblərinin texniki uğurlar qazanması mümkündür”.

1901-ci ildə yerli və xarici neft şirkətlərinin səyləri və maliyyə dəstəyi sayəsində Bakı Kommersiya Məktəbi açıldı. Həmin il bakılı sahibkarlar tələbələrə lazımi vəsait alınmasına təxminən 30 min rubl bağışlamışdılar. Onların arasında Xəzər-Qara Dəniz neft sənayesi və ticarət şirkəti də var idi. Hacı Zeynalabdin Tağıyev bu məktəbin 1918-ci ilə qədər ilk fəxri himayəçisi olmuşdur. Dərslər ixtisaslı müəllimlər tərəfindən, o cümlədən, 1901-1909-cu illərdə Əhməd bəy Ağayev və 1906-cı ildə Nəriman Nərimanov tərəfindən keçilmişdir [7,15-16].Bu təhsil ocağının xeyriyyəçiləri arasında tarixdə ilk azərbaycanlı dağ-mədən mühəndisi Fərrux bəy Vəzirov da olmuşdur. Onun Azərbaycanın ziyalı elitasının Qızıl Fonduna daxil olanlardan biri olduğunu söyləmək olar. O, Bakı kommersiya Məktəbinin açılışına 2000 rubl bağışlamışdı. 1901-1902-ci illərdə F.Vəzirov həmin məktəbin qəyyumlar şurasının üzvü olmuşdur.

Farux bəy Vəzirov 20-ci əsrin əvvəllərində təsis edilmiş Naftalan Neft Sənaye Şirkəti səhmdar cəmiyyətinin sədri oldu. Bu şirkət Bakı quberniyasında və imperiyanın digər bölgələrində neft yataqlarının istismarı, həmçinin, hasil olunan neftin emalı və neft məhsullarının ticarəti məqsədləri üçün yaradılmışdı. Burada qeyd etmək lazımdır ki, artıq 1900-1902-ci illərdə Parisdəki bir çox gözəllik salonlarında naftalan nefti əsasında hazırlanmış məlhəmdən istifadə olunurdu [1,3].Fərrux bəy Vəzirovun peşəkar biliklərini iri neft şirkətləri istifadə edirdilər. O, eyni zamanda, neft sahəsindəki işləri ilə yanaşı, ictimai işlərdə də fəal və uğurla iştirak edirdi. F.Vəzirov dəfələrlə Bakı Şəhər Dumasına seçilmişdi və onun iclaslardakı bütün çıxışları səriştəliliyi, əsaslılığı, uzaqgörənliyi və başqalarına yaxşılıq etmək istəyi ilə seçilirdi. O, 1900-cü ildə Parisdə keçirilən Ümumdünya Sərgisinə qatılmaq üçün Azərbaycanın

göndərdiyi məşhur zərgərlik kolleksiyası məmulatlarının hazırlanmasında da iştirak etmişdi və həmin kolleksiya çox böyük uğur qazanmışdı.

1861-ci ildə Şuşada zadəgan ailəsində anadan olmuş bu dağ-mədən mühəndisi Şuşa qəzasının Hindarx kəndindəki ailə malikanəsinin abadlaşdırılması üçün də çox işlər görürdü, kənddə feldşer məntəqəsi və aptek təşkil etmişdi, poçt stansiyası üçün bina tikdirmiş və Hindarxdan Ağdama yeni yol çəkdirmişdi və bununla onların arasındakı məsafəni iki dəfə azaltmış oldu. O, eyni zamanda, Amerika toxumu ilə Qarabağda ilk dəfə pambıq əkib yetişdirən və yüksək keyfiyyətli lif götürən nümunəvi bir təsərrüfat da yaratmışdı.Xəzər-Qara dəniz cəmiyyətinin fəaliyyəti haqqında söhbətə davam edərək onu da qeyd etmək lazımdır ki, Rotşild Bakıda gözəl binalar tikdirmişdi. O zaman cəmiyyətin əsas ofisi olan və hazırda Azərbaycanın Baş Prokurorluğunun yerləşdiyi bina bu gün də şəhər ansamblının bəzəyi olaraq qalır.

Beləliklə, Rotşild qardaşlarının Azərbaycanın neft biznesinin inkişafındakı müsbət rolu göz qabağındadır. Lakin bununla birlikdə qeyd etmək lazımdır ki, 19-cu əsrin sonu - 20-ci əsrin əvvəllərində Bakıda fəaliyyət göstərən həm Xəzər-Qara Dəniz Cəmiyyətinin, həm də digər neft şirkətlərinin mədənlərində və müəssisələrində son dərəcə çətin iş şəraiti olduğunu təsdiqləyən sənədlər də qalmaqdadır. 1911-ci ilin noyabrında əldə edilmiş razılığa əsasən Rotşildin Rusiyadakı bütün müəssisələri, "Xəzər-Qara dəniz cəmiyyəti" və "Mazut" da daxil olmaqla "Royal Datç Şell"in əlinə keçdi. Bunun əvəzində Rotşild qardaşları ingilis-holland trestinin 20 faiz səhmlərini alır. Bu zaman "Xəzər-Qara dəniz cəmiyyəti" nin kapitalı 11 milyon rubl təşkil edirdi. [5,40-41].

1912-ci ilin əvvəlində Rotşild Qardaşları Bank Evinin Rusiyadakı, həmçinin, Abşeron yarımadasında olan bütün müəssisələrinin Hollandiyanın "Royal Holland/Shell" konsernınə verilməsi barədə müqavilə imzalanmışdır.

Azərbaycanın neft sənayesinin inqilabdan əvvəlki tarixi Bakıda yol nəqliyyatının inkişafı ilə də sıx bağlıdır. Bəlli olduğu kimi, XIX əsrin sonlarında Azərbaycanda bir dənə də olsun avtomobil yox idi. 1908-ci ildə Bakıya gətirilən ilk avtomobil Fransız avtomobil markası "Bersele" idi. Artıq 1909-cu ildə fransız Henri Şarpantye Bakıda iki avtomobil üçün nəzərdə tutulan ilk qarajı tikdirdi. Şarpantye Fransadan gətirilən avtomobillərin istismarı və kiçik təmiri ilə məşğul olurdu. Qaraj maşınlarına (Minera, Yunik) özəl "Avropa" otelində qalan fransız mühəndisləri xidmət edirdilər.

1886-cı ilin əvvəllərində Azərbaycan neft sənayesinə qədəm qoymuş Paris bankiri Rotşild Bakı neft sənayeçilərinin üzləşdiyi çətinliklərdən istifadə edərək, öz fəaliyyət dairəsini genişləndirmək üçün qəti addımlar atmağa başladı. Yerli neft sənayeçiləri ilə müqavilələri yalnız bir ildən sonra bağlamağa başlayan Rotşild 1886-cı il ərzində zavod sahiblərindən onlar üçün sərfəli olan qiymətlə ağ neft alırdı. Qiymətlərin kəskin şəkildə aşağı düşməsi Volqaboyu

istiqamətində ticarətə ziyan vururdu. Batumda isə qiymətlər xeyli aşağı düşmüşdü. Belə bir vəziyyətdə Rotşild hər pudu münasib qiymətə Batuma göndərilməsi barədə yerli sənayeçilərlə razılığa gəldi. Bu isə digər ixracatçıları da qiyməti qaldırmağa məcbur etdi və nəticədə qiymətlərin müəyyən qədər yüksəlməsinə səbəb oldu. Bakıda istehsal olunmuş ağ neftin bir hissəsini öz əlində cəmləmiş Rotşild şirkəti artıq 80-ci illərin sonunda neft sənayesində aparıcı rol oynayan kampaniyalar sırasına daxil oldu. O, ağ neftin xarici bazarlara ixrac olunmasında hakim mövqe qazanmaq niyyətində idi. [3;63].

Alfons Rotşildin təsis etdiyi firmaların uğuru bir çox cəhətlərinə görə onun əlində olan dəqiq məlumatlarla izah edilə bilər. Bakıdan və Parisdən K.Rotşildə iqtisadi və texniki hesablaşmalarla müşayiət edilən dəqiq məlumatlar verilirdi. Neft işi haqqında dəqiq məlumatlar, Rusiya neft istehsalında baş verən bütün dəyişiklikləri izləmək və onlara reaksiya vermək bacarığı Rotşildlərə təkcə Abşeronda deyil, o cümlədən Qafqazda və türkmənistanda möhkəmlənməyə imkan verirdi.

1907-ci ildə Rotşildlər “Rus-Asiya bankı” vasitəsi ilə aşağıda adları çəkilən bir sıra böyük neft firmalarına əvvəlcə pul buraxır, sonra isə onlara nəzarət edir: bankın səhmlərinin 40 faizinə sahib olan “Abşeron neft cəmiyyəti”; “Şıxov”, “Məlikov”, “Rus neft cəmiyyəti” və s.

1910-1911-ci illərdə E.Rotşild “Neft” ortaqlığının və “Q.M.lianozov və ailəsi” yoldaşlığının təxminən 2 milyon rubl həcmində əsas payını əldə edir; bu ortaqlıqların səhmləri Parisdən birjasında yüksək qiymətləndirilirdi.

“Xəzər-Qara Dəniz Cəmiyyəti” və “Mazut” birliyinin Bakı kommunasının 2 iyun 1918-ci il tarixli dekreti ilə milliləşdirilməsi artıq Rotşildlərə aid bir məsələ deyildi, belə ki, 1912-ci ildə onlar Rus neft müəssisələrini ingilis-holland trestinə- “Royal Datç Şell”ə satıb əvəzində 27, 5 milyon rubl, o cümlədən Parislə “Şell” trestinin səhmlərinin 20 %-ni əldə etdilər. Artıq 1913-cü ildə ingilis sahibkarları Rusiya neft işində liderliyi ələ almışdılar.

Aydındır ki, böyük firmaların inhisar meylləri artıq keçən əsrin 80-ci illərinin əvvəlində məqsədi istehsalı inhisara almaq olan razılaşma və kartel birlikləri formasında baş qaldırmışdı. Məsələn, neft xammalını güclü anbarlama sisteminə, o cümlədən neftin Xəzər dənizi, Volqa və dəmir yolları ilə əsas daşınma vasitələrinə malik olan Nobel və Rotşildlər XIX əsrin sonunda Rusiyanın bütün neft ticarətinin 70 faizinə qədər payına nəzarət edirdilər [4,149-150].

## Ədəbiyyat


1. Ağayev R- Bakı nefti və Fransa; Bakı-2020, 525-ci qəzet, 17 iyun, 5 s.
2. İsrafiloğlu R.N;Neft qlobal münaqişələr mənbəyi; Bakı-2009, 462 s.
3. Mehtiyev Ə; Azərbaycan neft sənayesi XIX yüzilin son rübündə- Bakı 2000, 130 s.
4. Mirbabayev M; Azərbaycan neftinin qısa tarixi- Bakı 2010, 340 s.
5. Ulduzov.H.R; Azərbaycanın neft sənayesi və neft strategiyasının əsasları- Bakı 2013,
6. Vəzirov.S.Ə, İsayev .A.S; Bakı neft sənayesi təkamül tarixi, yeni faktlar, rəqəmlər- Bakı 1998, s.
7. Ali Kuzu; Küresel para baronu Rothschild ailesi-İstanbul 2016,352 s.

# BAKALAVRLARIN PEŞƏKAR SƏRİŞTƏLƏRİNİN FORMALAŞMASI PROBLEMLƏRİ

***Gülsabah Əmirova***
***ADA Universiteti***
*gamirova@gmail.com*

***Açar sözlər:**səriştəlilik, təhsil standartları, şəxsiyyətin inkişafı, əmək bazarı, universal vərdişlər*

*Son illər bakalavr tələbələrin təhslində sərişdəlilik səviyyəsinin formalaşdırılması problemləri diqqət mərkəzindədir. Bu istiqamətdə müasir peşəkar təhsil bir sıra səbəblərlə izah edilir və onların arasında cəmiyyətin öz peşə həyatında yeni biliklər tətbiq edə bilən mütəxəssislərə ehtiyacının olmasıdır. Bu mövzuda tədqiqatların araşdırılması göstərir ki, sözügedən məsələ təhsil strukturunun demək olar ki, bütün tərəflərinə toxunur. Müasir həyatımızda məhz soft skills iş təklif edəni daha çox cəlb edir ki, bu da səriştələrin nə qədər gərəkli olmasının göstəricisidir. Məqalədə bakalavrların tədris prosesində peşəkar səriştəlilik problemləri, əsas yanaşmalar nəzərdən keçirilir.*

# PROBLEMS OF FORMATION OF PROFESSIONAL COMPETENCIES OF BACHELORS

***Gulsabah Amirova***

***Key words:**soft skills, educational standards, lifelong learning, labor market, universal competencies.*

*The difficulties developing adult competences and skill of undergraduate students have been topic of intensive discussions during the recent years. Boost of revision of teaching methods and materials in higher education institutions, to impart more of hands-on, practical and adult competencies and universal non-technical skills in Europe to several reasons. The most important of those reasons is the undeniable need for graduates who can adapt, apply and transfer their expert knowledge in variety of circumstances and environments, tackle diverse tasks and interact with others in their professional activities.The literature review on this topic shows that this problem affects almost all aspects of educational activities. Currently, the demand for strong soft skills of graduates among employers drastically increases their importance. This article considers the foundational approaches,*

*to as well as existing gaps and weaknesses in impartment of employability skills of undergraduate students in the educational process.*

## ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ ПРОФЕССИОНАЛЬНЫХ КОМПЕТЕНЦИЙ БАКАЛАВРОВ

***Гюльсабах Амирова***

***Ключевые слова**: мягкие навыки, образовательные стандарты, личностный рост,рынок труда, универсальные компетенции.*

*Проблемы формирования уровня компетентности у бакалавров обсуждаются на протяжении последних лет. Профессиональное образование в Европе в этом направлении обусловлено целым рядом причин. Важнейшая из них – потребность общества в специалистах, способных применять новые знания в своей профессиональной деятельности. Изучение публикаций на эту тему свидетельствует о том, что данная проблема, затрагивает практически все стороны образовательной деятельности. В настоящее время именно soft skills становятся более востребованными у работодателей, что повышает их значимость.В данной статье рассматриваются основные подходы, проблемы профессиональной компетентности в образовательном процессе бакалавров.*

***Giriş*** : Son illər dinamik inkişafda olan ölkələr siyahısında milli təhsil sisteminin inkişafına xüsusi diqqət yetirən dövlətləri görmək mümkündür. Bu ölkələrdə məhz insan kapitalı tərəqqinin əsas amili hesab edilərək, milli gəlirin artırılmasında böyük paya malikdir. Yaranan mənzərə sübut edir ki, ölkə iqtisadi sürətə nail olmaq üçün elmi potensialının artırılması məsələsiniönə çəkməlidir. Hazırda, ölkəmizdə təhsil sisteminin transformasiyası prosesi gedir, qeyri-dövlət ali təhsil sistemi inkişaf edir, ödənişli tətsil və təhsil xidmətləri spektri genişlənir, yeni ixtisaslar yaranır, çoxpillələi ali təhsil sistemi tətbiq edilir. Bütün bu proseslərAvropada vahid ali təhsil sisteminin formalaşması prosesi ilə sıx surətdə əlaqəlidir və Avropa ölkələrinin təhsil sistemində ümumi qaydaların tətbiqi zərurəti ilə izah olunur. Müasir mərhələnin əsas sənədi 1999-cu ilə aid Boloniya deklarasiyasıdır ki, burda da tələbələrin mobilliyinin artırılması, işə düzəlmə imkanlarının genişləndirilməsi, bütün dünyada Avropa təhsilinin rəqabətədavamlılığının yüksəldilməsi kimi məqsədlər özünü göstərir.
Azərbaycanın vahid təhsil məkanına daxil olması ölkənin təhsil xidməti bazarının daxili tələblərindən irəli gəlir. Azərbaycan Boloniya deklarsiyasını imzalamaqla öz təhsil sistemində bir sıra mühüm dəyişikliklərin,

modernləşdirilmənin həyata keçirilməsi şərtləri ilə üzləşməli oldu. Ali təhsilin çoxpilləli (bakalavriat, magistratura, doktorantura) sisteminin təşkili iqtisadiyyat və sosial sahələrin tələblərinə operativ təsir imkanları ilə bərabər, şəxsiyyətin maraqlarına daha məntiqi cavab verən çevik təhsil trayektoriaları qurmaq imkanları yaradır [14]. Çoxpilləli təhsil sisteminə kütləvi keçid, eyni zamanda dövlət təhsil standartlarının məzmununda da radikal dəyişiklikləri nəzədə tutur.Bu baxımdan təhsil standartlarının yeni konsepsiyasının səriştəlilik əsasında qurulması mühüm əhəmiyyətə malikdir.

***Əsas mətn :***Bu gün, təhsil standartlarının real məzmunu son dərəcə dərin biliklərin verilməsi, zamanla nizamlananbütün bilik növlərindən istifadə etməklə mütəxəssislərin hazırlanmasıdır.Müxtəlif ixtisaslar üzrə təhsil alan bakalavrların peşəkar səriştələrinin formalaşması problemi pedaqoji elmlərin son dərəcə aktual, eyni zamanda az tədqiq olunmuş mövzularındandır. Bu, ilk növbədə məzunların iş fəaliyyətində çətinliklər və ziddiyyətlərin özünü göstərməsi, cəmiyyətdə sosial-iqtisadi dəyişikliklərin dinamika və istiqamətləri ilə izah olunmalıdır.Müasir dövrdə texnika və texnologiyanın durmadan inkişafı mütəxəssislərin hazırlanmasına yüksək tələblər irəli sürür. Müasir mütəxəssisin peşəkarlıq səviyyəsinin əsas göstəricisi məhz onun səriştəliliyidir. Son zamanlar bu termin tez-tez leksikionumuzda istifadə olunmağa başlayıb. Pedagoji ədəbiyyatda isə sözügedən anlayış getdikcə xüsusi məna kəsb edir. Ədalət naminə qeyd etmək lazımdır ki, “səriştəlilik” termini bizim peşəkar pedagoji ədəbiyytda tam yerini tutmayıb və çox zaman mütəxəssisin peşəkarlığının, ixtisas səviyyəsinin yetərli olması mənasında ifadə olunur. Buna baxmayaraq, termin bir sıra əhəmiyyətli üstünlüklərə malikdir. Birincisi, tək sözlə “bilik, bacarıq və vərdişlər” kimi üç keyfiyyəti anlatmaq mümkündür, həm də bu termin keyfiyyətlərin komponentləri arasında əlaqələndirici halqa olaraq çıxış edir. Geniş anlamda səriştəlilik, ixtisası dərindən bilmək və bacarığa malik olmaq kimi ifadə oluna bilər. İkincisi, ən əsası səriştəlilik mütəxəssisin– peşəkar məktəbin məzununun real hazırlıq səviyyəsini anlatmaq üçün son dərəcə məqsədəuyğun termindir. Üçüncüsü, səriştəli mütəxəssisi bir çox qərarlar içərisindən ən optimalını seçmək, yanlnış qərarları əsaslandıraraq rədd etmək, tənqidi və yaradıcı təfəkkürə malik olmaq,insanlarla effekiv ünsiyyət qurmaq, şəraitə uyğunlaşmaq bacarığı fərqləndirir. Dördüncüsü, səriştəlilik biliklərin daim yenilənməsini, müəyyən zaman çərçivəsində və müəyyən şəraitdə uğurlu peşəkar qərarların qəbul edilməsi üçün yeni informasiyalara hakim olmağı nəzərdə tutur. Beşincisi, səriştəli mütəxəssis nəinki problemin mahiyyətini dərk etməli, eyni zamanda problemi praktiki olaraq həll etməyi bacarmalıdır, başqa sözlə həll etmək metoduna (bilik üstəgəl bacarıq) malik olmalıdır.

Gələcək mütəxəssislərin peşəkar hazırlığının müasir vəziyyətinin tədqiqi, psixoloji-pedaqoji ədəbiyyatın təhlili, əmək bazarından alınan rəylər,həmçinin

ali məktəblərdə müəllimlərin fəaliyyətinin gözdən keçirilməsi göstərir ki, müəssisələrin savadlı, təkmilləşməsi üçün əlavə vəsait və zaman tələb olunmayan, müstəqil qərarlar qəbul etmək iqtidarında olan əməkdaşlara tələbləri ilə nəzəri və təcrübi bilikləri kifayət qədər olmayan, peşəkar səriştəlik qabiliyyəti yetəri qədər olmayan ali məktəb məzunları arasında ciddi ziddiyyətlər yetişib. Bunu onunla izah etmək olar ki, bu gün təhsil sahəsində həyata keçirilən islahatlar bakalavrların peşəkar hazırlığının mühüm aspektlərinə toxunmur. Nəticədə gənc mütəxəssislərin istehsalat şəraitinə uyğunlaşması çətinləşir.

Peşəkar səriştə vərdişlərinin aşılanması təhsilin mühüm tərkib hissələrindən hesab olunur. Həmin səbəbdən də səriştələrin formalaşdırılması, bu istiqamətdə mövcud problemlərin aşkarlanaraq aradan qaldırılması hər zaman diqqət mərkəzində olmalı, aktuallığını qorumalıdır.Təcrübə və nəzəriyyənin sintezinə əsaslanan səriştəlilik əzbərlənmiş bilik olmayaraq, şəxsiyyətin dərk etməsi, düşünməsi, ünsiyyət qurması, fəaliyyətdə olması, müxtəlif məsələləri həll edərək, hadisələrin və qərarların gedişinə və nətcəsinə qiymət verməsi, təhlillər apararaq, daim məqsədyönlü düzəlişlər etməsi prosesində formalaşır. Səriştəlilik inteqrasiya olunmuş elə bir mürəkkəb sistemdir ki, təkcə biliklərə hakim olmaq imkanı vermir, işi bilərək problemləri həll etmək sahəsində potensial hazırlıq tələb edir.

Peşəkar səriştəlilik haqqında tədqiqatçılar maraqlı mülahizələr irəsi sürərək insanın sabit bacarığı, həll edilən məsələ və problemlərin mahiyyətini dərinliklərə qədər dərk etməsi, müəyyən sahə üzrə mükəmməl bilik təcrübəsinə malik olması, hərəkət üsullarını seçə bilmək bacarığı, əldə etdiyi nəticələrə görə məsuliyyət daşıması, səhvlərinə düzgün qiymət verə bilməsi kimi keyfiyyətləri önə çıxarırlar. Tədqiqatçı M.A.Çoşanov göstərir ki, səriştəlilik bir sıra əlamətlərin məcmusudur ki, bunlar arasında biliklərin mobilliyi, operativ biliklərə, çevik metodlara hakim olmaq, tənqidi təfəkkür, bir çox mümkün həll yolları arasında daha optimal variantları seçmək bacarığı, yalnış qərarları əsaslandıraraq rədd etmək bacarığı mühüm yer tutur[15]. Anoloji yanaşma V.Y.Kriçevski tərəfindən qəbul edilərək buna daha da geniş anlamlar:istənilən fəaliyyətdə yaradıcı yanaşma, biliklərin təcrübə üçün gərəkliyini anlama, əmək məsələlərinin həllində alqoritmlərə hakim olma kimi keyfiyyətlər də əlavə olunur [9. s.21-24]. Mövzu ilə əlaqədar C.Ravenin daha geniş tədqiqat işlərini xüsusilə qeyd etmək lazımdır. Belə ki, səriştəliliyin 37 növünü müəyyən edən müəllif məsuliyyət, özünə inam,qabiliyyət, hər vəziyyətdə qərarları qəbul etməyə hazır olmaq kimi şəxsi keyfiyyətlərdən bəhs edir [4].A.Markovaya görə peşəkar fəaliyyətin nəticələri bilavasitə mütəxəssisin səriştəsindən asılıdır [10].

Azərbaycanda mövcud pedoqoji tədqiqatlarda bu problemin müəyyən aspektləri nəzərdən keçirilsə də [1; 2] terminin tam anlamında izahından bəhs etmək doğru olmazdı. Belə ki, Müseyib İlyasov monoqrafiyasında pedaqoji təcrübənin

yüksək səviyyədə təşkili və aparılmasından, bir sıra səriştəlilik bacarıqlarının yaranması üçün geniş imkanlardan bəhs edərkən bunu yalnız gələcək müəllimlərin timsalında nəzərdən keçirir. Müəllif, səriştəlilik bacarıqlarının aşılanması üçün təkcə sınaq dərsləri ilə məhdudlaşmamağı və təhsili əsl təcrübə məktəbinə çevirməyi təklif edir [1s.194]

Səriştəlilik bacarığının aşılanması tədrisin məzmunu və keyfiyyətinin yenilənməsində mühüm konseptual müddəadır. "Səriştəlilik təhsili" anlayışı XX əsrin 70-ci illərində ABŞ-da fəaliyyət göstərən görkəmli müəllimlərin iş təcrübəsinin öyrənilməsi prosesində ortaya çıxmışdır. ABŞ tədqiqatçıları təhsildə səriştəliliyin üç əsas meyarını müəyyən edirlər ki, bunlar da şəxsiyyətin bilik, bacarıq və dəyərlərinin formalaşmasıdır. Səriştəlilik yanaşmasının müvəffəqiyyətlə aşılanmasında göstərici bakalavr məzunların işə düzəlməsi, istehsalata, həmçinin sosial həyata adaptasiyasıdır. Təhsildə bu anlayışın xeyli zamandan bəri yer tutmasına baxmayaraq, bu gün biz müəyyən paradoksla üz-üzəyik. Belə ki, Avropa ölkələrinin timsalında 2021-ci ilin göstəricilərinə görə işsizlik problemini araşdırsaq məzunların böyük əksəriyyətinin işsiz olması faktı ortaya çıxacaq. Gənclər arasında işsizlik faizinin yüksək olması nəinki Poşa (12,1%), Macarıstan (11,8%), Rumıniya (19,1%) və Rusiyada (20,1%), həmçinin İngiltərə (14,4%), Fransa (22,1%), İtaliya (29,6%), Belçika (16,6%), Portuqaliya (23,5%), kimi inkişaf etmiş ölkələrdə də yüksəkdir. Məzunların xeyli hissəsinin işsizlik səbəbləri olaraq ixtisas xüsusiyyətlərinin yetərli olmaması, biliklərinin müasir tələblərə cavab verməməsi, əmək bazarı tələblərinə uyğun gəlməməsi göstərilir [12]. Təcrübə və müşahidələr təsdiq edir ki, iş verənlər mütəxəssislərin peşıkar hazırlıq səviyyəsini araşdırarkən bu keyfiyyətləri əsas tuturlar:

– mükəmməl nəzəri hazırlıq və təcrübədə bunlardan adekvat istifadə;
– yüksək peşəkarlıq;
–müstəqil qərar qəbul etmək bacarığı;
–ünsiyyət qurmaq bacarığı;
–təşkilatçılıq;
–əmək intizamı;
–perspektivləri müəyyən etmək bacarığı;
–komandada işləyə bilmək;
–daim özünüinkişafa meyillik;
–ixtisasartırma;

Peşəkarların hazırlanması istehsalat fəaliyyəti ilə sıx şəkildə əlaqəlidir. Mütəxəssis şəxsiyyət və peşəkar olaraq yalnız fəaliyyət prosesində (tədris, tədris-təcrübə, istehsalat) özünü tapa və formalaşa bilər. Bakalavrlara təqdim olunan bütün material təcrübədə tətbiqlə müşaiyət olunmalıdır.Lakin, qeyd edək ki, bu cür yanaşma mübahisəlidir və yalnlz təcrübi biliklərə əsaslanma tədrisin keyfiyyətini aşağı salır, eyni zamanda evrestik təhlil metoduna imkan yaratmır

[7,s.149]. Bakalavrların peşəkar səriştələri həm işəgötürənin, həm də təhsil standartlarının tələblərinə uyğun şəkildə formalaşır. Tələbələrin peşəkar səriştələrinin artırılmasında ənənəvi olaraq əsas metodoloji yanaşmalar: sistemli, akmeoloji, səxsi fəaliyyət istifadə olunur [6, s.37].

Hazırda bakalavr təhsil sistemində tədrisin strateqiyası dəyişikliyi prosesi özünü göstərir : fundamental biliklərin və təcrübi-yaradıcı tətbiqin əhəmiyyəti artır, tədrisin yeni metod və formaları mənimsənilir, gələcək mütəxəssislərin yaradıcı keyfiyyətlərinin inkişafı stimullaşdırılır. Qənaətimizə görə, bakalavr təhsili tələbənin yaradıcı təfəkkürünü, yaradıcı qabiliyyətini formalaşdırmalıdır. Bunlar ilk növbədə aşağıdakı səriştələrin aşılanmasında özünü əks etdirir:

1.problemi müstəqil formalaşdırmaq;
2.fərziyyə irəli sürmək;
3. məlumatları, metodları toplayaraq onları təhlil etmək;
4.nəticələri formalaşdırmaq;
5.əldə edilən nəticələrintəcrübi tətbiqi imkanlarını dərk etmək

Qeyd olunanlardan fərqli,"biliklərin ötürülməsi", "biliklərin yadda saxlanılması" ənənəvi prosesi ona gətirib çıxarmışdır ki, məzunlar əldə etdikləri bilikləri istehsalatda tətbiq edə bilmirlər. Bunun səbəbi odur ki, ali məktəb müəllimləri bakalavrlar üçün tərtib edilən proqramın səriştəlilik hissəsi ilə əlaqədar müəyyən çətinliklərlə üzləşirlər. Həmçinin bir çox müəllimlər tələbəyə gərəkli səriştəlilik prosesinin seçimi və formalaşdırılması məsələlərində təkmil deyillər. Bunun səbəbi bir çox ali məktəb (xüsusilə texniki ali məktəb) müəllimlərinin pedaqoji təhsilinin olmaması ilə izah edilə bilər, halbuki, müəllimlər səriştələrin formalaşdırılması prosesi ilə bağlı xüsusi bilik və bacarıqlara malık olmalıdır.Rusiya Federasiyası universitetlərinin birində 2013-cü ilin yanvar-fevral ayları ərzində keçirilən sorğunun nəticələri də bunu təsdiq edir. Universitetin sorğuda iştirak edən 64 müəllimindən 64 %-i "Tələbələrin peşəkar səriştələrinin formalaşdırılmasında çətinlikləriniz nədən ibarətdir?" sualına işçi proqramın səriştələrlə bağlı hissəsini hazırlamaqda çətinlik çəkdiklərini bildiriblər. Səriştələrin təcrübədə tətbiqi imkanlarının dərk eidlməsi, həmçinin sərştəliliyin formalaşmasının yoxlanılması ilə əlaqəli dəqiq mexanizmlərin olmaması barədə fikri 25% müəllim söyləmiş, yalnız 11 % müəllim tələbələrdə səriştəliyin formalaşdırılması məsələsi ilə bağlı çətinliklərlə üzləşmədiklərini bildirmişlər[11]. Təhlillər sübut etdir ki, sözügedən problemlə əlaqəli çətinliklər ali məktəbdə iş stajindan asılı olmayaraq müəllimlərin böyük hissəsində özünü göstərmişdir.

Qeyd etmək lazımdır ki, peşəkar hard skills və soft skills səriştələri arasında o qədər də aşkar görünməyən fərqlər mövcuddur. Belə ki, Harvarad universite-tində keçirilən tədqiqatların nəticəsi göstərir ki, uğurlu hard skills peşəkar əməkdaşın gətirdiyi gəlir cəmi 15% təşkil etdiyi halda soft skills əməkdaşın gətirdiyi gəlir 85 %-ə qədərdir [3, s.19]. Stenford tədqiqat institutunun Karneqi

Melon fondu ilə birlikdə "Fortune 500" siyahısı üzrə baş direktorlar arasında apardığı digər araşdırmanın nəticələri isə göstərdi ki, onların uzunmüddətli və stabil işinin 75 %-ni soft skills, 25% - ni isə hard skills müəyyən edir [3, s.19]. 16 avropa ölkəsində bu məsələ ilə əlaqədar aparılan müşahidələr sübut etdi ki, 93 % iş təklif edən üçün soft skills əməkdaşın peşəkar vərdişləri səviyyəsində əhəmiyyətlidir [5, s. 63].

Gələcək mütəxəssislərə peşəkar səriştəlilik tələbləri müxtəlif ixtisas və hazırlıq istiqamətlərindən asılı olaraq əhəmiyyətli dərəcədə fərqlənir. Bu xüsusiyyətlərlə qarşılaşan mütəxəssis iş şəraitinə mümkün qədər tez adaptasiya olmağı bacarmalıdır. Belə güman etmək olar ki, bakalavrların-gələcək mütəxəssislərin peşəkar səriştəliliklərinin yüksəlməsi üçün müvafiq tədris proqramları hazırlamaq və bunlardan tədris zamanı istifadə etmək yetərlidir. Lakin, əslində belə deyil.Gələcək mütəxəssislərdəmümkün situsiyaların geniş spektrində standart peşəkar problemlərin çözülməsi bacarığını üzə çıxarmaq daha mühümdür [8]. Bu zaman başqa problemlər özünü göstərir, belə ki, mümkün situasiyaların sayı həddən artıqdır və onların baş verəcəyini öncədən müəyyən etmək demək olar ki, mümkün deyil. Situasiyaların fərqliliyi və təsnifatı da eyni dərəəcədə mürəkkəb məqamdır. Bütün baş verə biləcək situasiyaları öncədən hesablamaq təbii ki, qeyri mümkündür, lakin kifayət qədər baza biliklərə və uyğun məsələlərin həllində təcrübəyə malik olaraq müvafiq metodika üzrə hərəkət etmək olar.Bu səbəbdən də gələcək mütəxəssis tədris prosesində bənzər məsələləri mümkün qədər geniş spektrdəhəll etmə vərdişi qazanmalıdır. Bakalavrların fərqli keyfiyyətlərini əks etdirən şəxsi xüsusiyyətləri və soft skills inkişaf səviyyələri peşəkar fəaliyyətləri zamanı mühüm rol oynamaqla yanaşı ümumilikdə məzunun rəqabətədavamlılığını artırmış olur.

***Nəticə:***Son zamanlar şəxsiyyətin, peşəkarın formalaşması və inkişafı prosesində mühit yanaşması xüsusi aktuallıq kəsb etməyə başlayıb. Peşəkarın formalaşması və inkişafı prosesində mühitin güclü təsiri antik alimlər tərəfindən də qeyd olunurdu, bu gün də aksioma olaraq təsdiq edilir ki, gələcək mütəxəssisin hazırlamasında nəinki onun təhsil aldığı müəssisədəki mühit, eyni zamanda ailəsinin və ünsiyyətdə olduğu adamların da daxil edildiyi ümumi mühit şərtdir. Yalnız bu halda peşəkar səriştələrin formalaşması mühitindən bəhs etmək olar. Bu gün insan insanın təbiətə münasibətinə, varlığın mahiyyətinə düzgün qiymət verilməsi insan sivilizasiyasının gələcək mövcudluğu üçün mühüm şərtdir, pedaqoqların və yeni nəslin tərbiyəsinə aidiyyəti olan hər kəsin vəzifəsi isə yeni dünyagörüşünü formalaşdırmaqdır.

Tədris müəssisələri şəxsiyyətin sosiallaşması məsələsində hər zaman güclü faktor olmuşlar, bu səbəbdən də sözügedən mühit yeni təfəkkürə, dünyaya fərqli baxışa malik şəxsiyyətin formalaşmasına yardım etməlidir. Yaradıcı yanaşmanın nəzəri əsaslarının həyata keçirilməsi məqsədilə bakalavrlar

ixtisasyönlü, auditoriyadan kənar tədbirlərə, elmi-tədqiqat işlərinə cəlb olunmalı, onlara ixtisasla əlaqəli situasiyalarda qərarların qəbulu vərdişi aşılanmalıdır. Düşünürük ki, peşənin mahiyyətini yalnız ixtisas distiplinləri açmalı deyil, fundamental təbiət elmlərinin öyrənilməsi gələcək mütəxəssisin peşəkar fəaliyyəti ilə bağlı təlabat və motivlərinin daim zənginləşməsinə və əhatəsinin genişlənməsinə xidmət etməlidir.

**Ədəbiyyat**

1. Ilyasov M. Müəllim peşəkarlığı və pedagoji səriştəliliyin müasir problemləri. Bakı,Elm və təhsil, 2018, 208 s.
2. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı, Mütərcim, 2010, 516 s.
3. Klaus P. The hard truth about soft skills : Workplace Lessons Smart People Wish They'd Learned Sooner / P. Klaus. – New York , Harper Collins Publishers, 2007, 205 s.
3. Rakesh Naga Chinta. My Overview of Harvard's, Stanford's Study For Top Skills Needed To Be In Demand In the Job Market (Future of AI Automation). Mode of access: https://medium.com/@rakeshnchinta/my-overviewof-harvards-stanford-s-study-for-top-skills-needed-to-bein-demand-in-the-job-market-53005203a9e6– müraciət tarixi 19.11.22
4. Raven J. Quality of life, the development of competence and higher education. Higher Education, 1984, Springer, p. 393-404
5.БерковичМ. И., КофановаТ. А., ТихоноваС. С. Softskills (мягкие компетенции)бакалавра: оценка состояния и направления формирования. Вестник ВГУ. серия: экономика и управление. 2018, № 4, с. 63-68
6. Воробьев А.Е., Мурзаева А.К. Количественная оценка профессиональных компетенций, получаемых студентами в вузах // Российская наукаи образование сегодня: проблемы и перспективы.2017. № 6 (19),с. 35-39
7.Гончар Л.И., Скепко О.А. Формирование профессиональных компетенций студента при изучении высшей математики // Современное образование: содержание, технологии, качество. 2019. Т. 1,с. 148-150
8.Использование современных педагогических технологий для оценки уровня компетентности будущих специалистов. https://research-journal.org/archive/1-43-2016-january/ispolzovanie-sovremennyx-pedagogicheskix-texnologij-dlya-ocenki-urovnya-kompetentnosti-budushhix-specialistov- müraciət tarixi 19.11.22
9. Кричевский, В.Ю. О некоторых направлениях развития теории управления школой. Управление в образовании: материалы Международ. семинара. – СПб., 1996

10. Маркова, А. К. Психология профессионализма. Москва, Междунар. гуманит. фонд «Знание», 1996, 308 s.
11.Малышева О.С., Гильванов Р.Р. Проблемы формирования профессиональных компетенций студентов технического вуза. Современные проблемы науки и образования.https://science-education.ru/ru/article/view?id=11288– müraciət tarixi 22.11.22
12.Озерова М.Г. Формирование профессиональных компетенций студента через практико-ориентированное обучение. Наука и образование: опыт, проблемы, перспективы развития материалы международной научно-практической конференции. Красноярский государственный аграрный университет. 2017,с. 58-60
13. Педагогика и современное образование: традиции, опыт и инновации. Сборник статьей IX Международной научной-технической конференции, декабрь 2019, Пенза, с. 2-8
14. Реализация принципов Болонского процесса в европейском образовательном пространстве: сравнительно-правовой аспект. https://articlekz.com/article/10283–müraciət tarixi– müraciət tarixi 24.11.22
15.Чошанов М. А. Гибкая технология проблемно-модульного обучения: Методическое пособие. Москва, Народное образование, 1996, 160 с.

# XVIII YÜZİLLİYİN İKİNCİ YARISI – XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ QUBA BÖLGƏSİNDƏ SƏNƏTKARLIĞIN SAXSI MƏMULATI İSTEHSALI HAQQINDA

**Həsənova Günay Həsən qızı**
**Azərbaycan Universiteti**
**hesenovasiman6@gmail.com**

***Açar sözlər:*** *Azərbaycan, Quba bölgəsi, dulusçuluq, şirli qablar, su kəmərləri, xammal*

*XVIII yüzilliyin ikinci yarısından XIX yüzilliyin 50-ci illərindək olan dövrdə Azərbaycanda, o cümədən Quba bölgəsində sənətkarlığın saxsı məmulatı istehsalı səhəsi daha geniş yayılmış sənətkarlıq sahələrindən biri olaraq qalırdı. Bu sahədə çalışan sənətkarlarməqsədlərindən asılı olaraq ənənəvi ərzaq məhsullarının emalında, hazırlanması və saxlanmasında işlədilən saxsı qablar və su kəməri istehsal edirdilər. XIX yüzilliyin 40-cı illərindən etibarən boyaqotu satışından külli miqdarda gəlir əldə edən yerli ayrı-ayrı imkanlı şəxslərin Quba şəhərində və kəndlərdə bir-birinin ardınca dəbdəbəli evlərin tikməyə başlaması ilə əlaqəsar olaraq bişmiş kərpicə olan ehtiyacın artması dulusçuluqla məşğul bir çox sənətkarların kərpic istehsalı ilə məşğul olmasına şərait yaratdı. Digər tərəfdən əhalinin məişətinə metal qabların daxil olması dulusçuluqla məşğul olan sənətkarların sıralarında seyrəklik yaratmış oldu.*

## О МАСТЕРСТВЕРЕМЕСЛЕННИКОВ-ГОНЧАРОВ В ГУБИНСКОМ РЕГИОНЕ ВО ВТОРОЙ ПОЛОВИНЕ XVIII - НАЧАЛЕ XX ВЕКОВ

**Гасанова Г.Г.**

***Ключевые слова:*** *Азербайджан, Губинский регион, гончарничество,глазурованные сосуды, водопроводные трубы,сырье*

*В период со второй половины XVIII столетия до 50-х годов XIX столетия в Азербайджане, в том числе и в Губинском регионе гончарное производство оставалось одним из самых распространенных отраслей ремесла. Мастера-ремесленники, работающие в этой сфере, в зависимости от своего назначения изготовляли глиняную посуду, использую при обработке, приготовлении и хранении традиционных пищевых продуктов и водопроводные трубы.С 40-х годов XIX столетия увеличение потребности в жженом кирпиче связано с тем, что местные зажиточные лица, получавшие большой доход от продажи марены,*

*стали один за другим строить роскошные дома в г. Губа и в селах, что привело к тому, что производством кирпича занимались многие ремесленники, занимавшиеся когда-то гончарным делом. С другой стороны, введение в быт населения металлических сосудов создало редкость в рядах гончарных мастеров.*

## ABOUT THE SKILL OF ARTISANS-POTTERS IN THE GUBA REGION IN THE SECOND HALF OF THE XVIII - BEGINNING OF THE XX CENTURIES

**Hasanova G.H.**

***Keywords:*** *Azerbaijan, Guba region, pottery, glazed vessels, water pipes, raw materials*

*In the period from the second half of the 18th century to the 50s of the 19th century in Azerbaijan, including the Guba region, pottery remained one of the most widespread branches of craft. Craftsmen working in this area, depending on their purpose, made earthenware, using traditional food products and water pipes in processing, cooking and storing. Since the 40s of the 19th century, an increase in the need for baked bricks is due to the fact that local wealthy people who received a large income from the sale of madder began to build luxurious houses one after another in the city of Guba and in the villages, which led to the fact that the production many artisans who were once engaged in pottery were engaged in brick. On the other hand, the introduction of metal vessels into the everyday life of the population created a rarity in the ranks of pottery masters.*

Azərbaycanda gildən hazırlanan saxsı məmulatı istehsalı sənətkarlığın qədim sahələrindən biri olaraq tədqiqi bu günümüzədək öz əhəmiyyətini itirməmişdir.Arxeoloju materiallar və tarixi mənbələr bu sənətkarlıq sahəsinin neolit dövründə meydana gəldiyini təsdiq edir. Əvvəllər qadınların məşğul olduğu dulusçuluq sənətkarlığı erkən orta əsrlərdə, xüsusilə sonrakı dövrlərdə inkişaf edərək daha da zənginləşmiş və dövrünün mükəmməl texnikası, mahir ustaları, məhsullarını ixrac edən saxsı məmulatı istehsalı mərkəzləri meydana gəlmişdi.Saxsı məmulatı istehsalının meydana gəlməsi və bu sənət sahəsinin uzun müddət davam etdirilməsində başlıca rol oynayan amillər Azərbaycan ərazisinin zəngin gil yataqları və ucuz odun ehtiyatına malik olmasından, əhalinin ev məişətində saxsı məmulatlarına zəruri tələbatdan, əmtəə istehsalını zəifldən natural təsərrüfat şəraiti və onun XX yüzilliyin əvvəllərinə qədər davam edən qalıqlarından ibarət olmuşdur[17, s. 166].

XVIII yüzilliyin əvvəllərindəbaşlanan və xanlıqlar dövründə də davam edən ümumi iqtisadi tənəzzül saxsı məmulatı istehsalına da mənfi təsir

göstərməyə başlamışdı. Lakin xanlıqlar dövründə saxsı məmulatı istehsalında aparıcı sahə olaraq qalırdı. Bununla belə tikintidə istifadəolunan saxsı məmulatın istehsalı dayanmamışdı. Şirli qabların, su kəmərləri üçün saxsı boruların, tikinti işlərində geniş istifadə olunan kaşı və bəzək kərpiclərinin istehsalına başlanması bu dövrlə bağlı olmuşdur. Quba bölgəsində də saxsı məmulatı istehsalı sənəti geniş yayılmış sənətkarlıq sahələrindən biri olmuşdur.“Bizə məlum olan əsasən XIX yüzilliyinə aid edilən ən yaxşı İspik saxsı sənətkarlıq nümunələri və digər əlavə materiallar və məlumatlar XVIII yüzilliyin sonu – XIX yüzilliyin əvvəllərində İspik saxsı istehsalının kifayət qədər inkişaf etdiyi barədə fikirləşməyə imkan verir, bu da keçmişdə satışı həyata keçirilən iri Quba və Dərbənd satış məntəqələrində saxsı məmulanının ticarət və iqtisadi əhəmiyyətinin dəfələrlə artması ilə bağlı olmuşdur.” [1, s. 87].

Şimali Azərbaycanın Rusiya tərəfindən ilhaq edilməsi ilə burada yaranan nisbi sakitlik, siyasi, hərbi çəkişmələrə son qoyulması, bir sıra sənətkarlıq sahələrində olduğu kimi saxsı məmulatı istehsalında da dirçəliş üçün şərait yaratdı.XIX yüzilliyin əvvəllərində məişətdə istifadə edilən müxtəlif təyinatlı məhsulların istehsalı üzrə ixtisaslaşmanın dərinləşməsi bu sahədə çalışan ustad sənətkarların işinin keyfiyyətini artırırdı. Zəngin çeşidə malik olan saxsı məmulatı, hər şeydən öncə, məişət ehtiyaclarını təmin etməkdən irəli gəlmişdir. Ona görə də, saxsı məmulatı istehsalı ilə məşğul olan sənətkarlar əhalinin zəruri məişət və təsərrüfat ehtiyaclarını ödəyən müxtəlif növ saxsı məmulatın hazırlanmasına üstünlük verirdilər. Yeri gələndə öz fantaziyalarından çıxış edərək yeni saxsı qablar istehsal edirdilər. Mütəxəssislər istifadə məqsədlərindən asılı olaraq məişətdə işlədilən dulusçuluq məhsullarını öz təyinstına görə bir neçə qrupa bölürlər. bunların arasında su qabları, yemək qabları, süd məhsulları üçün qablar, evlərin qızdırılması və işıqlandırılması üçün nəzərdə tutulan qablar əsas yer tuturdu. Yalnız məişətdə işlədilən su qablarının bir neçə növü – su daşımaq üçün (səhəng, cürdək, bardaq, şəhrəng, kuzə), süfrədə işlətmək üçün (küp, sürahi, qurqur, dolça, parç, tayqulp), yuyunmaq və dəstəmaz almaq üçün (aftafa, lüləyən və s.) çox müxtəlif saxsı qablar istehsal edilirdi. Bütövlükdə, dulus ustaları 50-dən çox müxtəlif növlü qab-qacaq istehsal etməyi bacarırdılar [17, s. 168].

Saxsı məmulatı istehsalı Quba bölgəsininbir sıra kəndlərində həyata keçirilirdi. 1831-ci ilin kameral təsvirinə görə bu bölgənin Tip mahalının İspik və Yenikənd kəndlərisaxsı məmulatı istehsalı sənətkarlığı sahəsində ixtisaslaşmışdı [15].Onların hazırladığı saxçı qabların əksər hissəsi satlıq idi. Bu sənət sahəsi həmin kəndlərdə müəyyən gəlir mənbəyinəçevrildiyi üçün sonralar digər kəndlərdə də dulusçuluq məmulatının istehsalı artırılmışdı. Belə kəndlərdən biri də Möhüc kəndi olmuşdur. Belə ki, XIX yüzilliyin 50-ci illərin məlumatında saxsı məmulatının hazırlanması ilə Yenikənd kəndi ilə yanaşı Möhüç kəndində də məşğul olduğu göstərilir[3, s. 335].XIX yüzilliyin50-ci

illərin sonlarında Quba bölgəsində olmuş rus məmuru yazırdı: "burada hər bir evdə saxsı məmulatlar, küpə, bardaq, çıraq görmək olur. Çıraqların üstü neftlə örtülmüşdür."[8]. Qeyd edək ki, evlərin işıqlandırılmasında istifadə olunan saxsı çıraqların hazırlanmasına XIX yüzilliyin ikinci yarısından etibarən başlandı [23, s. 77].

Keçmişdə olduğu kimi tədqiq olunan dövrdə də saxsı məmulatı istehsalı sənətkar ailəsinin məişət ehtiyaclarını ödəməklə yanaşı, həm də ailənin əsas əlavə gəlir mənbəyi olmuşdur. Əvvəllər olduğu kimi saxsı məmulatı istehsalında ailə forması hökmran olaraq qalırdı. Həmin ənənə saxsı məmulatı istehsalının geniş yayılmasına müəyyən baxımdan əngəl olsa da istehsal sirləri, texnikası və vərdişlərinin qorunub saxlanması və nəsildən-nəslə ötürülməsini təmin etmişdir [6, s. 38].

Quba bölgəsinin demək olar ki, bir çox kəndlərində və habelə şəhərin özündə gil məmulatı istehsalı ilə çoxlu sənətkarların məşğul olması haqqında mənbələrdə müəyyən təsvir xarakterli məlumat tapmaq mümkün olur. Bir sıra mənbələrin məlumatlarında İspik, Yenikənd və Möhüc kəndlərində bu sənət sahəsinin, bölgənin digər kəndləri ilə müqayisədə daha çox inkişaf etdiyinin şahidi oluruq. Lakin təəsüf doğuran hal budur ki, ümumilikdə saxsı məmulatı istehsalına özünü həsr edən sənətkarların sayı və bu peşənin iqtisadi səmərəliliyi haqqında heç bir məlumata rast gəlinmir. Belə məlumatlarra yalnız XIX yüzilliyin ikinci yarısında təsadüf olunur. Əsərini zəngin arxiv sənədləri əsasında yazan Ə.S. SumbatzadəXIX yüzilliyin 60-ci illərindəQuba bölgəsində saxsı məmulatı istehsal edən sənətkarlar tərəfindən475 dəzgahda 24 135 rubl dəyərində saxsı məmulatı hazırlandığını göstərir [22,s. 141]. Təkcə İspik kəndində 200 dəzgahda 20 000 rublluq məhsulun istehsal olduğu məlumdur[21, s.113].Bu da bütövlükdə Quba bölgəsində istehsal olunan məhsulun ümumi dəyərinin 90 faizdən çoxunu təşkil edirdi. Məhsullar az qismi hazırlandıqları kəndlərdə satılırdı. Böyük əksəriyyəti sifarişlə hazırlandıqları üçün kənara daşınırdı.

XIX yüzilliyin 80-ci illərdə bu üç – İspik, Yenikənd və Möhüç kəndlərində saxsı məmulatı istehsalı ustaları tərəfindən ildə 150 000 ədəd müxtəlif çeşidli qablar hazırlanmışdı [4, s. 208].İstehsal olunan məhsullar yerindəcə satılırdı. Saxsı qabların satış mərkəzləri bir sıra kəndlərdə təşkil olunan bazar günü "yarmarkaları" hesab olunurdu. Daha çox çox satılan mallar içərisində hər bir evdə tapılan saxsı su bardağı və nehrələr idi [7]. Belə bardağın birinin qiyməti 20-80 qəpiyə satılırdı [13].

XIX yüzilliyin 60-cı illərində Quba bölgəsində saxsı məmulatların istehsal vəziyyətini nəzərdən keçirək [22, s. 141]:

I cədvəl

| İllər | Müəssisələrin sayı | İstehsal olunan məmulatın dəyəri, rublla |
|---|---|---|
| 1860 | 16 | 1 460 |
| 1861 | 16 | 1 450 |
| 1863 | 50 | 1 900 |
| 1864 | 65 | 2 275 |
| 1865 | 65 | 2 250 |
| 1866 | 63 | 3 000 |
| 1867 | 63 | 3 000 |
| 1868 | 73 | 4 100 |
| 1869 | 64 | 5 000 |

Cədvəldən göründüyü kimi, 1860-cı ildə Quba bölgəsində 16 saxsı məmulatı istehsalı müəssisəsi fəaliyyət göstərdiyi halda, 1868-ci ildə belə müəssisələrin sayı 73-ə çatmışdı. Belə artım saxsı məmulatına tələbatın artması ilə izah oluna bilər. Bu illərdə ən az məhsul dəyəri 1 450 rubl olmaqla 1861-cı ildə, ən çox məhsul isə dəyəri 5 000 rubl olmaqla 1869-cu ildə istehsal olunmuşdu. Qeyd etmək lazımdır ki, ümumi satılan məhsulların dəyəri, satılan hər bir məhsula qoyulan qiymətdən də asılı ola bilərdi.Görünür Quba dulusçuları istehsal etdiyi qablar müxtəlif naxışlarla bəzədildiyinə və üzərinə şirin şəkildiyinə görə onların qiymətləri baha olurdu. Belə ki, şirli qablar iki mərhələdə bişirilirdi. Əvvəlcə məmulat adi qaydada bişirib kürədən çıxarır və onun üzərinə şir çəkiləndən sonra yenidən kürəyə yığırdılar. Qabların bişirilməsinə 500 kub sajen ağac lazım gəldiyi [4, s. 208]halda, onun şirlənməsinə dı bir o qədər odun tələb olunurdu. Dulusçuluq emalatxanalarında bir və ya iki nəfər məşğul olurdu.

XIX yüzilliyin 70-ci illərində saxsı məmulatı istehsalın satışında azalmanın baş verdiyi müşahidə olunur. Belə ki, 1870-ci ildə saxsı məmulatının satışından əvvəlki olduğu qədər gəlir əldə olunmuşdusa, bu rəqəmlər 1873-cü ildə 4 480 rubl, 1876-cı ildə 3 360 rubl, 1878 və 1879-ci illərdə hər il üçün 2 250 rubl olmuşdur. Həmin illərdə - 1870-ci ildə 312 nəfərin çalışdığı 64, 1873-cü ildə 128 nəfərin çalışdığı 64, 1876-cı ildə 98 nəfərin çalışdığı 48 saxsı məmulatı müəssisələri fəaliyyət göstərmişdir. Bu zaman hər bir müəssisədə iki nəfər sənətkar işləyirdi. Bunu statistik məlumatlar da təsdiq edir [22, s. 145]:

II cədvəl

| İllər | Müəssisələrin sayı | İşçilərinsayı | İstehsal olunan məmulatın dəyəri, rublla | Hər bir müəssisədə çalışan işçilərin sayı orta hesabla |
|---|---|---|---|---|
| 1870 | 64 | 312 | 5 000 | 2 |
| 1873 | 64 | 128 | 4 480 | 2 |
| 1876 | 48 | 98 | 3 360 | 2 |
| 1878 | 150 | 150 | 2 250 | 1 |
| 1879 | 150 | 150 | 2 250 | 1 |

Cədvəldən göründüyü kimi 1878 və 1879-cu illərdə saxsı məmulatı istehsalı müəssisələrinin sayında artım baş verməsinə baxmayaraq satışa çıxarılan məhsulun dəyəri 1865-ci ildə satılan məhsulun dəyərinə bərabər olmuşdur. Görünür azalmanın baş verməsi müəssisələrin işçilərin sayının bir nəfər olması ilə bağlı olmuşdur. Belə vəziyyət 1880, 1881 və 1882-ci illərdə sabit olaraq qalmışdır [22, s. 145]:

III cədvəl

| İllər | Müəssisələrin sayı | İşçilərin sayı | İstehsal olunan məmulatın dəyəri, rublla | Hər bir müəssisədə çalışan işçilərin sayı orta hesabla |
|---|---|---|---|---|
| 1880 | 150 | 150 | 2 250 | 1 |
| 1881 | 150 | 150 | 2 250 | 1 |
| 1882 | 150 | 150 | 2 250 | 1 |
| 1883 | 100 | 120 | 2 000 | 1-2 |
| 1884 | 109 | 130 | 3000 | 1-2 |
| 1885 | 107 | 140 | 3 500 | 1-2 |
| 1886 | 120 | 150 | 4 000 | 1-4 |
| 1888 | 20 | 80 | 1 800 | 4 |
| 1889 | 18 | 54 | 1620 | 3 |

XIX yüzilliyin 80-ci illərin son iki ilində bizə məlum olmayan səbəblərə görə saxsı məmulatı istehsalı emalatxanalarının sayında kəskin azalma müşahidə olunur. 1889-cu ildə müəssisələrin sayı 18-dək azalmış və müəssisələrin gəliri 1620 rubl olmuşdu. Lakin 1890-cı ildə müəssisələrin gəliri saxsı məmulatı istehsalı tarixində ən çox – 9 200 rubla çatmışdı. Görünür həmin ilin daha gəlirli olması ötənki illərə nisbətən saxsı məmulata kəskin tələbatın olması ilə bağlı olmuşdur. Statistik məlumatlar bunu bir daha təsdiq edir [22, s. 145]:

IV cədvəl

| İllər | Müəssisələrin sayı | İşçilərin sayı | İstehsal olunan məmulatın dəyəri, rublla | Hər bir müəssisədə çalışan işçilərin sayı orta hesabla |
|---|---|---|---|---|
| 1890 | 42 | 184 | 9 200 | 4 |
| 1891 | 42 | 150 | 5 000 | 3-4 |
| 1893 | 50 | 100 | 3 000 | 2 |
| 1897 | 47 | 145 | 3 728 | 3 |
| 1898 | 49 | 160 | 3 820 | 3-4 |
| 1899 | 36 | 87 | 2 880 | 2 |

Cədvəldən göründüyü kimi 1891-ci ildən başlayaraq 1900-cu ilədək saxsı məmulatı istehsalı ilə məşğul olan müəssisələrin sayında azalma müşahidə olunur. Azalma həm də bu sənətkarlıq sahəsində məşğul ola sənətkarların sayında da baş vermişdir. Bu görünür həmin illərin iqtisadi böhranı ilə bağlı olmuşdur.

XX yüzilliyin əvvəllərində Bakı qubernatorunun verdiyi hesabatlardan aydın olur ki, 1902-ci ildə dulusçuluqla 248 işçinin çalışdığı 62 emalatxananın gəliri 4 960 rubl[18, 2 saylı cədvəl],1903-cü ildə232 işçinin çalışdığı 58 emalatxananın gəliri 4640 rubl[19, 2 saylı cədvəl],1904-cü ildə isə 262 işçinin çalışdığı 58 emalatxananın gəliri 4680 rubl [20, 2 saylı cədvəl]olmuşdur. Göründüyü kimi XX yüzilliyin əvvəllərində saxsı məmulatı istehsalı sabit olmuşdur.

Saxsı məmulatı istehsalı ilə məşğul olan sənətkar ustalar gil məmulatının hazırlanmasında müxtəlif alətlərdən istifadə edirdilər. Babasıl, çikol, gəlbəri, həş, xul, irqə, karkar, kartalaş, küən, qabatrın, qaqram, qəlib, qıra, list, lok, lenə, nasxım, piçənə, piyə, püşkər, sər, zıvana, zuldan sözləri yalnız dulusçuluq

sənəti ilə məşğul olanların nitqində işlədilirdisə və yalnız onlar üçün anlaşıqlı idisə [5, s. 9], onların hazırladığı dulusçuluq məmulatını bütün xalq tanıyırdı.

Quba kəndlərində istehsal olunan saxsı mətbəx məmulatının şirli olması, həmin məmulatı hazırlayan sənətkarların yüksək peşəkarlığından xəbər verirdi. Qeyd etmək lazımdır ki, orta əsr saxsı məmulatı istehsalı üçün səciyyəvi olan şirli qablar istehsalı XIX yüzilliyin sonlarında tədricən tənəzzülə uğrayıb aradan çıxmış, məhdud miqdarda Qubada, qismən isə Gəncədə qalmışdı.Etnoqrafik materiallardan göründüyü kimi şirli qablar iki mərhələdə bişirilirdi: əvvəlcə adi qaydada məmulatı bişirərək kürədən çıxarılır və onun üzərinə şir çəkiləndən sonra yenidən kürəyə yığırlırdı. Şirin bişirilməsi üçün əvvəlcə vam yanan odla 2-3 saat ərzində onu qızdıraraq bərkidir, sonra bir gecə-gündüz kürədə yüksək hərarət yaradırdılar[2,s. 363].XIX yüzilliyin 70-ci illərində Quba şəhərində Əliheydər Qasım oğluna, Hüseynqulu karbəlayi Abbas oğluna və axund Rəcəbəlibəy Abdulla oğluna məxsus saxsı qabları istehsal edən və belə qabların satışı ilə məşğul olan dükan-emalatxanalar fəaliyyət göstərmişdir [10, v. 1-119]. Sonrakı illərdə şəhərdə deyil bölgənin iri yaşayış məntəqələrində - Dəvəçi və Qusarda belə emalatxana dükanların fəaliyyət göstərdiyi müşahidə olunur. 1887-ci ilin məlumatına görə DəvəçidəŞixihəsən Şixməmməd oğlu, karbəlayi İsmayıl Məmmədabbas oğlu, Şixəli Tanrıverdi oğlu [11, v. 3-9] və Qusarda Mustafa Məmməd oğlu və digərlərin [12, v. 11-19]istifadəsində olmuşdur.

Saxsı məmulatı istehsalı ilə məşğul olan sənətkarlar məişətdə və mətbəxdə istifadə olunan müxtəlif qablardan başqa, həm də uzaq məsafələrdən şəhərə suyun çəkilməsi üçün istifadə olunan su boruları hazırlayırdılar. Quba bölgəsində məişətdə və mətbəxdə istifadə olunan qabların istehsalı əsasən İspik, Yenikəndvə Möhüc kəndlərində həyata keçirilirdisə, saxsı boru istehsalı ilə məşğul olan dulusçular şəhərdə olurdu. Şəhərə suyun çəkilməsi ilə bağlı, yerli sənətkarlardan əlavə kənar bölgələrdən, xüsusilə Şamaxıdan sənətkarlar dəvət olunurdu. Qeyd edək ki, rəsmi idarələr Qubanın su təchizatına fikir vermədi-yindən bu iş büsbütün Quba sakinlərinin özlərinin üzərinə düşmüşdü.1861-ci ildə yerli sakinlərdən biri öz vəsaiti hesabına 12 verstlik məsafədən şəhərə su kəməri çəkdirmiş, şəhərin mərkəzində də gözəl bir fəvvarə də tikdirmişdir[9]. Hətta su kranları belə saxsıdan düzəldilmişdi [9]. Kəndlərin bir çoxunda suyu uzaq məsafədən saxsı su boruları vasitəsilə gətirildiyini nəzərə alsaq, suyun çəkilməsi üçün lazım olan su boruları kəndlərin özündə, kənd əhalisin vəsaiti hesabına istehsal olunurdu.

Lakinsonralar şəhər idarəsi Quba su kəmərinin xərclərini öz üzərinə götürmüşdür[16, s. 18]. Şəhər əhalisi artdığından və şəhərin ərazisi də genişlənirdi. Bu da yeni su kəmərlərin çəkilməsini tələb edirdi. Ona görə də saxçı boruların hazırlanmasına böyük ehtiyac yaranmışdı. Belə vəziyyət şəhər dulusçularının işini artırmış olurdu. XIX yüzilliyin 80-ci illərində şəhərsaxsı sənətkarları tərəfindən 20 000 ədəd saxsı borular istehsal olunmuşdu ki,

bunların hər biri 1 qəpiyə satılmışdı[14].Saxsı boru istehsalı yalnız su kəmərlərinin çəkilməsi zamanı həyata keçirilirdi.

Beləliklə, Quba bölgəsində Şimali Azərbaycanın digər bölgələrində olduğu kimi bəhs olunan dövrdə saxsı məmulatı istehsalı ilə məşğul olan sənətkarların sayı kifayət qədər çox olmuşdur. XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəllərində qubalıların məişətinə Rusiyadan və Avropadan gətirilən müxtəlif dəmir və mis qabların daxil olmasına baxmayaraq, saxsı məmulatından imtina edilməmişdi. XX yüzilliyin 70-ci illərinədək Quba kəndlərində sənətkarların hazırladıqları nehrə, su bardağı və s. istifadə olunurdu.

## Ədəbiyyat


1. Агаширинова С.С. Материалная культура лезгин XIX – начало XX вв. – Москва: Издательство Наука, 1978. – 304 с. /
2. Azərbaycan etnoqrafiyası. Üç clddə. I cild. – Bakı: Şərq-Qərb, 2007. – 544 с.
3. Берже А. Прикаспийский край // Кавказский календарь на 1857 год. – Тифлис: Типография канцелярии наместника Кавказского, 1856. Отделение III, с. 275-339 /
4. Экономический бытъ государственных крестьян в южной части Кубинского уезда, Бакинской губернии, исследование П.Н. Ягодинского // Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т. II. Ч. I. – Тифлис: Типография А.А. Михельсона. – С. 159-288
5. Əliyeva N.S. Azərbaycan dilindədulusçuluqleksikasi. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. – Sumqayıt: 2022. – 152 s.
6. Əlizadə A.M. XIX əsrin I yarısında Şimali Azərbaycanda sənətkarlıq. Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissetertasiyası. – Bakı. 1995. – 139 s.
7. Истомин Н. Мюшкюрская долина // Кавказ, 28 февраля /12 марта/ 1865 года, №17
8. Истомин Н. Путевые заметки // Кавказ, 13 февраля 1859 года, №14
9. Истомин Н. Путевые заметки // Кавказ, 1 июня 1861 года, №42
10. Журнал генеральной проверки торговых и промышленных заведений в городе Кубы и еврейской загородной слободы. 1876 год // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f. 43, siy. 1, iş 98,
11. Журнал проверки торговых и промышленных заведений местечки Дивичи Кубинского уезда за 1887 год // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f. 43, siy. 1, iş 398,

12. Журнал генеральной проверки торговых и промышленных заведений в урочище Кусары за 1887 год // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f. 43, siy. 1, iş 398,

13. Кустарная промышленность за Кавказом // Кавказ, 23 ноября 1882 года, № 310

14. Кустарная промышленность за Кавказом // Кавказ, 24 ноября 1882 года, № 311

15. Quba əyalətinin kameral təsviri (1831-ci ildə kollec reqistraturu Xotyanovski tərəfindən tərtib edilmişdir). Tərcümə, giriş qeydlər və yekun cədvəllərin müəllifi professor T.T. Mustafazadənindir. – Bakı: Sabah, 2008. – 752 s.

16. Мамедов Н.Р. История города Кубы в XIX-начала XX века. Авгореф. канд. дисс. - Баку, 1989. - 24 с.

17. Mustafayev C.M. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. – Bakı: Elm. – 2002. – 272 s.

18. О числе фабрик и заводов в Бакинской губернии за 1902 год. // Обзор Бакинской губернии за 1902 год. Приложение ко всеподданнейшемк отчету. – Баку: Типография губернского правления, 1903. – 63, [88] с.

19. О числе фабрик и заводов в Бакинской губернии за 1903 год. // Обзор Бакинской губернии за 1903 год. Приложение ко всеподданнейшемк отчету. – Баку: Типография губернского правления, 1904. – 78, [140] с.

20. О числе фабрик и заводов в Бакинской губернии за 1904 год. // Обзор Бакинской губернии за 1904 год. Приложение ко всеподданнейшемк отчету. – Баку: Типография губернского правления, 1905. – 78, [110] с.

21. Сельское хозяйство и промышленность // Списки населенных мест Российской империи по Кавказскому краю. LXV. Бакинская губерния. – Тифлис: Типография главного управления наместника Кавказского, 1870. – С. 106-116

22. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. – Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1964. – 501 с.

23. Vəliyev F.İ. XIX – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti (tarixi-etniqrafik tədqiqat). – Bakı: Şərq-Qərb. – 2010. – 424 s.

# К ИСТОРИИ РОССИЙСКОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНЕ ВО II ПОЛОВИНЕXVIII- НАЧ. XIX ВВ.

***Искендерова Марзия Сабир гызы***

***Института истории им.А.А.Бакиханова Национальной Академии наук Азербайджана***
marziya.i53@mail.ru

**Ключевые слова:** азербайджанские ханства, экспансионистская политика, Екатерина II, религиозный фактор, колониальная сущность

*Геополитическое и геостратегическое значение Азербайджана, как и Южного Кавказа, в целом для имперских планов России способствовало тому, что политика России в данном регионе в XVIII-нач.XIX вв. всегда находилась в центре внимания научных исследователей. В статье предпринята попытка проведения историографического анализа трудов некоторых представителей современной историографии, посвященных изучению российской политики в Азербайджане и ее этапов во II половине XVIII–нач.XIX вв. Раскрываются позиции авторов в отношении доминанты в политике России ее интересов в Азербайджане, как и в Южном Кавказе в целом. Работы современных исследователей, посвященные изучению данных вопросов, позволяют проследить гегемонистскую политику царизма в данном регионе.*

*Историографическая разработка указанных трудов дает возможность пронаблюдать отказ от идеологизированного подхода советской эпохи к исследуемой проблеме, что способствовало выявлению этими учеными главной - колониальной сущности политики России в Азербайджане в указанный период.*

## *XVIII ƏSRİN II YARISI - XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA RUSİYA SİYASƏTİNİN TARİXİNƏ DAİR*

***İskəndərova Mərziyə Sabir qızı***

***Açar sözlər:*** *Azərbaycan xanlıqları, ekspansionist siyasət, II Yekaterina, dini amil, müstəmləkə mahiyyəti*

*Rusiyanın imperiya planlarında Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın geosiyasi və geostrateji əhəmiyyəti Rusiyanın XVIII-XIX əsrin əvvəllərində bu regionda həyata keçirdiyi apardığı siyasətin elmi tədqiqatçıların daim diqqət mərkəzində olmasına səbəb olmuşdur.*

*Məqalədə müasir tarixşünaslığın bəzi nümayəndələrinin XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində Azərbaycanda Rusiya siyasətinin və onun*

*mərhələlərinin tədqiqinə həsr olunmuş əsərlərinin tarixşünaslıq təhlilinə cəhd edilir. Müəlliflərin Rusiyanın Azərbaycanda, bütövlükdə Cənubi Qafqazda maraqlarına və siyasətindəki əsas məqamlara münasibətdə mövqeləri açıqlanır. Müasir tədqiqatçıların bu məsələlərin tədqiqinə həsr olunmuş əsərləri çarizmin regionda yürütdüyü inhisarçı siyasətini izləməyə imkan verir.*

*Bu əsərlərin tarixşünaslıq təhlili tədqiq olunan problemə sovet dövrünün ideoloji yanaşmalarından imtina edildiyini müşahidə etməyə imkan verir ki, bu da həmin tədqiqatçılar tərəfindən Rusiyanın bu dövrdə Azərbaycanda apardığı siyasətin müstəmləkəçilik mahiyyətini üzə çıxarmağa kömək etmişdir.*

## *RUSSIAN POLICY IN AZERBAIJAN IN THE SECOND PART OF THE 18TH CENTURY*

***Iskenderova Marziya Sabir***

**Keywords:** *Azerbaijans khanats, expancy policy, Catherine II, the religious factor, colonial essense*

*The geopolitical and geostrategic importance of Azerbaijan as well as the South Caucasus in general in Russia's imperial plans contributed to the fact that Russia's policy in this region in the XVIII century has always been in the spotlight of researchers. This article examines a historiographical analysis of the scientific works of some representatives of modern historiography, devoted to the study of the expansionist policy of Russia in Azerbaijan and its stages in the second part of the XVIII century.*

*The factors that determined the special importance of Azerbaijan in the aggressive South Caucasus policy of Russia in this period were argued and objectively studied in this article.*

**Введение**.Изучение политики России во II пол. XVIII-нач.XIX вв. в Южном Кавказе, в т.ч. и в Азербайджане, не теряет своей актуальности и привлекает внимание исследователей, так как последствия этой политики оказывают влияние на судьбу азербайджанского народа и сегодня. В предлежащей статье предпринята попытка историографического анализа основных особенностей восприятия некоторыми современными историками ряда аспектов политики России в Азербайджане во II пол. XVIII – нач.XIX вв. – одном из определяющих этапов всей восточной политики России. Данная историографическая разработка вытекает как из необходимости объективного подхода к изучаемой проблеме, так и обусловлена отсутствием специального, комплексного историографии-ческого исследования с реальной оценкой политики России в Азербайджане в указанный период.

Düşmənin hava hücumundan müdafiə sistemlərinin sıradan çıxarılmasında tətbiq edilən üsul (an-2, xalq arasında "kukruznik" *adlanan təyyarələrdən istifadə ilə*), zərbə gücü kimi əsasən xüsusi təyinatlılardan istifadə olunması (bu canlı qüvvə itkisinin xeyli dərəcədə qarşısının alınmasında və əməliyyatların uğurla nəticələnməsində əhəmiyyətli yerə sahibdir), bütövlükdə döyüş əməliyyatının uğurla hazırlanması (Hücum əməliyyatlarının cinahlardan başlanması (ermənilər mərkəzdən gözləyirdilər), Hadrutun, Laçın koridoruna çıxılması və s. kimi əməliyyatlar bu qəbildəndir), Şuşanın alınması zamanı təşkil olunan hücum əməliyyatı ( bu əməliyyat unikallığına görə xüsusilə fərqlənirdi) və s. müharibə tariximizə damğasını vuran məqamlar idi. Ali Baş Komandan müharibənin gedişi və hazırlanan əməliyyatlar haqqında "Nasionalnaya oborona" jurnalına müsahibədə ətraflı şəkildə toxunurdu: "Müharibə dövründə bizim davranışımızın əsası, təbii ki, keçən il döyüş əməliyyatları başlanandan xeyli əvvəl işlənib hazırlanmışdı, lakin hərbi əməliyyatların gedişində biz buna dəyişikliklər edirdik. Bu, ilk növbədə, onunla bağlı idi ki, uzun illər ərzində informasiyanın azacıq da olsa sızmasından yaxa qurtarmaq mümkün deyildi. Biz güman edirdik ki, düşmən bizim nəzərdə tutduğumuz əməliyyatlar barədə ümumən məlumatlıdır. Döyüş əməliyyatları zonası yetərincə məhduddur və təbii ki, əsas əməliyyatların harada keçiriləcəyini hər bir hərbi mütəxəssis müəyyən edə bilər. Buna görə də biz döyüşəməliyyatları planına demək olar ki, hər gün düzəlişlər edirdik. Mən Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin və Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi ilə hər gün müşavirələr keçirirdim. Biz həmin müşavirələrdə ötən günə yekun vurur, nöqsanları aşkar edir, növbəti gün üçün əməliyyatları planlaşdırır və təsdiq edirdik. Buna görə də, belə deyək, çox fəal gündəlik iş gedirdi və bir sıra hallarda, - hərbi əməliyyatların gedişi indi artıq məlumdur, - bizim fəaliyyətimiz, bizim əməliyyatlarımız düşmən üçün çox gözlənilməz olurdu" [14].

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə vətən müharibəsinin gedişində həyata keçirilən hərbi əməliyyatlar, eləcə də tətbiq olunan üsul və vasitələr hərb tariximizdə çox böyük yeniliklər kimi yadda qaldı və "bu gün 44 günlük müharibə dünyanın aparıcı ölkələrinin baş qərargahlarında öyrənilir" və bu təcrübədən örnək kimi istifadə olunur.

**Uğurlu informasiya siyasəti**

İkinci Qarabağ savaşının gedişində erməni diasporu və Azərbaycanı istəməyən beynəlxalq qüvvələrin səyi ilə dünyanın müxtəlif KİV-lərində Azərbaycana qarşı yalan, dezinformasiyalarla, qarayaxmalarla dolu xəbərləri, yayan, tirajlayan ikinci cəbhə açılmışdı. Hərbi əməliyyatlarla bərabər informasiya mübarizənin vacibliyi də mühüm əhəmiyyət daşımağa başladı. Belə bir məqamda Azərbaycan prezidenti informasiya mübarizəsinin də başına keçərək dünyanın aparıcı media vasitələri ilə Azərbaycanın haqq səsini, savaşla bağlı həqiqətləri dünya ictimaiyyətinin nəzərinə çatdırdı.Prezident media savaşına qoşulmasını özü belə izah edir: "Deyərdim ki, bu da bir növ bədahətən oldu. Çünki döyüş əməliyyatlarının ilk günlərindən dünya mediasında – həm Rusiya, həm Qərb mediasında, həm də qonşu ölkələrdə bu münaqişəyə maraq yüksək idi. Mən bütün müraciətlərə cavab verməyə razılaşırdım, çünki vəziyyət barədə həqiqəti – nələr baş verdiyini, münaqişənin səbəblərinin nədən ibarət olduğunu, kimin işğalçı və kimin işğal qurbanı olduğu barədə həqiqəti mümkün qədər çox ölkənin ictimaiyyətinin diqqətinə çatdırmağı vacib hesab edirdim. Ona görə ki, bir sıra ölkələrdə yetərincə effektiv olan erməni təbliğatı və erməni diaspor təşkilatları onilliklər ərzində bu münaqişə barədə yalan təsəvvür yaradırdılar. Hətta hərbi əməliyyatların başlanğıcına və bəzi ölkələr tərəfindən qəbul edilmiş qərarlara nəzər salsaq, onlar, sadəcə, heç bir məntiqə uyğun gəlmir"[14].

Ölkə prezidentinin 44 gün ərzində xarici informasiya kanallarına ingilis, rus və türk dillərində verdiyi 30-a yaxın müsahibələrdə ölkəmizə qarşı yönəlmiş ittihamları və feyk xəbərləri tutarlı faktlarla və dərin məntiqlə ifşa etdi. Ermənistanın işğalçılıq siyasətinin mahiyyətini açıb göstərirdi. Ölkə rəhbərinin verdiyi müsahibələr *CNN* International", "BBC News", "Sky News", ARD, "Əl-Cəzirə", "Əl-Ərəbiyə", "Euronews", "CNN-Türk", "Rossiya 1", "TRT Haber" Kanal 24, TASS informasiya agentliyi, Fiqaro və s. kimi transmedia qurumlarında öz əksini tapırdı.Prezidentin istər televiziya kanallarına, istər müxtəlif informasiya agentliklərinə və qəzetlərə verdiyi müsahibələr bir neçə aspektdə xüsusi əhəmiyyət kəsb edirdi. Qarabağ haqqında həqiqətlərin söylənməsi, mövcud durum və regiondakı geosiyasi vəziyyət, erməni yalanlarının ifşa edilməsi, həqiqətlərin çatdırılması, xarici kütləvi informasiya vasitələrinin problemə yanlış və qərəzli yanaşmasının ifşası baxımından bunlar çox əhəmiyyətli idi[15].

Verilən müsahibələrdə Azərbaycan prezidentininyeni keyfiyyətləri, yeni tərəfləri ortaya çıxdı. Dünya ictimaiyyəti üçün yeni olan bu keyfiyyətlər informasiya blokadasının dağılmasında, eləcə də Azərbaycan xalqının və dövlətinin müsbət imicinin formalaşmasında böyük rol oynadı.Ölkə başçısının dörd dildə (Azərbaycan, türk, ingilis və rus) sərbəst şəkildə jurnalistlərin suallarını cavablandırması, hətta jurnalistlərin özlərini belə təəccübləndirmişdi. Böyük Britaniyadan olan jurnalist A.Tattersal mətbuat konfransında bildirdi ki, 25 ildir jurnalistika ilə məşğuldur, amma hər hansı Prezidentin dörd dildə bu cür mətbuat konfransı keçirməsinin şahidi olmayıb. O, Prezidentin rekorda imza atdığını dilə gətirdi[15].Tanınmış jurnalist və media eksperti E.Şıxlı haqlı olaraq qeyd edirdi ki, "Vətən Müharibəsi, II Qarabağ savaşı dövründə özü (Azərbaycan prezidenti İ. Əliyev – A.Ə.) həm hərbi, həm informasiya savaşında sinəsini qabağa verdi və müsahibələr verərək həqiqətləri dünyaya çatdırdı. Müsahibə verəndə də hər jurnalistin dilində danışdı. Yəni ingiliscə, rusca, Anadolu türkcəsində danışdı, öz dilimizdə danışdı. Yəni Prezident öz timsalında bu ölkənin üzünün, simasının nədən ibarət olduğunu göstərdi. Xarici media qarşılarında ermənilərin bizim haqqımızda yaratdığı təəssüratın tam tərsini gördülər. Həm müasirdir, həm millidir, həm öz dinini, imanını bilən adamdır. Bütün sualları da doğru-düzgün bildiyi üçün hamısının cavablarını verib yerində otuzdurdu. Prezidentin informasiya savaşını uğurlu hesab etmək olar, bu həm hərbi savaş idi, həm də informasiya savaşı"[15].

Sonda onu qeyd edək ki, ölkə prezidentinin müharibənin gedişində istər hərb sahəsində, istərsə də diplomatiya və informasiya sahəsində atdığı düzgün addımlar və qəbul etdiyi qərarlar qələbənin təmin olunmasında böyük rol oynadı. 44 günlük vətən müharibəsi öz xalqının lideri kimi onun yeni kefiyyətlərini də üzə çıxardı. O bu müharibədə dövlət xadimi, siyasi istedad sahibi, hərbi strateq kimi xalqımızın, eləcə də dünya ictimaiyyətinin gözümüzdə daha da ucaldı. Onun təhsili, təcrübəsi, gördüyü işlər və şəxsi keyfiyyətləri imkan verdi ki, bizə qələbə sevincini yaşatsın, xalqının başını ucaltsın.

## Ədəbiyyat

1. Azərbaycan və Belarus prezidentlərinin mətbuat üçün bəyanatları. https://president.az/articles/10432/print
2. İham Əliyevin Münxen qələbəsi: erməni baş nazirin növbəti iflası.http://newtimes.az/az/processestrends/6398/
3. İham Əliyev şok gizlinləri açdi: Aprel döyüşündən sonra Vyanada otağa girən kimi mənə...https://azsabah.com/ilham-eliyev-sok-gizlinleri-acdi-aprel-doyusunden-sonra-vyanada-otaga-giren-kimi-mene/
4. K.Adigözəlov. Cənubi Qafqaz Tovuz hadisələrindən sonra: yeni geosiyasi-hərbi və geoiqtisadi trendlər. Xalq qəzeti 2020.- 6 sentyabr.- S.3.

5. Qələt eləmisən, təxribat törətmisən, cinayət törətmisən,- cavab ver buna" — Prezidentdən SƏRT ÇIXIŞhttps://avrasiya.info/xeberler/8183-qelet-elemisen-texribat-toretmisen-cinayet-toretmisen-cavab-ver-buna-prezidentden-sert-cxs.html
6. **Q.H.Məmmədov.** II Qarabağ müharibəsində qələbə həm də Azərbaycan diplomatiyasının geosiyasi meydanda və informasiya müharibəsində böyük uğurudur. http://newtimes.az/az/relations/7340/
7. Bakı sammiti: Azərbaycan diplomatiyasının Qoşulmama Hərəkatında növbəti böyük uğuru. http://newtimes.az/az/experts/6306
8. İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib. https://president.az/articles/51067
9. İlham Əliyevin Fransanın "Figaro" qəzetinə müsahibəsi. https://president.az/articles/44170
10. Prezident, Ali Baş Komandan İlham Əliyevin nitqi (25 iyun 2012-ci il) // Xalq qəzeti. - 2012.-26 iyun. - № 139
11. A. Turan, Hər şey "nöqtə"dən başladı. "Xalq qəzeti" 2 Oktyabr 2020-ci il.
12. Prezident: Bu 17 il ərzində demişdim ki, əgər məsələ sülh yolu ilə həll olunmasa, bunu hərbi yolla həll edəcəyik. https://nuhcixan.az/news/siyaset/37694
13. Prezident: "Hanı o xəritələr? Hamısı məhv edildi" https://sputnik.az/20201125/Prezident-Han-o-xritlr-Hams-mhv-edildi-425557839.html
14. İlham Əliyevin Rusiyanın nüfuzlu "Nasionalnaya oborona" jurnalına müsahibəsi https://president.az/articles/53199.
15. T. Qafarlı. Yeni informasiya strategiyası - "Yol xəritəsi" necə cızılır? – TƏHLİL. https://hafta.az/yeni-informasiya-strategiyasi-yol-xeritesi-nece-cizilir--tehlIl-301501-xeber.html

# XX ƏSRİN İKİNCİ YARISI AZƏRBAYCAN VƏ RUSİYA TARİXŞÜNASLIĞINDA TARİXİ DEMOQRAFİYANIN AKTUAL MƏSƏLƏLƏRİ

**Aydın Məmmədov**
Bakı Dövlət Universiteti
aydin.mmmdov.67@ mail.ru

***Açar sözlər:*** *Azərbaycan tarixşünaslığı, Rusiya tarixşünaslığı, rus demoqrafları, Azərbaycan əhalisi, tarixi demoqrafiya, əhali artımı, əhali məskunlaşması.*

*Müharibədən sonrakı illərdə SSRİ-də totalitar rejimin, eləcə də inzibati-idarəetmə metodunun güclənməsi ilə ictimai elmlərin obyektiv inkişafına əngəllər getdikcə artırdı. Belə ki, 40-50-ci illərdə marksist ideologiyanın inhisarı elmin ayrı-ayrı sahələri üzərində, xüsusən də ictimai elmlər sahəsində özünü daha qabarıq büruzə verirdi. Xüsusilə tarix elminə təzyiq daha güclü idi. Bütün bunlara baxmayaraq, müharibədən sonrakı illərdə İ.Cəfərzadə, S.Qazıyev, M.Şərifli, Ə.Sumbatzadə, İ.Əliyev və digər Azərbaycan tarixçiləri, o cümlədən A.Xomenko, A.Vişnevski, A.Xrepkova, A.Volkov, D.Valentay, D.Bromley kimi rus tədqiqatçı-demoqrafları da öz əsərləri ilə tarixi demoqrafiya sahəsində xeyli işlər görmüşlər. Bəşər tarixinin müxtəlif dövrlərini tədqiq edən bu alimlər, sovet ideologiyasının təzyiqlərinə baxmayaraq tarixi və demoqrafik düşüncənin inkişafına böyük töhfələr vermişlər.*

# АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИСТОРИЧЕСКОЙ ДЕМОГРАФИИ В АЗЕРБАЙДЖАНСКОЙ И РОССИЙСКОЙ ИСТОРИОГРАФИИ ВО ВТОРОЙ ПОЛОВИНЕ XX ВЕКА

**Айдын Мамедов**

***Ключевые слова:****Азербайджанская историография, Российская историография, российские демографы, азербайджанское население, историческая демография, прирост населения, расселение населения.*

*В послевоенные годы с усилением тоталитарного режима в СССР, а также административного метода возрастали препятствия на пути объективного развития общественных наук. Таким образом, в 1940-х и 1950-х годах монополия марксистской идеологии усилилась в различных областях науки, особенно в социальных науках. Давление на историю было особенно сильным. Несмотря на все это, в послевоенные годы*

*И.Джафарзаде, С.Газиев, М.Шарифли, А.Сумбазаде, И.Алиев и другие азербайджанские историки, в том числе такие российские демографы, как А.Хоменко, А.Вишневский, А.Хрепкова , А. Волков, Д. Валентаи, Д. Бромлей и др. написали ценные работы в области исторической демографии. Эти ученые, изучавшие разные периоды истории человечества, внесли большой вклад в развитие исторической и демографической мысли, несмотря на давление советской идеологии.*

## ACTUAL ISSUES OF HISTORICAL DEMOGRAPHY IN AZERBAIJANI AND RUSSIAN HISTORIOGRAPHY OF THE SECOND HALF OF XX CENTURY

**Aydin Mammadov**

***Keywords:*** *Azerbaijani historiography, Russian historiography, Russian demographers, Azerbaijani population, historical demography, population growth, population settlement.*

*In the post-war years, with the strengthening of the totalitarian regime in the USSR, as well as the administrative method, the obstacles to the objective development of the social sciences increased. Thus, in the 1940s and 1950s, the monopoly of Marxist ideology became more pronounced in various fields of science, especially in the social sciences. The pressure on history was especially strong. Despite all this, in the post-war years I.Jafarzade, S.Gaziev, M.Sharifli, A.Sumbazade, I.Aliyev and other Azerbaijani historians, including such Russian demographers as A.Khomenko, A.Vishnevsky, A.Khrepkova , A.Volkov, D.Valentai, D. Bromley and others, wrote valuable works in the field of historical demography. These scientists, who studied different periods of human history, made a great contribution to the development of historical and demographic thought, despite the pressure of Soviet ideology.*

Azərbaycan tarixinə dair məqalələr məcmuəsində 1949-cu ildə dərc edilən İ.Cəfərzadənin "Azərbaycan ərazisində qədim insan mədəniyyətinin izləri" adlı məqaləsi də böyük maraq doğurur. Müəllif sözügedən məqaləsində ibtidai insan cəmiyyətindən üzü bəri Azərbaycanda ibtidai insanların yaşayıb-artması və məskunlaşması üçün hər cür təbii şəraitin mövcud olmasını uzun illər boyu Azərbaycanın bir çox bölgələrində apardığı çoxsaylı arxeoloji ekspedisiyalar nəticəsində əldə etdiyi faktoloji materiallar əsasında sübut etməyə çalışmış, buna nail də olmuşdur [9, 14-33]. İ.Cəfərzadə 1949-cu ildə "Köhnə Gəncənin tarixi-arxeoloji oçerki" adlı kitabında uzun illər arxeoloji tədqiqatlar nəticəsində əldə etdiyi nəticələr əsasında Azərbaycanda ən qədim dövrlərdən bu günə qədər sıx yaşayış məskənlərinin mövcud olmasını aydın şəkildə göstərə bilmişdir.

XX əsrin 40-50-ci illəri Vətən tarixşünaslığında S.Qazıyevin “1941-ci ildə Mingəçevirdə arxeoloji qazıntılar”, “Qədim Azərbaycanda qəbilə quruluşu” (Казиев С. Археологические раскопки в Мингечауре в 1941 г. – Материальная культура Азербайджана. – Bakı, AMEA-nın nəşrıyyatı, 1949, I buraxılış, səh. 87-103; Yenə onun. Родовой строй в древнем Азербайджане. Сборник статей по истории Азербайджана. Bakı, AMEA-nın nəşriyyatı, 1949, I buraxılış. səh. 34-46); V.Leviatovun “1946-cı ildə Bakının qala hissəsində arxeoloji qazıntılar” (Левиатов В. Археологические раскопки 1946 г. в крепостной части г. Баку, AMEA-nın xəbərləri 1948-ci il, №4, səh 120-130); O.Həbibullayevin “Kültəpə qazıntıları” (Абибуллаев О. Раскопки холма Кюлтепе // Краткие сообщения ИИМК АН СССР, 1953, Вып. 51, səh. 16-23); O.İsmizadənin “İsmayıllı rayonunda arxeoloji qazıntılar” (Исмизаде О. Археологические раскопки в Исмаиллинском районе. AzFAN xəbərləri, 1941, №4, səh. 25-28) və bir çox digər azərbaycanlı arxeoloq alimlərin işıq üzü görən əsərləri bir daha Azərbaycanın bəşər sivilizasiyasının ən qədim məskunlaşma ocaqlarından biri olduğunu qətiyyətlə sübut edir.

XX əsrin 40-50-ci illəri Azərbaycan tarixşünaslığının yuxarıda sadalanan kifayət qədər sanballı elmi tədqiqat əsərləri ilə zənginləşməsi sovetlər dönəmində mərkəzin aparıcı elmi dairələri tərəfindən də qəbul olundu. Belə ki, 1955-ci ildə Moskvada nəşr edilən çoxcildlik “Ümumdünya tarixi”nin I cildində yazılırdı: “Azərbaycan Yaxın Şərqdə insanların ilk dəfə oturaq həyat tərzinə keçdikləri, şəhərlər saldığı, kənd təsərrüfatı, sənətkarlıq və ticarətlə məşğul olduğu ölkədir”.

XX əsrin 40-cı illərinin sonunda Azərbaycan tarixşünaslığında kollektiv əməyin bəhrəsi olan “Azərbaycanın maddi mədəniyyəti” adlı məqalələr toplusu işıq üzü gördü. (Материальная культура Азербайджана. Баку, АН АзССР, 1949. вып. 1; Материальная культура Азербайджана. Баку, АН АзССР, 1951. вып. 2; Материальная культура Азербайджана. Баку, АН АзССР, 1953. вып. 3)

Bu toplularda nəşr olunan görkəmli alim və tədqiqatçıların biribirindən maraqlı elmi əsərləri də Azərbaycanda ibtidai insan cəmiyyətindən üzü bəri sıx məskunlaşmış yaşayış məskənlərinin, yüksək inkişaf etmiş şəhər mədəniyyətinin mövcud olmasını əyani şəkildə əks etdirir.

1948-ci ildə Azərbaycan SSR EA Tarix İnstitutu tərəfindən V.Leviatovun “XVIII əsr Azərbaycan tarixindən oçerklər” adlı kitabı nəşr olundu. Kifayət qədər geniş mənbəşünaslıq bazası əsasında yazılmış bu kitabda Azərbaycanda xanlıqlar dövrünə dair ictimai-siyasi proseslər kifayət qədər geniş surətdə təhlil edilmişdir. Sözügedən kitabda tarixi demoqrafiya məsələləri də əks olunmuşdur. Müəllif XIX əsrə dair mənbələrə əsaslanaraq, məsələn, Lahıcın əhalisinin sayı haqqında yazır: “XIX əsrin əvvəllərində Lahıcda 291 ev vardı. Əgər hər bir evdə orta hesabla 5 nəfər adamın yaşadığını zənn etsək, onda

burada 1500 nəfər sakinin yaşadığını söyləyə bilərik" [12, 40]. Yaxud müəllif, xanlıqlar dövründə ölkədə sosial-iqtisadi tənəzzülün güclənməsi səbəbindən şəhərlərin və şəhər əhalisinin inkişaf tempinin də aşağı düşdüyünü söyləyir: "XVIII əsrdə Azərbaycanda XII-XV əsrlərdə mövcud olan iri şəhərlər kimi şəhərlər yox idi. Yalnız, ən böyük şəhər olan və bir neçə on min əhalisi olan Təbriz müstəsna idi. Əsrin sonlarına yaxın Şamaxının əhalisinin sayı 10 min nəfərə güclə çatırdı. Gəncə, Ərdəbil, Şuşa, Nuxa, Şabran, Bakı kimi şəhərlərdə isə əhali 3-8 min civarını keçə bilmirdi" [12, 43].

XX əsrin 40-cı illərinin sonu 50-ci illərin əvvəllərində Azərbaycan tarixşünaslığında Vətən tariximizin qədim dövrlərinə dair yeni tədqiqat əsərləri meydana gəldi. İ.Əliyevin (5.85-93; 6.156-183), İ.Əliyevlə İ.Cəfərzadənin birgə yazdıqları "Azərbaycanın qədim tarixinə dair oçerklər" adlı əsərləri, İ.Dyakonovun Midiya tarixinə dair tədqiqatları [10, 4-52] Azərbaycan ərazisində e. ə. I minillikdə mövcud olan qədim dövlətlərimizin iqtisadi-siyasi qüdrətinin yüksəlişi ilə əhalinin artım və məskunlaşma tempinin də intensiv surətdə inkişafının paralel surətdə getməsini aydın göstərir.

1956-cı ildə akademik Ə.Əlizadənin "XIII-XIV əsrlərdə Azərbaycanın ictimai-iqtisadi və siyasi tarixi" adlı son dərəcə qiymətli monoqrafiyası işıq üzü gördü. Monoqrafiyada monqolların işğalı nəticəsində Azərbaycanda baş verən sosial-siyasi və ictimai proseslər, o cümlədən işğalın törətdiyi fəsadlarla yanaşı, iqtisadi tənəzzül geniş mənbəşünaslıq bazası əsasında ən xırda təfərrüatları ilə öz əksini tapmışdır. Məhz təsvir olunan hadisələrin fonunda sözügedən dövrdə Azərbaycan əhalisinin sosial-iqtisadi və demoqrafik durumunu aydın şəkildə təsəvvür etmək olur. Məsələn, müəllif monqolların əhalinin əsas dolanışıq mənbəyi olan əkin sahələrinin məhvi ilə bağlı yazır: "Monqollarda iri və xırda buynuzlu mal-qaranın həddən ziyadə çox olması kənd təsərrüfatının inkişafına ciddi əngəl törədirdi. Monqol feodalları öz arvadları, uşaqları, düşərgəsinin bütün əmlakı, dəvələri və ilxıları ilə bu və ya digər yerə gedərkən, əkin sahələrini, bağları, ümumiyyətlə, kəndlilərin bütün təsərrüfatını məhv edir, sakinlərin əmlaklarını talan edir, mal-qarasını sürüb aparır. Özlərini isə fiziki cəhətdən məhv edir, sağ qalanları isə əsir apararaq, çoxsaylı sürülərinə baxmaq üçün qula çevirirdilər" [*6, 12*9].

Təbii ki, belə bir şəraitdə əhalinin təbii və mexaniki artımı son dərəcə aşağı səviyyədə inkişaf etmiş və yaxud inkişaf edə bilərdi. Belə ki, sözügedən monoqrafiyada müəllif zəngin Azərbaycan torpaqlarına yiyələnmək uğrunda Qızıl Ordu və Hülakülər arasında gedən qanlı müharibələri də təsvir etmişdir. Azərbaycanın hərbi əməliyyatlar meydanına çevrilməsi əhalinin demoqrafik durumuna məhz bu cür təsir göstərmişdir: "Azərbaycanda daima hərbi əməliyyatların, müharibələrin baş verməsi əhalinin vuruşan tərəflərin törətdiyi fəsadları öz çiyinlərində daşımasına, o cümlədən fiziki məhvinə səbəb olurdu. Şəhər və kəndlər dağıntılara məruz qalaraq viran olur. Tamamən boşalırdı.

Yerli əhali ya tamamən məhv edilir, ya da qula çevrilir, sağ qalanlar isə meşələrdə və dağlarda gizlənməli olurdular. Bütün bunlar isə şəhərlərin və kəndlərin tənəzzülünə, ticarətin iflasına, bütövlükdə isə Şimali Azərbaycanın iqtisadi həyatının süqutuna səbəb olurdu" [7,145, 258-259].

XX əsrin 40-50-ci illərində maraqlı elmi məqalələri ilə diqqəti cəlb edən tədqiqatçılardan biri də Məmmədəli Şərifli (1909-1969) olmuşdur. O, "XII-XIV əsrlərdə Azərbaycanda ticarət və ticarət yolları", "Azərbaycan IX-XII əsrlərdə" adlı elmi məqaləsində Ərəb xilafətinin dağılmasından sonra Cənubi Qafqazda yaranmış ictimai-siyasi, sosial-iqtisadi vəziyyətin əhali məskunlaşmasına göstərdiyi təsiri obyektiv şəkildə təsvir etmişdir. Müəllif, Ərəb xilafətinin xarabalıqları üzərində meydana gələn Azərbaycan feodal dövlətlərinin yaranma və inkişaf, o cümlədən süqutu səbəblərini konkret tarixi faktlar əsasında, elmi-obyektiv surətdə araşdırmışdır. Bu dövrdə bir-birini əvəz edən Sacilər, Salarilər, Şirvanşahlar, Rəvaddilər kimi güclü feodal dövlətlərinin Azərbaycanın erməni və gürcü feodallarının dağıdıcı basqınlarından qorumasına, o cümlədən şəhər və kəndlərin, əhalinin təbii və mexaniki sayının artmasına səbəb olmuşdur. Müəllifin fikrincə, IX-XII əsrlərdə sözügedən feodal dövlətlərinin bütün Azərbaycan torpaqlarını vahid dövlət şəklində birləşdirməsi, ölkə miqyasında iqtisadi və mədəni əlaqələrin daha da dərinləşməsinə, etnik fərqlərin aradan qalxmasına, vahid Azərbaycan-türk xalqının formalaşması prosesinin sürətlənməsinə müsbət təsir göstərirdi. M.Şəriflinin digər məqalələrində də, sözügedən dövrdə siyasi-iqtisadi amillərin əhali artımına müsbət təsir göstərməsi prosesini aydın surətdə sezmək olur. (Şərifli M. Azərbaycan IX-XII əsrlərdə. Azərb.SSR EA Tarix İnstitutunun Əsərləri, XII c., 1957, s.31-94; Yenə onun, Rəvvadilər dövləti haqqında. Azərb.SSR EA Tarix İnstitutunun Əsərləri, XI c., 1957, s.27-44; Шарифли М. Торговля и торговые пути Азербайджана в XII-XIV веках. Из-во АзФАН СССР. Баку, 1944, с. 2-3, səh. 47-56; К истории города Шамахы.Изд-во АзФАН СССР, 1944, № 8, səh. 37-49). M. Şərifli həmçinin, üç cildlik Azərbaycan tarixi kitabının 1958-ci ildə işıq üzü görən I cildinin müəlliflərindən biri olmuşdur.

Azərbaycanın görkəmli tədqiqatçılarından biri olan Əlisöhbət Sumbatzadə də 1958-ci ildə nəşr olunmuş "XIX əsrdə Azərbaycanın kənd təsərrüfatı" adlı monoqrafiyasında sözügedən dövrdə Azərbaycan xalqının tarixi demoqrafiya məsələlərinə dair son dərəcə geniş məlumatlar vermişdir. Müəllif yazır ki, bütövlükdə XIX əsrin 30-50-ci illərində Azərbaycanda yetişdirilən taxıl nəinki ölkəni çörəklə təmin edir, hətta ordunu təchiz etməyə və satış üçün ixrac etməyə də bəs edirdi [14, 75].Müəllifin fikrincə, ölkədə taxıl istehsalının inkişaf dinamikasını izləməyə imkan verən əsas mənbə vilayət rəhbərlərinin, qubernatorların illik hesabatlarına edilən "Payızlıq və yazlıq əkin sahələri, onların məhsuldarlığına dair cədvəllər" adlı əlavələr olmuşdur [14, 73]. Ə.Sumbatzadə dövrün ideoloji tələblərinə uyğun olaraq birinci və ikinci Rus-

İran müharibələrindən sonra, Azərbaycanın Rusiya tərəfindən işğalını sözügedən monoqrafiyasının I fəslinin I hissəsini "Azərbaycanın Rusiyaya birləşdirilməsi və bu hadisənin XIX əsrin I yarısında ölkə iqtisadiyyatı üçün mütərəqqi əhəmiyyəti" kimi adlandırsa da, hadisələrin bütün gedişatı boyunca bu "mütərəqqi hadisə"nin əsl mahiyyətini tutarlı tarixi faktlarla açıqlamağa cəhd göstərmişdir. Belə ki, müəllif: "...beləliklə, çar hökuməti Azərbaycanda ayrı-ayrı xanların hakimiyyətini ləğv etməklə, heç də feodal dövlətçilik üsuli-idarəsini aradan qaldırmadı, sadəcə xanların hakimiyyətini komendantların hakimiyyəti ilə əvəz etməklə, köhnə dövrlərdən mövcud olan inzibati sistemdə müəyyən dəyişikliklər etməklə əhali, xüsusən də, feodal asılı kəndlilər üzərində feodal sinfinin cəbr aparatını gücləndirmiş oldu" – deyə yazır [14, 46].

Ə.Sumbatzadə bu fikrini əhali sayı ilə bağlı qiymətli demoqrafik məlumatları ilə də təsdiq edir. O, sonuncu Qarabağ xanı Mehdiqulu xanın varisi Cəfərqulu ağadan söhbət açarkən: "1822-ci ildə Qarabağda xanlıq rejiminə son qoyulduqdan sonra, bu mülk də (yəni, Cəfərqulu ağanın mülkü – A.M.) ləğv edilərək ona dair təsvir tərtib edildi. Həmin təsvirdən bəlli olur ki, 1824-cü ildə Cəfərqulu ağanın mülkündə 463 oturaq, 584 köçəri həyat sürən ailə mövcud olmuşdur" – deyə yazır [14,46-47].

Ə.Sumbatzadə sovet tarixşünaslığının ideoloji tələblərinə uyğun olaraq 1813-cü ildə imzalanmış Gülüstan müqaviləsindən sonra regionda dinclik və əmin-amanlığın hökm sürməsi səbəbindən Şimali Azərbaycanda əhalinin məskunlaşması prosesinin artdığını bildirmişdir [14.22]. Müəllifin fikrincə, bu proses Qarabağ xanlığında daha aydın şəkildə təzahür etmişdir. Belə ki, müəllif Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarına (AKAK) istinadən: "Gülüstan sülh müqaviləsindən cəmi 3 il sonra, İrandan 4.000 qarabağlı ailə öz yurduna dönmüş və hazırda Qarabağ xanlığında 7.872 ailə yaşayır. ...daha 6 il sonra, yəni 1823-cü ildə Qarabağda artıq 18.563 ailə yaşayırdı ki, bu da 1805-ci ildə burada mövcud olan 10.000 ailədən demək olar ki, 2 dəfə çox idi" [14,46].

Ə.Sumbatzadənin sözügedən monoqrafiyasında əhali məskunlaşması, əhalinin təbii və mexaniki artımı ilə bağlı faktlara tez-tez rast gəlinir. Müəllif əhalinin say dinamikasının sadəcə statistik göstəriciləri ilə kifayətlənmir, bu faktın ictimai-siyasi səbəblərini də araşdırmağa cəhd etmişdir.

Azərbaycanın XX əsrin 60-70-ci illər tarixşünaslığında Vətən tariximizin ən müxtəlif tarixi dövrlərinə dair bir çox qiymətli tədqiqat əsərləri meydana gəlmişdir. Bir-birindən maraqlı bu tədqiqat əsərlərində xalqımızın sosial-iqtisadi, siyasi-ictimai, mədəni və mənəvi problemləri çoxsaylı mənbələrə istinad olunmaqla elmi-obyektiv şəkildə öz əksini tapmışdır. Sözügedən dövrə dair tədqiqat əsərlərində Azərbaycan xalqının təbii və mexaniki artımı, daxili və xarici miqrasiyası, o cümlədən məskunlaşması kimi tarixi demoqrafik proseslərə təsir edən obyektiv səbəblər də işıqlandırılmışdır.

Məmmədəli Şəriflinin 1978-ci ildə işıq üzü görən "IX əsrin ikinci yarısı -

XI əsrlərdə Azərbaycan feodal dövlətləri" adlı monoqrafiyası ilkin ərəb və fars mənbələri əsasında tədqiq edilən və sözügedən dövrdə Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi həyatını son dərəcə geniş və elmi-obyektiv surətdə işıqlandıran unikal əsərdir. Bu monoqrafiyada müəllifin diqqət yetirdiyi məsələlərdən biri də əhali demoqrafiyası məsələsidir. Belə ki, M.Şərifli sözügedən əsərində ayrı-ayrı tayfaların Azərbaycanda məskunlaşması məsələsini mənbələr əsasında araşdırmağa cəhd göstərmişdir: "X əsrin məşhur tarixçisi Məsudi qeyd edir ki, hələ VI əsrdə Qafqaz dağlarında bir sıra istehkamların tikilməsi, səddlərin çəkilməsi, bununla əlaqədar olaraq bəzi tayfaların bu rayona köçürülməsi, buradakı xəzər, türk, sərir və s. tayfaların hücumlarından mühafizə etməkdən ibarət idi" [4, 34-35]. M.Şərifli dərhal həmin məlumatın ardınca məsələyə münasibətini bildirərək: Bu tayfaların əksəriyyəti çox qədimdən burada yaşayan yerli tayfalar idi" – deyə, yazır.

M.Şərifli, çoxsaylı türk tayfalarının Azərbaycana tarixən şimaldan gəldiyini və burada əvvəldən məskun olan türkdilli etnoslarla çox tez qaynayıb-qarışdığını həm etnik qohumluqla, həm də ərazinin coğrafi mövqeyi ilə izah edirdi: "X əsrdə Şirvan ərazisində müxtəlif tayfaların olmasının başlıca səbəbi bu ölkənin yaşayış üçün əlverişli olması, hərbi-strateji əhəmiyyətə malik olması, şimaldan cənuba və cənubdan şimala keçib gedən tayfaların burada məskən salması və sair bir sıra tarixi amillərlə izah edilməlidir".M.Şərifli elə bu səbəbdən də istər Qafqazda, istərsə də Azərbaycanda öz dilləri olan yüzlərlə etnosun məskunlaşmasını da bu səbəblə izah edir və fikrini əsaslandırmaq üçün ilkin mənbələrə müraciət edir: "Qafqaz dağlarında yaşayan tayfalar və onların dilləri haqqında ən dəqiqləşdirilmiş məlumatı İbn Hövqəl verir. O yazır ki, deyilənlərə görə Qafqaz dağlarında yaşayan əhali üç yüz altmış dildə danışır, mən əvvəllər özüm bir çox şəhərləri görməyənə qədər bu şəhərlərin hər birində türk (Azərbaycan) və fars dillərindən başqa yerli dillərin mövcud olmasınadək bunu inkar edirdim" [4, 35-36].

M.Şərifli Azərbaycan xalqının təşəkkülü prosesində müxtəlif türkdilli və digər tayfaların fəal iştirak etdiyini, o cümlədən, bu hadisənin öz əksini yaşayış məskənlərində əks etdirdiyini də əminliklə söyləmişdir: "... Hələ X-XI əsrlərdən başlayaraq təşəkkül etməkdə olan Azərbaycan xalqının tərkibinə bu tayfaların əksəriyyəti qarışıb assimilyasiya etmişdir. Bunlardan bəziləri öz xüsusiyyətlərini və dilini zəmanəmizə qədər saxlamışdır. Məsələn, xəzərlər, albanlar, zıxlar, şəkinlər, dudainlər və başqa tayfaların yalnız adları və yaxud adları ilə bağlı şəhər, kənd, dağ və yer adları qalmışdır" [4, 36].

Araşdırmada Azərbaycan tarixinin görkəmli tədqiqatçısı Ziya Bünyadovu (1923-1997) xatırlamamaq olmur. Belə ki, Z.Bünyadovun 1965-ci ildə nəşr olunan "Azərbaycan VII-IX əsrlərdə" adlı monoqrafiyasında sözügedən problemə dair yazırdı: "Azərbaycan əhalisinin türkləşməsi məsələsi, illər boyu davam etmiş bu prosesin başlanğıcının aydınlaşdırılması çox mürəkkəbdir və

bu məsələ indiyədək həll edilməmişdir. Bəzi tədqiqatçıların etdiyi kimi, türkləşmənin XI-XII əsrlərdə baş verdiyini qəbul etmək səhv olardı. Türkləri Azərbaycan ərazisinə kənardan gəlmiş bir ünsür hesab etmək də səhvdir, çünki onda, yerli böyük və çox yığcam türk tayfa təşəkküllərinin varlığına göz yumulur". Göründüyü kimi, digər tədqiqatçılardan fərqli olaraq Z.Bünyadov türklərin Azərbaycana kənardan gəlməsi fikri ilə nəinki barışmır, əksinə Vətənimizin tarixin ən qədim çağlarından türkdilli tayfaların məskunlaşdığı ərazi olmasını elmi baxımdan daha düzgün olması qənaətinə gəlir. Görkəmli alim fikrinə davam edərək: "Türkləşmə prosesi yalnız türk aborigenlərin cənubdan gələn oğuzlar və şimaldan gələn qıpçaqlarla qarışması nəticəsində, bunların assimilyasiyasından sonra başlandı və getdikcə sürətlənib XI-XII əsrlərdə qurtararaq, Azərbaycan və Arran ərazisində müasir Azərbaycan xalqının təşəkkül tapması ilə nəticələndi" – deyə, yazmışdır [1, 171].

Z.Bünyadov da Azərbaycanda müxtəlif dillərdə danışan, çoxsaylı etnosların və xalqların məskunlaşmasını özünəməxsus bir xüsusiyyət kimi qeyd edir. Məhz bu xüsusiyyət: "Azərbaycan əhalisinin ərəbləşməsinə mane olmuşdur". Müəllif Qafqaz albanların ərəb xilafəti dövründəki vəziyyətindən bəhs edərkən: "Ola bilsin ki, Arran əhalisinin bir hissəsi (albanlar) çox tez ərəbləşməyə məruz qalıb ərəblərlə qaynayıb-qarışmış, sonralar isə səlcuq türkləri gəldikdən sonra ərəblərlə birlikdə türkləşməyə məruz qalmışlar." – deyə yazırdı [1, 170].

C.İbrahimov 1962-ci ildə işıq üzü görən "XV əsr Azərbaycan ərazisində feodal dövlətləri" adlı əsərində yazırdı: "Müasir tarixşünaslıqda Azərbaycanın XV əsr sosial-iqtisadi quruluşu İ.Petruşevskinin "XV əsr Azərbaycan dövlətləri" adlı əsəri istisna olunmaqla tədqiq olunmamışdır". Müəllif sözügedən əsərində tarixi demoqrafiya baxımından böyük əhəmiyyət kəsb edən sosial-iqtisadi inkişaf məsələlərinə toxunaraq yazır ki, həmin dövrün səyyah və tarixçilərinin verdiyi məlumatlara görə XV əsrdə Azərbaycanın iqtisadi inkişafı heç də hər yerdə eyni səviyyədə olmamışdır [11, 53].

Görkəmli tarixçi Əlisöhbət Sumbatzadənin (1907-1992), 1964-cü ildə nəşr olunmuş "XIX əsrdə Azərbaycan sənayesi" adlı monoqrafiyasında müəllif çarizmin müstəmləkə əsarəti şəraitində Azərbaycanın XIX əsrdə iqtisadi inkişaf dinamikasını geniş surətdə işıqlandıra bilmişdir. Beş bölmədən ibarət bu son dərəcə geniş tədqiqat əsərinin hər bir hissəsi,hər bir bölməsi, hətta ayrı-ayrılıqda belə tədqiq olunan mövzunun əhatə dairəsinin genişliyi, müəllifin son dərəcə zəngin faktoloji materialları və mənbələri elmi dövriyyəyə cəlb etməsi baxımından böyük maraq doğurur.

"Paltar,ayaqqabı və ev məişətində istifadə olunan əşyaların istehsalı" adlanan birinci fəsildə adından da göründüyü kimi müəllif Azərbaycan kəndlisinin və şəhər əhalisinin istehlak etdiyi məhsulların böyük və mühüm sferasını tədqiq etmişdir.Müəllif XIX əsrin 30-cu illərində həmin əsrin 90-cı illərinin sonunadək Azərbaycanın demoqrafik inkişaf dinamikasına,artım

tempinə böyük önəm vermiş,tərtib etdiyi son dərəcə dəyərli sxemdə Azərbaycanın ayrı-ayrı bölgələri üzrə həm kişi,həm də hər iki cinsin sayını göstərməklə istehlak və istehsal arasındakı üzvi asılılığın sintezini yarada bilmişdir. Bu cədvəllərdən bəlli olur ki, Azərbaycanın şəhər əhalisi XIX əsrin 30-cu illərində 84 min nəfərdən,həmin əsrin 60-cı illərinin ortalarında 134 min nəfərədək, yəni, 50 min nəfərədək artmışdır [13.23-44].

Azərbaycan tarixşünaslığında tarixi demoqrafiya məsələlərini özündə əks etdirən maraqlı tədqiqat əsərlərindən biri Tağı Musəvinin 1967-ci ildə işıq üzü görən "Bakı tarixinə dair orta əsr sənədləri" adlı əsərində Azərbaycan tarixinə dair çox maraqlı faktlar öz əksini tapmışdır. Kitabda istifadə olunan ilk mənbələrdən, xüsusilə dövrün ən etibarlı mənbəsi sayılan Fəzlullah Rəşidəddinin "Came ət-təvarix" əsərindən məlum olur ki, Qazan xan 1300-cü ildə Bakıya gəlmiş və Bibiheybət məqbərəsini ziyarət edərək orada məscid tikilməsi haqqında göstəriş vermişdir. Həmin dövrdə Şirvanın hökmdarı olan Fərruxzad bin Əxşican və ya Əxistan isə, məhz Qazan xanın göstərişi əsasında qeyd edilən məscidi tikmişdir [15,324; 3.8]. Qazan xanın 1295-ci ildə İslam dinini qəbul etməsi təbii ki, Hülakülər dövlətinin tabeliyində olan müsəlman əhalisinə qarşı münasibətini də müsbət mənada dəyişmişdir. Bu isə, əhalidən alınan çoxsaylı vergilərin ləğv edilməsi, ticarət, məhkəmə, rabitə və ictimai həyatın digər sahələrində müsbət addımların atılması – islahatların həyata keçirilməsi ilə nəticələnmişdir. Təbii ki, bütün bu sosial-iqtisadi tədbirlər Azərbaycan əhalisinin təbii və mexaniki artımına müsbət təsir göstərmişdir. Qazan xanın mərkəzi dövləti gücləndirmək cəhdləri nisbi siyasi sabitliyin əldə olunmasına, bu isə oturaq əhalinin məskunlaşması prosesinə ciddi təsir göstərmişdir.

T.Musəvi Osmanlı-Səfəvi müharibələrinin Azərbaycan əhalisinin sosial-iqtisadi və deməli, demoqrafik durumuna ciddi zərər vurduğunu konkret faktlarla tətqiq etmişdir. Müəllif müharibələrin yaratdığı qarışıqlıqdan yetərincə faydalanmağa cəhd göstərən Səfəvi hökmdarlarının hətta vəqf torpaqlarının da öz mülkiyyətləri kimi rəsmiləşdirmələrini məhz həmin illərin xaosu kimi qələmə verir. T.Musəvi adı çəkilən əsərində əsasən fars mənbələri əsasında Azərbaycan əhalisinin sosial-iqtisadi vəziyyətini təsvir etmişdir [3, 41-42].

Öz əsərlərində avropalı səyyahların məlumatlarına geniş yer ayıran görkəmli tədqiqatçı Yaqub Mahmudovun 1972-ci ildə nəşr olunan "Öyrənilməmiş səhifələr" adlı kitabında Azərbaycan Ağqoyunlu dövlətinin yadellilərin təcavüzkarlığına qarşı mübarizəsini, müxtəlif ölkələrlə, o cümlədən Avropa ölkələri ilə qurduğu diplomatik əlaqələri geniş surətdə işıqlandırmışdır. Sözügedən kitabda Azərbaycanın ilk qadın diplomatı Sara xatun, dövrünün görkəmli sərkərdəsi Uzun Həsənin və digər dövlət xadimlərimizin fəaliyyəti, o cümlədən xalqımızın məişəti, adət-ənənələri və həyat tərzi haqqında maraqlı məlumatlar əks olunmuşdur. Məsələn, müəllif toy adətlərimizdən bəhs edərkən:

"...O zaman hətta Azərbaycanda da, varlı ailələrin qız köçürərkən Venesiya güzgüsü verməsi dəb düşmüşdü" [2, 18]. Kitabda demoqrafik baxımdan maraq kəsb edən ailə quruculuğu, nikah məsələlərinə dair son dərəcə qiymətli olan bilgilər də öz əksini tapmışdır. Buradakı məlumatlardan məlum olur ki, azərbaycanlı ailəsi evinə, ocağına gəlin seçərkən onu ağıllı, xoşxasiyyətli olmasına xüsusi önəm vermişdir. Döyüşlərdən birində əsir düşmüş Trabzon imperatorunu Ağqoyunlu hökmdarı Uzun Həsənin yanına gətirdikdə ondan soruşmuşdu: "Hansı məbləğdə özümü satın ala bilərəm?" Uzun Həsən isə cavabında: "Arzu etdiyim adam əlimə düşmüşdür. Mən onu pulla qiymətləndirmirəm. Deyilənə görə, sizin Feodora adında ağıllı və xoşxasiyyət qızınız var. Onu mənə ərə verin" – demişdi. Trabzon imperatoru "biz xristian, siz isə bütpərəst olduğunuz halda mən bunu necə edə bilərəm?" – deyə etiraz etdikdə Uzun Həsən "bu məni narahat etmir" demişdi. Bundan sonra Feodora Ağqoyunlu sarayına göndərilmişdi. Bu fakt xalqımızın tarixən multikultural dəyərlərə hörmət göstərdiyini, irqindən, milliyyətindən və dinindən asılı olmayaraq bütün qadınlara ehtiramla yanaşdığını, analarımızın, qız-gəlinlərimizin ailənin saflıq və ucalıq rəmzi, toxunulmazlıq simvolu hesab edildiyini aşkar surətdə göstərir.

Y.Mahmudov sözügedən kitabında Uzun Həsənin hakimiyyəti dövründə Ağqoyunlu dövlətinin iqtisadi cəhətdən möhkəmlənməsini də, xüsusi olaraq qeyd etmişdir. Bununla bağlı müəllif yazır: "O, hakimiyyətə gələrkən Ağqoyunlu dövləti ərazicə geniş olsa da, iqtisadi və siyasi cəhətdən o qədər də möhkəm deyildi. Tez-tez yadellilərin hücumuna və qarətinə məruz qalmış Ağqoyunlu dövləti ərazisində ümumi iqtisadi tərəqqi pozulmuşdu. Kənd təsərrüfatının inkişaf səviyyəsi xüsusilə aşağı idi" [2, 45]. Həqiqətən də, Uzun Həsənin həyata keçirdiyi islahatlara qədər, əhali çoxlu – 31 növ vergi verir və çoxsaylı mükəlləfiyyətlər daşıyırdılar. Təbii ki, bütün bunlar əhalinin təbii və mexaniki artımına mənfi təsir göstərirdi. Ölkədə siyasi sabitliyin olmaması, mərkəzi hakimiyyətə tabe olmaq istəməyən hərbçi əyanların getdikcə qüvvətlənməsi dövlət üçün olduqca təhlükəli idi. Ümumiyyətlə, siyasi sabitliyin olmaması bütün dövrlərdə əhalinin təkrar artımını əngəlləyən ciddi səbəblərdən biri olmuşdur. Tez-tez baş verən feodallararası çəkişmələr əhalinin ərzaq təminatına maneələr yaradır, uşaq ölümünün artması ilə nəticələnirdi. Təbii ki, bütün bunlar görkəmli və uzaqgörən dövlət xadimi Uzun Həsəni narahat etməyə bilməzdi. O, yaxşı başa düşürdü ki, güclü dövlət yaratmaq üçün, onun suverenliyini qoruyub saxlamaq üçün əhalinin sosial-iqtisadi güzəranını, maddi rifahını yüksəltmək lazımdır.

Y.Mahmudov yazır: "Uzun Həsən özündən əvvəlki Ağqoyunlu hakimlərindən fərqli olaraq oturaq əhaliyə arxalanmağın zəruri olduğunu anlayırdı. Buna görə də, o, Ağqoyunlu dövlətini iqtisadi və siyasi cəhətdən qüvvətləndirmək üçün sonralar "Həsən padşahın qanunları" adı ilə məşhurlaşan, hətta

XVI əsrdə də qüvvədə qalan "Qanunnamə" hazırlatdı. Bu "Qanunnamə"yə əsasən, kəndlilərdən alınacaq vergilər müəyyənləşdirildi və dəqiqləşdirildi, vergi sistemi nisbətən səhmana salındı. Vergi yığan məmurların özbaşınalığı azaldı". Nəticədə, əhalinin vəziyyəti xeyli yüngülləşdi: "Uzun Həsən qanunları ölkədə məhsuldar qüvvələri xeyli canlandırdı, kəndli və sənətkarlardan alınan vergilərin birbaşa xəzinəyə axması təmin olundu. Dövlət iqtisadi cəhətdən xeyli qüvvətləndi" [2, 46].

Ümumiyyətlə, Azərbaycan xalqının ailə quruculuğu ilə bağlı təfəkkür və düşüncə tərzində ailənin əxlaqi-mənəvi dəyərləri, prinsipləri həmişə böyük önəm kəsb edib. Sözügedən kitabda Y.Mahmudov xalqımızın məskunlaşdığı əraziləri də göstərmişdir: "...XV əsrin 60-70-ci illərində Xorasandan Qaramana qədər, Kür çayından İran körfəzinə qədər yerləri əhatə edən Ağqoyunlu dövləti Yaxın və Orta Şərqdə böyük hərbi-siyasi qüvvə idi [2, 24].

Oqtay Əfəndiyevin (1926-2013) Səfəvi dövlətinin tarixinə dair yazdığı əsərlər də böyük maraq və əhəmiyyət kəsb edir. O.Əfəndiyevin 1961-ci ildə nəşr edilən "XVI əsrin əvvəllərində Azərbaycan Səfəvi dövlətinin yaranması" adlı əsərində yazır: "İlk mənbələrdəki məlumatların qeyri-səlisliyi bizə sözügedən dövrdə zəhmətkeş kütlələrin və rəiyyətin vəziyyətini aydın şəkildə təsvir etmək imkanını yaratmır. ... Qeyd etmək lazımdır ki, I Şah İsmayıl mərkəzi dövlət yaratmaq işinin öhdəsindən gələ bilmədi" [17, 100]. O. Əfəndiyev Səfəvilər dövlətində də istər qızılbaş tayfa başçılarının mərkəzi hakimiyyətə tabe olmamaları, istər fasiləsiz ara müharibələri, bir-biri ilə çəkişmələri, istərsə də Osmanlı-Səfəvi müharibələrinin xalqın sosial-iqtisadi vəziyyətini son dərəcə ağırlaşdırdığı faktoloji materiallar əsasında tədqiq etmişdir: "... Xarici, qeyri-iqtisadi amillər də şəhərlərin yüksəlişi, yaxud tənəzzülü. Bəzən də sonrakı mövcudluğu üçün az əhəmiyyətə malik deyildi. Onların sırasında Səfəvi-Osmanlı müharibələrini (1514, 1533, 1578-1590), feodal çəkişmələrini, aclığı, epidemiyaları və s. göstərmək olar" [17, 108-118, 138].

Tarixi demoqrafiya məsələlərini araşdıran tədqiqatçılardan biri də A.P. Xomenkodur. Onun 3 fəsildən ibarət "Ailə və əhali artımı" adlı kitabında nikah, müasir ailə, əhali artımı ilə bağlı problemlər son dərəcə geniş və ətraflı bir şəkildə tədqiq olunmuşdur. Müəllif sözügedən kitabın "Ailə yenidənqurma prosesində" adlı birinci fəslində qadın-kişi münasibətlərinin incəliklərinə toxunaraq belə qənaətə gəlir ki, kişi intim əlaqələrini davam etdirmək istəmədiyi qadınamünasibətində çox vaxt uşağın doğulmasından sonra fərqli cür yanaşaraq onunla kəbin kəsdirir, ailə bağlarını möhkəmləndirir. Müəllifin fikrincə, bəzən qadının özü əlaqədə olduğu, yaxınlıq etdiyi kişi ilə hələ uşaq doğana qədər bu və ya digər səbəblər üzündən münasibətlərini dayandırmaq haqqında düşünür. Müəllif belə hesab edir ki, əgər qadının kişi ilə münasibətlərində belə bir hal varsa, bu zaman nikahdan danışmaq tezdir [16, 31].

Müəllif əhali artımı üçün mühüm vasitə olan ailə institutunun möhkəm

təməl prinsipləri üzərində qurulmasını sosial-iqtisadi, mədəni-mənəvi, ictimai-siyasi amillərlə qırılmaz əlaqələrini də ön plana çəkmişdir. O, qadının sərbəstliyini onun təhsili, dünyagörüşü, cəmiyyətdə tutduğu mövqeyi, ictimai fəallığı və bir çox digər amillərlə əlaqələndirərək ailə münasibətlərində ən vacib, ümdə problem kimi səciyyələndirir. Növbəti fəsillərdə isə, müəllif əhali artımına təsir edən sosial-iqtisadi amilləri, ananın yaşı ilə körpələrin doğum və ölüm koeffisenti kimi demoqrafik problemləri tədqiq etmişdir.

Tarixi demoqrafiya sahəsində geniş tədqiqatlar aparan müəlliflərdən biri də A.Q.Vişnevskidir. Onun 2005-ci ildə işıq üzü görən "Seçilmiş demoqrafik əsərlər" adlı 2 cildlik kitabında demoqrafik nəzəriyyələr və demoqrafiya tarixinə dair son dərəcə maraqlı araşdırmalar aparılıb. Sözügedən əsərdə müasir dövrün ən mühüm qlobal problemlərindən biri olan demoqrafik inqilab yaxud demoqrafik keçid məsələsi gündəmə gətirilir. Kitabda müasir demoqrafik proseslərin motivasiyası, tarixi demoqrafik problemlərə müxtəlif rakurslardan yanaşma diqqət çəkir. O cümlədən, XIX əsrin ortalarından başlayaraq Rusiya əhalisinin inkişaf dinamikasına dair kitabın dörd fəsildən ibarət I cildində əhali artımı və onun tarixi tipləri, ənənəvi müasir ölüm tipinin meydana gəlməsi, müasir və ənənəvi doğum tipləri, nikah münasibətlərində baş verən dəyişikliklər və s. bu kimi çoxsaylı demoqrafik proseslər tədqiq olunub. Kitabın II cildi isə, əsasən iqtisadi demoqrafiya və demoqrafik proseslərin analizi məsələlərinə həsr edilib. Burada əhalinin doğum və ölüm dinamikasının əhali strukturuna, iqtisadi proseslərə təsiri, o cümlədən mühüm siyasi proseslərin (məsələn, kitabın "1930-1950-ci illərin repressiyaları. Repressiyalardan doğan demoqrafik itkilər" adlı hissəsində) əhalinin say, cins tərkibinə göstərdiyi təsirlər çoxsaylı faktlar əsasında araşdırılıb [8].

A.Xrepkovanın D.Kolesovla birgə yazdığı "Ailədə oğlandır ya qız", A.Volkovun redaktəsi ilə yazılan "Demoqrafik proseslər və onların qanunauyğunluqları", A.Susokolovun redaktəsi ilə yazılan "Yüz millət və xalq", D.Valentayın redaktəsi ilə yazılan "Əhali məskunlaşması nəzəriyyəsinin əsasları", D.Bromley və R.Podolnının müəllifi olduqları "Bəşəriyyət – xalqlardır" və bir çox digər rus demoqraf-alimlərinin əsərlərində tarixi demoqrafiyanın ən müxtəlif aktual problemləri tədqiq olunmuşdur.

Beləliklə, Azərbaycan və Rusiyanın XX əsrin ikinci yarısı tarixşünaslığında əhalinin artım və azalmasına, o cümlədən məskunlaşmasına təsir göstərən mühüm sosial-iqtisadi, ictimai-siyasi proseslər etibarlı mənbələrə istinad olunmaqla elmi-obyektiv şəkildə əks olunmuşdur. Məhz bu dövrdə Azərbaycan və Rusiyanın tədqiqatçıları öz əsərlərində ayrı-ayrı tarixi dövrlərdə əhalinin təbii və mexaniki inkişaf artımına təsir göstərən amilləri sırf sözügedən dövrə dair ictimai-siyasi, sosial-iqtisadi, mənəvi-psixoloji və milli dəyərlər zəminində araşdırmağa cəhd etmişlər. Məhz XX əsrin ikinci yarısında Azərbaycan və Rusiya tədqiqatçıları tarixi demoqrafiyaya dair tədqiqatlar aparmağa başlamış və

bir çox sanballı əsərlər yazmağa nail olmuşlar.

**Ədəbiyyat**


1. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, Azərnəşr, 1989, 336.
2. Mahmudov Y. Öyrənilməmiş səhifələr. Bakı, Gənclik, 1972, 97 s.
3. Musəvi T. Bakı tarixinə dair orta əsr sənədləri. Bakı, AzSSR EA, 1967,149 s.
4. Şərifli M. IX əsrin ikinci yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, Elm, 1978, 343 s.
5. Алиев И. О мидийском обществе. Б., АН АзССР, 1948, №10
6. Алиев И. О некоторых вопросах двернейшей истории мидийских племен. Баку, Труды Института истории и философии, 1954. V вып, с.159-170
7. *Ализаде* А. *Социально-экономическая* и *политическая история Азербай джана XIII–XIV* вв. Баку, АН АзССР, 1956, 420 с.
8. Вишневский А.Г. Избранные демографические труды: В 2 т. Том 1. Москва, Наука, 2005, 368 с.
9. Джафарзаде И. Следы древнейшей культуры человека на территории Азербайджана. Сборник статей по истории Азербайджана. Баку, Изд-во АН Азерб. ССР, 1949. I вып, с. 15-34
10. Дьяконов И. Первобытно-общинный строй на территории Мидии. Баку., ТИИАз. - 1954. Т. 5, с.5-52
11. Ибрагимов Дж. Феодальные государства на территории Азербайджана. Баку, АПИ, 1962, 111 с.
12. Левиатов В. Очерки из истории Азербайджана в XVIII веке. Баку., АН АзССР, 1948, 227 с.
13. Сумбатзаде А. Промышленность Азербайджана в XIX в. Баку, АН АзССР, 1964, 500 s.
14. Сумбатзаде А. Сельское хозяйство Азербайджана в XIX в. Баку, АН АзССР, 1958, 363 с.
15. Фазлуллах Рашид-ад-дин. Джами-ат-таварих. Баку, АН АзССР, 1957, 540 с.
16. Хоменко А. Семья и воспроизводство населения. Москва, Статистика, 1980, 223 с.
17. Эфендиев О. Образование Азербайджанского государства Сефевидов в начале XVI века. Баку, АН АзССР, 1961, 207 с.

# ORTA ƏSRLƏRDƏ XRİSTİAN MAARİFÇİLİYİ VƏ ŞUŞA

**Elmira Kazım qızı**
**Məmmədova (Süleymanova)**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
suleymanova.elmira1954@mail.ru

***Açar sözlər:*** *məkan, maarifçilik, qıpçak-alban dili, arxeoloji maddi mədəniyyət nümunələri*

*Məqalə Azərbaycanda türk xristian maarifçiliyinin tarixinə həsr olunub. Xristian maarifçiliyinin yazılı irsi əsasında göstərilir ki, erməni saxtakarları qıpçaq türk dilini qədim ermənilərin dili elan edərək albanların xristian maarifçiliyini erməni mədəyiyyəti kimi elan etmişlər.*

*Erməni saxtakarlarının fikrincə, alban təhsilinin türk xristian xadimləri Mxitar Qoş, vardapet Vanakan, Yovhannes Sarqavak, Kirakos Gənçəli, Movses Kalankatlı, Qriqori Hamama, Yesai Həsən Cəlal, vardapet Vardan və bir çox başqaları erməni müəllifləridir. Hətta türkxristian təhsilinin mərkəzləri olan alban kilsə və monastrlar da onlar tərəfindən "erməni memarlığının şah əsərləri" kimi təqdim olunur. Məqalədə göstərilir ki, albanların yazılı və maddi irsləri xristian mədəniyyətinin bir parçası olaraq özünəməxsusxüsusiyyətləri var. Odur ki, bu mədəniyyətin inkişafında albanların doğma türk dili və fəlsəfəsi əsas yer tuturdu.Qeyd olunur ki, türk xristian mədəniyyəti ermənilər tərəfindən mənimsənilib.*

## ШУША И ХРИСТИАНСКОЕ ПРОСВЕЩЕНИЕ В СРЕДНЕВЕКОВЬЕ

**Эльмира Казым гызы**
**Мамедова (Сулейманова)**

***Ключевые слова:****пространство, просвещение, кыпчакско-албанский язык, образцы археологической материальной культуры*

*Статья посвящена истории тюркского христианского просвещения в Азербайджане. На основе письменного наследия христианского просвещения указано, что армянские фальсификаторы, объявив кыпчакский тюркский язык языком древних армян, вместе с этим объявили и культурное албанское христианское просвещение армянским. Согласно армянским фальскификаторам христианские деятели албанского просвещения Мхитар Гош, вардапет Ванакан, Йовханнеса*

*Саргавак, Киракос Гянджинский, Моисей Каланкатуйский, Григорий Хамама, Есайи Хасан Джалал,вардапет Вардан и многие другие представляют плеяду армянских авторови центры албанского христианского просвещения– церкви и монастыри, преподносятся ими как «шедевры армянского зодчества». В статье на основе письменного и материального наследия албан воссоздана христианская тюркская культура. Вместе с этим показано, чтохристианская тюркская культура албан является частью общей христианской культуры с присущими ей самобытными чертами развития, которые присвоены армянами.*

## SHUSHA AND CHRISTIAN ENLIGHTENMENT IN THE MIDDLE AGES

**Elmira Kazim gizi Mammadova**

***Keywords:****space, education, Kıpchak-Albanian language, samples of archaeological material culture*

*The article is devoted to the Christian history of the Turkic enlightenment in the historical territory of Azerbaijan. The topic of Christian education in the historical territory of Azerbaijan has always been and to this day is a bone of contention between Armenian and Azerbaijani scientists, as it is of great political and geopolitical importance in the issue of disputed territories between the two states.It is shown that the discussion on this issue of history is conducted in a very tough and uncompromising tone. On the basis of the written heritage of Christian enlightenment, it is indicated that Armenian falsifiers, having declared the Kypchak Turkic language the language of ancient Armenians, declared the cultural Christian Alban to be Armenian. According to Armenian falsifiers, Christian figures of Albanian education Mkhitar Gosha, vardapet Vanakan, YovhannesSargavak, KirakosGyandzhinsky, Moses Kagankatuysky, GrigoryHamama, Yesai Hasan Jalal vardapet Vardan and many others are included in the galaxy of Armenian authors.Albanian churches and monasteries, centers of Christian education, are presented by them as "masterpieces of Armenian architecture". Based on the written and material heritage, the Christian culture of the Albanians is recreated and it is presented that the Christian Turkic culture of world significance was appropriated by the Armenians.*

Qarabağın tacı olan Şuşanın təməli 1752-ci ildə qoyulsa da Şuşanın məkanı həqiqətən xalqımız üçün müqəddəs və əzizdır. Çünki qədim Azəbaycan torpağında təməli qoyulub. Şuşanın məkanı tarixi dövlət olan Qafqaz Albaniyasının bir parçasıdır. Hansı ki, müasir Azərbaycan, hazırkı Ermənistan

və Gürcüstanın böyük ərazilərində, həmçinin Cənubi Dağıstan ərazilərində bu dədim dölətimiz mövcud idi. Bu böyük ərazinin hüdüdlarını Qarabağın qədim əhalisi olan alban türkləri vahid dövlətə birləşdirmişdilər. Hələ sivilizasiyanın astanasında alban türkləri Qarabağın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.

Bu böyük məkanda ayrı-ayrı dövrlərdə müxtəlif dinlər biri digərini əvəz etmiş olsa da, dini inanclar dəyişsə də öz tarixi-etnik torpağına bağlı olan yerli xalqlar bir qayda olaraq adət-ənənə özəlliyini, milli xüsusiyyətini qoruyub saxlamışdır. (13, 428 s.)Lakin zaman və dövrün təsirindən asılı olaraq, müxtəlif dini ideologiyanın mövcudluğu və bununla əlaqədar müxtəlif həyat tərzi, mənəvi mədəniyyətin fərqli xüsusiyyətlərini meydana çıxardır. Albaniyada xristianlığın müsəlmanlıqla əvəz olunduğu zaman Qarabağın dağlıq ərazisində yaşayan və xristianlıq dini ideologiyasına rəsmi 313-cü ildən etiqad etməkdə davam edən avtoxton albanlar çətinliklər və ağır mübarizə şəraitində öz xristian varlığını və Alban Həvari Kilsəsi 1836 – cı ilə kimi qoruya bilmişlər. 1836 - cı ildə isə Rusiya tərəfindən erməni Qriqorian kilsəsinin tabeçiliyinə verilərək Alban Həvari Kilsəsinın fəaliyyəti tam dayandırılmışdır.

Qarabağ ərazisində dini ayrılığın davam etməsi nəticəsində avtoxton albanların öz xristian varlığını və Alban Həvari Kilsəsini XIX əsrin birinci yarısına qədər saxlamasının vacib səbəblərindən biri də bölgədəki xristian maarifciliyinin fəaliyyətinin nəticəsidir. Azərbaycanın maarifçilik tarixində xristian maarifçiliyinin özünəməxsus xüsusiyyətləri və əhəmiyyətli yeri var.

XIX əsrin 30-cü illərinə qədər xristian komplekslərdə alban yepiskopunun iqamətgahı yerlışirdi və dini maarif mərkəzi fəaliyyət göstərirdi. Xristian maarifciliyini inkar etmək mümkün deyil. Külli miqdarda yazılı mənbələr, xristian monastırlar, kilsələr, ilk xristian missionerlərin fəaliyyəti, onların buradakı qəbirləri, ümumiyyətlə, xristian qəbirləri, xristian yaşayış məntəqələri və s. kimi xristian izləri sübüt edir ki, Azərbayçanın tarixi ərazisi xristian mədəniyyətinin mərkəzlərindən biri olub. Azərbaycanda xristian maarifçiliyinin mövcüd olması, inkişaf etməsi, xristian maarif mədəniyyətində mərkəzlərin birinə cevrilməsi Azərbaycan xalqı üçün heç də yad bir proses deyil. Əksinə xristian maarifçiliyinin tarixi ölkə tarixinin bir pilləsidir və bu pillədə xristian türk maariflərin yeri və rolu əhəmiyyətlidir.Bizim ulularımız olan xristian albanların istər içtimai-siyasi, istər sosial-iqtisadi, istərsə də mədəni həyatının tarixi Azərbaycan türklərinin ən gözəl tarixidir.



Musa Kalankatlının"Alban ölkəsinin tarixi" əsərinin miniatürlü əlyazmasında təsvir edilmiş alban ordusu göstərilir. Şəkilə baxanda bilmək olur ki, alban əsgərləri daha çox kimlərə bənzəyir. Müəllifin özü əsərində alban xalqından ətraflı məlumat verilmişdir. Həmin məlumat bizə əsas verir ki, albanları türk kimi qəbul edək.Bu əsərin orijinal dili olan alban(qıpçak) dilində olan əsər dövrümüzə qədər gəlib çatmışdır. Lakin, təəssüflər olsun ki, Matenadaranda saxlanılan bu əsər alimlərin üzünə bağlıdır və ermənilər bunu rus dilinə çevirəndə qəsdən təhriflərə yol veriblər.Lakin müqayisəli metoddan istifadə edərək Alimlərin və albaşünasların bu əsərin alban dilində yazıldığını çoxdan sübut etmişlər.

Xristianlıq Azərbaycan ərazisinə yeni eranın ilk əsrlərində, hələ İsa Məsihin həvariləri dövründə Qafqaz Albaniyası vasitəsilə nüfuz etmişdir və həvarilərdən Varfolomey və Faddeyin adları ilə bağlıdır.

Həvari Faddeyin şagirdlərindən biri olan Yelisey Yerusəlimin birinci patriarxı Yəqubun xeyir-duası ilə yeni dini təbliğ edə-edə Aqvan diyarına gəlib çıxmış və Kiş adlı yerdə kilsə tikmişdir. Bu kilsə Cənubi Qafqazın ən qədim kilsəsidir və xristian maarifçiliyində onun yeri əvəzsizdir

Sonra Yelisey Çolaya (Dərbəndə) yollanmış, daha sonra isə Samur çayını keçib dinin təbliğini davam etdirmiş, Helmes kəndində bütpərəstlər tərəfindən öldürülərək bir çalaya atılmışdır. Sonralar Alban məliki Vaçaqanın göstərişi ilə Yeliseyin cəsədinin qalıqları Xruq kəndində torpağa tapşırılmış, çalanın üzərində isə kiçik bir məbəd tikilmişdir.



Şərq kilsələrinin anası və mitropoliya olmuş, Kişdə hələ xristianlıqdan da öncə Qafqaz Albaniyasında xüsusilə rəğbət bəslənilən Selena ilahəsinə həsr olunmuş məbədin mövcud idi. Burada xristian maarifçiliyinin mərkəzi kimi Giş Kürmük arxiyekiskopluğu, sonra isə Yelisey, Çuketi və Şəki yekiskoplarının mərkəzi yerləşmişdir. Bu alban kilsəsi Cənubi Qafqazda , eləcə də bütün xristian dünyasında olan qədim xristian kilsələrindən biridir və xristian maarifçiliyində onun yeri əvəzsizdir. XIX əsrin birinci rübünə qədər Kiş kilsəsi xristian maarifçiliyin əsas mərkəzi kimi fəaliyyət göstərirdi.

Alban Kiş kilsəsində başlayan türk xristian maarifçiliyi Albaniyada xristianlığın rəsmi dinə cevrilməsindən sonra Kür-Araz ovalılığında xristian komplekslərdə öz fəaliyyətini davam etdi. Laçın rayonunda yerləçən Ağoğlan monastrı, Xocəvənd rayonunda Amaras monastrı, Ağdərə rayonunda Gəncəsar

monastrı və Müqəddəs Yelisey məbədi, Kəlbəcər rayonunda Xudavənq monastrı, İcəvan rayonunda Qoşavənq monastrı, indiki Ermənistanın ərazisində Tatevvənq (Sisian şəh), Kafanvənq (Kafan şəh), Axpat və Sənain (Alaverdı şəh) və s. monastırlar, hansılar ki, XIX əsrin 30-cu illərinə qədər alban yepiskopların igamətkahı və dini maarif mərkəzi kimi fəaliyyət göstərirdilər. Alban türk xristian monastr komplekslərindən indiyə qədər qalan abidələr memarlığın ən gözəl incilərindəndir, onlar bizim müxtəlif süjetli mirasımızdır, albanların xristian aləmində özünəməxsusluğu ilə seçilməsinin təsdiqedici müəllifləridir. Azərbaycan xalqının alban mədəniyyətinin varisliyini vurğulayan faktiki mahir əmanətdir.



Qafqaz Albaniyası xristian maarifçiliyinin mötəbər ocağı Nor Qetik monastırı olub. Monastr indiki Ermənistanın İcevan (Karvansaray) rayonunda Kirovakan (Böyük Qarakilsə) şose yolunun sağ tərəfində Turşsu bulağının yuxarısında yerləşən qədim alban məbədidir. İki abidədən ibarətdir. Birinci abidə1021-ci ildə, ikinci isə XII yüzildə tikilmişdir. İkinci abidə gümbəzsizdir. Məbədin yerləşdiyi ərazi ən qədimdən türk boylarının ana yurdu olmuşdur. VII-ci əsrdən başlayaraq yerli əhalinin xristian və müsəlmanlara bölünməyinə baxmayaraq onları birləşdirən vasitə ana türk dili olub. Bu ərazi türk dövlətçilik sisteminin bir hissəsi kimi XVIII əsrin sonuna qədər daimən türk mədəniyyətinin ənənələri davam edirdi

XVIII əsrin ortalarında Karvansarayın ərazisində Qazax-Şəmşəddil sultanlığı yaranmışdı və onun Böyük Qarakilsə adlı şəhəri bu sultanlığın paytaxtı idi. XIX əsrin əvvəllərində sultanlıq ləğv olunur əvəzində çar höküməti 1806-cı ildə Qazax-Şəmşədil tatar distansiyası adlı inzibati bölüm yaradır. Həmin vaxtdan bu ərazilərə Qacar və Osmanlı Türkiyədən ilk ermənilər köç etmişlər və proses ərazinin etnik mənzərəsini dəyişir.



Nor Qetik monastırında maarifçiliyin tanınmış nümayəndələrindən biriXIII əsrdə böyük nüfuza malik ehkamçı kilsə mərasimləri üzrə əvəz olunmaz məsləhətçi, eləcə də kilsə qanun-qaydaları, monastr nizamnaməsi

məsələlərində həlledici rəyi olan Mxitar Qoşdur. Mxitar Qoş Gəncə şəhərində doğulmuşdur. Təhsilini əvvəlcə Tovuzlu Yovhannesdən almış, sonra isə Kilikiyada oxumuşdur. Qayıdarkən Qetik monastırında məskən salmışdır. O, Xacın knyazı Vaxtanqın köməyi ilə 1131-ci il zəlzələsində dağılmış Qetik monastırı bərpa etdi. Yenidən yaradılmış monastır Nor Qetik (Yeni Qetik) adlandırıldı. Lakin Nor Qetik daha çox ikinci adla Qoşavənd – Qoşun monastırı kimi tanınır. Qoş ömrünün sonuna qədər burada yaşamışdır. Mxitar Qoş Nor-Qetik monastırında dəfn olunub. Qəbrin yanında ona qoyulan abidə

Mxitar Qoş Nor Qetik monastırında öz məktəbinin əsasını da qoymuşdür. Onun tanınmış şagirdləri XIII əsrin məşhur filosofu, tərçüməcisi, tarixçisi, coğrafyaşünası Vardan Areveltsi (Böyük Vardan) və dövrün böyük xristian ilahiyyatçısı Vardapet Vanağan olmuşlar. Əlimizdə olan məlumatların əksəriyətini Vanakanın yetirməsi.Onun əsərlərin sırasında bizə məlum olan külli miqdarda pritçalar, təmsillər, məşhur Qanunnamə, Alban salnamələri, Aqioqrafik əsər “Gəncəli Xosrovun şəhid olması” .




Mxitar Qoşun yazdığı “Qanunnamə “əsəri dünyaca məhşur olan xristian qanunlar toplusudur. Əsər qiriş və iki hissədən - dünyavi və dini qanunlardan ibarətdir və dövrümüzə qədər alban dilində gəlib çatıb. Alban dilində yazılmış bu əsər Qıpçaq türkcəsindədir. Qanunnamə albanca “Törə Bitiqi” adlanir. Gəncədə anadan olan, mənşəcə alban ilahiyyatçısı və ziyalısının Qıpcaq türkcəsidə yazdığı bu Qanunnamə Albanların qəti olaraq Türk olduğunu sübut edir. Albanlar ərazidə xalqları birləşdirərək Türk dövləti yaratmışlar Albanların xristian dövlət sistemində türk xristian maarifçiliyin ənənələrini qöstərir .Əsərin dövrümüzə qədər qipçak dilindəgəlib çatmış nüsxələri Rusiyanın Milli kitabxanalarında, İrəvandakı Matenadaran muzeyində. avropadakı kilsələrdə saxlanılır.



Nor Qetik monastrının məktəbi bir çox alimlər və ilahiyyatçılar yetişdirmişdir.Mənbələr Aravelsi, yəni Şərqli və Nor Qetik monastrnın adı ilə

əlaqədar Qetisi adlandırırla Kirakos Gəncəli onlardan biri idi. O, 1201-ci ildə Gənçədə (Qandzax) anadan olmuş, 1271-ci ildə vəfat etmişdir. Kirakos Gəncəli erməni, fars, türk və ərəb dillərini mükəmməl bilidi. Nor Qetik monastrda Mxitar Qoşun şagirdi Vanakanın yanında təhsil görmüş və ömrünün böyük bir hissəsini orada keçirmişdir. Kirakos Gəncəli Albaniya tarixinə dair ən qiymətli mənbələrdən biri olan "Tarix" əsərinin müəllifidir. Əsərinin əsli Matenadaranda saxlanılır. Kitabın gerçək adı "Alban ölkəsinin qısa tarixi"dir. Lakinnəşr olunan nusxələr bəzən "Ermənistan tarixi", bəzənsə "Ermənistanın şərq əyaləti-Alban ölkəsinin tarixi" kimi qondarma adlarla təqdim olunur. Bu əsərdə Albaniyaya və Xaçın bölgəsinə aid xüsusi bölmə ayrılmışdır. Gəncəli Kirakos bu əsərində Albaniyanın katolikosları, knyazları, həmçinin ölkədə kilsə tikintiləri və ayrı-ayrı məbədlər haqqında, o cümlədən Amaras məbədi haqqında məlumat verir. Monqolların Azərbaycana hücumu, onların daxili və xarici siyasətindən bəhs edir.Ömrünün böyük hissəsini Nor Qetik monastırında keçirən alban tarixçisi və rahibi Gəncəli Kirakos Mxitar Qoşu özünün mənəvi babası adlandırır. Gəncəli Kirakos özünün "Tarix" kitabında XIII əsrdə yaşamış Nerses adlı alban katalikosu barədə də məlumat verir. Həmin Nersesin ana dilində dövrümüzədək bir əsəri "Alğış Tenqrigə, Nersess gatoğiqosnunq aytkanı, xaysı ki tiyişlidir barça krisdanlarğa övrənməgə" başlığı altında gəlib çatıb və Polşadakı Milli Muzeyin kitabxanasında Krakov və Venesiya əlyazmalarında qorunur. (5, əlyazma, № 2412; 7, əlyazma №1126). Əsər Albaniya katolikosu Nersesin ədəbi-teoloji irsindən bir nümunədir və XIII əsr qıpçaq ədəbiyyatının əldə olan şedevr nümunlərindədəndir.




IX əsdə Aranoğullar nəslinə mənsub Qrirori Hamama vaxtilə xəlifə tərəfindən babası Səhl ibn Sumbata hədiyyə edilmiş Şəki ətrafındakı geniş torpaqlarda knyazlıq yaratdı .Burada xristian albanlar üçün məktəblər açdırmışdır. Həmin məktəblərdə uşaqlara tədris edilmək üçün alban dilinin qrammatikasına aid bir kitab da yazmışdır. "Qrammatika" ilahiyyat, fəlsəfə və təbiətşünaslıq biliklərini özündə əks etdirən türk dilində lakonik sual-cavab formasında qələmə alınmış dərslik idi. Dövrümüzədək gəlib catan kitabın bir fraqmenti Matedaranda saxlanılır:

-Kimlərninq neməlәridirlər alar?-Atanınq.-Xayda ettinq sen?-Tenqridə.-Kimgə umsandınq sen?-Tenqrigə.-Kimninq bilə yeberdinq sen?-Tenqri bilə

yeberdim men.-Kim bilə yeberdi bu?-Tenqri bilə yeberdi bu, ol (6,əlyazma № 3522).



XIII əsrin birinci yarısında Alban xristian maarifçiliyi intibah dövrünü yaşayır.Xristian alban məlikliklərini vahid Xaçın knyazlığına birləşdirən "işxan" titulu daşıyan, Aranoğulları sülaləsinin görkəmli nümayəndəsi Həsən Calal (1215-1261) Qarabağın türk-xristian memarlığının şah əsəri sayılan Gəncəsər monastrı inşa etdirdi. Kəlbəcər rayonunun Vəngli kəndində, Xacıncayın sol sahilində yerləşən bu tarix-memarlıq abidəsi Alban Həvari Kilsəsi Katolikosunun iqamətgahına cevrildi və uzun müddət alban xristian maarifçiliyin beşiyi hesab olunurdu. Elmi ədəbiyyatda məbədin adı Xəzinədağ məbədi kimi yazılır. Monastr xristian dinin baş xəzinəsi mənasında Gəncəsər adlanlandırıldı. Bu dəyərli abidənin inşaatı və memarlıq həllində Səlcuqlar və xüsusilə Elxanilər mühitinin böyük təsiri olmuşdur. XIII əsrdən etibarən Gəncəsər bölgədə təhsil və mədəniyyət mərkəzinə çevrilmişdir.Maarifçiliyi yüksək qiymətləndirən Həsən Cəlalın göstərişi ilə katolikos II Nerses burada maarifçiliyə başçılıq edirdi. Monastr daxilində Alban Həvar Kilsəsi üçün xadimlər yetişdirən dini seminariya fəaliyyət göstərmişdir. İnşa edilən məktəblərə, kilsə və monastırlara kitablar bağışlanır, orada dərs demək üçün xüsusi xristian alimləri dəvət edilir. Gəncəsər monastırı ölkənin oldu.Gəncəsər monastrı Alban katolikosluğun mərkəzi, Katolkoslarının iqamətgahı və xristian maarifşiliyin məktəbi kimi 1836-cı ildə Rusiya Müqəddəs Sinodu tərəfindən Alban Katolkosluğunun ləğv edilməsinə qədər qalmışdır.



Xristian maarifçiliyində əhəmiyyətli yer tutan XVIII-XIX əsr alban türk ədəbiyyatının yaradıcılığının ən böyür nümayəndəsi şair və aşığ Sayat Novadır. O, dini vəzifələrdə çalışan zaman dini maarifçiliyi ilə də məşğul idi. Sayat Nova şeirlərində özünü "türk" adlandırır: "Vəslinə eylədi ərk Sayat Nova, Məcnuna, Fərhada gork Sayat Nova, Aşıq Sayat Nova, Türk Sayat Nova". Şair 1712-ci ilin 14 iyun tarixində Tiflisdə anadan olmuşdur. Gürcü, erməni və azərbaycan

dillərini təmiz bilirdi. Günümüzə qədər gəlib çatmış əsərlərin əksəriyyəti Azərbaycan dilində qələmə alınmışdır. 1759-cu ildə Qandzasar Kilsəsi tərəfindən ona Ter-Stepanos rahib rütbəsi verilir. O, Əvvəlcə Ənzəli Kilsəsində, bir zaman Qaxdakı (Kürmüx) Kilsədəxidmət göstərməyə başlayır, sonra isə qərbi Azərbaycan ərazisində yerləşən Haxpat Monastrında rahiblik edir. 1795-ci ildə 83 yaşında xidmət etdiyi monastrın daxili otaqlarının birində öldürlülür.
Tarixi faktlar göstərir ki, Qarabağda türkçülüyün güclü bir fenomen kimi izi Kür-Araz mədəniyyətindən alovlanaraq indiyə qədər özünəməxsus əhəmiyyəti qorunub saxlanılır. Onun qorunub-saxlayan qüvvə burada daimə yaşayan türklərdir. Görkəmli şəxsiyyət, sovet elm adamı tarixçi-arxeoloq və qafqaz xalqlarının etnoqenez üzrə mütəxəssisi Yevqeniy İqnatyevic Krupnov Albaniya həqiqətləri haqqında "Albaniya tarixinin öyrənilməsi işində heç bir məhdudiyyət və məcburiyyət olmamalıdır. Albaniya tarixini müxtəlif ölkələrin tarixçiləri öyrənə bilər.Lakin bir şey məlumdur ki, Qafqaz Albaniyasının tarixi və taleyi ilə hamıdan çox azərbaycanlılar məşğul olmalıdırlar. Bu sahədə onlar dünya elmi qarşısında məsuliyyət daşıyırlar, dünya elminə borcludurlar" (17, 20 s.)
Həqiqətən də, azərbaycanlılar alban türklərin varisi olaraq türk dövlətçilik ənənələrini, türk mədəniyyətini elmi və ictimai salnamə səhifələrimizə yazdılar. XVIII əsrin 50-ci illərindən başlayaraq alban türklərin varisi Cavanşir elatlarıöz bacarıqlı sərkərdələri Sarıcalı Pənaxəlixanın ətrafında birləşərək hərbi, siyasi, iqtisadi, mədəni cəhətdən mühüm əhəmiyyət kəsb edən türk dövlətçilik ənənələrini davam etdirib paytaxtı Şuşa şəhəri olan Qarabağ xanlığının əsasını qoydular. Elatların əsası qoyduğu Şuşa qalası alban türk memarlığının ən gözəl incilərindən biri oldu. Qala yaxınlığında yüksək memarlıq keyfiyyətləri olan körpü də inşa edilmişdir. Möhkəm qala olan Şuşa əvvəl Qarabağ elatlarının dövlət xadimi olan Pənahəli xanın adı ilə Pənahabad kimi adlandırılır. Bir qədər sonra şəhər kimi genişlənən onun ərazisi etnonım adı ilə Şuşa adlandırıldı. Bu ad dondar türklərin bir qolu olan Şoşu tayfalarının adı ilə bağlıdır. (15, s.137). Şuşa şəhəri türkçülüyün ornamental və süjetli xəzinəsidir.

## Ədəbiyyat

*1.* **Azərbaycan Respublikasının Prezidenti** Heydər Əliyevin Şuşa və Laçın rayonları sakinlərinin bir qrupu ilə görüşdə giriş sözü (Prezident Sarayı, 6 may 1996-cı il) sənədinə tarixi arayış// *https://lib.aliyevheritage.org › ...*
**2. Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı . 05 yanvar 2022, 12:00 // https://president.az ›
**3. Ramin Əlizadə və Elnur Nəciyev.** Qarabağın Alban-Qıpçaq tarixinə dair// Akademik Tarih ve Düşünce Dergisi, C. 7, s. 4., 2020, s. 2578-2593. ORCID: 0000-0002-0146-8946 ORCID: 0000-0003-3989-6257
4. **Zülfüqarlı Məhərrəm**. Şuşa. Müxtəsər tarix. (1752-2022). Bakı: CBS Poligrafic production, 2022, -104s.
5.**Əlyazma.** Polşa, Milli Muzeyin kitabxanasının Krakov şöbəsi, № 2412
6. **Əlyazma.Matedaran .№ 3522**
**7. "Alğış Tenqrigə, Nersess gatoğiqosnunq** aytkanı, xaysı ki tiyişlidir barça krisdanlarğa övrənməgə". Venesiya, 1126 №li əlyazma.
**8. Cəlilov Firudin Ağası oğlu** Azərbaycan türklərinin islamaqədər tarixi. Doqquz Bitik: Tarixi qaynaqlar. I Bitik. Bakı, Ağrıdağ, 2014. -367[1] s.
**9. Cəlilov Firudin Ağası oğlu** Azərbaycan türklərinin islamaqədər tarixi. Doqquz Bitik: Tarixi coğrafiya. II Bitik. Bakı Ağrıdağ 2014. -280 s.
10. Cəlilov Firudin Ağası oğlu Azərbaycan türklərinin islamaqədər tarixi. Doqquz Bitik: Azərbaycanda qurulan qədim dövlətlər. III Bitik. Bakı,2014. -511[1]s
11.Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı: biblioqrafiya / Tərt. ed. X.Abbasova; elmi red. K.M.Tahirov; red. E.R.Nəciyev. – Bakı, 2021. – 600 s.
12. Александр Гарковец. Кыпчакское Евангелие. Перевод Чарльза Фрейзера (Карас, Астрахань, Оренбург, 1803-1820) Напечатано Джоном Митчелом. Шотландское Миссионерское Общество. Астрахань, 1820. – Алматы: Баур, 2013. – 556 стр. ISBN 978-9965-854-31-6
13. Бахтияр Тунджай. Письменное наследие Кавказских албан Том 1 Фонд поддержки по политики тюркоязычных государств. Бишкек: «УлууТоолор», 2014. – 428 с
14. Гаркавец Александр Николаевич. Кыпчакский словарь. По армянописьменным памятникам XVI-XVII веков. Изд. 3-е, перераб. - Алматы: БАУР, 2018. - 1788 стр. ISBN 978-9965-854-49-1.
15. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Т. 1. Баку:Элм, 1991, - 552с.
**16. Геюшев Р. Б.** Христианство в Кавказской Албании. – Баку: Элм,1984 – 192с
**17. Крупнов Е. И.** Древняя история Северного Кавказа. М.: Издательство АН СССР, 1960. -520 с.

# AZƏRBAYCAN MUİLLİ İDMAN OYUNLARININ İNKİŞAF TARİXİ

**Sultanəli Şükür oğlu Qurbanov**
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
**Sultanani.qurbanov@adpu.edu.az**
**Eldar Arif oğlu Muxtarlı (Müəllim)**
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
**Muxtarli1973@mail.ru**

***Açar sözlər:*** *Azərbaycanın qədim dövründə müəyyən fiziki hərəkətlərin yaranması. Azərbaycanda xalq idman oyunlarının yaranması. İlk dəfə Azərbaycanda idman növlərinin yaranması və yarılçarın keçirilməsi.*

*Qədim zamanlardan belə Azərbaycan milli idman oyunları Azərbaycan xalqının mənəvi keyfiyyətlərinin və mədəniyyətinin tərkib hissəsi olaraq insanların gündəlik həyatında böyük rol oynamışdır. Azərbaycanın qədim milli idman oyunları elementləri Qobustan qayaüstü təsvirlərdə öz əksini tapmışdır. Xalqımızın milli mədəniyyət abidələrinə, Qobustanda daş qayalar üzərində həkk olunan rəsimlər, Azərbaycan xalqının adəd və ənənəlirinin əsasını təşkil edən mənəvi iradi tərbiyəmizi, mərdliyimizi və qəhrəmanlığımızı əks etdirən fiziki hərəkətlər və milli idman oyunlarının əsirlər boyu dərinliyinə işləmiş köklərinin aydınca görürük. Dünya arxeoloqlarının və tarixçilərinin böyük marağına səbəb olan Qobustan qayaüstü cizgilərində əks etdirilən milli rəqslər, döyüş səhnələri, fiziki hərəkətlər və milli idman oyunları məsələn: at çapmaq, dənizdə qayıq yarışları, qurşaq tutma güləşi ölkəmizdə fiziki tərbiyənin qədim zamanlardan belə inkişaf etməsindən xəbər verir.*

# ИСТОРИЯ РАЗВИТИЯ НАЦИОНАЛЬНЫХ СПОРТИВНЫХ ИГР АЗЕРБАЙДЖАНА

**Султанали Гурбанов**
**Эльдар Мухтарлы**

***Ключевые слова:*** *Возникновение определенных физических движений в древности Азербайджана. Возникновение народных спортивных игр в Азербайджане. Впервые создание спорта в Азербайджане и проведение соревновании.*

*Национальные спортивные игры Азербайджана с древних времен играли большую роль в повседневной жизни людей как часть духовных качеств и культуры азербайджанского народа. Элементы древних*

*национальных спортивных игр Азербайджана нашли отражение в наскальных рисунках Гобустана.Мы отчетливо видим корни национальных культурных памятников нашего народа, рисунки, высеченные на скалах в Гобустане, физические действия, отражающие наше мужество и героизм, и национальные спортивные игры, являющиеся основой обычаев и традиций азербайджанского народа. Отраженные в гобустанских наскальных рисунках отражается национальные танцы, батальные сцены, физические движения и национальные спортивные игры, вызвавшие большой интерес археологов и историков мира, например: скачки, гонки на лодках в море, борьба на поясах, свидетельствуют о том, что Физическое воспитание в нашей стране развивалось с древних времен.*

## HISTORY OF THE DEVELOPMENT OF NATIONAL SPORTS GAMES OF AZERBAIJAN

**Sultanali Gurbanov**
**Eldar Mukhtarli**

***Key words:*** *The emergence of certain physical movements in antiquity of Azerbaijan. The emergence of folk sports games in Azerbaijan. For the first time the creation of sports in Azerbaijan and the holding of the competition.*

*Since ancient times, the national sports games of Azerbaijan have played a big role in the daily life of people as part of the spiritual qualities and culture of the Azerbaijani people. Elements of the ancient national sports games of Azerbaijan are reflected in the rock paintings of Gobustan.We clearly see the roots of the national cultural monuments of our people, the drawings carved on the rocks in Gobustan, the physical actions that reflect our courage and heroism, and the national sports games that are the basis of the customs and traditions of the Azerbaijani people.We clearly see the roots of the national cultural monuments of our people, the drawings carved on the rocks in Gobustan, the physical actions that reflect our courage and heroism, and the national sports games that are the basis of the customs and traditions of the Azerbaijani people. Reflected in Gobustan rock paintings, national dances, battle scenes, physical movements and national sports games are reflected, which have aroused great interest among archaeologists and historians of the world, for example: horse racing, boat racing in the sea, belt wrestling, indicate that physical education in our country has developed since ancient times.*

Tarixi bilmədən müasirliyi bilmək olmaz. Xalqın tarixini bilmədən onun keçmişini bilmək olmaz. Görkəmli Azərbaycan tarixçisi, alim Abbasqulu Ağa Bakıxanov (1794-1847) "Gülüstani –İrəm" (Abbasqulu ağa Bakıxanovun ən böyük elmi əsəridir. Əsər ilk elmi tədqiqatın əsaslandığı tarixi mənbələr əsasında, müəllifin uzun illər bu sahədə apardığı ciddi araşdırmalar nəticəsində yazılmış) adlı məhşur əsərində göstərir ki, "Tarix elə bir daşınmayan natiqdir ki tənəzzül mədəniyyət və inkişaf " yollarını izah edir. [1-səh-9-17]

Qədim zamanlardan belə Azərbaycan milli idman oyunları Azərbaycan xalqının mənəvi keyfiyyətlərinin və mədəniyyətinin tərkib hissəsi olaraq insanların gündəlik həyatında böyük rol oynamışdır. Hər bir xalq öz milli idman oyunları vasitəs ilə insanlarının daxili aləminə və dünya görüşünün inkişafına nail olmuşdurlar. Azərbaycanın qədim milli idman oyunları elementləri Qobustan qayaüstü təsvirlərdə öz əksini tapmışdır. Xalqımızın milli mədəniyyət abidələrinə, Qobustanda daş qayalar üzərində həkk olunan rəsimlərə baxdıqca Azərbaycan xalqının adəd və ənənəlirinin əsasını təşkil edən mənəvi iradi tərbiyəmizi, mərdliyimizi və qəhrəmanlığımızı əks etdirən fiziki hərəkətlər və milli idman oyunlarının əsirlər boyu dərinliyinə işləmiş köklərinin aydınca görürük. [1-səh-19-22]

Dünya arxeoloqlarının və tarixçilərinin böyük marağına səbəb olan Qobustan qayaüstü cizgilərində əks etdirilən milli rəqslər, döyüş səhnələri, fiziki hərəkətlər və milli idman oyunları məsələn: at çapmaq, dənizdə qayıq yarışları, qurşaq tutma güləşi ölkəmizdə fiziki tərbiyənin qədim zamanlardan belə inkişaf etməsindən xəbər verir. (şəkil-1-2).



(Şəkil - 1)



(Şəkil- 2)

Qobustan qayaüstü rəsimlərindən maraq doğuran tərəflərindən biri də odur ki, ilkin etnoslar arasında idman oyunlarının başlıca ünsiyyət vasitəsi olduğunu əks etdirir. Qaya üstündəcızılmış rəsimlərdən məlum olur ki, qədim xalq oyunları danışıq dilinin və nitqinin yaranmasından xeyli əvvəl meydana gəlmişdir.

İlkin müşahidələrdən məlum olur ki, Azərbaycan qədim xalq oyunlarının yaranma və inkişafının birinci mərhələsi rəqslərlə bağlı idi. Daş

qayaların üzərində cızılmış rəqslər və oyunlar (şəkil-1) qədim etnosların ayrılmaz incəsənət və mədəniyyət inkişafını yaratmışdır.
Qədim xalq oyunlarının ikinci mərhələsi (Şəkil - 2) qayıqla üzmək, yarışmaq, ov ovlamaq kimi fiziki hərəkətlərlə sıx bağlı olmuşdur. [2-səh-50-57]

İlkin mərhələdə oyunlar və fiziki hərəkətlər insanların gündəlik həyatında formalaşma mərhələsi keçmişdir. Qədim milli xalq oyunlarını öyrənərkən nəsillərinn tarixi inkişaf yolu haqqında müəyyən dərəcədə fikir, mülahizə, yürütmək mümkündür. Məsələn: qədim oyunlarda kəndlilərin torpağı becərməsi, ovçuluq, balığçılıq və s. məşğuliyyətləri əks olunurdu. Qayaüstü rəsimlərdən məlum olur ki, min il əvvəl oyunlar olmuşdur. Qobustanın masa dağalrında ritual rəqslər, yallı rəqsi, ox atanlar, avar çəkənlər, güləş və s. əks etdirən rəsimlər həkk olunmuşdur.

Qədim Azərbaycanın mədəni irsi ilə bağlı fiziki hərəkətləri haqqında geniş məlumat verilmişdir. Avesta Zərdüştilik kitabında fiziki hərəkətlərin insan orqanizmi üçün böyük əhəmiyyətə malik olduğu göstərilir. Avesta dini kitabda pəhləvanlıq, güclü olmaq haqqında geniş məlumat verilir. Zərdüştilər (yəni Zərdüş dininə sitayiş edənlər, Zərdüşt Azərbaycanın tarixi şəxsiyyətlərindəndir, Zərdüşt Azərbaycan Respublikasının Lənkəran ərazisində anadan olması olması böyük ehtimalla qeyd olunur) bellərinə at quyruğu tükündən toxunmuş 72 sap ilməkdən ibarət (ilmə yəni halqaşəkilli düyünlər) belbağı bağlayaraq güləşərək güclərini sınayırdılar.

Azərbaycan alimləri, ədəbiyyatçıları, tarixçiləri, yazıçıları, filosofları səyyahları öz əsərlərində qeyd edirdilər ki, Azərbaycanda hələ qədim vaxtlardan fiziki hərəkətlərlə məşğul olmuşdurlar. Bu hərəkətlərə at çapmaq, ocaq üstündən tullanmaq və şatır oyunları daxil idi. Qədim milli Azərbaycan idman növü olan şatır oyunu barədə tarixi ədəbiyyatda ilk dəfə görkəmli ədəbiyyatşünas alim, tərcüməçi, pedaqoq, akademik Məmməd Arif Məhərrəm oğlu Dadaşzadə 1932-1938-ci illərdə Azərbaycan xalq maarif komissarının müavini, eyni zamanda APİ-nin (indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin) rus ədəbiyyatı kafedrasının baş müəllimi, dosent, Məhəmməd Arif Dadaşzadə məlumat verərək bildirmişdir ki, Azərbaycanda orta əsirlərdə tanınmış idman növlərindən biridə şatırlıq hesab edilirdi. Şatırlılar adlanan idmançılar indiki müasir atletikanın idman yerişi ilə məşğul olurdular. İri addımlarla və sürətlə yerimək şatır idman növünün əsas hərəkəti sayılırdı. Orta əsrlərdə şatırlar əsasən şahların yazdıqları məktubları və ya şifahi sözlərini sürətlə ünvana çatdırırdılar. [3-səh-65-73]

Azərbaycanın qədim milli idman oyunlarının hər birində qəhrəmanlıq, cəngavərlik, mərdlik, nəciblik, alicənablıq və s. kimi iradi keyfiyyətlərin əks olduğunu aydınca görə bilirik. Azərbaycanın qədim oyunlarında ibtidai insanların xalq yaradıcılığı, xalq müdrikliyi, at çapması, ox atması, güləşmə və pəhlivanlıqları ilə seçilirdi. Iki milyon yaşı olan Azərbaycanın qədim

sakinlərinin yalnız 2-3 minilliyi haqqında yazılıı məlumata rast gəlinir. Insan nəslinin yaşaması haqqında məlumatlar daş qayalarda, cızılan cizgilərdə, düzəldilən məişət əşyalarından məlum oilunur. Qobustan qədim insan tayfalarının ilk sığınacaqları, əmək və silahlanma alətlərindən biri olmuşdur. Qobustan təbii qüvvələr qarşısında aciz qalan insan tayfalarının xilas və ümid yeri hesab etdiyi məkan idi. İdman oyunları ilk insanların formalaşmasında əvəzedilməz kimi qiymətləndirilirdi. Ibtidai insanlar formalaşdıqca idman oyunlarıda sadə formada mürəkkəb formaya düşmüşdür. Azərbaycan qədim idman oyunları yarandığı gündən xalqın adət ənənələrini özündə əks etdirmişdir.

Tarixin bütün mərhələlərində Azərbaycan xalq oyunları inkişaf etmiş cəmiyyətin iqtisadi inkişafı ilə bağlı olmuşdur. Hələ qədim dövürlərdə Azərbaycanda fiziki hərəkətlər və idman hərəkətləri xüsusi vərdişə yiyələnmək, zəhmətsevərlik, təşəbbüskarlıq bacarığının artırılmasına, sağlamlığın qorunmasına və nəticədə döyüş hazırlığının möhkəmləndirilməsinə yönəldilmişdir. Toplanılan fəaliyyətlər nəticəsindən məlum olur ki, qədim zamanlarda Azərbaycanda nizə və ox atmaq, qılınc oynatmaq, ov ovlamaq, avar çəkmək, qurşaq tutdu güləşi ilə məşğul olmuşdurlar. Bu cür fiziki hərəkətlər qədim insanların dözümlülüyünün və digər fiziki hərəkətlərinin inkişafı üçün əsas olmuşdur. [4-səh-22-25]

Qədim milli xalq oyunları bu günkü Azərbaycanın ərazisində müxtəlif qədim etnosların, xəzərlərin hun türkdilli köçəri tayfaların məskunlaşma dövründən başlayıb sonrakı bütün tarixi inkişafı ilə əlaəqdər formalaşma mərhələsi keçmiçdir. Hal hazırda Azərbaycan ərazisində bu gün də qədim qaya cızmalarından və rəsimlərindən xalq oyunlarının müəyyən izləri məlum olur. Azərbayca qədim milli oyunları ulu babalar və əcdadlarımızın həyatının inkişaf mərhələlərini, ədalət və adət, ənənə mərasimlər dünyasını əks etdirir. Milli xalq oyunları qədim zamanlardan gündəlik həyatın könül açan əyləncə və mehribanlıq dünyasını əks etdirmək baxımından maraq doğurur. Elə oyunlar vardır ki, onlar xalqın təfəkkür və varlığını, ümüd və istəyini müəyyənləşdirmək məqsədilə yaranmış və bu günə qədər gəlib çatmışdır. Azərbaycan milli oyunlarında xalqın fəaliyyəti, əhval-ruhiyyəsi, zülüm və istismara qarşı mübarizə əks olunmuşdur.Qeyd etmək lazımdır ki, idman elementlərinin yaranma tarixini araşdıraraq, tədqiqat işləri, müşahidələr aparılmışdır. Lakin aparılan tədqiqat işlərinə baxmayaraq hələdə sirri açılmamış qaranlıq səhifələr mövcuddur. Xalqımızın eldən elə keçən və onu məhşurlandıran idman hərəkətlərini hərtərəfli öyrənmədən Azərbaycan tarixini müasir tələblər səviyyəsinə qaldırmadan cəmiyyətdə insanların həyat və münasibətlərini bütün mükəmməliyini əks etdirmək qeyri mümkündür. Fiziki tərbiyə və fiziki kamillik (fiziki kamillik insanın hərtərəfli fiziki inkişafı, və fiziki hazırlıq səviyyəsini müəyyənləşdirir, onun əmək və məişət fəaliyyətinə, Vətəni müdafiə

bacarığına uyğunlaşdırır) mədəniyyəti Azərbaycan xalqının elmi mədəni nəsilindən nəsilə keçən sərvətinin bünövrə daşlarından biridir. [5-səh-73-88]

Xalqın ədəbiyatında klassik ifadəsini tapmış qəhrəmanlıq, vətənpərvərlik, dostluq, yoldaşlıq, kimi sevinc əhval-ruhiyyəsində fiziki kamillik və idman hərəkətləri ruhlanma mənbələrinə çevrilmişdir. Azərbaycan tarixinin inkişaf pilləsində fiziki kamillik mədəniyyəti əvvəlki dövürlərin əldə etdiyi naliyyətlərlə yüksəlir. Tarixi materiallar təsdiq edir ki, fiziki kamillik mədəniyyətində Azərbaycanın adət və ənənələri olduqca çoxdur. Azəbaycanın fiziki kamillik mədəniyyətinin formalaşmasında Midiya (Midiya dövləti Azərbaycan və Şimal İran ərazisində yaranmışdır) dövlətinində təsiri olmuşdur. Qədim qayaüstü cizgilərində bu məlumat aydın təsvir edilir. [5-səh-90-96]

Azərbaycanın zəngin və məhsuldar torpağı qədimlərdən belə insanları özünə cəlb etmişdir. Fəxirlə qeyd etmək lazımdır ki, Azərbaycan torpağı qədim ibtidai insanın yurdu olmuşdur. Azərbaycanda qədim insanın yaşayış izlərinin tarixini 150-200 min il hesab edilməsinə baxmayaraq, Qarabağın "Ağız" mağarasında aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Azərbaycan torpağında 1-milyon 500 min il əvvəl qədim insanlar məskunlaşmışdır. Azərbaycan torpağı ən qədim abidələrlə zəngindir.

Qobustan qayalarının üzərində cızılan rəsim əsərləri və cizgiləri bir daha sübut edir ki, bu rəsimlər on min il budan əvvəlki dövrə aiddir. Bədii yaradıcılığmızın müxtəlif sahələrində misilsiz naliyyətlər əldə etmiş Azərbaycan, fiziki hərəkətlərin, milli oyunların meydana gəlməsi, təşəkkül tapması ilə əlaqədar tarixi materiallar əldə edilmişdir.

İnsan cəmiyyətinin ilk mərhələsi olan ibtidai icma qurluşunda bir-birindən uzaq məsafələrə ayrı düşmüş kiçik insanlar qurupu heyvan, quş ovlamaqları, meyvə və bitki yığmaqla ibtidai həyat sürürdülər. Bu dövürlərdə insanlar əsasən təbiətin hazır məsulllarından istifadə edir, ovla məşğul olurdular. Istehsal təsərüfatının inkişafı bir tərəfdən istehsal alətlərini, digər tərəfdən isə insanların görüş dairəsini xeyli inkişaf etdirir. Tədricən daş alətləri dəmir alətlərlə əvəz olunur, dövrün ən mükəmməl və mürəkkəb silah ailəti ox və yay meydana gəlir.

Adətən insan cəmiyyətinin ilk ictimai-iqtisadi quruluşu vəhşi heyvanların və yad qəbilələrin hücumu ilə qarşılaşırdılar. Təbiətin çətinlikləri və fəlakətləri qarşısında aciz qalmamaq üçün, vəhşi heyvanların və yad qəbilələrin döyüş qurbanı olmamaq üçün əcdadlarımız çıxış yolları axtararaq fövqaltəbii hadisələrdən özlətini müdafiə edirdilər. Getdikcə ibtidai insanlar dərk etməyə başlayırlar ki, məsələən : ovçuluqda mərahətli, bacarıqlıı qaçmaq, qyadan tullanmaq, ağaca dırmaşmaq, üzmək və s. fiziki keyfiyyətlərə malik olanlar özlərini ölümündən xilas edə bilirdilər. Bü cür fiziki keyfiyyətlərə malik olmayan insanlar ölümə məruz qalırdılar. Beləliklədə sürət, sürət-güc, əyilgənlik, qüvvə, çeviklik və dözümlülük kimi fiziki keyfiyyətlər qədim etnosları xilas edirdi.

Beləliklə, təbiətlə insan arasında gedən mübarizələr və istehsal prosesinin tədricən təkminləşməsi bir tərəfdən fiziki qüvvəni artırmağa məcbur edir, digər tərəfdən isə insanın mənəvi cəhətdən inkişafına şərait yaradır. Insan tədricən dərk etməyə başlayır ki, ovçuluq və döyüş zamanı elə qüvvələrlə qarşılaşır ki, əhmin qüvvələr insanın köməkçi vasitələri sayılır. Həmin köməkçi vasitələrdən biridə fiziki hərəkət və fiziki keyfiyyətləri qiymətləndirmək olar. Qədim daş dövründə yaşayan insanlar məişət alətləri əldə etmək üçün uzaq məsafələr dəf etməli olurdular. Məsələn: Qobustandan Kəlbəcər və Laçın dağlarına qədər uzaq yol gedirdilər. Insanlar xammal əldə etməkdən ötrü kilometirlərlə dərin dərələr, sıldırımlı qayalar, dik yamaclar qət edirdilər.

Nəhayət dərk edilir ki, ov etmək, döyüşmək təsadüfi hadisə deyil. Ov ovlamaq, döyüşmək, üzmək üçün orqanizmi fiziki keyfiyyətlərə hazırlamaq lazımdır. Beləliklə insan fəaliyyəti dərk etmə fəaliyyəti ilə bərabər tutulur və fiziki tərbiyə hərəkətləri insanın dərk etmə fəaliyyətində öz əksini tapır. Qədim etnoslar fiziki və idman hərəkətlərini ilk əvvəl öz həyat şəraitinin yaranma prosesində yaradaraq təbiətin məhsulu kimi yox, tərbiyə məhsulu kimi qəbul edirlər. Burada bədən tərbiyəsi ilk növbədə tərbiyəvi fəaliyyət kimi formalaşır. Zaman keçdikcə cəmiyyətdə insanların həyat və münasibətləri möhkəmləndikcə, insan əməyinin düşüncəsi, iqtisadi cəhətdən inkişafı, dərketmə fəaliyyətindəki müvəffəqiyyəti və yaradıcı təxəyyülün inkişafı nəticəsində fiziki və idman hərəkətlərinin inkişafına təsir göstərir. [6-səh-36-54]

Xalqımızın qədim milli idman növlərini öyrəndikcə onun gözəlliyinə, estetik tərbiyə gücünə, milli mənlik şurunun yüksəkliyinə valeh olursan.

Bununla belə hər bir xaslqın milli oyununu, onun tarixini tapıb üzə çıxarmaq və gələcək nəsillərə çatdırmaq hər kəsin vətəndaşlıq borcudur. Azərbaycanın qədim milli xalq idman oyunlarının inkişafı Azərbaycan xalqının ictimai, iqtisadi, siyasi tarixinin ayrılmaz tərkib hissəsidir.

## Ədəbiyyat

1. A.Əliyev, Ə.Qasımov, Bədəntərbiyəsi və idman tarixi. Dərslik. Baklı-2015.
2. Əliyev. A.Ə. Azərbaycan Milli idman oyunlarının inkişaf tarixi. Bakı-2001 ci il.
3. A.Əliyev, N.Əsgərova “Müstəqil Azərbaycanda BədənTərbiyəsi və idmanın inkişaf tarixi”. Dərsvəsaiti. Bakı-2007.
4. Quliyev.D.Q. «Milli Güləş» Dərslik. Bakı – 2003 ci il.
5. Quliyev.D.Q . Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf tarixi. Bakı – 2010.
6. Azərbaycan Tarixi. Ali məktəblər üçün dərslik “Bakı Universiteti” nəşiriyyatı-2015..

# ETNİK TOLERANTLIQ SOSİAL-PSİXOLOJİ HADİSƏ KİMİ

**Qarayeva Ləman Əhməd qızı**
**Rzayeva Tamilla Zahir qızı**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
**qarayevusal38@gmail.com**

***Açar sözlər:*** *etnik tolerantlıq, ünsiyyət, şəxsiyyət, mədəniyyət, multikulturalizm*

*Hazırda həyatın daim sürətlənən ritmi kontekstində və müasir cəmiyyətdə mədəniyyətlər dialoqunun artan , planetdə insanların qarşılıqlı asılılığının dərk edilməsi diqqətin artırılmasını tələb edir, mövcud münasibətləri dəyişdirmək yenidən nəzərdən keçirilməsinə ehtiyac var. Başqa insanın hüquqlarına hörmət, dözümlülük, başqa inanclı insanlarla birgə yaşamaq, müxtəlif adət-ənənələrə və normalara malik olmaq – bütün bunlar "tolerantlıq" anlayışı ilə bağlıdır.*

*Tolerantlıq termini psixoloji leksikona təqribən bu yaxınlarda daxil olmuş, lakin eyni zamanda həm şəxsiyyət psixologiyası çərçivəsində, həm də sosial psixologiya çərçivəsində kifayət qədər möhkəmlənmişdir.*

*Tolerantlığın tərifinə və öyrənilməsinə bir çox yanaşma var, lakin eyni zamanda, onun öz psixoloji şərhləri praktiki olaraq yoxdur.Etnik tolerantlıq probleminin tədqiqi müxtəlifliyinə görə müxtəlif elmlər üçün maraq obyektidir. Bununla belə, mövzunun aktuallığına baxmayaraq, sosial psixologiya hələ də tolerantlıq fenomeninin nə olduğu barədə konsensus formalaşdırmayıb.*

# ETHNIC TOLERANCE AS A SOCIO-PSYCHOLOGICAL PHENOMENON

**Karaeva Laman Ahmedgizi**
**Rzayeva Tamilla Zahir gizi**

***Key words:*** *ethnic tolerance, communication, personality, culture, multiculturalism*

*At present, in the context of a constantly accelerating rhythm of life and in the context of the increasing role of the dialogue of cultures in modern society, awareness of the interdependence of people on the planet requires increased attention, and there is a need to revise and change existing relationships.*

*The term "tolerance" entered the psychological lexicon relatively recently, but at the same time it has become quite established both within the framework of personality psychology and within the framework of social psychology.*

*There are many approaches to the definition and study of tolerance, but at the same time, its own psychological interpretations are virtually absent.*

*The study of the problem of ethnic tolerance is an object of interest for various sciences due to its diversity. However, despite the relevance of the topic, social psychology has not yet formed a consensus about what the phenomenon of tolerance is.*

# ЭТНИЧЕСКАЯ ТОЛЕРАНТНОСТЬ КАК СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ ФЕНОМЕН

**Караева Ляман Ахмед кызы**
**Рзаева Тамилла Захир кызы**

***Ключевые слова:*** *этническая толерантность, общение, личность, культура, мультикультурализм.*

*В настоящее время в условиях постоянно ускоряющегося ритма жизни и в контексте увеличивающейся роли диалога культур в современном обществе осознание взаимозависимости людей на планете требует повышенного внимания, появляется необходимость пересмотра и изменения сложившихся отношений. Уважение прав другого человека, терпимость, сосуществование с людьми других убеждений, имеющих иные традиции и нормы - все это связано с понятием «толерантность».*

*В психологическую лексику термин «толерантность» вошел сравнительно недавно, но при этом достаточно упрочился как в рамках психологии личности, так и в рамках социальной психологии.*

*Существует множество подходов к определению и исследованию толерантности, однако при этом ее собственно психологические трактовки фактически отсутствуют.*

*Исследование проблемы этнической толерантности является объектом интереса различных наук в связи с ее многоплановостью. Однако, несмотря на актуальность темы, в социальной психологии до сих пор не было сформировано единого мнения о том, что же из себя представляет феномен толерантности.*

**Введение**

Толерантность - термин, в последнее время невероятно популярный, но далеко не однозначный. Несмотря на разницу подходов к

изучению проблем толерантности и существование большого числа направлений в ее исследовании, практически все они сходны в одном – толерантность трактуется как «терпимость субъекта по отношению к другому с субъекту, несмотря на возможную первоначально негативную оценку вкусов, поведения, поступков и признание права на существование иных мыслей, отличных от собственных и шире иной культуры» [7]. Суть толерантности заключается в признании похожести и одновременно непохожести людей, их многообразия.

В носящее время кросс-культурный характер, носит особый интерес рассмотрение этнической толерантности.

Проблема толерантности - одна из наиболее актуальных и сложных в современной науке. Поэтому ее изучением занимались многие исследователи.

В отечественной психологии термин толерантность использовался еще в 60-е гг. Б.Г.Ананьевым. В трудах отечественных социальных психологов имеются прямые или косвенные упоминания о толерантности, о возможных контекстах ее проявления и развития: общении, социальном взаимодействии, межличностных и межгрупповых отношениях, групповой динамике, конфликтах, ценностных ориентациях, социальных нормах, организационной культуре, социальной и культурной адаптации, социально-психологическом тренинге и др. (В.С.Агеев, Г.А.Андреева, А.Г.Асмолов, А.А.Бодалев, В.Л.Васильев, Р.М.Грановская, Н.В.Гришина, О.И.Даниленко, Е.С.Кузьмин, В.Н.Куницына, И.М.Никольская, Н.Н.Обозов, Б.Д.Парыгин, Л.А.Петровская, Ю.П.Платонов, Е.В.Сидоренко, Г.У.Солдатова, Э.С.Чугунова и др.).

Идеи психологических концепций, раскрывающие природу предубежденности (интолерантности), отражены в работах Т.Адорно, А.Аронсона, Г.Олпорта. Современные психологические исследования в области выявления факторов толерантности/интолерантности и направленного формирования толерантных установок связаны с именами А.Г. Асмолова, Б.С. Гершунского, В.Н. Гурова, Г.У. Солдатовой, П.В. Степанова, Л.А. Шайгеровой, В..А. Ситарова и др.

Не смотря на все многообразие сфер проявления толерантности, наиболее ярко это качество проявляется в проблемных этноконтактных ситуациях. Основой этнической нетерпимости является повышенная чувствительность к лицам других национальностей. Она может выражаться в широком диапазоне – от легкого дискомфорта и раздражения, никак не реализуемых в поведении, до различных форм дискриминирующего поведения вплоть до геноцида [25].Приходится признать, что проявления различных форм нетерпимости, ксенофобии, экстремизма и терроризма – яркая черта современной общественной

жизни, в значительной степени блокирующая развитие позитивных социальных тенденций.

Вопросам толерантности в кросс-культурной и этнической психологии, в частности, в связи с понятиями идентичности, межкультурной адаптации, культурного шока, особое внимание уделяется в работах Дж. Берри, М.Плизента, К.Оберга, Ю.Мартина, Т.Накаямы, Д.Мацумото, Н.М.Лебедевой, Г.У. Солдатовой, С.Д.Гуриевой, Н.С.Хрусталевой, и др.

Толерантность с точки зрения изучения конфликтов, происходящим, как правило, на этнической или конфессиональной почве, исследовалась такими научными деятелями как О. Бельков, Э. Геллнер, С.Н. Григорьев, Л.М. Дробижева, В.Н. Петров, Т. Фарадов и др. Большое внимание в контексте толерантности также было уделено изучению авторитарной личности (Т.Адорно), коммуникативной толерантности (В.В.Бойко) и др.

Этническая толерантность понимается как сложное установочное образование личности. Она выражается в терпимости к чужому образу жизни, чужим обычаям, традициям, нравам, иным чувствам, мнениям и идеям, выражаемым представителями других этносов и культур [2]. Этническая толерантность личности обнаруживается и в известном смысле возникает в проблемно–конфликтных ситуациях взаимодействия с представителями других этнических групп [10].

Этническая толерантность - способность человека проявлять терпение к малознакомому образу жизни представителей других этнических общностей, их поведению, национальным традициям, обычаям, чувствам, мнениям, идеям, верованиям и т. д. Внешне этническая толерантность отражается в выдержке, самообладании, способности индивида длительно выносить непривычные воздействия чужой культуры без снижения его адаптивных возможностей [4].

Этническая толерантность проявляется в поступках, но формируется в сфере сознания и тесно связана с таким социально-психологическим фактором, как этническая идентичность - это результат эмоционально-когнитивного процесса осознания этнической принадлежности, отождествление индивидом себя с представителями своего этноса и обособления от других этносов, а также глубоко личностно значимое переживание своей этнической принадлежности [5].

Этническая идентичность, как и идентичность в целом, формируется в процессе социализации.

Можно выделить несколько уровней личностной идентичности [3]:

- *Личностно-психологический* - осознание человеком, кто есть «Я». Оно складывается по мере участия в различных социальных группах.

Данный уровень идентичности связан с представлением о себе как о члене какой-то группы, а также с теми эмоциями, которые возникают от оценки этой принадлежности.

- *Социально-психологический*, когда представления о себе формируются как производные от осознания человеком своей причастности к определенной социальной группе. Человеку свойственно сравнивать свою группу с другими и вести себя так, чтобы представить свою группу в благоприятном свете. Разновидностью социально-психологической идентичности является этническая идентичность - осознание личностью своей принадлежности к определенному этносу.

По мнению этнопсихолога Г.У. Солдатовой «этническая нетерпимость - реально значимая форма проявления кризисных трансформаций этнической идентичности. Основой этнической нетерпимости является повышенная чувствительность к лицам других национальностей» [8]. В данном случае взаимосвязь этнического самосознания, или этнической идентичности и толерантности «отрицательным полюсом» которой является нетерпимость, видится Г.У. Солдатовой субъективно-опосредованной.

Г.У Солдатовой были выделены следующие типы этнической идентичности [8].

1. *Этнонигилизм* - отход от собственной этнической группы и поиски устойчивых социально-психологических ниш не по этническому критерию.

2. *Этническая индифферентность* - неопределенность этнической принадлежности.

3. *Норма* (позитивная этническая идентичность) - позитивное отношение как к собственному народу, так и к другим народам.

4. *Этноэгоизм* - может выражаться в безобидной форме на вербальном уровне как результат восприятия через призму конструкта «мой народ», но может предполагать, например, напряженность и раздражение в общении с представителями других этнических групп.

5. *Этноизоляционизм* - убежденность в превосходстве своего народа, признание необходимости «очищения» национальной культуры, негативное отношение к межэтническим брачным союзам, ксенофобия.

6. *Этнофанатизм* - готовность идти на любые действия ради этнических интересов, вплоть до этнических «чисток», признания приоритета этнических прав народа над правами человека, оправдание любых жертв в борьбе за благополучие своего народа.

В самом общем виде можно выделить четыре группы национальных объектов [4]:

- Во-первых это национальность в принципе. Национальность - это

характеристика человека, несущая какие-то его культурные черты.

- Во-вторых это национальность самого человека.
- В-третьих, это люди, принадлежащие к «моей» национальности.
- В-четвертых, - люди «иной чем я» национальности.

Подчеркнем при этом, что «национальность» в данном контексте обозначает термин синонимичный не только нации, что предполагалось бы по звуковому созвучию, но и этнической группе. Связано это с трудностью разграничения национального и этнического на уровне повседневного речевого поведения.

В психологической литературе рассматривается множество факторов, влияющих на развитие этнической толерантности у личности, их составляющие, такие как воспитание, обучение, культурные, социальные, ментальные особенности региона и этноса, в котором живет и развивается человек, сложившиеся стереотипы и предубеждения, религия [4]. На наш взгляд, наиболее важным аспектом этнической толерантности являются стереотипы, установки и предубеждения, толерантность и интолерантность, межнациональные конфликты, культура, традиции и религия.

В настоящее время широко развивается принцип мультикультурализма, под которым обычно понимается комплекс идей ценностей и действий, способствующих мирному, равноправному и взаимовыгодному сосуществованию различных культурных, этнических и социальных групп в одной стране. В практическом плане это означает выработку общих правил и норм взаимодействия в едином экономическом, правовом и социальном поле.

Принцип мультикультурализма при разработке психологических технологий формирования толерантного сознания определяет еще один значимый тезис. Различия между людьми должны скорее вызывать интерес и обогащать, чем нести угрозу, вне зависимости от того, связаны ли они с полом, цветом кожи, расой, языком, политическими убеждениями или религиозными верованиями [6].

Анализ понятий «толерантность» и «этническая толерантность» позволяет сделать вывод о том, что данные термины имеют ряд общих и различных характеристик. Специфика понятия «этническая толерантность» заключается в том, что, во-первых, она понимается как вид толерантности, в основе которого - принятие «иного», обусловленного принадлежностью к другой этнической группе [10]. Во-вторых, толерантность может рассматриваться как черта личности, характеризующая спектр личностных проявлений, тогда как этническая толерантность понимается как комплекс установок по отношению к другой (другим) этническим группам. Исходя из этого, толерантность как

личностная черта является более стабильной характеристикой, а этническая толерантность/интолерантность, обусловленная как внутренними, так и внешними факторами, легче поддается изменению [9]. В данной исследовательской работе под этнической толерантностью/интолерантностью понимается социально-психологическая характеристика, проявляющаяся в степени принятия/неприятия представителей других этнических групп.

В целом, оценивая этнокультурный аспект толерантности, можно сделать вывод о том, что для поддержания продуктивных и эффективных взаимоотношений с представителями других культур, необходимо в первую очередь уважать собственную культуру, быть уверенным в ее ценном и позитивном значении и стремиться к контактам с другими культурами.

В этом аспекте мы полностью согласны с А. Г. Асмоловым, который в одном из своих выступлений «Искусство жить в мире разнообразия» выразил надежду, что XXI век станет веком достоинства, когда люди, общаясь друг с другом, будут дарить и обогащать, понимая, что ради этого мы живем, действуем и совершенствуемся, а не отнимать и обездоливать [1].

Подводя итог, можно сказать о том, что в силу широкого диапазона интерпретаций понятия толерантности, и в то же время малой научной проработанности, проблема толерантности личности становится весьма интересной и многогранной для научного изучения. В частности, учитывая все многообразие видов толерантности, сфер и форм ее проявления, в рамках данной исследовательской работы, носящей кросс-культурный характер, особый интерес для нас представляет практическое изучение проблемы коммуникативной и этнической толерантности.

## Библиографический список


1. Асмолов, А.Г. Толерантность как культура XXI века. [Текст] / А.Г. Асмолов // Век толерантности: Научно-публицистический вестник. - 2001. - №7. - С. 5-7.
2. Асмолов, А.Г.Национальный характер и индивидуальность: опыт этнопсихологического исследования. Выпуск 2. [Текст] / А.Г. Асмолов, Е.И.Шлягина. - М.: Смысл, 2005. - 205 с.
3. Бондырева, С.К. Феномен толерантности в системе межэтнических отношений. // Толерантное сознание и формирование толерантных отношений. - М., 2003. - С. 9-10.
4. Бызова, В.М. Основы этнопсихологии [Текст] / В.М. Бызова. – Сыктывкар: Сыктывкарский гос. ун-т., 1997.
5. Вяткин, Б.А. Этническое самосознание как фактор развития

индивидуальности // Психологический журнал. - 1996. - № 5. - с.17.

6. Лебедева, Н.М. Введение в этническую и кросс-культурную психологию [Текст] / Н.М. Лебедева. - М.: Ключ-С, 1999. - 224 с.
7. Солдатова Г.У., Толерантность и интолерантность - две грани межэтнического взаимодействия. // Век толерантности: науч.-публ. вестник. - М., 2001. - №7. -С. 90-100.
8. Петрицкий, В.А. Толерантность - универсальный этический принцип // Известия СП лесотехнической академии. - СПБ., 1993. - С.139- 151.
9. Хопёрская, Л.Л. Сущность толерантности // Культура межнационального общения. - Ростов-н/Д: Изд.СКНЦ, 2003. - 81 с.
10. Шалин, В.В. Толерантность и культура межнационального общения: Учебно-методическое пособие [Текст] / под ред. В.В. Шалина, Е.А.Журавлевой - Краснодар: Просвещение, 2009. - 308 с.
11. Шлягина, Е.И. Этническая толерантность личности: опыт эмпирического исследования // Век толерантности: Научно-публицистический вестник. - 2001. - №3. - С.124-131.

# KƏLBƏCƏR UĞRUNDA DÖYÜŞ (1993-CÜ İL 27 MART-2 APREL)

**Əzizağa Qəni-zadə**
Milli Müdafiə Universiteti
yupiter57@mail.ru

***Açar sözlər:*** *Qarabağ, erməni hərbi birləşmələri, Kəlbəcər, müdafiə döyüşləri, qəhrəmanlıq*

***Məqalədə 1993-cü il martın 26-dan aprelin 2-dək Azərbaycan Respublikasının Kəlbəcər rayonununerməni hərbi birləşmələri tərəfindən işğalı zamanı milli ordumuzun 701 saylı hərbi hissəsinin döyüş fəaliyyəti mötəbər mənbələr və həmin döyüşlərin iştirakçısı olmuş zabitlərin dili ilə təhlil olunmuşdur. Azərbaycanın Qarabağ bölgəsinin xaricində yerləşən Kəlbəcər rayonunun işğalı üçün hücum əməliyyatı əsasən Ermənistan Respublikası ilə sərhəddən həyata keçirilmiş və işğal zamanı ağır artilleriya, Mi-24 helikopterlərindən və hərbi təyyarələrdən istifadə edilmişdir.***

*701-ci briqada 1992-ci ilin may ayından sentyabr ayına qədər Kəlbəcər rayonunda yerləşir və rayonun müdafiəsini təşkil edirdi.Həmin il sentyabr ayının əvvəlində 701-ci briqada gözlənilmədən Laçın rayonuna döyüş əməliyyatlarına göndərildi. Beləliklə,Kəlbəcər rayonu düşmən qarşısında müdafiəsiz qaldı. 1993-cü ilin fevral ayında Ağdərə rayonunun daişğalı düşmənlə üzbəüz olanKəlbəcər rayonunun da işğalını qaçılmaz etdi.*

*İşğal nəticəsində 60.000-nə qədər kəlbəcərli etnik təmizləməyə məruz qalaraq öz doğma torpaqlarından didərgin salınmış, 511 dinc sakin öldürülmüş, 321 nəfər əsir götürülmüş və itkin düşmüşdür.*

## БИТВА ЗА КЕЛЬБАДЖАР (27 МАРТА-2 АПРЕЛЯ 1993 ГОДА)

**Азизага Гани-заде**

***Ключевые слова:*** *Карабах, армянские воинские формирования, Кельбаджар, оборонительные бои, героизм*

*В статье на основе авторитетных источников и со слов офицеров, принимавших участие в боях, проанализирована боевая деятельность воинской части № 701 национальной армии в период оккупации Кельбаджарского района Азербайджанской Республики армянскими воинскими формированиями с 26 марта по 2 апреля 1993 года.*

*Наступательная операция по оккупацию Кельбаджарского района, находящегося за пределами Карабахского региона Азербайджана, велась в*

*основном с границы Республики Армения, и во время оккупации применялись тяжелая артиллерия, боевые вертолеты Ми-24 и самолеты.*

*701-я бригада с мая по сентябрь 1992 года дислоцировалась в Кельбаджарском районе и организовала оборону района. В начале сентября того же года 701-я бригада была неожиданно направлена на боевые действия в Лачинский район. Таким образом, Кельбаджарский район остался беззащитным перед врагом. В феврале 1993 года оккупация Агдарского района сделала неизбежной оккупацию Кельбаджарского района.*

*В результате оккупации до 60 000 кельбаджарцев были изгнаны со своих родных земель, 511 мирных жителей были убиты, 321 был взят в плен и пропал без вести.*

## BATTLE FOR KALBAJAR (MARCH 27-APRIL 2, 1993)

**Azizaga Ghani-zade**

***Keywords:*** *Karabakh, Armenian military formations, Kelbajar, defensive battles, heroism*

*Based on authoritative sources and according to the words of the officers who took part in the battles, the article analyzes the combat activities of the military unit No. 701 of the national army during the occupation of the Kelbajar region of the Republic of Azerbaijan by Armenian military units from March 26 to April 2, 1993. The offensive operation to occupy the Kelbajar region, which is outside the Karabakh region of Azerbaijan, was carried out mainly from the border of the Republic of Armenia, and heavy artillery, Mi-24 combat helicopters and aircraft were used during the occupation.*

*The 701st brigade was stationed in the Kalbajar region from May to September 1992 and organized the defense of the region. In early September of the same year, the 701st brigade was unexpectedly sent to combat operations in the Lachin region. Thus, the Kelbajar region remained defenseless against the enemy. In February 1993, the occupation of the Aghdar region made the occupation of the Kelbajar region inevitable.*

*As a result of the occupation, up to 60,000 Kalbajars were expelled from their native lands, 511 civilians were killed, 321 were taken prisoner and went missing.*

### Giriş

1991-ci ildə SSRİ-nin süqutundan sonra müstəqilliyinə qovuşmuş digər respublikalar kimi Azərbaycan da bu xoşbəxtliyə nail oldu. Yeni yaradılmış respublikanın qarşısında öz ərazi bütövlüyünü təmin etmək, suverenliyini

qorumaq üçün təcili olaraq nizamli ordunun yaradılması işinə başlanılmalıydı. Lakin ölkədə hökүm sürən siyasi böhram, ağır ictimai-sosial vəziyyət, xarici və daxili düşmənlərin respublikanı parçalamaq cəhdləri taleəhəmiyyətli bu mühim işin formalaşdırılmasını ləngidirdi. Rus imperiyası tərəfindən süni şəkildə yaradılan Qarabağ problemi isə vəziyyəti bir qədər də çətinləşdirmişdi.

Lakin Azərbaycan Respublikasından fərqli olaraq Ermənistan havadarlarının dəstəyi ilə tez bir zamanda öz silahlı qüvvələrini formalaşdırmağa nail olmuşdu. Erməni hərbi birləşmələri Azərbaycanda baş verən bu böhrandan istifadə edərək xarici havadarlarının siyasi və hərbi dəstəyi ilə 1992-ci ilin birinci yarısında Şuşa və Laçın rayonlarını işğal etdi. Nəticədə Kəlbəcər rayonu üç tərəfdən Ermənistanın əhatəsində - blokada vəziyyətinə düşdü. Azərbaycan Respublikası ilə yeganə əlaqə yolu çətin keçilən Murovdağ silsiləsi idi[24].

1988-1989-cu illərdə bu yol Kəlbəcər ziyalılarından Təhməz Cəfərovun təklifi və rəhbərliyi ilə Murov dağının Ömər aşırımından çəkilmişdi. Kəlbəcəri Gəncə ilə birləşdirən 100 km-lik bu yolu haqlı olaraq kəlbəcərlilər “Həyat yolu” adlandırırdılar. Murov dağının insan ayağı dəyməyən yamaclarına traktorla çıxaraq, quşqonmaz qayaları, daşları söküb insan ağlına gəlməyən yamaclara traktor çıxaran traktorçular əsl qəhrəmanlıq göstərdilər [18, 9].

Kəlbəcər uğrunda müdafiə döyüşərini daha aydın anlamaq üçün dağlıq əraziyə malik rayon haqqında qısa məlumat verək.

Kəlbəcər Azərbaycanın ən yüksək dağ rayonudur. Rayon Azərbaycanın qərbində, Tərtər çayı vadisində, Böyük Qafqaz dağlarında, dəniz səviyyəsindən 1500-3800 metr hündürlükdə yerləşir. Ən uca nöqtəsi dəniz səviyyəsindən 3724 metr yüksəkdəki Camışdağ zirvəsidir (Murovdağ). Qərbdə Ermənistan Respublikası, şimalda Daşkəsən, Göy-Göl, Goranboy, şimali-şərqdə Tərtər, şərqdə Ağdam, Xocalı, cənubda Laçın rayonları ilə həmsərhəddir. Ərazinin çox hissəsi meşəlikdir **[25; 10, 366].**

"Kəlbəcər" toponiminin mənşəyi qədim türk dilində (oykonimin ilkin forması Kevliçer kimi qəbul edilib) "çay üstündə qala" deməkdir. Kevli "çayın üstü", çer/car "qala" mənasını verir.Yaşayış məntəqəsinin yerləşdiyi qayada Tərtərçay çayı boyunca cərgə ilə düzülmüş qədim süni mağaralar mövcuddur. Buna görə də mütəxəssislər toponimi kevil/kəvl və qədim türk dillərindəki cər (qaya, yarğan) komponentləri ilə əlaqələndirirlər[25].

Dik dağ silsiləsi arasında yerləşən, bölgənin müharibə vaxtı əhalisi təqribən 45.000–60.000 nəfər etnik azərbaycanlılar və kürdlərdən ibarət idi[24].

1993-cü ilin fevralında Ermənistan qoşunları Tərtər-Kəlbəcər yolunu tutduqdan sonra əsas hadisələr düşmənin mühasirəyə aldığı Kəlbəcər rayonu ətrafında inkişaf etməyə başladı. 3 tərəfdən - Qərbdə Ermənistan Respublikası ilə dövlət sərhədi, cənubdan Laçın rayonu və şərqdə erməni separatçılarının nəzarətinə keçmiş Qarabağla əhatə olunmuş Kəlbəcər düşmən dövrəsində

qalmışdır. Həm Kəlbəcərin, həm də Laçının yeganə həyat yolu olan Tərtər-Kəlbəcər yolu bağlandıqdan sonra faktiki mühasirə vəziyyətiyaranmışdı[47].

Məlum hadisələrin cərəyan etdiyi dövrdə - 1992-ci il sentyabrın 20-dən, 1993-cü il matın 30-dək 701 saylı motoatıcı briqada Kəlbəcər rayonundan 60 km-dən çox uzaqlıqda, Laçın rayonunun şimal-qərb hissəsində qarşısında duran döyüş tapşırığını yerinə yetirirdi**[22].** Briqadanın qərargahı Kürdhacı kəndində yerləşirdi.

1992-ci il fevralın əvvəllərində Sərsəng su anbarını ələ keçirən düşmən 701 saylı motoatıcı briqadanı tamamilə mühasirəyə aldı. Hərbi hissə sağ tərəfdən Ermənistan Silahlı Qüvvələri, ön və sol cinahdan Qarabağdakı erməni qoşunları, arxadan isə Murovdag silsiləsi ilə əhatə olunmuşdu.

Briqadanın 1985 nəfər şəxsi heyəti vardı. Ön xətdə 2-ci, 4-cü, ehtiyatda 5-ci (Bərdə) taborları, 57 nəfərdən ibarət Laçın polisi, reyd dəstəsi (10 nəfər), kəşfiyyat bölüyü, zirehli qrupu, D-30 haubitsalarından ibarət artilleriya divizionuna, MT-12 topları və BM-21 qurğuları batareyalarına, 7 tank, 7 PDM-ə malik idi. Briqada 1992-ci il oktyabrın 15-dən etibarən öz əsas gücünü Laçın rayonunun şimalında, Laçın- Kürdhacı məntəqələri istiqamətində cəmləşdirmişdi**[47].**

Sol tərəfdən Dəlidağ yüksəkliyi- Alxaslı kəndi, sağdan Fərraş – Taxtabaşı kəndləri olmaqla briqadanın ön müdafiə xətti Alxaslı kəndi-Hoçaz yüksəkliyi-Birinci Tiğik-Fərraş kəndlərini əhatə edirdi. 1993-cü il fevralın 15-də atıcı silahlarla silahlanmış 473 nəfərlik 3-cü tabor briqadanın birbaşa komandanlığından çıxarılaraq sərhəd dəstəsi kimi Azərbaycan və Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu hissəsində xidmət aparırdı. Dəstə Qaraqaya, Söyüdlü, Kürdyurdu, Oktyabr, Ayrım, Yellicə, Dikyurd, Zəylik, Ağduzdağ, Taxta zastavalarından ibarət 110 km məsafədə keşik çəkirdi. Hər 10 km-lik məsafədən bir, 30 nəfərdən ibarət sərhəd dəstələri yerləşdirilmişdi. Onlara kiçik təxribat dəstələrini zərərsizləşdirmək həvalə olunmuşdu. 130 nəfərlik 1-ci tabor isə Ağdərə və Kəlbəcər yolunu nəzarətə götürüb həmin rayonların arasında yerləşən Çərəkdar kəndi yaxınlığında hakim yüksəkliklərdə müdafiə mövqeyi tutmuşdu[22].

1993-cü il fevralın 13-dəkLaçın rayonunda yerləşən 701-ci briqadanın təminatı iki – yerüstü və hava marşrutu ilə aparılırdı.Əsas yerüstü marşrut Ağdərə istiqamətindən Sərsəng su anbarı boyunca yerinə yetirilirdi. Ehtiyat hava marşrutu payız-qış dövründə qar yağması nəticəsində yolların bağlanması səbəbindən dəniz səviyyəsindən 3261 metr hündürlüyə malik Ömər aşırımı üzərindən həyata keçirilirdi ki, bu yolla da Kəlbəcər və Laçın rayonlarının ərazisi ilə xeyli yol qət etmək lazım idi.

Sərsəng su anbarı boyunca əsas quru yol düşmən tərəfindən ələ keçirildiyinə görə 1993-cü il fevralın15-dən etibarən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi briqadanı helikopterlərlə təmin etməyə məcbur

oldu. Qış və yazın əvvəlində Murovdağ silsiləsinin (3200-3700 metr yüksəklik) çətin keçilən yüksək aşırımları vasitəsilə ləvazimatların çatdırılması, demək olar ki, mümkünsüzdü və lazım olan vəsaitləri daşımaq üçün helikopterlər yeganə nəqliyyat vasitəsi idi. Bunun üçün 10 Mi-8 nəqliyyat helikopterindən ibarət qrup ayrılmışdı[47].

1993-cü il martın 5-də Azərbaycan komandanlığı tərəfindən əmrlə Ağdərə-Kəlbəcər istiqamətində müdafiə işlərinin möhkəmləndirilməsi məqsədilə briqadanın cəbhə xətti üç dəfə genişləndirildi, Mıxtökən dağ silsiləsi ilə bir-birindən 70 kilometrdən çox ayrılan iki istiqamətə bölündü. Birinci istiqamət Laçın rayon mərkəzi – Kürdhacı məntəqəsini, ikincisi isə Çərəkdar kəndi – Kəlbəcər rayon mərkəzini əhatə edirdi.Müdafiə zolağı Dəlidağ yüksəkliyi – Alxaslı, Çərəkdar – Kəlbəcər ərazilərini, ön xətt isə Alxaslı–Hoçaz–Tiğik–Fərraş–Narınclar–Mərcimək məntəqələrini əhatə edirdi. Laçın rayonunun şimal və Kəlbəcər rayonunun cənub-şərq hissələrində ərazinin relyefi nəzərə alınmaqla briqadanın müdafiə zolağı təxminən 120 kilometrə yaxın idi. Ermənistanla 100 km-dən artıq dövlət sərhədi, həmçinin Ağdaban kəndi və Ömər aşırımına gedən yollar da daxil olmaqla şimalda 25 km uzunluğunda məsafə müdafiə zolağına daxil deyildi. Bu ərazilərin etibarlı müdafiəsini təmin etmək üçün isə əslində 3 briqada lazım idi[47].

**Beləliklə, 701 saylı briqada umumi sahəsi təxminən 3 min kvadrat kilometr olan** iki rayonun ərazisində müdafiəni təşkil etməli oldu. Briqada komandiri vəziyyəti - döyüş imkanlarını, hərbi əməliyyat rayonunun genişliyini, ehtiyat qüvvənin olmamasını, ön xətdə bölmələrin tam komplektləşdirilməməsini qiymətləndirib 1-ci ordu birliyi komandirinin təsdiq etdiyi yeganə doğru qərarı qəbul etdi. Briqada komandirinin planı yuxarı komandanlığın ümumi niyyətindən kənara çıxmırdı. Məqsəd düşmənlə birbaşa təmasda olan bölmələri müdafiənin ön xəttindən çıxarmamaq və məhdud ərazidə, daha doğrusu, Kəlbəcər rayon mərkəzində mühasirəyə düşməmək üçün bölmələrin cəmləşdirilməsinə yol verməməkdən ibarət idi[3,1].

Bu qərarın bir neçə səbəbi vardı. Kəlbəcər rayon mərkəzinin dairəvi müdafiəsini təşkil etmək üçün əlavə bölmələr olmadığına görə komandir ön xətti zəiflədərək iki taboru oradan çıxarmalı olsaydı, nəticədə tərk edilmiş mövqelərdə düşmənin maneəsiz irəliləməsi və Ömər aşırımına aparan yolların ələ keçirilməsinə birbaşa təhlükə yarada bilərdi. Bu, müdafiə olunan bölmələrin mühasirəyə alınması və düşmən tərəfindən məhv edilməsinə imkan verərdi. Kəlbəcər rayon mərkəzi əsas yollardan kənarda yerləşirdi və əməliyyat-taktiki baxımdan vacib obyekt deyildi. Düşmən Ömər keçidini ələ keçirsəydi, rayon mərkəzinin dairəvi müdafiəsinin heç bir əhəmiyyəti qalmırdı və ilk növbədə dinc əhali arasında maksimum itkilərə gətirib çıxara bilərdi.

1993-cü il martın əvvəlində 701 saylı briqadanın komandiri helikopterlə Bakıya gəldi, müdafiə naziri general-mayor Dadaş Rzayevə Kəlbəcərin

müdafiəsi üçün təcili tədbirlər görməyin lazım olması barədə məruzə etdi və Kəlbəcərin nəzəri cəhətdən artıq itirildiyini söylədi. Briqadanın Laçın rayonundan Kəlbəcər rayonuna göndərilməsi üçün əmr verilməsi vəziyyətdən çıxmaq üçün yeganə yol ola bilərdi. Müdafiə naziri briqada komandirinə erməni hərbi birləşmələrinin beynəlxalq qalmaqaldan çəkinərək Dağlıq Qarabağdan kənarda yerləşən Kəlbəcər rayonuna heç vaxt gəlməyəcəyinibildirərək ona vahiməyə düşməməyi əmr etdi. Müdafiə naziri Ermənistan rəhbərliyinin beynəlxalq hüquqa və sərhədlərin toxunulmazlığına riayət edərək Azərbaycanın dövlət sərhədini pozmayacağına və Qarabağın inzibati ərazisi olmayan Kəlbəcər rayonuna erməni qoşunlarının heç vaxt hücum etməyəcəyinə əmin idi[9].

Briqadanın qərargah rəisi polkovnik-leytenant Aydın Şiriev bu hadisələri belə xatırlayır: "Düşmənin hücumundan öncə Laçın rayonunun şimal- qərb hissəsindən başqa Kəlbəcər ərazilərinin 1/3 hissəsini də müdafiə üçün 701 saylı briqadaya tapşırdılar. Rayonun 2/3 hissəsini isə heç kim qorumurdu. Bu vəziyyətdə briqada komandiri hələ rayonun işğalından 40 gün əvvəl yazılı və şifahi təklif verərək ilk döyüşlərdən sonra təcili olaraq Laçından Kəlbəcərə göndərməsini xahiş etmişdi. Təəssüf ki, komandirin ehtimallarını şişirdilmiş hesab etdilər və: “Sizin mövqeyiniz aydındır, vahiməyə düşməyin, ermənilər heç vaxt beynəlxalq qalmaqala getməyəcəklər, Kəlbəcər isə Dağlıq Qarabağ deyil” qeyd edərək vəziyyətin bir qədər də çətinləşməsinə şərait yaratdılar **[2].**Qarabağdan kənarında yerləşən Kəlbəcər rayonunun ermənilər tərəfindən ələ keçirilməsi o zaman istisna edilirdi[9].

Hökumət hesab edirdi ki, diplomatik qalmaqal səbəbindən erməni komandanlığı bu addımı atmaz. Buna görə Müdafiə Nazirliyi rayonun müdafiəsi ilə bağlı heç bir tədbir görməmişvə bununla daKəlbəcərin düşmən tərəfindən ələ keçirilməsi üçün əlverişli şərait yaranmışdı.

Kəlbəcər rayonunun ələ keçirilməsi, Prezident Əbülfəz Elçibəy başda olmaqla Azərbaycanın rəhbərliyi tərəfindən yol verilmiş səhv idi. Ədalət naminə qeyd etmək lazımdır ki, 2000-ci ilin aprelində ANS telekanalına verdiyi müsahibədə Əbülfəz Elçibəy etiraf edirdi ki, Kəlbəcər rayonunun işğalına görə Prezident və Ali Baş Komandan kimi məsuliyyət daşıyır və buna görə rayon əhalisindən üzr **istəyir[8].**

Müdafiə naziri vəziyyəti öyrənmək üçün briqada komandirinin xahişi ilə Kəlbəcər rayonuna beş zabitdən ibarət əməliyyat qrupu göndərdi və Kəlbəcər rayonunun yerli əhalisindən ibarət əlahiddə dağ – atıcı alayının yaradılması barədə qərar qəbul etdi. Əmr 1993-cü il martın 22-də imzalandı. Rayon polis idarəsinin rəisi polis polkovniki Nizami Məmmədov alay komandiri təyin edildi**[20].**

1993-cü il mart ayının ortalarında Kəlbəcər rayonunun Müdafiə Şurası tərəfindən rayondatələsik yerli əhalidən ibarət 6-cı tabor altında könüllü bir

dəstə yığıldı. Rayon elektrik şəbəkəsinin rəisi tabora komandir təyin olundu. Təlim üçün vaxt olmadığından könüllülər taboru dərhal Narınclar, Mərcimək, Ağqaya və Ağdabanda mövqelərə yerləşdirildi. Lakin, tez bir zamanda formalaşdırılmış taborun tabeliyində bir nəfər də olsun hərbi mütəxəssis yox idi. Həmçinin hazırlıq səviyyəsi aşağı olduğundan ağır silah və texnika ilə təchiz olunmuş düşmənin hücumunu dəf etmək imkanına qadir deyildi **[22].**

1993-cü il mart ayının əvvəllərində Ağdərə rayonunun işğal olunmuş mövqelərində möhkəmlənmiş düşmən əsas qüvvələrini Kəlbəcər rayonu istiqamətində cəmləşdirdi. Ermənistanla Qarabağın dağlıq hissəsi arasındakı ərazilərimizi tutmaq üçün erməni komandanlığı ciddi hazırlıq görərək çoxsaylı qoşun qruplaşması yaratmış, o cümlədən cəbhənin digər sahələrindən də hərbi qüvvələr gətirilmişdi. Hücum əməliyyatlarında həm Ermənistan, həm də Qarabağdan 6 istiqamətdə eyni sayda qruplaşma iştirak edirdi:

- 1-ci qruplaşma - şimaldan Gamış dağı və Ömər aşırımı istiqamətində: komandir Norayr Danielyan idi. Bu istiqamətdə Arkadi Şirinyanın, Rafo Saiyanın, Aşot Aruşanyanın taborları hücumda iştirak edirdi.
- 2-ci qruplaşma - Çərəkdar istiqamətində: komandir Monte Melkonyan idi. Qarabağdan hücuma keçən erməni qruplaşmalarına ümumi komandirliyi də Monte Melkonyan həyata keçirirdi. Bu istiqamətdə Martuni müdafiə rayonunun bölüyə qədər yığma dəstəsi, Hadrut müdafiə rayonunun bölüyə qədər yığma dəstəsi, Mərkəzi müdafiə rayonunun zərbə qrupu, Ermənistandan olan könüllü dəstə iştirak edirdi.
- 3-cü qruplaşma - Narınclar istiqamətində: bu istiqamətdə Yuri Hakobyan komandirliyi ilə Vəngli taboru, Aşot Minasyanın komandirliyi ilə Ermənistandan "Sisakan" könüllü dəstəsi Çormanlı üzərinə hücum edirdi.
- 4-cü qruplaşma - Qırxqız istiqamətində: bu istiqamətdə Vitaliy Balasanyanın komandirliyi ilə Əsgəran müdafiə rayonundan Karen Arzumanyanın taboru hücum edirdi.
- 5-ci qruplaşma - cənubda Fingə, Birinci Tiğik və İkinci Tiğik, Hoçaz istiqamətində: komandir Amayak Aroyan idi. Bu istiqamətdə Əsgəran müdafiə rayonundan Arşavir Qaramyanın komandirliyi ilə 35-ci tabor, Şuşa müdafiə rayonundan Martik Qasparyanın komandirliyi ilə 53-cü tabor, yenə həmin rayondan Vladimir Kasyanın komandirliyi ilə 51-ci tabor, Ermənistan Daxili İşlər Nazirliyi daxili qoşunlarının taboru və Ermənistandan bir neçə könüllü dəstə vuruşurdu.
-6-cı qruplaşma - şimal-qərbdən, Ermənistanın Vardenis rayonu istiqamətində: istiqamətin koordinatoru general-leytenant Qurgen Dəlibaltayan idi. Bu istiqamətdə Fransa ermənisi olan Hovsep Hovsepyanın ümumi komandirliyi ilə Ermənistan qoşunlarının şimal birləşmələri və Ermənistandan olan könüllü dəstələr Zoddan Cəmilli, Seyidlər, Daşkənddən Aşağı və Yuxarı-Ayrım istiqamətlərində Azərbaycan torpaqlarına soxulmuşdu[35; 47; 3,2].

Robert Köçəryan öz avtobioqrafik xatirələrində qeyd edir ki,: "Bizim üçün Azərbaycanın bu yüksək dağ rayonu coğrafi mövqeyinə görə müstəsna əhəmiyyətə malik idi. Şimaldan Laçına bitişik olan rayon Qarabağla Ermənistanın arasında yerləşirdi. Mardakert rayonundakı qoşunlarımızın mövqeyi zəif idi, çünki onlar təkcə şimal və şərqdən deyil, həm də qərbdən, Kəlbəcər tərəfdən hücuma məruz qala bilərdilər. Kəlbəcər rayonu üzərində nəzarət bütün qüvvələri şərq və şimal-şərq istiqamətində cəmləşdirməyə imkan verərdi. Şimalda Kəlbəcəri Azərbaycanın qonşu rayonundan yüksək dağ silsiləsi ayırırdı. Yeganə yol 3200 metr yüksəklikdə Ömər aşırımından keçirdi və onu əldə saxlamaq üçün bizə böyük qüvvə və vəsait saxlamağa ehtiyac yox idi. Eyni zamanda cəbhə xətti bir neçə dəfə qısalırdı. Bir sözlə, Kəlbəcər rayonunun ələ keçirilməsi bizim üçün hərbi zərurətə çevrilmişdi, bunsuz Mardakert istiqamətində müvəffəqiyyət qısa müddətli olardı. Müharibənin gedişində Şuşadan sonra ən əhəmiyyətli əməliyyatlardan biri olan bu əməliyyatı, Mardakertdə olduğu kimi, həyata keçirmək üçün biz bütün müdafiə rayonlarından hücum bölmələrini və əsas zərbə qüvvəmiz olan mərkəzi müdafiə rayonunun qüvvələrini cəmləşdirdik. Əməliyyata rəhbərlik Monte Melkonyana həvalə edildi"[52;122].

Zərbə qruplarının formalaşdırılmasını başa çatdıran erməni komandanlığı 1993-cü il martın 26-da saat 9 radələrində güclü artilleriya hazırlığından sonra Ağdərə-Kəlbəcər avtomobil yolu boyunca Qozlukörpü – Çərəkdar istiqamətindən hücuma başladı. Düşmən tankların, PDM-lərin və havadan beş döyüş helikopterinin atəş dəstəyi ilə 1-ci, 2-ci və 3-cü istiqamətlərdə irəliləyirdi[28].

Həmin vaxt Kəlbəcər rayonunda 130 nəfərlik 1-ci motoatıcı tabor və könüllülərdən ibarət 6-cı motoatıcı tabor yerləşirdi. Sərhəd taborunu isə ümumqoşun döyüşünə cəlb etmək mümkün deyildi. 1-ci motoatıcı tabor rayonun şərq kəndlərinin müdafiəsi uğrunda döyüşlər aparırdı. Sonra briqada komandirinin əmrilə tabor Çərəkdar məntəqəsinin yaxınlığında müdafiə mövqeyi tutdu. Bölmə eyni zamanda Ağdərə istiqamətindən gələn şosse yolu üzrə Kəlbəcərə girişi müdafiə edirdi. 701saylı briqadanın qalan qüvvələri Laçın bölgəsində döyüş mövqelərində qalmaqdaydı.

Martın 26-da saat 7-də tankların, PDM-lərin, artilleriyanın dəstəyi ilə düşmənin 2-ci qruplaşması 1-ci taborun Çərəkdar yaxınlığındaki mövqelərinə hücum etdi. Gün ərzində onlar taborun mövqelərinə üç dəfə hücum etdilər. Zirehli texnika və insan itkisi verən düşmən geri çəkildi [28].

Bir gün sonra Mi-24 helikopterlərindən istifadə edən erməni qruplaşması 1-ci taborun mövqelərinə yenidən hücum etdi, xeyli canlı qüvvə və texnika itirərək geri çəkildi. Azərbaycan zenitçiləri həmin döyüşdə düşmənin 2 Mi-24 helikopterini məhv etmişdi.

Həmin gün ermənilərin 1-ci qruplaşması Ağdabana hücum etdi. Üstün düşmən qüvvələrinin təzyiqi ilə Ağdabanı müdafiə edən könüllülər öz mövqelərini tərk etdilər. Geri çəkilən zaman onlar Ağdabana gəlmiş briqada komandirindən Bağlıpəyə yaxınlığında müdafiə mövqeyi tutmaq və bu yaşayış məntəqəsinin müdafiəsini təşkil etmək əmri aldılar[28].

Ağdabanı ələ keçirən düşmən müdafiə sahəsində bölmələrimizin zəif yerini aşkar etdi. Onlar, Kəlbəcər - Ağdərə - Laçın - Kəlbəcər həyati əhəmiyyətə malik yol qovşağını ələ keçirmək məqsədilə 701saylı briqadanın sol cinahından keçərəkmüdafiə xəttini yardılar [47].

Ağdabanda itirilmiş mövqelərini qaytarmaq üçün briqada komandiri təcili olaraq Laçın rayonundan 3 tank, 5 piyada döyüş maşını və 30 əsgərdən ibarət zirehli qrup çağırdı. Qrup 1993-cü il martın 28-də səhər gəlib çatdı. Həmin gün səhər briqada komandiri Buzluq yüksəkliyindən Ağdaban istiqamətində ərazinin kəşfiyyatını apardı və zirehli qrupun köməyi ilə Ağdabanın döyüşlə qaytarılması üçün plan hazırladı.

Həmin vaxt hakim yüksəkliklərdən hücum edən düşmən Bağlıpəyə məntəqəsini ələ keçirdi. Bağlıpəyəni müdafiə edən özünümüdafiə dəstəsi itki verərək geri çəkildi. 1-ci motoatıcı tabor Çərəkdarda, könüllülər isə Ağqaya, Narınclar və Mərciməkdə öz mövqelərini saxlamaqda davam edirdilər[47].

Martın 28-də səhər Çərəkdar məntəqəsi yenidən yer və havadan hücuma məruz qaldı. Mi-24 helikopterləri briqadanın zenit heyətini məhv etdi. İki Azərbaycan zenitçisi həlak oldu, ikisi yaralandı, AZP-57 zenit qurğusu isə sıradan çıxarıldı. Döyüşlərdə düşmən də canlı qüvvə və texnika sarıdan itkiyə məruz qaldı. 1-ci motoatıcı tabor (komandiri kapitan Qurban Qurbanov idi) tutulmuş mövqeləri saxlamaqda davam edirdi. Bəzən döyüşlər olduqca yaxın məsafədən aparılırdı[47].

Martın 28-də günortadan sonra zirehli qrup briqada komandirinin rəhbərliyi ilə Bağlıpəyə istiqamətində əks hücuma keçdi və yaşayış məntəqəsində itirilmiş mövqelər geri qaytarıldı. Zirehli qrupun tələsik tutduğu mövqelər zəif olduğundan səhəri gün tezdən hücuma keçən düşmən Bağlıpəyəni yenidən ələ keçirdi. Bir neçə Azərbaycan əsgəri döyüş zamanı həlak oldu və yaralandı, bir zirehli texnika itirildi[47].

Çərəkdardakı 1-ci tabora kömək məqsədi ilə bir tank göndərənbriqada komandiri tabor komandirinə tunel istiqamətində mühasirədən çıxmaq barədə əmr verdi. Briqada komandiri zirehli qrupu tunelə tərəf apardı. Laçındakı mövqelərdə zərurət yarandığı üçün 701 saylı briqadanın kəşfiyyat rəisi baş leytenant R.İskəndərov döyüşlərin getdiyi mövqelərə geri çağırıldı. Zirehli qrup tunelin qarşısında Kəlbəcər – Ağdərə, Laçın – Kəlbəcər vacib yol ayrıcında möhkəmləndi. Avtomobil yolu üçün dağ massivinin altından çəkilmiş tunelin ələ keçirilməsi Kəlbəcər və Laçın rayonları arasında əlaqənin kəsilməsinə gətirib çıxarardı. Həmin gün Azərbaycan qoşunlarının açıq sol cinahı boyunca

dərinləşməyi davam etdirən düşmənin 1-ci qruplaşması 1-ci taborumuzun arxasına keçdi.

Martın 29-da saat 12 radələrində 1-ci ordu birliyinin komandiri general-mayor Nəcməddin Sadıkov tunelə gəldi. Həmin gün oradan Murovdağa qədər cəbhədə Kəlbəcərin müdafiəsində dayanan qüvvələr 2 tank, 3 piyada döyüş maşını və 30 əsgərdən ibarət idi. 1-ci motoatıcı tabor isə düşmənın arxasında qalmışdı [28].

Briqada komandiri vəziyyət barədə general N.Sadıkova məruzə edib bildirdi ki, onlar hücuma keçmiş düşmən qüvvələrinin qarşısında Çərəkdar-Tunel-Zülfüqarlı yolunda dayanıblar, irəlidə isə bizim qüvvələrimiz yoxdur. Həmçinin birlik komandirinə məlumat verildi ki, kəşfiyyat rəisi baş leytenant R.İskəndərov Çiçəkli yüksəkliyində düşmənin hərəkətini izləyir. Əgər düşmən irəliləməkdə davam edərsə, o, bölmələrə vuruşmaq barədə əmr verəcək.

Martın 29-da saat 16:00 radələrində təxminən 60 əsgərdən ibarət 1-ci motoatıcı tabor, köməyinə göndərilmiş bir tankı itirsə də tunelə gəlib çatdı. Yenidən qüvvələrini formalaşdıraraq zirehli qrup və helikopterlərlə Kəlbəcər rayonuna köməyə göndərilmiş döyüşçülərdən formalaşdırılan yeni dəstə iləbirlikdə briqada komandirinin başçılığı altında tunel – Çərəkdar, tunel – Bağlıpəyə, tunel – Vəngli istiqamətində düşmənə qarşı əks-hücuma keçdi. Axşama yaxın yalnız 20 əsgərlə zirehli qrup döyüşdən qayıtdı. Digər döyüşçülər hücum edən düşmənin arxasında qalmış və mühasirədən çıxmaq üçün bir neçə gün rabitəsiz manevr etmişdilər[44,4].

Həmin gün keçmiş dövlət katibi Pənah Hüseynov və Tərtər rayonunun icra başçısı Sərdar Həmidov Kəlbəcərə gəldilər. Yerində vəziyyətlə tanış olan Pənah Hüseynov Prezident Əbülfəz Elçibəyə məruzə etdi ki, artıq rayonu saxlamaq mümkün deyil, yerli sakinləri təxliyə etmək və ölkədə fövqəladə vəziyyət elan etmək lazımdır[44,4].

1993-cü il martın 29-da Azərbaycan Respublikasının Prezidenti "Kəlbəcər rayonu əhalisinin təxliyə edilməsi haqqında" sərəncam imzaladı. Eyni vaxtda Ömər dağının yolları traktorlar vasitəsilə qardan təmizləndi. Əhalinin təxliyəsinə başlanarkən bütün yollarda, kəsişmələrdə nəqliyyat vasitələrinin tıxacları yaranmışdı. Bu, müdafiə olunan bölmələrin manevrini, qüvvələrin müdafiə üçün yerüstü çevik hərəkətini daha da çətinləşdirirdi[44,4].

Martın 28-dən aprelin 4-dək Kəlbəcər rayonunun çox sayda sakinləri ordu və mülki nəqliyyat helikopterləri tərəfindən təxliyə edildi. Mi-8 nəqliyyat helikopterləri maksimum 24 nəfər daşıya bildiyi halda bəzən bir borta 70 nəfərədək insanı götürürdülər. Çox adam daşıya bilmələri üçün onlar baklarına minimum yanacaq doldururdular. Təxliyə işlərinə 13-14 Mi-8 helikopteri cəlb edilmişdi. Rayonun ən çətin yerlərindən həmin günlərdə 5 min nəfərdən çox adam təxliyə olunmuşdu. Əməliyyatın 7 günü ərzində hər bir helikopter heyəti

70-100 saat uçuş həyata keçirmişdilər. Uçuşlar mürəkkəb hava şəraitində, aprelin 1-dən isə düşmənin bilavasitə atəşi altında həyata keçirilmişdi[11].

Kəlbəcər sakinlərinin əsas hissəsi qardan yüksək dağ aşırımı vasitəsilə rayonu tərk edirdi. 10 minlərlə əhalinin rayondan çıxması onsuz da məhdud hərəkət imkanına malik keçidlərdə tıxaca səbəb olurdu, bu, kömək üçün əlavə qüvvələrin göndərilməsinə əngəl yaradırdı.

Martın 30-da səhər saatlarında helikopterlər daha bir əsgər qrupunu köməyə gətirdilər. Briqada komandiri tuneli nəzarətə götürərək onları Çiçəkli yüksəkliyində yerləşdirdi.General-mayor N.Sadıkov Müdafiə nazirini 701 saylı briqadanın Laçın rayonundan Kəlbəcərə çıxarılmasının zəruriliyinə inandırdı və bu barədə qərar martın 30-da qəbul edildi. O vaxtadək Kəlbəcərin müdafiəsini helikopterlərlə başqa yerlərdən göndərilən döyüş görməmiş əsgərlər, həmçinin 1-ci motoatıcı tabor və 701 saylı briqadanın zirehli qrupu həyata keçirirdi[28].

Həmin gün saat 11:00 radələrində Kəlbəcər rayonunda vəziyyət böhran həddinə çatdı. Ermənistan Silahlı Qüvvələrinin bölmələri Nerkin-Şorca-Kəlbəcər və Zod-Dəmirçidam istiqamətlərində hərəkət edərək dövlət sərhədimizin yaxınlığında çıxış mövqeləri tutdular. Onlar artilleriya hazırlığından sonra zirehli texnika və canlı qüvvədən istifadə etməklə sərhəd dəstəmizi sıxışdıraraq Azərbaycan Respublikası ərazisinə daxil oldular.

Azərbaycan Ordusunun nə dövlət sərhədinin qorunması, nə də Qarabağ istiqamətindən hücuma keçmiş düşmənlə vuruşan bölmələrə kömək üçün ehtiyat qüvvələri yox idi. Könüllülər dinc əhalinin təxliyəsini təmin edirdilər. Dağ – atıcı alayının formalaşdırılmasına başlamaq mümkün olmadı. Növbəti dəfə döyüşə yeridilmiş 701 saylı briqadanın 1-ci taboru bütün döyüşlərin sonuna qədər mühasirədə qaldı. Briqadanın əsas qüvvələri isə hələ də Laçın rayonunun şimalında yerləşirdi.

Düşmənlə mübarizə aparmaq üçün hökumət paytaxtda insanları səfərbər etməyə başladı və onları qruplar halında helikopterlərlə Kəlbəcər rayonuna çatdırırdı. Kəlbəcər rayonuna gətirilən 50-80 nəfərlik qruplar dərhal döyüşə göndərilirdi. Bunlar bir-birini tanımayan, silahlarla davranmağı bacarmayan, hazırlıqsız əsgərlər idi. Silahlar qutularda idi və onlara təhkim olunmamışdı. Tələsik yığılaraq köməyə göndərilmiş döyüşçülərlə döyüş təlimi keçirilməmişdi. Şərait onların hazırlığı ilə yerində məşğul olmağa, döyüş uzlaşması aparmağa imkan vermirdi. Köməyə gələnlərin üstündə komandir heyəti olmurdu. Briqada komandiri düşmənin atəşi altında taqım və manqa komandirlərini seçib təyin edirdi. Onların isə hərbi bilikləri yox idi. Düşmənin təzyiqi ilə bu bölmələr həddindən çox – 80-100 faizədək itkilər verirdilər. Briqada komandiri onları döyüşlərdə şəxsən müşayət edir, müdafiə mövqelərində yerləşdirirdi. Belə hazırlıqsız qruplara döyüş tapşırığının qoyulması mümkün olmadığından bölmələrin həmlələrinə şəxsən rəhbərlik etməyə məcbur olurdu. Saat 13:00 radələrində helikopterlə çatdırılmış belə 75 yeni döyüşçü Qamışlı

körpüsünə aparıldı. Silahların paylanması, atış hazırlığı, komandirlərin təyinatı və silahlı dəstənin yaradılması üçün çox vaxt olmadığından bu işlərə 15 dəqiqə sərf edilirdi. Bütün bunlar düşmənin aramsız hücumları və şiddətli artilleriya-minomyot atəşi altında baş verirdi. Dəstə formalaşdırılarkən general N.Sadıkovun yaxınlığında dayanmış bir neçə əsgər, o cümlədən rabitəçi yaralandı. Getdikcə ağırlaşan vəziyyət böhran həddinə çatmışdı. Bir neçə istiqamətdən hücum edən düşmənə qarşı 2 tank, 3 PDM və 20 əsgərdən ibarət zirehli qrup, hərbi mükəlləfiyyətlilərdən ibarət kiçik dəstə, Qamışlı körpüsü yaxınlığında yerləşmiş, yaxın döyüşdə tətbiq edilməsi mümkün olmayan bir top və bir "Qrad" qurğusu vuruşurdu[28].

Laçın – Kürdhacı - tunel –Ömər istiqamətində düşmən tərəfindən tunel artilleriya atəşinə tutulduğundan Laçın – tunel – Ömər aşırımı marşrutu bağlandı. Ağdərə - Kəlbəcər avtomobil yolunun Çərəkdar məntəqəsinin yanından keçən vacib hissəsini nəzarətdə saxlayan, düşmənin manevr imkanlarını məhdudlaşdıran 1-ci taborun tank və PDM heyətləri itkilər verərək düşmənin arxasında qalmışdılar. Nəhayət, 701 saylı briqada Laçında döyüşlərdən çıxmaq və geri çəkilmək barədə əmr aldı.

Martın 30-dan 31-ə keçən gecə briqadanın bölmələri Mıxtökən – Zülfüqarlı yüksək dağ silsiləsinin qarlı aşırımları ilə geri çəkilməyə başladı. Texnika olmadığına görə bölmələr piyada hərəkət edirdilər. Həmçinin Laçın rayonunun şimal-qərbindən dinc sakinlərin təhlükəsiz təxliyəsini təmin etmək lazım idi. Aparılması mümkün olmayan maddi vəsaitlər, silah və sursat məhv edilirdi. Düşmənin 5-ci qruplaşması briqadanın geri çəkilməsini görüb döyüş helikopterlərindən istifadə etməklə onu təqib etməyə başladı. Düşmənin həmlələrini dəf edə-edə briqadanın bölmələri bir neçə gün ərzində Laçın rayonunun şimal hissəsindən Kəlbəcər rayonuna çəkildilər. Eyni zamanda martın 31-də Kəlbəcər rayonunda bizim qüvvələrin mühasirəyə düşmək təhlükəsi yaranmışdı. Briqadanın bölmələri ermənilər tərəfindən faktiki olaraq ələ keçirilmiş rayona daxil olarkən mühasirəni yarıb keçməli oldular. Həmin gün tunelin müdafiəsində dayanmış təzə əsgərlər daha sərfəli mövqe tutmaq üçün hərəkət edərkən səhər saat 8 radələrində qeyri-bərabər döyüş baş verdi və düşmənin çarpaz atəşi altına düşdülər. Döyüşçülərin hamısı həlak oldu. Tunel düşmənin əlinə keçdi. Həmin gün düşmən həmçinin Narınclar – Ağqaya, Mərcimək yaşayış məntəqələri istiqamətində hücuma keçdi. Yerli özünümüdafiə dəstəsi geri çəkilməyə məcbur oldu və sonradan dinc əhalinin təxliyəsi işinə cəlb edildi. Saat 16:00 radələrində helikopter meydançasından tunel istiqamətinə daha 120 təzə döyüşçü çatdırıldı. Onlar iki qrupa bölünərək Buzluq yüksəkliyi, Bağırlı və Bağırsaqlı məntəqələri yaxınlığında müdafiə mövqelərinə yerləşdirildilər[29].

Aprelin 1-də baş leytenant Mahir Quliyevin komandiri olduğu 100 nəfərdən ibarət 4-cü tabor Laçından gəlib çıxdı. Onlar Qamışlı körpüsünü

nəzarətdə saxlayan Çiçəkli yüksəkliyində mövqe tutdular. Martın 29-dan 31-dək Azərbaycan qoşunları hər gün tunelə, Qamışlı körpüsünə hücum edən düşmənə qarşı əks-hücum təşkil edirdilər. Bütün bunlara briqada komandiri şəxsən rəhbərlik edirdi. Döyüşlərdə, demək olar ki, bütün əsgərlər həlak olurdular, ancaq onların sayəsində düşmənin irəliləməsinin qarşısı bir gün də olsa, alınırdı. Bu, dinc sakinlərin təxliyəsini davam etdirməyə imkan verirdi. Həlak olmuş əsgərlər ölümün yaxaladığı yerdə qalırdılar, onların döyüş meydanından çıxarılmasına imkan yox idi. Vətən oğullarının hamısı düşmənlə döyüşə şüurlu şəkildə girir və nə üçün vuruşduqlarını bilirdilər[28].

Briqadanın əsas qüvvələrinin Laçın rayonundan Kəlbəcərə doğru hərəkəti barədə məlumat alan Ermənistan Silahlı Qüvvələri 1993-cü il martın 31-də müharibə elan etmədən Vardenis (keçmiş Basarkeçər) rayonu istiqamətindən motoatıcı taborlarla Azərbaycan ərazilərinə hücuma keçdilər. Onlar tank və PDM-lərin köməyi ilə Azərbaycanın “Qaraqaya”, “Kürdyurdu”, “Ayrım”, “Dikyurd” sərhəd zastavalarını ələ keçirdilər. Xeyli aralı yerləşdiklərinə görə zastavalar bir-birinə nə atəş, nə qüvvə, nə də digər vasitələrlə kömək edə bilmədilər. Döyüşlərdə 29 nəfər həlak oldu. Sonra “Zəylik”, “Ağduzdağ”, “Yellicə” və “Taxta” zastavaları da Ermənistanın silahlı qüvvələrinin nəzarətinə keçdi. Sərhədçilərimiz ağır itkilər verərək geri çəkildilər və Kəlbəcər rayon mərkəzinin girəcəyində müdafiə mövqeyi tutdular.

Aprelin 1-də düşmənin 6-cı qruplaşması dövlət sərhədindəki bütün vacib məntəqələri ələ keçirdi və Nerkin Şorca – Kəlbəcər – Qılınclı, Zod – Seyidlər – Yanşaq istiqamətlərində taktiki baxımdan vacib yüksəklikləri tutmaq üçün hücumu davam etdirdi. Məqsəd 701 saylı briqadanın manevr yolunu bağlamaq, bölmələri ayrı salıb məhv etmək idi.

Briqadanın bölmələri Almalı məntəqəsinin yaxınlığında düşmən qüvvələrilə üz-üzə gəldi, onların Zülfüqarlı məntəqəsi istiqamətində irəliləməsinin qarşısını aldı. Briqadanın artilleriya divizionu atəş mövqeyi tutaraq düşmənin tunel yaxınlığında cəmləşmiş canlı qüvvəsinə güclü zərbələr endirdi. Mərmiləri qurtardıqdan sonra dartıb aparmaq mümkün olmadığına görə toplar sıradan çıxarılaraq uçuruma yuvarladıldı. Qalanları isə Ömər aşırımı vasitəsilə çıxarıldı və aprelin 3-dbir gün sonra Zəyligöl yaxınlığında döyüş mövqeyi tutdu. Bərdə taboru zastavalarımızın keşikçilərinə kömək etmək üçün sərhədə doğru irəliləməyə çalışdı. Ancaq döyüşlərdə xeyli itki verərək Qamışlı məntəqəsi istiqamətində geri çəkilməli oldu [44].

Kəlbəcərin müdafiə cəbhəsi əslində mövcud deyildi, yalnız vacib yol qovşaqlarında müqavimət ocaqları vardı. Bu döyüşlərdə bölmələrimiz ölüm-dirim mübarizəsi aparırdı, çünki onların arxasında qadın, qoca və uşaqlar Kəlbəcəri tərk edirdilər. Lazımi qüvvələrin olmaması səbəbindən rayonu işğaldan qorumaq mümkün deyildi. Ancaq əgər dinc əhalini qorumaq məsələsi olmasaydı, bölmələrimiz daha bir həftə rayonu müdafiə edə bilərdilər. Bununla

belə bütün mövcud çətinliklərə baxmayaraq, 701 saylı briqada idarəetməni və manevr imkanlarını saxlamağı bacarmışdı. Müdafiə döyüşlərinin aparılması zamanı briqadanın komandiri bölmələrin fəaliyyətini daim nəzarətdə saxlayır, vəziyyətlə bağlı məlumatların yığılmasını təşkil edir, onu düzgün qiymətləndirir, şərait dəyişdikcə vaxtında qərar qəbul edir, dəqiqləşmiş tapşırıqları bölmələrə çatdırır, əmrlərin icrasına nəzarət edirdi. Döyüşün mühüm anlarında o, ən mühüm istiqamətlərdə olur və əldə olan güc və vasitələrlə döyüşün gedişinə şəxsən təsir göstərirdi.

Laçından geri çəkilən 4-cü tabor 100 nəfərlik heyətlə 1993-cü il aprelin 1-də saat 14 radələrində Kəlbəcər – Zod – Ömər – Ağdərə yol qovşağına çatmışdı. Briqadanın digər bölmələri gəlib çatana qədər Qamışlı körpüsü ilə birlikdə bu yol qovşağını nəyin bahasına olursa-olsun saxlamaq lazım idi, çünki həmin yolla həm də əhalinin təxliyəsi həyata keçirilirdi.

Yol qovşağının və körpünün müdafiəsi üçün 4-cü tabordan əlavə bir tank, iki piyada döyüş maşını, komendant taqımının15 əsgəri cəlb edilmişdilər. 75 əsgər Qamışlı körpüsünün yaxınlığındakı Çiçəkli yüksəkliyində mövqe tutmuşdu. Briqada komdiri bir tank və 10 əsgəri Qamışlı körpüsünün arxasında Zod – Qamışlı istiqamətində, iki piyada döyüş maşını və 30 əsgəri isə tunel – Qamışlı istiqamətində yolda yerləşdirmişdi.

Ermənilər üç dəfə Çiçəkli yüksəkliyini ələ keçirsə də, briqada komandiri əks-hücuma rəhbərlik edərək onu qaytarmağa nail olmuşdu. Tunel istiqamətində hücum edən düşmən bir tank, bir PDM və çoxlu canlı qüvvə itirərək əvvəlki mövqelərinə qayıtmışdı. Müdafiədə dayanmış döyüşçülərimiz isə 7 nəfər itki vermişdi.

Aprelin 2-də düşmənin kəşfiyyat-diversiya qruplarından biri briqadanın arxasında, Kəlbəcər – Qamışlı – tunel istiqamətində,1815-ci yüksəkliyin şimal-qərb yamacında pusqu qurmaqla Qamışlı körpüsündə müdafiə olunanlarla əlaqəni kəsdi. Onların neytrallaşdırılması üçün qüvvə qalmamışdı. Canlı qüvvə və texnika sarıdan üstünlüyündən istifadə edən düşmən Çiçəkli yüksəkliyini və Qamışlı körpüsünü briqada komandirinin rəhbərliyi ilə müdafiə edən əsgərləri mühasirəyə aldı. Güclü müqavimətlə qarşılaşan ermənilər döyüşçülərimizə saat 15-dək müqaviməti dayandırmaq, silahı yerə qoymaq və təslim olmaq barədə ultimatum verdilər[23].

Saat 15-də yenə döyüşlər başladı, nəticədə briqada komandiri ilə 20-dək döyüşçü qaldı. Düşmən onları əsir götürməyə çalışırdı, ancaq döyüşçülərimiz düşmənin güclü atəşi altında özlərini dağ çayına atdılar.

Bu döyüşdən yalnız komandir sağ çıxa bildi. Beş məxfi sənədi tələsik məhv edən briqada komandiri sudan çıxaraq dağ yolları ilə təxminən 25 kilometr piyada getdi, bir gün sonra Yanşaq kəndinə çatdı. Bərdə taborunun iki əsgəri də orada idi. Onlar üçlükdə Ömər aşırımına çıxa bildilər. Briqadanın qərargah rəisi polkovnik-leytenant Aydın Şiriyev general-mayor N.Sadıkovun

əmrilə briqada komandirini xilas etmək, “ölüsünü və ya dirisini tapmaq üçün” göndərilmişdi. Düşmənlə qarşılaşan qərargah rəisi döyüşə girməyə məcbur olmuşdu. Nəticədə 25 əsgərdən 20-si həlak olmuş, ağır yaralanan Aydın Şiriyevi isə sağ qalan əsgərlər döyüşdən çıxarmışdı[44,4].

1993-cü il aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy tərəfindən ölkədə fövqəladə vəziyyət elan edilmişdi. Azərbaycanın dövlət sərhədini pozmuş Ermənistan ordusunun 6-cı qruplaşması və Qarabağ müdafiə rayonunun 1-ci, 2-ci, 3-cü, 4-cü qruplaşmaları döyüşlə bir-birinə qarşı irəliləyirdi. Onlar azsaylı qrupları mühasirəyə alaraq aprelin 4-də Kəlbəcər – Gəncə yolunu bağladılar. Bu döyüşlər nəticəsində təmas xətti Murovdağ silsiləsinə çəkildi. Həmin gün Kəlbəcər rayonu tamamilə Ermənistan tərəfindən işğal edildi. Səhəri gün isə müdafiə olunan qüvvələrin Kəlbəcər rayon mərkəzində sıxışdırılmış sonuncu atəş nöqtələri məhv edildi[44,4].

Laçın rayonundan 150 əsgərlə hərəkət edən 2-ci tabor və onun nəznində olan briqada qərargahının əməliyyat şöbəsi isə yalnız aprelin 5-də düşmənin ələ keçirdiyi Kəlbəcərə daxil oldular. Tabor Murovdağ silsiləsi ilə Daşkəsən rayonu istiqamətində hərəkət edirdi. Onlar sənədlərini götürdükdən sonra həlak olmuş əsgərləri döyüş gedə-gedə dəfn etməli olurdular. Aprelin 5-də 701 saylı briqadanın Laçın rayonundan Kəlbəcərə çıxarılması başa çatmışdı.Ermənistanla sərhəddə yerləşən “Zəylik” və “Yellicə” zastavalarının şəxsi heyəti isə yalnız aprelin 7-də zastavaları buraxıb Daşkəsən rayonu istiqamətində mühasirədən çıxmağa başlamışdı[31].

Kəlbəcər rayonunda 20 nəfərlik şəxsi heyətilə qalmış 1-ci tabor Çərəkdar – Qozlukörpü - Ağdərə istiqamətində hərəkət edərək düşmənin ələ keçirdiyi ərazilərlə 15 gün müddətində mühasirədən çıxmışdı. Ömər aşırımının düşmən nəzarətində qalması Gəncə şəhəri istiqamətində hücum təhlükəsi yaradırdı. Ermənilər BM-21 “Qrad” reaktiv sistemlərini (onlarla Gəncə şəhərinə zərbələr endirmək mümkün idi) yüksəklikdə yerləşdirməyə çalışırdı. Ona görə Azərbaycan Müdafiə Nazirliyi aşırımı erməni qoşunlarından təcili qaytarmaq qərarına gəldi. Sərəncamında ehtiyat qüvvələr olmayan Müdafiə naziri general-mayor Dadaş Rzayev Hacıkənddə briqada komandirinə əmr etdi ki, könüllüləri toplayıb Ömər aşırımını düşməndən geri qaytarsın[5,16].

Aprelin 5-də axşamüstü briqada komandiri mühasirədən yenicə çıxmış 100 əsgər ilə birlikdə gecə yarısı Ömər aşırımına doğru hərəkət etdi. Saat 3:00 radələrində Ömər aşırımı düşməndən geri alındı. Döyüş zamanı əsgərlərin 26-sı həlak olmuş, 10 nəfər isə yaralanmışdı. Beləliklə, strateji baxımdan zəruri olan Ömər aşırımına nəzarət bərpa edildi. Düşmən dəfələrlə artilleriyadan istifadə edərək müdafiəçiləri vurub çıxartmağa, aşırımı yenidən ələ keçirməyə çalışsa da, cəhdləri uğursuz alındı.

Aprelin 7-də Ömər aşırımına 709 saylı briqadanın döyüşçülərindən ibarət kömək gətirildi.

BABAKM rəisinin 21 Fevral 1996-cı il tarixli 57 №-li əmrinə əsasən, Azərbaycan Respublikası Kəlbəcər rayonunun müdafiəsi üzrə 1993-cü il martın 26-dan - aprelin 4-dək aparılmış döyüş əməliyyatlarının Hərbi taktiki ekspertizasını təşkil edildi [3].Beləliklə, məlum oldu ki:

- Azərbaycan Respublikası dövlət rəhbərliyi tərəfindən Ermənistan Respublikasının Kəlbəcər istiqamətindən hərbi əməliyyatların aparılmasını prinsipcə qəbul edilməməsi, bu hadisələri erməni hərbi birləşmələrinin növbəti təxribatı hesab etməsi;
- Hökumətin erməni hərbi birləşmələrinin Kəlbəcər rayonunu işğal etdikləri təqdirdə, dünya ictimaiyyətinin gözündə təcavüzkar kimi qiymətləndiriləcəklərini və bunun beynəlxalq qalmaqala gətiriləcəyini düşünməsi;
- Ümumilikdə ölkə rəhbərliyinin Qarabağ müharibəsinin məntiqini və təbiətini anlamaması;
- Xüsusilə 1993-cü ilin fevralında Ağdərənin işğalı ilə Kəlbəcər-Ağdərə yolunun bağlanmasından sonra isə rayonun müdafiəsi üçün qəti tədbirlərin görülməməsi;
- Dağ – atıcı alayının yaradılması barədə əmrin gec verilməsi, həmçinin düşmənin hücumlarının intensiv olması səbəbi ilə əmrin icrasının mümükünsüz olması;
- Kəlbəcəri müdafiə etmək üçün Laçın rayonunun şimalından 701 saylı briqadanın rayona cəlb edilməsi ilə bağlı qərarın gecikdirilməsi; və s. bütün bunlar cəbhədə baş verən sonrakı hadisələrin gedişatına mənfi təsir göstərdi [3,8].

Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilməsinin ildönümü münasibətilə Kəlbəcərin sakinlərilə görüşündə Ümummilli lider Heydər Əliyev həmin hadisələrə belə qiymət vermişdi: “Kəlbəcərin süqutu o vaxtkı Azərbaycan rəhbərliyinin nəinki səriştəsizliyi, həmçinin qətiyyətsizliyi, bacarıqsızlığı, fəaliyyətsizliyinin nəticəsidir. O zaman hakimiyyətdə olanlar bunun qarşısını almadılar, ala da bilməzdilər, ona görə ki bunun üçün onların təcrübəsi yox idi. Kəlbəcərin işğalı bizim üçün böyük itkidir” [1]. Respublika rəhbərliyinin bu siyasi səhvi Müdafiə Nazirliyinin Kəlbəcər rayon müdafiəsi haqqında səhv qərar qəbul etməsi, nəticədə rayonun düşmən tərəfindən ələ keçirilməsi üçün əvvəlcədən şərait yaradılmamasına gətirib çıxardı.

**Nəticə**

Qarabağın qala qapısı Kəlbəcərin işğalı ilə Ermənistan və Dağlıq Qarabağdakı separatçı rejim 3500 metr hündürlükdə olan Murov yüksəkliyini ələ keçirdi. Həmçinin Dağlıq Qarabağla Ermənistan arsında ən yaxın quru yolu açılmış oldu. Məhz bu üstünlükləri əldə etdikdən sonra çox keçmədi ki, Ermənistan qısa zamanda Azərbaycanın daha beş rayonunu işğal etdi**[22].**

Kəlbəcərin işğalı çox ciddi bir məğlubiyyət idi. Ancaq buna rəğmən Azərbaycan ordusu daha böyük faciələrin qarşısını almağa müvəffəq oldu.

Birincisi, Tədqiqatlar göstərir ki, Bakı-Ceyhan kəməri layihəsinin qarşısını almaq üçün 1993-cü ilin martında Rusiyanın Gəncə də daxil olmaqla Kür çayına qədər ərazilərin işğalı planları mövcud imiş. Ordumuzun qətiyyəti düşməni bu planını təxirə salmağa məcbur etdi.

İkincisi, işğaldan əvvəl Kəlbəcər-Murov yolunun çəkilişi əhalinin minimal itkilərlə mühasirədən çıxmasına şərait yaratdı. Burada həm hərbi nizami qüvvələrin, həm də könüllülərin təxminən bir həftə ərzində Murovun müəyyən yüksəkliklərinin müdafiəsi üçün göstərdiyi fədakarlığın da böyük əhəmiyyəti oldu. Və ordumuzun əks hücumu nəticəsində Gəncə üçün təhlükə törədən Ömər aşırımı və digər yüksəkliklər azad edildi. Eyni zamanda həmin dövrdə Füzuli istiqamətində də erməni hücumlarının qarşısı alınmışdı[22;24].

Üçüncüsü, 701 saylı briqadanın ən böyük nailiyyəti sayca özündən bir neçə dəfə üstün olan düşmənlə qeyri-bərabər döyüşlərdə son nəfəsədək vuruşmuş, həyatları bahasına Laçın və Kəlbəcər rayonlarından dinc əhalinin (60 mindən çox) təxliyəsini təmin edərək soyqırımı təhlükəsindən xilas etmişdilər. Bu döyüşlərdə 10 gün ərzində yüzlərlə azərbaycanlı əsgər həlak olmuşdu. Onların çoxu həmişəlik Kəlbəcər dağlarında qaldılar. Xatirələri əbədi olsun!

Dördüncüsü, Azərbaycan Ordusunun əsas qüvvələrindən ayrı salınmış 701 saylı briqada təsəvvür edilməz qədər geniş ərazidə, Qarabağ yaylası, Mıxtökən və Murov dağ silsilələrinin arasında müdafiə döyüşləri aparırdı. Müdafiə əməliyyatları mühasirə şəraitində (60-80 kilometr bir-birindən aralı olan iki müxtəlif rayonda və iki müxtəlif istiqamətdə) tətbiq edilirdi ki, bu da briqadanın döyüş imkanlarını xeyli zəiflədirdi. Buna baxmayaraq, briqada idarəetmə, manevrlilik imkanlarını və döyüş qabiliyyətini qoruyub saxlamış, mühasirədən çıxmağı bacarmış, daha sonra isə Gəncə üçün təhlükə yaradacaq Ömər aşırımını düşməndən geri almışdı.

Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın tarixi ərazisi olan Kəlbəcər rayonunu işğal etməsindən sonra BMT Təhlükəsizlik Şurası 822 saylı qətnaməni qəbul etmişdi. Qətnamədə Təhlükəsizlik Şurası Silahlı hərbi əməliyyatların genişlənməsini və xüsusilə, yerli erməni qüvvələrinin Azərbaycan Respublikasının Kəlbəcər rayonuna sonuncu hücumunu, xeyli sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda, xüsusilə Kəlbəcər rayonunda, fövqəladə humanitar vəziyyətlə bağlı ciddi narahatçılığını həyəcanla qeyd edərək, bütün hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal dayandırılmasını, həmçinin bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın digər bu yaxınlarda işğal olunmuş rayonlarından dərhal çıxarılmasını tələb edirdi [6].

1993-cü il mayın 27-də isə iki ölkə arasında erməni qoşunlarının bir həftə ərzində Kəlbəcərdən çıxarılması barədə müqavilə imzalansa da,təəssüf ki,

həmin günlər ölkədəki siyasi böhran - "Azərbaycanda bu müqavilənin təminatçısı olacaq dövlət yoxdur" bəhanəsi ilə Ermənistan və "DQR" tərəfindən pozuldu [44,4].

Kəlbəcər rayonunun işğalı Birinci Qarabağ müharibəsi tarixində bir dönüş nöqtəsi oldu. Onun mühüm hərbi və siyasi nəticələri var idi. İşğal göstərdi ki, düşmən Azərbaycanın Qarabağ ərazisindən kənarda yerləşən ərazilərini də işğal etmək iqtidarındadır.

## Ədəbiyyatın


1. Azərbaycan Prezidenti Heydər Əliyevin Kəlbəcər sakinlərinin nümayəndələri ilə görüşü. https://www.kalbajar.com/kelbecerlilerle-gorusha (müraciət tarixi: 10 iyun 2022)
2. Azərbaycan Ordusunun 701 saylı hərbi hissənin Kəlbəcər döyüşü. Sənədli film https://www.youtube.com/watch?v=3zXLBFMvbCU (müraciət tarixi: 10 iyun 2022)
3. Azərbaycan Respublikasının Kəlbəcər və Laçın rayonlarında gedən döyüşlərin analizi. AAHM-in Mühazirələrin qeydiyyatı kitabı. № 958, 4.03.1996-cı il, 9s. s.1
4. Azərbaycan Milli ordusunun ilk hərbi hissəsinin yaranmasından 21 il ötür // Dövlət və qanun, 06-16 oktyabr 2012-ci il, № 19-20 (329-330), s.4.
5. Bağırov G.A.,Əliyev V.N., 1993-cü il Kəlbəcər rayonunun müdafiəsi haqqında // Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi. Elmi Əsərlər Məcmuəsi. №1(18) 2012-ci il, 17s. s.16
6. BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi üzrə Qətnamələri BMT-nin Təhlükəsizlik Şurasının 30 aprel 1993-cü il 822 saylı Qətnaməsi http://anl.az/el/emb/QARABAQ/beynelxalq-senedler/bmt.pdf (müraciət tarixi: 10 iyun 2022)
7. Elə bilirdik ki, Kəlbəcəri işğal edə bilməzlər" - Kəlbəcərli şahid 24 il əvvəldən DANIŞIR Tarix: 28-03-2017, http://xeberle.com/cemiyyet/28251-ele-bilirdik-ki-kelbeceri-ishgal-ede-bilmezler-kelbecerli-shahid-24-il-evvelden-danshr.html (müraciət tarixi: 10 iyun 2022)
8. Əbulfez Elçibey - En Yeni Tarix – Kelbecer https://www.youtube.com/watch?v=QFPGOGK2CAA (müraciət tarixi: 10 iyun 2022)
9. Ən yeni tarix Kelbecerhttps://www.youtube.com/watch?v=z_TPiAzu5nk (müraciət tarixi: 10 iyun 2022)

10. Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: etnik təmizləmə, soyqırımı, terror, işğal. II kitab. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2015, 408 s. s.366
11. Helikopterin tutumu 24 nəfər üçün nəzərdə tutulsa da birdəfəyə 70 nəfər daşınırdı 02 Jun 2018"https://www.moderator.az/news/227690.html (müraciət tarixi: 10 iyun 2022)
12. Heydər Əliyevin kələcərlilərlə görüşü "Bakinski raboçi" qəzeti, 3 aprel 1996-cı il.
13. Həmid Tural , Kəlbəcərin işğalı (1993) https://azlogos.eu/kəlbəcərin-isgali-1993/ (müraciət tarixi: 10 iyun 2022)
14. İbadoğlu İbrahim, kapitan İ.Mirzəyev: Həqiqətin gözünə dik baxmalıyıq // Xalq ordusu, 30 iyul, 1993-cü il.
15. İmanov V, Kəlbəcərin son günlərinə qədər onun müdafiəsi üçün əmr olmadı // Xalq qəzeti, 18 may 1996-cı il.
16. İrşadoğlu Adil, Şamıoğlu Şahbaz, Tariyel Musayev: Biz nə istədiyimizi yaxşı bilirik// Əlillər, 21-27 iyul 2000-ci il, № 29(114).
17. İsmayılov Rufik, Milli ordunun ilk hərbi hissəsinin yaranmasının 21 illiyi qeyd olunub// Kaspi, 10 oktyabr 2012-ci il, s.6
18. Kamal Akif, Kəlbəcər batalyonu və əfsanəv alay, Bakı, Azərnəşr, 2012, 330 səh. S.9
19. Kəlbəcərin alınmasında rus hərbi birləşmələri iştirak edib // 7Gün, 24 fevral 1996-cı il, s.1-2.
20. Kelbeceremeliyyati. rejissorrustam mirzahttps://www.youtube.com/watch?v=XM6MdMqr300(müraciət tarixi: 10 iyun 2022)
21. "Kəlbəcəri ermənilərə təhvil verən Nəcməddin Sadıkovdur" – TƏFƏRRÜAT 1 Aprel 2021 https://news.milli.az/society/935527.html(müraciət tarixi: 10 iyun 2022)
22. Kəlbəcər döyüşü – Araşdırma (VİDEO) Tarix:2-04-2017, https://web.archive.org/web/20200226181830/http://karabakhmedia.az/main/10959-kelbecer-doyushu-vdeo.html. (müraciət tarixi: 10 iyun 2022)
23. **Kəlbəcərin işğalı zamanı Monte Melkonyan azərbaycanlılara 10 saat vaxt vermişdi – VİDEO**https://www.mia.az/w986695/xin-den-kelbecerin-isgali-ile-bagli-sert-beyanat-2020-04-02-150606 (müraciət tarixi: 10 iyun 2022)
24. Kəlbəcərin işğalı https://www.kalbajar.com/isgal-tarixi (müraciət tarixi: 10 iyun 2022)
25. KƏLBƏCƏR (3-4.04.1993) https://aidenesibova.wordpress.com/ kəlbəcər3-4-04-1993/ (müraciət tarixi: 10 iyun 2022)
26. Kəlbəcər hadisələri ilə əlaqədar Azərbaycan Respublikası daxili işlər naziri İ. Həmidovun Azərbaycan Respublikasının Milli Məclisinə təqdim

etdiyi sənədlərin və məlumatın araşdırılması və qiymətləndirilməsi üçün Azərbaycan Respublikası Milli Məclisinin deputat-istintaq komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərari Bakı şəhəri, 6 aprel 1993-cü il. № 557. https://e-qanun.az/framework/8202 (müraciət tarixi: 10 iyun 2022)

27. Kəlbəcər rayonunun işğalinin səbəbləri haqqinda Azərbaycan Respublikasi Milli Məclisinin Qərarı, Baki şəhəri, 28 aprel 1993-cü il.№ 582. Https://frameworks.e-qanun.az/8/f_8256.html (müraciət tarixi: 10 iyun 2022)
28. Kəlbəcəri kim düşmənə təslim edib? - ŞOK SƏNƏDLƏRTarix: 25-03-2014, http://www.dia.az/8/41789-kelbeceri-kim-dushmene-teslim-edib.html (müraciət tarixi: 10 iyun 2022)
29. Kəlbəcəri müdafiəsiz buraxanların izində...02 Apr 2014 | 12:15 https://www.moderator.az/news/43905.html (müraciət tarixi: 10 iyun 2022)
30. Qaraca Bəxtiyar, Yarımçıq gündəliklər // Azərbaycan, 12 may 2014-cü il.
31. Qənizadə Ə.: "Onlar Kəlbəcərdədir, meyitləri gətirilməyib, dəfn edilməyib" 04.04.2014, http://azadinform.az/az/read/133749/ezizaa-qenizade-vonlar-kelbecerdedir-meyitleri-getirilmeyib-defn-edilmeyibv/ (müraciət tarixi: 11 iyun 2022)
32. Qənizadə Əzizağa https://az.wikipedia.org/wiki/az.wikipedia.org/wiki/Əzizağa_Qənizadə (müraciət tarixi: 11 iyun 2022)
33. Mahmudoğlu B, Keşməkeşli həyat yolu onun şah əsəridir // Azərbaycan veteranı, oktyabr, 2012-ci il, s.2.
34. Mahmudov R., Kəlbəcərin 1-ci faciəsi "günahkarların məhkəməsi gedir" // Müsalifət, 16 aprel 1994-cü il.
35. Məmmədov M., "Polkovnik Ə. Qənizadə - "Necə yəni komandirə yer yoxdu?" https://qlobal.az/polkovnik-qenizade-nece-yeni-komandire-yer-yoxdu-/#.YnIoap5By1s. (müraciət tarixi: 10 iyun 2022)
36. Mirzəzadə Ə., 5-ci Bərdə taboru kitabı, Bakı, MTR Group, 2012. səh.24-25
37. MN AHTM-in fondu. İkinci Kəbəcər əməliyyatı zamanı qənimət kimi götürülmüş Ermənilərin 1-ci əlahiddə motoatıcı briqadasının 3 Motoatıcı taboruna məxsus komandir mayor Barseqyanın 1 aprel 1993-cü il tarixli iş xəritəsi. 1994-cü il, fevral.
38. MN AHTM-nin fondu.18110 saylı hərbi hissənin qərargah rəisi polkovnik-leytenant Zəfər Süleymanovun 1991-1994-cü illərdə Qarabağda baş vermiş hərbi döyüşlərin gedişi ilə bağlı qeyd dəftərçəsi. 38 s.
39. Nərçəqızı Y., Müstəqil Azərbaycanın ilk hərbi hisəsinin 21 illiyi qeyd olundu. // Vətən, 2012-ci il, noyabr №07(07), s.3.

40. Novruzlu A., Nərimanoğlu M., Kəlbəcərlilər psixoloji hücumlara məruz qalırdılar // Azərbaycan, 11 noyabr 1993-cü il
41. Osmanoğlu S., Qüvvələrimiz Xankəndinin bir neçə kilometrliyinə çatmışdı // Azadlıq, 23 noyabr 1993-cü il, s.3.
42. Rüstəmov R., Kəlbəcəri qorumaq olardı // İmpuls, 5 noyabr 1999-cu il
43. Rüstəmov X., Həsənov Z., Kəlbəcər həqiqətləri // Xalq, 14 oktyabr 1993-cü il
44. Sultan L., Kəlbəcərin müdafiəsi üçün nə etdiniz? // Həftə içi.- 2014.- 29-31 mart.- S.4. http://anl.az/down/meqale/hafta_ichi/2014/mart/359314.htm (müraciət tarixi: 11 iyun 2022)
45. Sümərinli C., Mediadan narazı general // İmpuls, 11aprel, 2003-cü il, s.7
46. Şiriyev A., Həsənov A., Rəhimov Q., Kəlbəcərin işğalında təqsirkar kimdir: siyasətçilər, yoxsa ordu? // Xalq, 13 fevral 1996-cı il, № 30 (22173), s.2
47. Vəliməmmədov Məmməd, Kəlbəcər: Azərbaycan əsgərləri dinc əhalini xilas etmək üçün ölüm-dirim mübarizəsi apardılar 8-05-2019, http://teref.az/kose/117083-kelbecer-azerbaycan-esgerleri-dinc-ehalini-xilas-etmek-ucun-olum-dirim-mubarizesi-apardilar.html (müraciət tarixi: 10 iyun 2022)
48. 701 saylı Motoatıcı Briqada https://az.wikipedia.org/wiki/701_saylı_Motoatıcı_Briqada (müraciət tarixi: 10 iyun 2022)
49. 701 SayliHerbiHissehttps://axtar.len.az/?q=701_saylı_hərbi_hissə (müraciət tarixi: 10 iyun 2022)
50. "701 saylı hərbi hissə kəlbəcərlilərin xilasında" adlı tədbir keçirilib (FOTO) https://az.trend.az/azerbaijan/society/3576375.html (müraciət tarixi: 18 iyun 2022)
51. 701-ci B R İ Q A D A28-06-2015, http://teref.az/kose/4823-701-ci-b-r-q-a-d-a.html (müraciət tarixi: 12 iyun 2022)

Rus dilində

52. Кочарян Роберт, Жизнь и свобода: автобиография экс-президента Армении и Карабаха. Москва, 2019, 389с.

# AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN İDARƏÇİLİK TƏCRÜBƏSİNDƏN İSTİFADƏNİN İCTİMAİ-TARİXİ VƏ ELMİ NƏZƏRİ MƏSƏLƏLƏRİ

**Qurbanov Səbuhi Yusif oğlu**
**Şəki şəhər 20 nömrəli tam orta məktəb**
**sebuhi4.80@mail.ru**

***Açar sözlər:*** *Ulu öndər, Heydər Əliyev, müəllim, vətənpərvər, təhsil, elm, gənclər, dövlət*

*Təhsilimizin hər dövründə Heydər Əliyev imzası var. Ulu öndərin ölümündən sonra da onun ideyaları davam edir, izləri qorunur və dəyərləri aşılanır. Heydər Əliyevin diqqət yetirdiyi məsələlərdən biri də vətənpərvərlik tərbiyəsi idi. Hələ bu gün təhsilimizdə xüsusi yer, diqqət və dəyər alan vətənpərvərlik gənc uşaqlarda aşılanır və dərsliklərdə vurğulanır. İşğal altındakı torpaqlarımız da tez-tez xatırlanır. Heydər Əliyevin müəllimlik peşəsinə verdiyi dəyər də təqdirə layiqdir.*

## СОЦИАЛЬНО-ИСТОРИЧЕСКИЕ И НАУЧНЫЕ ВОПРОСЫ ИСПОЛЬЗОВАНИЯ УПРАВЛЕНЧЕСКОГО ОПЫТА ГАЙДЕРА АЛИЕВА В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОГО ОБРАЗОВАНИЯ

**Курбанов Сабухи Юсиф оглы**

***Ключевые слова:*** *Великий лидер, Гейдар Алиев, учитель, патриот, образование, наука, молодежь, государство.*

*Каждый период нашего образования имеет подпись Гейдара Алиева. Даже после смерти великого лидера продолжаются его идеи, сохраняются его следы и прививаются его ценности. Одним из вопросов, которому уделял внимание Гейдар Алиев, было воспитание патриотизма. Даже сегодня патриотизм, которому уделяется особое место, внимание и ценность в нашем образовании, прививается детям младшего возраста и подчеркивается в учебниках. Также часто упоминаются наши земли под оккупацией. Достойна уважения и ценность Гейдара Алиева для педагогической профессии.*

# SOCIO-HISTORICAL AND SCIENTIFIC ISSUES OF USING HAYDER ALIYEV'S ADMINISTRATIVE EXPERIENCE IN THE DEVELOPMENT OF AZERBAIJAN EDUCATION

**Qurbanov Sabuhi Yusif oglu**

***Keywords:*** *Great leader, Heydar Aliyev, teacher, patriot, education, science, youth, state*

*Every period of our education has Heydar Aliyev's signature. Even after the death of the great leader, his ideas continue, his traces are preserved and his values are instilled. One of the issues that Heydar Aliyev paid attention to was the education of patriotism. Even today, patriotism, which receives a special place, attention and value in our education, is instilled in young children and emphasized in textbooks. Our lands under occupation are also often mentioned. Heydar Aliyev's value to the teaching profession is also worthy of appreciation.*

Biz bilirik ki, təhsilin insan həyatındakı rolu əvəz olunmayandır. Müqəddəs Qurani-Kərimdə insana bütün ömrü boyu oxumaq və öyrənmək tövsiyyə olunur, hətta alimin qələminin mürəkkəbi şəhidin qanından üstün tutulur.

Hər zaman "Təhsil millətin gələcəyidir" deyən və müəllim adını ən yüksək zirvə hesab edən ulu öndərimiz Heydər Əliyev təhsilə, keyfiyyətli təhsilə böyük önəm vermişdir.

Heydər Əliyev elm və təhsilin inkişafına böyük qayğı ilə yanaşırdı. O, elə bir şəxsiyyətdir ki, XX əsrin 30 ili dövlətimizin tarixində Heydər Əliyev dövrü olub. Ulu öndər Heydər Əliyev tariximizdə çox mühüm və böyük bir yer tutub. Məhz bu dahi şəxsiyyətin zəngin irsi uzun müddət diqqət mərkəzində olub və olacaqdır. Bir çox tədqiqatçılar tərəfindən araşdırılır. Həmçinin bu magistr dissertasiyası da Ulu öndər H.Əliyevin dövlətimiz və təhsilimiz üçün etdiklərini araşdırmağa, öyrənməyə həsr edilib. Bununla yanaşı ümummilli liderin zəngin idarəçilik təcrübələrinin günümüzdə də istifadə olunduğunu unutmayaq.

Heydər Əliyev Azərbaycanın müstəqillik mübarizəsində əvəz olunmaz xidmətləri ilə əfsanəyə çevrilmiş, bütün azərbaycanlıların qəlbini qazanmışdır.

Biz bilirik ki, təhsilimizin vacib inkişaf mərhələləri görkəmli şəxsiyyət, ümummilli liderimiz H. Əliyevin adı və dövlətimiz üçün etdikləri ilə bağlıdır. Ulu öndərimizin təhsil sahəsinin inkişafına əvəz olunmaz diqqəti və qayğısı olmuşdur ki, bu da özündən sonrakı nəsillərə qoyduğu dəyərli bir təcrübə, yoldur.

Ümummilli liderimiz Heydər Əliyevin təhsilə və təhsilimizin inkişafına verdiyi dəyər əvəz edilməzdir. Dahi şəxsiyyət ölkəmizə, xalqımıza rəhbərlik

etdiyi ilk dövründə etibarən, yəni 1969-1982-ci illərdə təhsilimizə çox böyük qayğı göstərmişdir və bu qayğısının nəticəsi kimi bir çox yeni, dünya standartlarına uyğun məktəb binası tikilib və istifadəyə verilib. Bu dövrdə ölkəmizdə yeni ali və peşə təhsil mərkəzləri açılıb və bununla yanaşı bir çox təhsil müəssisələrinin sıradan çıxan maddi, texniki bazası yenisi ilə əvəz olunub, yenilənib və möhkəmləndirilib, lazım olan avadanlıqlarla təchiz olunub. H. Əliyev cənabları həmişə gənc nəslin hərtərəfli inkişafına, dünyagörüşünün artmasına böyük dəyər verib, qayğı göstərirdi və bu dəyər hər zaman özünü açıq bir şəkildə göstərmişdir. Ümummilli liderimiz uğurlu siyasəti sayəsində hər il yüzlərlə gənc təhsil alması üçün SSRİ-nin tərkibindəki müxtəlif ali təhsil mərkəzlərinə göndərilirdi. Bu gənclər dövlətimiz üçün çox lazımlı olan bir çox müxtəlif ixtisaslarda təhsil alırdılar və beləliklə respublikamızın bacarıqlı mütəxəssislərinin sayı ildən-ilə artırdı.

"Təhsil millətin gələcəyidir" şüarını səsləndirən Ulu öndər H. Əliyev cənabları təhsilə həmişə ən vacib sahə kimi baxmışdır. Dahi şəxs dövlətimizə rəhbərliyinin ikinci dövründə, yəni 1993-2003-cü illərdə də bu sahənin inkişafına, yüksəldilməsinə xüsusi zaman və diqqət ayırıb. Bu illərdən başlayaraq təhsil sistemimiz təkmilləşdirilib və təhsil sistemimizin dünya təhsil sisteminə qoşulması üçün geniş və əlverişli imkanlar yaradılıb. Bir çox məktəb binaları tikilib istifadəyə verilib, bununla yanaşı yeni dərsliklər hazırlanıb, çap edilib və pulsuz formada şagirdlərin ixtiyarına verilib. Dövlət başçımızın təşəbbüsü ilə təhsil üzrə birbirində dəyərli müxtəlif proqramlar və layihələr hazırlanıb. Bütün bunlar uğurla həyata keçirilib.

1998-ci ildə Müəllimlər qurultayında Vətən oğlu H.Əliyev dəyərli nitq söyləyib. Ümummilli lider öz çıxışında təhsilimizin inkişafına aid dəyərli fikirlərini bildirib və tövsiyələrini verib. Hər zaman müəllimləri, bu peşəni, müəllim zəhmətini, əməyini çox yüksək qiymətləndirən, dəyər verən müdrik insan Heydər Əliyev bildirirdi ki: "...Bizim müstəqil dövlətimizdə, Azərbaycan cəmiyyətində təhsilin əsas siması olan müəllim bugün də, həmçinin gələcək zamanarda da ən hörmətli insan, şəxs kimi qəbul edilməlidir. Unutmamalıyıq ki, müəllimlik peşəsi ən dəyərli, ən yüksək qiymətə layiq olan bir peşədir".

Müdrik insan Heydər Əliyev təhsillə bağlı bir sıra mühüm fərmanları və sərəncamları imzalayıb. Unutmaq olmaz ki, bu prioritet sahənin inkişafında məhz bu fərman və sərəncamların xüsusi rolu olub.

Müdrik dövlət xadiminin parlaq, birbirindən dəyərli ideyaları bugün də Prezidentimiz İlham Əliyev cənabları tərəfindən birmənalı şəkildə həyata keçirilir. Son zamanlarda Respublikamızda bu önəmli sahədə həyata keçirilməkdə olan tədbirlər, islahatlar, layihələr və bir çox dövlət proqramları təhsil sahəsinə böyük töhfələr verib və verməyə davam edir. Bu kimi önəmli addımlardan biri də Baloniya prosesinə qoşulmaqdır ki, bunu Azərbaycan 2005-ci ildə həyata keçirib.

Təhsil sitemimizin dünya təhsilinə qoşulması və bir hissəsi olmaq üçün bir sıra vacib tədbirlər həyata keçirilib və keçirilir. Bunlardan biri də "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində təhsilə istedad və marağı olan minlərlə gəncin İtaliyada, Türkiyədə, Fransada,Almaniyada, Kanadada və bir sıra başqa ölkələrin ən öndə gedən, nüfuzlu universitetlərinə göndərilib və təhsilin müxtəlif pillələrində oxumuşlar. Bu gənclər respublikamızda kifayət qədər yaxşı tədris edilməyən və dövlətimiz üçün zəruri olan ixtisaslarda təhsil alıblar. Xaricdə təhsilini uğurla başa vurub ölkəmizə qayıdan gənclər müxtəlif qurumlarda müxtəlif vəzifələrdə çalışırlar.

Heydər Əliyev adına fondun dəyərli təşəbbüsü ilə maaliyələşdirilmiş və reallaşdırılmış eni bir layihə olan"Yeni Azərbaycana - yeni məktəblər" layihəsi çərçivəsində bir çox işlər görülmüşdür. Son illərdə vətənimizdə standartlara cavab verən, standartları ödəyən 3000-dən çox müasir məktəb binası tikilib və qısa bir müddət ərzində istifadəyə verilib. Yeni tikilən məktəblər və bununla yanaşı bir sıra köhnə məktəblər də yeni texniki avadanlıqlarla təchiz edilib. Priotet sahələrdən biri olan təhsil sahəsində mühüm faktor olan informasiya-kommunikasiya texnologiyalarından tətbiq üçün bu istiqamətdə əhəmiyyətli işlər görülüb.

Günümüzdə Azərbaycanda təhsillə yanaşı, həm də iqtisadiyyat, mədəniyyət və s. sahələr də dayanmadan sürətlə təkmilləşir, durmadan inkişaf edir. Dövlətimiz öz inkişaf səviyyəsinə görə dünyada öz sözünü deyən, öndə gedən ölkələrdən çox az fərqlənir və biz inanırıq ki, belə sürətli inkişafla, düzgün qurulmuş strategiya ilə bir müddət sonra Azərbaycan da təhsildə öz sözünü deyən güclü dövlətlərdən biri olacaq. Bütün bu nailiyyətlər müdrik siyasətçi Heydər Əliyev siyasətinin və onun davamçısı olan İlham Əliyev fəaliyyətinin bəhrələridir.

Heydər Əliyevin fəaliyyətində təhsil sahəsi hər zaman xüsusi yer tutub. O, ölkənin və xalqın inkişafında, hərtərəfli tərəqqisində və uğurlar əldə etməsində təhsilin xüsusi rolunu hər zaman vurğulamış, nəzərə almış. H. Əliyev bu sahəni yüksək dəyərləndirmişdir. Görkəmli dövlət xadimi qeyd edirdi: "Ölkəsinin inkişafını təmin etmək istəyən hər bir dövlət öz xalqının, millətinin, vətəndaşlarının inkişafını təmin etməli, elmini və mədəniyyətini daim diqqət mərkəzində saxlamalı, dünya standartlarına çatdırmalı və mütləq, ən çox da priotitet sahə olan təhsilə önəm verməlidir. Təhsilin, elmin, biliyin inkişafı üçün çalışmalı və lazım olan bütün şəraiti, imkanları yaratmalıdır".

Ulu öndərimiz məzmunundan, təbiətindən, məqsədlərindən, effektiv təhsil təşkilatından, müəllimlərin ləyaqətindən, şagird və tələbələrin məsuliyyətlərind ən də danışmış və

O, həmçinin Azərbaycanda təhsilin hərtərəfli inkişafına qayğı göstərmiş və bu il

lər ərzində bu sahədə baş verən böyük hadisələrin stimullaşdırılması üçün sistematik tədbirlər görmüşdür.

Azərbaycana rəhbərliyinin birinci və ikinci dövründə Heydər Əliyev cəna bları təhsili hər zaman strateji sahə hesab edirdi. Onların ölkənin və xalqın inkiş afındakı rolunu yüksək qiymətləndirib"Təhsil dövlətimizin millətimizin və xalq ımızın gələcəyi üçün çox vacib və bir o qədər də əvəzolunmaz sahədir" fikrini bildirən müdrik rəhbər, Azərbaycanda təhsilin inkişafında əvəzolunmaz işlər görüb.

Görkəmli dövlət xadimi təhsili təkcə savadlı olmaq, oxumaq, elm, bilik toplamaq fürsətiolaraq qiymətləndirmirdi. O, vətəndaşın həyatının daha yaxşı qurulmasında, cəmiyyətin tərəqqisində iştirak edə bilməsi üçün təhsilin vacib rolunu vurğulayırdı:" Gözəl bir proses olan həyatda uğurla, həmçinin aktiv fəaliyyət göstərmək üçün bir insanın müasir tələblərə cavab verən bir təhsili olmalıdır".

Heydər Əliyev orta məktəblərdə əldə olunan biliklərin mahiyyətini və məzmununu yüksək qiymətləndirdi. Ulu öndər hər bir insanın həyat vəziyyətinin və cəmiyyətdəki yerinin formalaşmasında orta təhsilin vacibliyini vurğuladı. Bu məzmunda ulu öndərin aşağıdakı dəyərli düşüncələri vardır: "şagirdlər orta məktəblərdə təməl təhsili alır ... Əsas, dərin orta təhsili olan insan, cəmiyyətdə, işdə iştirak edir ... cəmiyyətimizin şüurlu bir üzvü olur".

Bu mövzunu davam etdirərək unutmayaq ki, ulu öndərlərin orta təhsildə qarşılaşdığı problemlərlə bağlı dəyərli təklifləri və məsuliyyətllə gördüyü işlər həmişə öz dəyərini qoruyub saxlayan real fəaliyyət proqramlarıdır. Xalqımızın dahi rəhbəri Heydər Əliyev tələbələrin bütün lazımi elmlər üzrə zəruri, təməl biliklərə yiyələnmələrini, təhsil mərkəzlərində, o cümlədən orta məktəblərdə seçdikləri gələcək ixtisasları və hər bir tələbə üçün son dərəcə vacib olan mövzuların öyrənilməsini tələb etdi.

O, həmçinin vurğuladı: "Uşaqlarımız və gənclərimiz hər şeyi bilməlidirlər. Xüsusən ixtisaslaşmaq istədikləri ixtisaslar üçün lazımlı fənnləri daha mükəmməl bilməlidirlər. Ancaq orta məktəblər üçün bir sıra şərtlərimiz var, onları yerinə yetirməlidirlər. Azərbaycan dilini, ədəbiyyatımızı, dövlətimizin şanlı tarixini və mədəniyyətimizi bilməlidirlər.

Bütün bunlar təhsilimizin milli məzmununu müəyyən edən və ciddi bir vəzifə kimi təyin olunan çox vacib bir amildir. Möhtəşəm lider, həmçinin humanitar elmlərin, xüsusilə də dilimizin, tariximizin və ədəbiyyatımızın tədrisinin milli müstəqilliyimizə uyğun olaraq yenilənməli olduğuna inanırdı. Bu təsadüf deyil. Gənc nəsillərin milli mənəvi ideologiyaya yiyələnməsi səbəbindən gələcək inşaatçılar məktəbdə başlayır və bunun müvafiq təşkili ölkəmiz üçün çox vacibdir.

Buna səbəbdən ümummilli liderimiz təklif etdi: "Milli məfkurəmizi hər yerdə hər zaman tətbiq edə bilmək üçün Azərbaycan xalqının şanlı tarixini

məktəblərdə tədris etməyə diqqət yetirmək lazımlıdır. Hər bir azərbaycanlı öz şanlı tarixini və tarixi mənşələrini bilməlidir. Ulu öndərimiz Azərbaycanın dövlət xüsusiyyətlərini, dilini, ədəbiyyatını və mədəniyyətini öyrənməyə eyni ciddi vəzifələr qoymuşdur.

Bildiyimiz kimi, ulu öndərin təlim, təhsil sahəsindəki nəzəri görüşləri arasında təhsilin məzmununu dövlətimizin prinsipləri əsasında qurulması fikrinin təsdiqlənməsi xüsusilə yer tutur.

Təhsilin keyfiyyəti, yüksək savadlılıq və dərin bilik tələbələrin müasir tələblər səviyyəsinə tam uyğun formalaşması üçün yeganə bir şərt deyildir. Bu problemi diqqətlə incələyən müdrik insan Heydər Əliyev tələbələrin əqidələrinin mənəvi kamilliyi və saflığının başqa vacib amilini gördü. Başqa sözlə desək, bu siyasətdə təhsil və təlimin, dəyərli biliyin və yüksək mənəvi dəyərlərin vəhdəti çox vacib bir prinsip olaraq qanuniləşdirilmişdir.

Təhsil müəssisələrinin tərbiyə funksiyasına daha çox diqqət yetirən liderin dəyərli sözləri bu böyük həqiqətin ifadəsidir: "Gənclərimizi milli mənəvi dəyərlərimizə əsaslanan təhsil müəssisələrində tərbiyə etmək, mənəvi cəhətdən sağlam və sadəlövh insan yetişdirmək problemi əsas götürülməlidir".

Dövlətimizin təhsil sisteminin başlıca məqsəd və vəzifələrindən danışan dahi Əliyev təhsil prosesinin düzgün təşkili, böyük addımların atılmasından, ideyaların və vəzifələrin həyata keçirilməsindən danışdı. Xalqın və bütün respublikanın gələcəyi üçün çox mühüm olduğunu vurğuladı: "Günümüzdə təhsilimizin əsas məqsədi gənc nəsilləri, uşaqları tərbiyələndirmək və təhsilləndirməklə yanaşı onları gələcəyə hazırlamaqdır. Bütün bunlarla bərabər, ən böyük, ən önəmli məqsəd vətəndaşlarımızı maarifləndirmək və müstəqil cəmiyyətimizin dəyərli üzvlərini yetişdirməkdir".

Müstəqil respublikamızın təhsilin, təlimin qarşısında duran məqsəd və vəzifələrindən danışan dahi H. Əliyev təhsilin düzgün təşkilinin böyük işlərin, ideyaların, vəzifələrin, insanların və bütün ölkənin gələcəyinin həyata keçirilməsi üçün çox vacib olduğunu vurğuladı: "Təhsilimizin birinci məqsədi gənc nəsillər, uşaqlar və tərbiyə vermək və onları gələcəyə hazırlamaqdır. Ancaq eyni zamanda, ən böyük məqsəd Azərbaycan vətəndaşlarını maarifləndirmək, müstəqil cəmiyyətimizin dəyərli üzvülərini hazırlamaqdır."

Təlim və tərbiyə prossesində peşə təhsili, müəllim hazırlığı və əxlaq vacibdir. "Özünü öyrənməyə həsr edən insan ən şərəfli şəxsdir" deyən mükəmməl rəhbərimizin müdrik lideri dedi. Bu yüksək keyfiyyətlər üstünlük təşkil etməli və nümunə olmalıdır: "Bir gənc, məktəbə və universitetə əsaslanan gələcəyin Azərbaycan vətəndaşı, hər şeydən əvvəl mənəvi cəhətdən təmiz olmalıdır. Buna görə universitetlərdə və orta məktəblərdə mənəvi təmizlik hökm sürməlidir ... Buna görə müəllimlər və müəllimlər vətənpərvər olmalı və gənclərin vətənpərvərliyini aşılaya bilirlər."

Məktəbin və orada işləyən müəllim heyətinin işi ölkədə təhsilin hərtərəfli inkişafı, təhsil prosesində vacib, müxtəlif vəzifələrin uğurla yerinə yetirilməsi üçün kifayət deyil. Gənclərin və gənclərin, xüsusən də məktəbin və ailənin birgə fəaliyyətində təhsilli mütəxəssislər və gələcəyin dəyərli vətəndaşları kimi yetişmələri üçün bütün cəmiyyət narahat olmalıdır. Bu problemi diqqət mərkəzinə çəkən ümummilli liderimiz dedi: "Qarşılıqlı təsir olmazsa, məktəb və ailə arasında əməkdaşlıq olmazsa ideal bir təhsil ola bilməz. Çünki təlim, tərbiyə, təhsil prosesi çox mürəkkəb bir prosesdir və onun effektivliyi valideynlərin və müəllimlərin birgə səyləri ilə artırılmalıdır".

Qısacası, Heydər Əliyevin tərbiyə və təlimdəki nəzəri konsepsiyası çox qiymətlidir, öz dəyərini və əhəmiyyətini dövrümüzdə və sonrakı əsrlərdə saxlaya bilər. Bu konsepsiya hər bir tələbənin, hər bir müəllimin, ümumiyyətlə hər bir Azərbaycan vətəndaşının devizi və fəaliyyətidir.

Dahi rəhbər təhsil sahəsində zəngin bir irsə sahibdir, uzun müddət təhsilin inkişafı üçün çox böyük işlər görmüşdür və bu sahədə irəliləyişlər əldə etmişdir. Respublikamızda təhsilin bütün pillələrində əsas yüksəliş məhz ulu öndərin adıyla bağlıdı. "Kənd orta məktəblərinin iş şəraitinin daha da yaxşılaşdırılması tədbirləri" [1973], "Orta məktəblər üçün pulsuz dərsliklərə keçid zamanı məktəb şagirdləri "[1978] ilk rəhbərliyinin mühüm uğurlarından biridir.

Həmin dövrdə məktəblər şəbəkəsinin genişlənməsi, texniki bazanın və insan resurslarının əsaslı inkişafı xüsusi qeyd edilməlidir. Beləliklə, 1979-cu ildə orta məktəblərin sayı son 10 illə müqayisədə 765-dən 2177-ə yüksəldi. Keçən əsrin 69-82-ci illərdə Respublikamızda 350 mindən çox yerlik 849 orta məktəb tikildi və istifadəyə verildi, həmçinin məktəbəqədər müəssisələrin sayı da artdı. Məktəbləri lazımlı vasitələrlə təmin etmək heç də asan iş deyildi. Məktəblərin zəruri ehtiyaclarla tam təmini üçün çox səy göstərilmişdir.

Ulu öndərin hər zaman nəzərində olan məsələlərdən biri ali təhsil və orta ixtisas təhsili idi. Əvvəlki illərlə müqayisə etsək 1982-ci ildə vətənimizdə ali təhsil müəssisələrinin sayı artmışdır. 12-dən 17-yə yüksəlmişdir. Təbii ki, tələbələrin sayında da ciddi artıma səbəb olmuşdur. 70 min idisə daha sonra 100 minə qədər artdı. H. Əliyev respublikanın ehtiyac duyduğu peşələr üzrə xaricdə ali təhsilin alınmasına xüsusi dəyər vermiş və büdcə ayırmışdır. Keçən yüzilliyin 70-80-ci illərində H. Əliyevin təşəbbüsü və qayğısı nəticəsində SSRİ-nin ən tanınmış ali məktəblərinin 170-dən çoxunda azərbaycanlı gənclər təhsil almışdır.

Bunu da qeyd edə bilərik ki, həmin dövrə qədər xaricdə təhsil alanların 40%-i azərbaycanlı idi. Ümummilli liderimizin rəhbərliyə başladığı andan etibarən xaricdə təhsil almağa göndərilənlərin sayında ciddi artım olub. Belə ki, oxumağa gedənlərin sayı ildənilə dəfələrlə artıb, həmçinin milli tərkibi də dəyişmişdir. Qeyd edək ki, 70-80-ci illərdə vətənimizdən kənarda təhsil alması

üçün göndərilənlərin böyük bir qismi - 97,7 faizi məhz bizim xalqımızın nümayəndələri idi.

Uğurlu siyasətçinin böyük uzaqgörənliklə verdiyi önəmli qərarlardan biri keçən əsrin 70-ci illərində gənclərimizin hərbi təlimə cəlb olunması, bu sahədə təhsilləndirilməsi, bilik və bacarıqlara yiyələnməsi sahəsində mühüm sistemli tədbirlərin həyata keçirməsidir.

XX əsrin 82-87-ci illərində H. Əliyev Nazirlər Soveti Sədrinin birinci dərəcəli müavini olaraq çalışıb. İdarəçilik bacarıqları ilə öz sözünü demiş bu şəxs bütün ölkədə təhsil islahatlarına rəhbərlik edib və bununla yanaşı, xalqımızın təhsilinə də ardıcıl qayğısını davam etdirib.

Müstəqilliyi əldə etdikdən sonra ulu öndər təhsilin milli təməllər üzərində yenidən başdan qurulmasını, bu təməllərin əsl inkişafa qovuşmasını planlaşdırmışdır. Bütün bunlar məhz H.Əliyev dühasının təşəbbüsü ilə gerçəkləşmişdir. Təhsil sistemimizin qarşılamalı olduğu böyük işə diqqəti yönəldərək dedi: "Bugün ölkədəki bütün təhsil müəssisələrinin - liseylərin, peşə məktəblərinin, kollec və universitetlərin verdikləri təhsili yaxşılaşdırma üçün ciddi tədbirlər görülməlidir. İnanıram ki, bu həm qəbul ediləcək Təhsil Qanununda, həmçinin təhsil islahatları ilə əlaqəli qəbul olunacaq qanun və qərarlarda da öz əksini tapacaqdır".

Bütün bunlardan əlavə, O, haqlı olaraq vurğuladı: “İndi isə təhsil sistemimiz vətənimizin gələcdəki yüksəlişini təmin etməlidir. Yalnız bu şəkildə ediləcək islahatlar Azərbaycanın milli maraqlarının inkişafını təmin edə bilər. Dahi rəhbərin Azərbaycanda aparılacaq islahatları və əsas yenidən qurmanın məqsədi və vəzifələri haqqında dəyərli fikirlər səsləndirmişdir: “Təhsil sistemindəki islahatların, dəyişikliklərin başlıca məqsədi təhsilimizi dünya təhsil standartlarına uyğunlaşdırmaqdır. Prinsiplərə əməl olunmalıdır ki, inkişaf təmin edilsin. Bu yolu davam etdirsək, qısa müddət ərzində Azərbaycan təhsil sistemini dünya standartlarına uyğun ola bilər ”.

Heydər Əliyev ənənələrlə müasirliyin üzvi birliyini, habelə uzun illərlə çalışıb qazandığı qiymətli təcrübədən yararlanaraq milli təhsil konsepsiyasının həyata keçirilməsində islahatların aparılmasının vacib olduğunu düşünür. Ulu öndər müəllimlərə xitabən dedi: “Təhsildə islahatların aparılması çox vacibdir ... Məsləhətim: formallığa yol verməmək, milli ənənələrimizdən kənara çıxmamaq üçün düşüncəli şəkildə islah etmək. Doğrudan da, bu, Azərbaycan təhsilini daim dünyanın qabaqcıl ölkələrinin təhsili səviyyəsinə gətirməlidir və mövcud yaxşı işləri korlamamaq üçün səhvlərə yol verilməməlidir ".

Gələcəkdə əldə olunması planlaşdırılan nəticələrin təhlil edilməsi və qiymətləndirilməsi ilə sistemli formada təhsil sistemində bir sıra islahatlarının həyata keçirilməsi vacibdir. Təhsilimizin böyük müdiri demişdir: “Biz təhsildə yeniliyin olmasından yanayıq, dünya təcrübəsindən yararlanmaq, səmərəli istifadə etmək istəyirik. Ancaq onu da dərk etməliyik ki, bu iş sistemli

olmalıdır. Bu işləri həyata keçirərkən yaxın və uzun müddətdə əldə ediləcək nəticələri hesablamaq, nəzərə almaq lazımdır. "

İslahatlar zərurətdən yaranır və heç biri təsadüfi olmadığı Heydər Əliyevin təlimlərində belə əsaslandırmışdır ki: "Təhsil həddindən artıq həssas bir sahədir. Fərqli birləşmələr manipulyasiya üçün bir yer olması mümkün deyil... Təhsilimizi daha da yüksəltmək, inkişaf etdirmək üçün bu günün və gələcəyin ehtiyaclarına daha yaxşı uyğunlaşmaq üçün islahatlar aparmamalıyıq. "[11]

Ümummilli lider Azərbaycan Respublikasının ümumi orta təhsilinin dövlət standartının qəbul edilməsi və Nazirlər Kabinetinin qəbul etdiyi qərara (1999-cu il 26 aprel) uyğun formada edilən islahatlar öz töhfəsini təhsil sistemindəki vacib yeniliklərə verdi. Ulu öndərin imzaladığı "Azərbaycan Respublikasında Təhsil İslahatı üzrə Dövlət Komissiyasının yaradılması haqqında"(30 mart 1998-ci il) adlı sərəncamına uyğun formada təhsilin hər bir sahəsini əhatə edən bir islahat proqramı hazırlanmışdır.

15 iyun 1999-cu ildə imzalanmış Fərman ilə "Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı" ilə qəbul edilmiş, bu fərmanla təhsil sahəsində hərtərəfli inkişaf üçün geniş imkanlar yaradan dəyərli dövlət konsepsiyasındandır.

Ümumiyyətlə, qəbul edilmiş qərar, sərəncam və fərmanlar, onların icrası müstəqil Azərbaycanda dünya standartlarına inteqrasiya olunmuş yanaşma, tərəqqi, məzmunun yenilənməsi və maddi-texniki təminat təmin etdi.

Müasir təlim-təhsil mərkəzlərinin yaradılması, bu mərkəzlərin yeni tədris vəsaitləri ilə təmin olunması, dövlət hesabına tam ödənişsiz kitablarla təmin olunması, vəziyyətlərinin xeyli yaxşılaşdırılması, istedadlı, təhsilə can atan şəxslərə qarşı olan dövlət qayğısı, bu gənclərin xaricə təhsil almağa və işləməyə göndərilməsi və digər sahələrdə görülmüş işlər Heydər Əliyevin uğurlu siyasətinin nəticəsi idi. Görülməmiş xidmətlər müstəqil dövlətimizdə təhsil siyasətinin geniş üfüqlərini göstərir. Dövlətin qayğısı nəticəsində 1993-2001-ci illərdə müəllimlərin maaşı 9 dəfə artırıldı.

Bir sözlə, son 40 ildə təhsilimizin inkişafı və böyüməsi ümummilli liderin adı ilə bağlıdır.

Günümüzdə Azərbaycanda və Azərbaycanın ayrılmaz hissəsi olan NMR-də ulu öndərin siyasi ənənələri bütün sahələrdə davam etdirilir və kifayət qədər uğurlar əldə edilir. Təhsil sahəsində görülən əsas işlər də bu siyasətin tərkibinə aiddir.

Muxtar respublikada tikilən və fəaliyyət göstərən təhsil müəssisələrinin sayı daim artır və bu təhsil ocaqları ən müasir maddi-texniki bazaya malikdir, təhsilin keyfiyyəti və səviyyəsini yüksəltmək tədbirləri təqdirə layiqdir və bu baxımdan xüsusilə əhəmiyyətlidir. Azərbaycanda, o cümlədən Naxçıvanda

təhsilin sürətli inkişafı və uğuru əbədi həyatda maarifləndirmə bayramıdır. Ulu öndərin də dediyi kimi:"Təhsil millətin gələcəyidir".

Bütün bunlara əsasən deyə bilərik ki, Heydər Əliyevin idarəetmə təcrübəsindən istifadə məqsədyönlü olmalıdır. Ulu Öndərin hakimiyyətə gəldiyi illərdə təhsil sistemimiz gözlənilmədən böyüdüyü kimi, bu gün də belə böyümə və inkişafa nail olmaq üçün belə dəyərli təcrübədən istifadə etmək vacibdir.

Heydər Əliyevin idarəetmə təcrübəsindən istifadə etmək təhsilimizin inkişafına güclü təkan verir. Ümummilli liderin həyata keçirdiyi islahatlardan və tədbirlərdən çox şey öyrənmək olar.

Şübhə yoxdur ki, ümummilli liderimizin zəkasını, onun millətimizə qarşı etdiyi xidmətləri axıra qədər öyrənməyimiz mümkün deyildir. Dahi şəxsiyyətin ucalığını, onun millətimizin rifahı üçün gördüyü vacib tədbirlərin əhəmiyyətini başa düşə bilmək üçün çox vaxt lazımdır. Vaxt ötdükcə isə bu dahi şəxsin ismi Xalqımızın simvoluna, əməllərisə cəsarət rəmzinə çevrilməkdədir.

Dünya şöhrətli insanların siyasi olimpiyadada qələbə qazanan əfsanəvi şəxsiyyət H.Əliyev barəsində heyranlıqla və hörmətlə danışdıqlarının şahidi oluruq. Müasir dünya liderləri, görkəmli dövlət xadimləri və siyasətçiləri tərəfindən dünyada ucalığı etiraf edilmiş, eləcə də Amerikanın keçmiş lideri C.Buşun "mübahisəsiz lider", Türkiyənin Prezidenti R.T.Ərdoğanın "türk millətinin məşhur və sevimli lideri", Rusiyanın ölkə başçısı V.Putinin "siyasət nəhəngi", Fransanın keçmiş ölkə başçısı J.Şirakın "fövqaladə şəxs" dedikləri Milli liderimizin böyüklüyü bu gün gözümüzün önündə canlanır və ürəklərimizdə yenidən fəxr və qürur hissləri hökm sürür.

Azərbaycan xalqı H.Əliyev kimi dünyada hörmət edilən və qəbul olunan ümummilli lideri olduğu üçün xoşbəxtdir. Bu gün hər kəs müstəqil Azərbaycan dövlətinin tariximizə qızıl hərflərlə yazılmış H.Əliyevin şah əsəri olduğunu dərk edə bilirik. Sözsüz ki, xalqımız öz keçmişində və qəlbində onu daim yaşadacaq, illər ötsə də, ölkəmizin və dahi liderimizin ismi bütün yer üzündə eşidiləcəkdir. Dahi şəxsiyyətin siyasət taktikasını davam etdirən xalqımız ölkə başçısı İ. Əliyevin hakimiyyəti altında tarixinin şanlı səhifələrini yazmaqda, zirvələri fəth etməkdə davam edəcəkdir.

Dahi liderin dövlətçilik ideyalarının elmi və nəzəri əsasları yalnız bu günümüz üçün yox, gələcəyimiz üçün də çox vacibdir. Bu illər ərzində bunu daha şəffaf görüb və başa düşdük. Heydər Əliyev İdarəetmə Məktəbi geniş təcrübə məktəbidir, tükənməyən sərvətdirdir. Zaman ötdükcə həmin təcrübə gələcək zamanda daha çox nəsillərə fayda gətirəcəkdir. Ümummilli liderimiz mükəmməl təşkilatçılıq bacarığı və çoxşaxəli səmərəli işi sayəsində idarəetmə elmini yalnız praktikada yox, həm də nəzəriyyədə zənginləşdirdi. Bunların hamısı digər dövlətlərə yararlı olduğu üçün beynəlxalq əhəmiyyətli zəngin mirasdır. Bununla iftixar etməliyik, qorumalıyıq və bu sərvətdən daim zövq almalıyıq. Günümüzdə Azərbaycanın azad dövlətlərin geniş praktikasına

əsaslanan dövlət idarəetmə sistemi yaradılmışdır. Sevindirici haldır ki, idarəetmə sisteminə bir çox istedadlı və enerjili işçi yetişdirilmişdir. Buna görə də, ictimai həyatın demək olar ki, sahələrinin hamısında yüksək səviyyədə insan resurslarına sahibik. Buna parlaq və aydın bir intellekt, zəngin bilik və təcrübə, çoxşaxəli fəaliyyət və ümummilli liderimiz Heydər Əliyevin zəhməti sayəsində nail olduq. Ulu öndərin miras qoyduğu bu zəngin təcrübəyə əsaslanmaqla, beynəlxalq təcrübəyə əsasən, idarəetmə mədəniyyətimizi davamlı inkişaf etdirməliyik, zənginləşdirməliyik və artırmalıyıq, yeni dünyamızın tələblərinə cavab verən insan resurslarımızı inkişaf etdirməliyik. Unuda bilmərik ki, dövlətimizin gələcəyi və bugünü həmin insan resurslarının ustalıq dərəcəsindən asılıdır. Bunları liderimizin dövlət idarəçiliyi ilə bağlı fikirləri, zəngin idarəetmə məktəbi bizə məsləhət görür.

Təbii ki, Azərbaycan kimi hər bir ölkənin təhsil sistemnə rəhbər kadr hazırlanması problemi xüsusi əhəmiyyət kəsb eləyir. Beləliklə, Azərbaycanda qanunun aliliyi ilə tənzimlənən demokratik dövlət quruculuğu prosesi dövlət müstəqilliyimizi sürətləndirdikcə və iqtisadiyyatın inkişaf tempi artdıqca, idarəçilik sistemini daha çox inkişaf etdirmək və effektivliyinin artırmaq mövzuları gün üzünə çıxarılır. İdarəetmənin səmərəliliyi savadlı şəxslərin hazırlanmasından və işə qəbul edilməsindən asılı olmalıdır. Beləliklə, dövlət strukturlarının işinin keyfiyyəti və səmərəliliyi dövlət məmurlarının bacarıq və ixtisaslarından çox dərəcədə asılıdır.

Ulu öndərin əvəz olunmaz təcrübələrindən faydalanıb istifadə edən prezidentimiz İlham Əliyev cənabları dövlətimizin inkişaf etməsi üçün təhsilin vacibliyini hər zaman vurğulayır və Azərbaycan xalqının daha təhsilli bilikli olması üçün bir çox işlər görüb tədbirlər həyata keçirir. Xüsusilə də gənclərdə elmə, biliyə, təhsilə olan marağı artırmaq üçün bir çox addımlar atılır. Belə ki, dövlət hesabına nəinki Azərbaycanda hətta xarici ölkələrdə də təhsil almaq mümkündür.

Bütün bunlar ulu öndər Heydər Əliyevin ölkəmizə mirasıdır. Çünki, təhsilsiz bir dövlətin iqtisadiyyatı çökməyə məhkumdur. Bu da daha böyük problemlərin başlanğıcını gətirir.

## Ədəbiyyat

1. Əliyev H.Ə. Dövlət xalq üçündür,- Bakı: Adiloğlu, 2008,- 400 s.
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir, Çoxcildliyin I-X cildlərinin köməkçi göstəricisi, M.F.Axundov adına Azərbaycan Milli kitabxanası, Bakı: 2010, 512 s.
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir, 38 cilddə, 1 cild, Bakı: Azərnəşr, 1997, 612 s.

4. Əliyev Z.H., İsmayılov N.İ. Azərbaycan biblioqrafiyasını zənginləşdirən dəyərli töhfə: Dünyanın görkəmli dövlət xadimi (H.ƏIiyev: Biblioqrafik məlumat kitabı haqqında) //Respublika 2003.- 13 iyun,- S. 1-2.
5. Heydər Əliyev və Azərbaycan elmi: Biblioqrafik göstərici /Tərt.ed: A.Əliyeva Kəngərli.- Bakı: Şərq-Qərb, 2010, 424 s.
6. Heydər Əliyev: Biblioqrafik məlumat kitabı /Tərt ed. A.Xələfov, S.Sadıqova,- Bakı: Bakı Universiteti Nəşriyyatı, 2003, 430s.
7. http://www.elm.az/az/presidium/library/index.htm

# QUBA 1918-CI ILIN APREL-MAY SOYQRIMI DÖVRÜNDƏ

**Eldar Əli oğlu Hacıyev**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Hacieldar55@gmail.com

***Açar sözlər:*** *Dövlət duması, Xüsusi Cənubi Qafqaz Komitəsi, fəhlə-əsgər deputatları soveti, İctimai Təşkilatların İcraiyyə Komitəsi, Əli bəy Zizikski, Mircəfər Bağırov*

*Məqalədə 1918-ci ilin aprel-may aylarında Quba qəzasında və Quba şəhərində yaranmış siyasi durum, müxtəlif siyasi partiyalar arasında hakimiyyət uğrunda gedən gərgin siyasi mübarizə, qəzada sovet hakimiyyətini zorla yaymağa cəhd edən bolşeviklərin daşnaklarla birlikdə törətdikləri ağlasığmaz vəhşiliklərdən və Mircəfər Bağırovun həyatının bu qaranlıq səhifələrindən monoqrafik materialllara və arxiv materiallarına istinad edilməklə bəhs olunur.*

# КУБА В ПЕРИОД АПРЕЛ-МАЙСКОЙ РЕЗНЕ В 1918-ГО ГОДА

**Эльдар Гаджиев**

***Ключевые слова:*** *Государственная Дума, Особый Закавказский Комитет, Совет рабочих-солдатских депутатов, Али бек Зизикски, Мир Джафар Багиров.*

*В статье освещается политическая обстановка и упорная борьба между различных партий за власть, неслыханная зверства большевиков и дашнаков в распространение советской власти в Кубинском уезде и в городе Кубе. На основе монографических исследований и архивных данных открывается темные страницы в биографии Мир Джафара Багирова на этот период.*

# GUBA DURING THE APRIL-MAY MASSACRE IN 1918

**Eldar Hajiyev**

***Keywords:*** *State Duma, Special Transcaucasian Committee, Council of Workers' and Soldiers' Deputies, Alibek Zizikski, Mir Jafar Bagirov.*

*The article highlights the political situation and the persistent struggle between various parties for power, the unheard-of atrocities of the Bolsheviks*

*and Dashnaks in the spread of Soviet power in the Guba province and in the city of Guba. On the basis of monographic research and archival data, dark pages in the biography of Mir Jafar Bagirov for this period are opened.*

Petroqradda Fevral inqilabı, Dövlət Dumasının çara itaət etməkdən imtina etməsi və Mqvəqqəti Hökumətin yaranması xəbəri 1917-ci il martın 15-də Cənubi Qafqazın inzibati mərkəzi olan Tiflisə çatdı. Müvəqqəti hökumət Cənubi Qafqazda nəzarəti əldə saxlamaq üçün 1917-ci ilin martın 22-də Dövlət Dumasının üzvülərindən ibarət Xüsusi Cənubi Qafqaz Komitəsini təsis etdi. .Lakin Xüsusi Cənubi Qafqaz Komitəsinin real hakimiyyətə malik olmaması, əyalətlərlə əlaqənin kəsilməsi yerlərdə real hakimiyyətin sovetlərin və digər inqilabi qurumların əlinə keçməsinə səbəb oldu. Bundan istifadə edən sosial-demokratlar Cənubi Qafqazda vəziyyətlərini möhkəmləndirməyə can atdılar. Nəticədə 1917-ci il martın 18-də Tiflisdə fəhlə-əsgər deputatları soveti yaradıldı. Martın 19-da isə Bakıda fəhlə deputatları sovetı yaradıldı. Sovetlər hakimiyyət ugrunda fəal mübarizəyə başladılar. Sovetlərlə yanaşı Bakıda İctimai Təşkilatların İcraiyyə Komitəsi deyilən orqan da fəaliyyət göstərirdi. Bu təşkilata bütün milli partiyalar və qrupların nümayəndələri, Neft Sənayeçiləri İttifaqı, Bakı şəhər soveti və digərləri daxil idi. Bakı Sovetinin sədrliyinə əvvəlcə S.Şaumyan seçilsə də, tezliklə bu vəzifə eser partiyasının nümayəndəsi Sako Saakyanın əlinə keçdi. Azlıqda qalan bolşeviklər 1917-ci ilin yayından etibarən digər partiyalara qarşı açıq şəkildə konfrantasiyaya keçdilər.1917-ci-ilin oktyabrında Bakı Sovetinə yeni seçkilər keçirildi. Bu dəfə azərbaycanlıların milli partiyası “ Müsavat “seçkidə səslərin 40%-ni topladı. Seçkilərdə rus əhalisinin müdafiə etdiyi sosial-inqilabçılar və erməni əhalisinin müdafiə etdiyi “ Daşnaksutyun “partiyaları da xeyli səs toplaya bildilər .Menşevik və bolşevik partiyalarına yalnız fəhlələr səs verdiklərinə görə onlar az səs topladılar.Bu seçkilər əyani şəkildə göstərdi ki, Bakıda qüvvələrin formalaşması siyasi əlamət əsasında yox, milli əlamət əsasında gedir.

Quba qəzasında da təxminən buna oxşar vəziyyət mövcud idi. 1917-ci il martın 6-da vergi müfəttişi Aleksandr Canturaşvilinin sədrliyi ilə İctimai Təşkilatların İcraiyyə Komitəsi yaradılmışdı.Xüsusi Cənubi Qafqaz Komitəsi Quba qəzasına rus ordusunun kapitanı olmuş Əli bəy Zizikskini komissar təyin etmişdi. O,eyni zamanda qəzanın ən iri mülkədarlarından biri idi. Bütün bunlarla paralel olaraq Quba şəhərində yerləşən hərbi hissələrdə əsgər deputatları soveti, 1917-ci il martın ortalarında fəhlə deputatları soveti yaradılmışdı. Göründüyü kimi Quba qəzasında da ikihakimiyyətlilik hökm sürürdü.

Qubada mövqelərinin zəif oldugunu dərk edən bolşeviklər “Hümmət” və “Ədalət “təşkilatları vasitəsi ilə şəhərin müsəlman əhalisi arasında təbligatlarını

gücləndirdilər. Bolşevik təbligatı əsasən yerli əsgər qarnizonlarında və fəhlə kollektivləri olan yerlərdə aparılırdı.(1)

Qəzada azərbaycanlı əhali arasında siyasi fəallıgı artırmaq məqsədi ilə milli ziyalıların nümayəndələr i"Müsavat" partiyasının şöbəsini yaratdılar.Şöbənin yaradıcısı Əbülqasım Rüstəmov, müavin isə Qubanın tanınmış bəy nəslindən olan Əlipənah bəy Şəfibəyov idi.(2) Bir qədər sonra Əli bəy Zizikski, Həmdulla Əfəndiyev Əfəndizadə tərəfindən" İttihad" partiyasının yerli şöbəsi yaradıldı. Həmçinin 1917-ci ilin mayında Qubada müsəlman milli komitələri yaradldı və buraya əsasən mülkədarların, tacirlərin, ruhanilərin nümayəndələri daxil idilər. Lakin bu siyasi partiyaların heç biri bütün Cənubi Qafqazda,o cümlədən Quba qəzasında kəskinliyi ilə həllini gözləyən aqrar məsələni həll etmək iqtidarında deyildi. Bolşeviklər qəzada ciddi sosial bazaya malik olmasalar da " sovet hakimiyyətini müdafiə etmək " şüarı ilə silahlı milis dəstələri yaradır,qəzanın rus kəndlərinin əhalisini silahlı yolla hakimiyyəti ələ keçirməyə,torpaqları zorla mənimsəməyə çagırırdılar. Əslində Bakıda oldugu kimi qəzalarda da hakimiyyətin silahlı yolla ələ alınması istiqamətində məqsədli və planlı iş aparılırdı. Artıq 1918-ci ilin əvvəllərindən Qubanın erməni əhalisi tələsik evlərini satıb Bakıya köçməyə başladılar.

1918-ci ilin martın axırlarına dogru Bakıda vəziyyət çox təhlükəli xarakter almaqda idi. Bakı Soveti əksinqilabi elementlərə qarşı mübarizə şüarı altında " Müsavat" partiyasına və onun arxasınca gedən azərbaycanlı əhaliyə qarşı iri miqyaslı silahlı aksiyanı həyata keçirmək ərəfəsində idi. Hərbi əməliyyata rəhbərlik etmək üçün "İnqilab Müdafiə Komitəsi" deyilən bir orqan yaradılmışdı. Bu Komitəyə bolşeviklərdən S. Şaumyan, P Caparidze, Q. Korqanov, N.Nərimanov, İ. Suxartsev, sag eser partiyasının lideri S.Saakyan və "Daşnaksutyun" partiyasının Bakı Komitəsinin nümayəndəsi S.Melik-Yolçiyan daxil idi. Bir həftə ərzində, xüsusi ilə martın 30-dan aprelin 2-də daxil olmaqla Bakı şəhərində türk-müsəlman əhalisinə qarşı görünməmiş vəhşiliklər törədildi. Nəticədə Bakı şəhərində 12-min günahsız insanlar soyqrımına məruz qaldılar.

Bakıda baş verən hadisələrlə eyni vaxtda, yəni 1918-ci il martın 30-da Şamaxı qəzasında da azərbaycanlı əhaliyə qarşı dəhşətli cinayətlər törədildi. Erməni-bolşevik silahlı qüvvələri tərəfindən qəzada azərbaycanlılar yaşayan 72 kənd dagıdıldı, 7-mindən artıq insan,o cümlədən 1653 qadın, 965 uşaq qətlə yetirildi.(3)

Quba qəzası bolşeviklərin özlərinə məxsus şəkildə sovet hakimiyyətini yaymaga cəhd göstərdikləri üçüncü qəza oldu. 1918-ci ildə Quba qəzasında ermənilər 2-3 kənddə kompakt şəkildə yaşayırdılar. Nüfuzlu elitaya malik olmayan ermənilər qəzanın inzibati idarəçilik və ictimai strukturlarında təmsil olunmurdular. Fəhlə-əskər deputatları sovetində təmsil olunan bolşeviklərin də mövqeyi kifayət gədər güclü deyildi. Bu dövrdə Quba qəzasında real

hakimiyyət Zaqafqaziya Seyminin hakimiyyətini tanıyan İctimai Təşkilatların İcraiyyə Komitəsinə məxsus idi.

Maraqlıdır ki, Bakı Xalq Komissarlar Soveti əvvəlcə qəzada hakimiyyətini dinc yolla yaymaga cəhd göstərdi. Quba əhalisi ilə danışıqlar aparmaq üçün buraya menşevik əqidəli D.A,Gelovanini göndərdi. Gelovaninin özünün dediyinə görə Xaçmas dəmiryol stansiyasında iki minlik əsgərdən ibarət eşalonla rastlaşır və onlar ona bitərəf şəxs kimi Quba əhalisinə "sovet hakimiyyəyinin qəbul olunması"barədə ultimatumu elan etməsini təklif etdilər.Təklifi qəbul edən D.A.Gelovani əsasən ermənilərdən ibarət olan qoşunla Qubaya daxil olur və əhaliyə sovet hakimiyyətinin qəbul olunması ilə bağlı ultimatumu verir. Bakıda və Şamaxıda baş verən hadisələrdən qorxuya düşən Quba əhalisi ultimatumu qəbul etməyə məcbur olur. Quba əhalisi təxminən iki həftə Gelovanin sovet hakimiyyətində yaşaya bilirlər.Bakı bolşevikləri dərhal həmin hadisə ilə bağlı " İzvestiya Bakinskoqo Soveta" qəzetində məlumat dərc etdirirlər. Məlumatda qeyd olunurdu ki, aprelin 23-də Qubada şəhər meydanında Sovet hakimiyyəti təntənəli şəkildə elan olundu, zəhmətkeşlər bu hadisəni böyük ruh yüksəkliyi ilə qarşıladılar.(4).Bakıda və Şamaxıda olan mart hadisələrindən sonra qəzanın komissarı Əli bəy Zizikski dəstələri ilə birlikdə Qubadan çıxmış Nəcməddin Qotsinskinin qüvvələri ilə birləşərək Bakı ətrafında bolşevik-daşnak qüvvələrinə qarşı vuruşurdu.

Qubada sakitlik uzun sürmədi.Qəzanın ətraf kəndlərində yaşayan və sovet hakimiyyətini qəbul etməyən silahlı ləzgi dəstələri üç günlük döyüşlərdən sonra Quba şəhərini tutdular.Döyüşlərdə hər iki tərəf itkilərə məruz qaldı. Döyüşlər zamanı Qubanın dinc sakinlərindən 70-nəfəri həlak oldu. Bolşeviklər Qubanı tərk edərkən özləri ilə şəhərdə yaşayan bütün rus məmurlarını və bütün erməniləri apardılar. Aparılan əhalinin bir hissəsi yolda həlak oldu. Onlar ləzgilərin,yoxsa bolşeviklərin güllələrindən ölüb,bu məsələ qaranlıq olaraq qalır.

İki həftədən sonra üç tərəfdən Hamazaspın üç minlik silahlı dəstəsi Qubaya daxil oldu. Elə birinci gün şəhərin aşağı hissəsində 715-müsəlman öldürüldü. Onların əksəriyyəti qadın və uşaqlar idi. İkinci gün 1012 nəfər öldürüldü və müsəlmanların əmlakları talan olundu. Hamazaspın Qubada sovet hakimiyyətini bərpa etmək üçün deyil, əhalini cəzalandırmaq üçün gəldiyi şübhəsiz idi. Şəhər idarəsi meyidləri dəfn etmək üçün ondan dəfələrlə icazə istəsə də, rədd cavabı aldı.Yalnız dördüncü gün qollarına ag parça bağlamış ermənilər qubalılara ölülərini dəfn etməyə icazə verdilər. Lakin küçəyə çıxanların heç biri geri qayıtmadı. Çünki,onların hamısı ermənilər tərəfindən öldürülmüşdü. Meyidlər küçədə 9 gün, yəni ermənilər Qubanı tərk edənə qədər qaldı.

Hamazasp Qubaya gəlişinin dördüncü günü şəhər əhalisini məscidin yanındakı meydana toplayaraq gəlişinin məqsədini açıqladı:" Mən erməni

xalqının qəhramanı və onun maraqlarının müdafiəçisiyəm. Mən sovet hakimiyyəti tərəfindən iki həftə bundan əvvəl öldürülən ermənilərın qisasını almaq üçün cəza dəstəsi ilə göndərilmişəm."(5)

Hamazaspa amansız və qanlı əmri kim vermişdi? Təbii ki,S.Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti. .D.Gelovani öz ifadəsində Qubaya cəza dəstəsinin göndərilməsinin təşəbbüskarı kimi Şaumyanın adını göstərmişdi. Qoşunun göndərilməsi iə bağlı əmri isə hərbi komissar Korqanov vermişdi.

Maraqlıdır, Hamazaspın Qubadakı vəhşiliklərinin dayandırılması nə ilə bağlı olub və ya kimsə bu işdə ona mane ola bilib? Bir qubalı şahidin ifadəsində göstərilir ki,Hamazaspın yanında olan ermənilərdən biri deyib ki, biz müsəlmanların çoxuna ona görə rəhm etdik. Çünkü ,Molla Hacıbaba çoxlu erməni qadınlarını ( Gelovaninin gəişi ərəfəsində) xilas edib.Gelivani isə öz ifadəsində Hamazaspın Qubanı tərk etməsində bir şəxsin – Mircəfər Bağırovun rol oynadığını göstərir

Bir neçə il sonra Azərbaycan KP MK-nın I katibi olacaq M.C.Bağırovun Quba hadisələri ilə bğlılığı əsaslı şəkildə araşdırılmalıdır.Çünki onun tərcümeyi-halının bu hissəsi kifayət qədər ziddiyyətli və qaranlıqdır.Amma bir şey şübhə doğurmur ki, bu şəxs Qubada baş vermiş hadisələrə əhəmiyyətli təsir göstərmişdir. Onun 1923-cü ildə Azərbaycan SSR Dövlət Siyasi İdarəsinin sədri işləyirkən yazdığı tərcümeyi-halda qəzada talanlar ərəfəsində və günlərində baş vermiş hadisələrə toxunulur:" Mənim qarşımda bir məsələ dururdu; nəyin bahasına olursa-olsun özümü Bakıya çatdırım Quba qəzasında vəziyyəti detalları ilə şərh edim və hakimiyyəti ələ almaq üçün sanksiyanı xahiş edim. Lakin bu məsələ çətin idi, az qala həyatımı itirəcəkdim.Onda qərara gəldim ki, geriyə,Qubaya qayıdım və mərkəzə xəbər vermədən hakimiyyəti ələ keçirim. Zizikski və Qotsinskiyə Bakıdan geri qayıdarkan Quba qəzasında möhkəmlənməyə imkan vermıkdənsə, öz yoldaşlarım qarşısında məsuliyyət daşımağım daha yaxşıdır.Belə də etdim...Bakı ilə Qızılburun arasında yol açılan kimi Georgi Sturua, Artak(Stambulyants), Barski kimi yoldaşların simasında Bakı Qızıl qvardiyasının ön hissələri ilə əlaqə saxlayıb vəziyyəti ətraflı şəkildə təsvir etdim. Onlar mənə məsləhət gördülər ki, mərkəzin nümayəndəsi kimi Gelovani adlı şəxsi Quba qəzasına aparım.

Qubalıların verdikləri ifadələrdən də aydın görünür ki, onlara sovet hakimiyyətinin qəbul olunması ilə bağlı ultimatum veriləndə M.Bağırov iki yahudi ilə birlikdə Gelovaninin yanında olub. Sonrakı günlərdə də onu Gelovaninin dəstəsindən olan bolşeviklərlə birlikdə görüblər.Hətta onun mənzilində müsəlmanlar evlərinin yandırılmaması üçün erməni silihlılarına pullar ödəyiblər.(6) Şahid ifadələrinin birində deyilir:" Doqquzuncu gün müsəlmanlardan qarət olunan əmlak Bağırovun evindən arabalara yüklənərək Ayrapetovun nəzarəti altında şəhərdən çıxarıldı". Həmin faktı M.C.Bağırovun özü də başqa bir mənada təsdiqləyir: "Quba qəzasında bir həftəlik sərgərdan

dolaşmadan sonra Hamazaspın dəstələri Quba qəzasında olan qiymətli şeyləri yığışdırıb Bakıya doğru hərəkət etdilər. Mən onun qarşısında az qala diz üstünə düşmək dərəcəsinə ensəm də ondan evləri yandırılmış sakinlərin bəzi məişət əşyalarını qoparıb ala bildim. Həmin əşyalar paylanmaq üçün anbarlara yığıldı (7)

Hələ Hamazaspın gəlişinə qədər M.C Bağırov Gelovani ilə birlikdə Quba şəhərində və yaxın kəndlərdə inqilabi komitələr yaradır, dövlət idarələrini zəbt edir, Qırmızı Qvardiya dəstələri yaratmaqla məşğul idi. Lakin ləzgi dəstələrinin şəhərə hücum etməsi onların bu fəaliyyətlərini yarımçıq qoydu. Qubalılar bır səslə şəhərə qonşu kəndlərdə yaşayan ləzgilərin hücum etdiklərini söyləsələr də, M.C.Bağırov şəhərə hücumun Əli bəy Zizikski tərəfindən təşkil olunduğunu söyləyir. Əli bəy Zizikskinin şəhəri tutmasından sonra M.C.Bağırov daha şəhərdə qala bilmır. O,Gelovaninin dəstəsinə qoşulub getməyə məcbur olur.

Bəs necə oldu ki, M.C.Bağırov Hamazaspın dəstəsi ilə birlikdə yenidən Qubaya qayıtdı? M.C.Bağırov öz tərcümeyi halında bu məsələyə aydınlıq gətirir:

“Petrovskdan gələn daşnak dəstələrinin nəzarəti altında biz dəmir yolu boyunca geri çəkilirdik. Biz Dərbəndə çəkilmək qərarına gəldik. Oraya çatanda yoldaş Naneyşvilinin Şimali Qafqazdan qayıdan eşalonları ilə qarşılaşdıq. Müşavirə etdikdən sonra dağılmış dəstələri yenidən bərpa etmək və Quba üzərinə yeni hücuma hazırlaşmaq üçün Bakıya tərəf hərəkət etmək qərarına gəldik... Çox böyük çətinliklə Dəvəçiyə çatdıq. Bu zaman Bakı istiqamətindən daşnak liderlərindən biri olan Hamazaspın dəstələrindən ibarət 4 eşalon göründü. Hamazasp elan etdi ki, mərkəzin-şəxsən yoldaş Şaumyanın əmri ilə Qubaya hərəkət edir ki, oranı yer üzərindən silsin..Onlar yoldaş Naneyşvilidən bizim partiyanın bir nəfər nümayəndəsinin onlara qoşulmasını xahiş edir. Uzun müddət düşündükdən sonra Naneyşvili mənə onlarla getməyi təklif etdi. Bu dəstənin nələr edəcəyini əvvəlcədən bildiyim üçün qəti şəkildə etirazımı bildirdim.”(8)

Lakin M.C.Bağırov öz iradəsindən asılı olmasa da, Hmazaspın dəstəsi ilə Qubaya gəlməli olur və bu faciəni öz yerliləri ilə birlikdə yaşamalı olur. Gelovaninin sonralar verdiyi ifadələrdən aydın olur ki, M.C.Bağırov bu dəhşətli faciənin dayandırılması üçün cəhd göstərib. Gelovaninin dediklərindən: “Caparidze mənim keçmiş köməkçim M.C.Bağırovun imzası ilə teleqram almışdı. Teleqramda qubalılar məni onları xilas etmək üçün Qubaya çağırırdılar. Çünki, Hamazasp hər tərəfi yandırır və məhv edirdi. Mən razılaşdım, geniş səlahiyyətlər alıb yola düşdüm. Mən Hamazaspı burada etdiklərinə görə qınadım... ona dəstəsi ilə Qubanı tərk etməsini təklif etdim. O,əvvəlcə tərəddüd etdi, sonra isə elan etdi ki, gedəcək və həqiqətən də burada olduğunun 9-cu günü bütün dəstəsi ilə çıxıb getdi.”(9)

Hamazasp Qubanı tərk edəndən 4 gün sonra A.Caparidzenin fövqaladə səlahiyyətli nümayəndəsi Levon Qoqoberidze Qubaya daxil olur. O,nəinki M.C.Bağırovu dinləmir, hətta onu 4 yoldaşı ilə birlikdə həbs etdirir. Qubaya yeni hücumun ola biləcəyi barədə məlumat alan M.C.Bağırov Qubadan qaçaraq Bakıya gəlir və Azərbaycanda sovet hakimiyyəti qurulanadək buraya qayıtmır.

Hamazaspın Quba qəzasında olduğu müddətdə törətdiyi hadisələr aydın şəkildə göstərir ki, onun buraya gəlməkdə məqsədi ləzgilər ilə Gelovaninin dəstələri arasında olan döyüşlərdə öldürülən 3-5 ermənінin qisasını almaq yox, Qubanın minlərlə dinc əhalisini yer üzərindın silmək, onları doğma torpaqlarından qovmaq olub. Çünki onun dəstəsi Qubaya doğru hərəkət edəndə və geri qayıdan da dəmir yolunun hər iki tərəfində yerləşən müsəlman kəndlərinə hücumlar etmiş evləri yandırmış, əmlakları talan etmiş və qarşılarına çıxanları güllələmişdilər. 1918-ci il aprelin axırlarından-mayın ortalarına qədər olan müddətdə Quba qəzasında Hamazaspın dəstələri tərəfindən ən azı 167-kənd qarət olunub yandırılmışdı. Həmin kəndlərdə mindən çox insan öldürülmüşdü (10)

Qəzanın ətraf kəndlərinin əhalisi Qubada baş verən hadisələrdən xəbərdar edildiklərinə görə vaxtında evlərini tərk edib gizlənə bilmişdilər. Qəzanın Müşkür sahəsinin Seyidlər kənd sakini Hacı Seyid Əbdülxəlil Hacı Seyid Əli oğlunun təhqiqata verdiyi ifadədən aydın olur ki, onların kəndinin əhalisini və digər müsəlman kəndlərinin əhalisini ermənilərin hücumları ilə bağlı qəzanın rəisi Əli bəy xəbardarlıq etmişdi.Təbii ki, bu da Bakı və Şamaxı ilə müqayisədə Quba qəzasında insan təlafatının xeyli az olmasına səbəb olmuşdur.

İki həftə ərzində dağlarda və meşələrdə ac, sərgərdan dolanmaqdan əldən düşən kəndlilər Hamazaspın dəstələri tərəfindən dağıdılmış kəndlərinə qayıdanda əlacsızlıqdan istənilən hakimiyyəti qəbul etməyə hazır idilər. 1918-ci ilin iyulunda Quba qəzasının 77 kəndində kəndli deputatları sovetının yaranması bununla birbaşa əlaqəli idi.

Quba qəzasında bolşevik hakimiyyəti beləcə 1918-ci ilin avqustun 1-qədər mövcud oldu. Həmin tarixdə Bakı Xalq Komissarları Soveti istefa verdi və onun yerində Mərkəzi Xəzər Diktaturası quruldu. Bundan sonra bütün Azərbaycan qəzalarında, o cümlədən, Quba qəzasında rəsmi hakimiyyət demək olar ki, yox idi və şərait əvvəlki yerli idarəçilik orqanları tərəfindən nəzarətdə saxlanılırdı.

1918-ci il mayın 26-da Cənubi Qafqaz Seymi buraxıldı və Seymın azərbaycan fraksiyası mayın 27-də Milli Şura yaratdı. Milli Şura mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə bağlı İstiqlal Bəyannaməsini elan etdı.1918-ci il iyulun ortalarında AXC hökuməti xarici işlər naziri M.Hacınskinin məruzəsini dinləyərək respublikada baş verən hadisələrə, o

cümlədən dinc müsəlman əhalisinə qarşı törədilən vəhşiliklərə hüquqi münasibət bıldirməyi zəruri saydı.

Nazirlər Şurası 1918-ci il 15-iyul tarixli iclasında "Avropa müharibəsi başlayan vaxtdan Cənubi Qafqazın bütün hüdudlarında müsəlmanlara və onların əmlaklarına qarşı törədilən zorakılıqların tədqiqi üçün" Fövqəladə İstintaq Komissiyası yaratdı. Əvvəllər 7 nəfərdən ibarət olan komissiyaya Ələkbər bəy Xasməmmədov sədrlik edirdi. Sonralar komissiyanın tərkibinə təcrübəli hüquqşunaslar əlavə edildi.

1919-cu ilin noyabrında Fövqəladə İstintaq Komissiyası Quba şəhərində və Quba qəzasının kəndlərində zorakılıqlar və talanlarla bağlı komissiya üzvü Novatskinin məruzəsini dinləyərək bu məsələdə günahkar bilinən adamların məsuliyyətə cəlb olunmaları barədə qərar qəbul etdi. Günahlandırılan şəxslərin siyahısında əvvəlcə Hamazaspın, köməkçisi Nikolayın, dəstənin komissarı Veluntsun sonra isə talanlarda fəal iştirak etmiş qubalı ermənilərin adları gəlirdi. Əhali quba ermənilərinin öz qonşularına qarşı törətdiyi vəhşilikləri dərk edə bilmir, çaşqınlıq içərisində qalmışdı. Bir qubalının ifadəsində deyilir:" Məscidin yaxınlığında mən qubalı-erməni Arutyun Mirzəcanovla rastlaşdım. O, mənə dedi ki,əgər ermənilər yüz dəfə də artıq müsəlman öldürsə belə, müsəlmanların etdiklərinə çata bilməz". (11) Göründüyü kimi burada sinfi düşmənçilik yox, türk millətinə qarşı olan şovnist münasibət qabarıqdır.

Novatskinin rəhbərliyi altında fəaliyyət göstərən komissiya 1918-ci ilin dekabrında Quba qəzasına gəldi. Müsəlmanların kütləvi qətlləri, talanlar və qarətlərlə bağlı yüzlərlə adamların ifadəsi toplanıldı. Bu ifadələr tək müsəlmanlardan deyil, qəzada yaşayan bütün xalqların nümayəndələrindən alındıı. Ayrı-ayrı etnik qrupların baş vermiş hadisələrdə istirak səviyyəsi araşdırıldı. Lakin məhkəmə-istintaq materiallarının azlığı istintaqın siyahısına düşən adamların hamısının cəzalandırılması barədə məlumat əldə etməyə imkan vermir.

Təəssüf hissi ilə qeyd olunmalıdır ki, Azərbaycanın qəzalarında dinc müsəlman əhaliyə qarşı törədilən soyqrım cinayətləri məntiqi nəticə ilə sonlanmadı. Məlum olduğu kimi 1920-ci il yanvarın 11-də Azərbaycan Xalq Cümhuriyyətinin siyasi həyatında böyük bir hadisə baş verdi. Müttəfiq dövlətlərin Ali Şurası yekdilliklə Azərbaycan Xalq Cümhuriyyətini de fakto olaraq tanıdı. Bu tarixi hadisə ilə əlaqədar 1920-ci il fevralın 9-da əhv haqqında qanun qəbul edildi. Həmin qanunun 2-ci bəndinə əsasən bu qanun qəbul edilən vaxta qədər "milli zəmində baş vermiş bütün cinayət hərəkətləri" təqib və cəzadan azad edilirdi. Həmin qanunun 10-cu bəndinə görə Fövqəladə İstintaq Komissiyasının icraatında olan bütün cinayət işləri birdəfəlik dayandırıldı.Azərbaycanda covet qurulduqdan sonra həmin materiallar arxivə təhvil verildi

Aministiya Hamazasp Srvantsyanı layiq olduğu cəzadan xilas edə bilmədi.1920-ci ilin noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulanda Hamazasp Yeravanda qaldı və güman etdiki, "erməni xalqı qarşısında etdiyi xidmətlərə"görə ona toxunmazlar.Lakin tale erməni bolşeviklərinin simasında onunla çox acı oyun oynadı 1921-ci ilin yanvarın ortalarında Ermənistanın bolşevik hakimiyyəti Ermənistanın möhkəmləndirilməsi planının müzakirəsi adı altında bütün keçmiş zabitləri toplantıya çağırdı.Yeni hakimiyyəti eşitmək üçün 3-minə qədər general və zabit meydana toplandı. Erməni hakimiyyəti onları Bakıya deportasiya etmək qərarına gəldi. Lakin onların yolda üsyan qaldıra biləcəklərindən ehtiyat etdiklərindən həbs olunanları əvvəlcə güllələmək qərarına gəldilər. Güllə səsləri şəhərdə eşidilə biləcəyindən onları kameralarda balta ilə doğradılar. Hamazaspın başı və bədəni o dərəcədə tanınmaz hala salınmışdı ki, oğlu onun meyidini ayağındakı valenkadan ( keçədən düzəldilən uzunboğaz ayaqqabı ) tanıya bilmişdi..

## Ədəbiyyat


1. Рустамбейли М.Г. Борьба трудящихся Кубинского уезъда за установление и упрочение советской власти в уезде (1917- 1922 гг.) АКД, Баку, 1970. С.12
2. Mir Cəfər Bağırovun məhkəməsi. Bakı,1993.s.35
3. Солмаз Рустамова- Тогиди. Куба.( мусульманские погромы в документах). Баку,2010. С.69.
4. Yenə orada, s.72.
5. Azərbaycan Dövlət Tarix Arxivi. F.1061,siyahi 1,iş,96,s.35.
6. Yenə orada, s.34.
7. QAPPOD AR, fond.1, siyahi 405, iş.107, s.8
8. Солмаз Рустамова- Тогиди, .. Yenə orada, 81-82.
9. Azərbaycan Dövlət Arxivi, fond.1061, siyahi !. İş 96,s.65
10. Yenə orada,s.102.
11. Yenə orada,s.38.

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2023, 1 (38), s.146-152

# ŞEYX CƏMALƏDDİN ƏL- ƏFQANİ VƏ İSLAMÇILIQ CƏRƏYANININ AZƏRBAYCANIN MİLLİ AZADLIQ HƏRƏKATINDA ROLU

**Məmmədov Xəqani Məmməd oğlu**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**prof.khaqani.mammadov@gmail.com**

***Açar sözlər:*** *Ş.C.əl-Əfqani, islamçılıq, dil birliyi, din birliyi, milli birlik, Azərbaycan milli azadlıq hərəkatı*

*XIX əsrin ikinci yarısında şimali Azərbaycanda kapitalizmin inkişafı maarifçilik və milli hərəkatın inkişafında mühüm rol oynamış ictimai-siyasi cərəyanların meydana gəlməsi və yayılmasına səbəb oldu. İslamçılıq cərəyanının banisi Ş.C.əl-Əfqani islami birlik ideyasını irəli sürərək, "dil və din birliyi" ideyası ətrafında islam dünyasını birləşdirmək, müstəmləkə əsarətinə qarşı mübarizə aparmaq fikrini irəli sürürdü. Onun ideyaları Azərbaycan milli azadlıq hərəkatının inkişafında, islami birliyin təkamül yolu ilə milli birlik ideyasına çevrilməsində mühüm rol oynadı.*

# РОЛЬ Ш.ДЖ.АЛ-АФГАНИ И ТЕЧЕНИЯ ИСЛАМИЗМА В НАЦИОНАЛЬНО-ОСВОБОДИТЕЛЬНОМ ДВИЖЕНИИ АЗЕРБАЙДЖАНА

**Мамедов Хагани**

***Ключевые слова:*** *Ш.Дж.ал-Афгани, исламизм, национально-освободительное движение, единство языка, религиозное единство, национальное единство.*

*Во второй половине XIX века развитие капитализма в Северном Азербайджане привело к возникновению и распространению общественно-политических течений, сыгравших важную роль в развитии просвещения и национального движения. Основоположник исламизма Ш.Дж.ал-Афгани выдвинул идею исламского единства и объединения исламского мира вокруг идеи «единства языка и религии» и борьбы против колониального рабства. Его идеи сыграли важную роль в развитии азербайджанского национально-освободительного движения, в превращении исламского единства в идею национального единства.*

# THE ROLE OF SH.C.AL-AFGHANİ AND THE TREND OF ISLAMISM IN THE NATIONAL LIBERATION MOVEMENT OF AZERBAIJAN

**Mammadov Khagani**

***Keywords:*** *Sh.C.al-Afghani, İslamism, national liberation movement, language unity, religious unity, national unity.*

*In the second half of the XIX century, the development of capitalism in Northern Azerbaijan led to the emergence and spread of socio-political trends that played an important role in the development of enlightenment and the national movement. The founder of Islamism, Sh.C.al-Afghani, put forward the idea of Islamic unity and put forward the idea of uniting the Islamic world around the idea of "unity of language and religion" and fighting against colonial slavery. His ideas played an important role in the development of the Azerbaijani national liberation movement, in the evolution of Islamic unity into the idea of national unity.*

**Giriş.** XIX əsrin son rübündə Azərbaycanda kapitalist münasibətlərinin sürətli inkişafı milli sənaye burjuaziyası və ziyalı zümrəsinin yetişməsi, xalqın milli-siyasi oyanma prosesinin dərinləşməsi, millətin meydana gəlməsi, maarifçilik və milli hərəkatın sonrakı yüksəlişində mühüm rol oynamış bir sıra ictimai-siyasi cərəyanların geniş yayılması ilə səciyyələnirdi. Yusif Akçura oğlu yazırdı ki, millət anlayışı Avropada meydana gəlmiş, «...İlkin olaraq və ən yüksək dərəcədə Avropa ilə sıx əlaqələrdə və qarşılıqlı münasibətlərdə olan türk tayfaları tərəfindən mənimsənilmişdir. Bu çoxlu türk tayfalarına osmanlılar adlanan qərb türkləri, Krım türkləri, Volqa sahillərində yerləşən şimal türkləri, habelə Qafqazdakı azəri türkləri aiddir. Beləliklə, XIX əsrin sonuna yaxın biz «türklərin» bu dörd qrupunda milli təfəkkürün yaranması və yayılmasının şahidi oluruq». [7; s. 10]

Bu dövrdə dünya müsəlmanlarını və türk xalqlarını, o cümlədən də Azərbaycanı əhatə edən panislamizm (islamçılıq) və pantürkizm (türkçülük) cərəyanları geniş yayılmışdır. Şərqdə «İttihadi-islam» (İslam birliyi) adı ilə yayılmış islamçılıq Əhməd Ağaoğlunun fikrincə, Quranın təbiətindən doğsa da, o, siyasi bir cərəyan kimi ancaq Seyid Cəmaləddin əl-Əfqaninin zühuru ilə dünya üzü gördü. İslamın xəstə cəhətinin sağaltmaq məsələsini həllində «... üç cərəyan müşahidə olunur: onlardan birincisi «ifrat mütərəqqiçilər» (yaxud «yeni müsəlmanlar»), ikincisi, «ifrat köhnəpərəstlər», (yaxud «qədimi müsəlmanlar»), üçüncüsü, bu iki cərəyanın arasında orta xətt götürən panislamistlər». Ə.Ağaoğlu göstərir ki, «birincilər çıxış yolunu qeydsiz-şərtsiz Avropanı təqliddə, Avropasayağı həyat tərzi qurmaqda, onu eyni ilə Şərqə göçürməkdə görür, ikincilər isə əksinə, keçmişə qayıtmağı üstün tuturdular. «Panislamizm» özünün

daxili məzmununa görə əslində geriyə dönməkdir, amma göhnəlik girdabında qapanıb qalmaq deyildir. Bu geriyə dönüş daha inamla,daha böyük qüvvətlə irəliyə atılmaq üçün vasitədir». [4]

«İttihadi-İslam»ın banisi XIX əsr İslam modernizminin başçısı Seyid (yaxud Şeyx) Məhəmməd Cəmaləddin əl-Əfqani (əsl adı Seyid Məhəmməd ibn Səfdər) (1838-1897) olmuşdur. Şərq və Qərb mədəniyyətlərini dərindən mənimsəmiş və özünün fəlsəfi sistemini yaratmış C. əl-Əfqani 1838-ci ildə Həmədan yaxınlığında yerıəşən və əhalisi Azərbaycan türklərindən ibarət olan Əsədabad kəndində ziyalı ailəsində doğulmuşdur. 8 yaşında olarkən atası ilə Kabilə köçmüşdür. Nüfuzlu din xadimi olan atasının sayəsində Kabildə mükəmməl dini təhsil aldıqdan sonar o, həmin dövrdə Əfqanıstanın müstəqilliyinə çalışan, bir müddət buna nail olan Əmir Dost Məhəmmədin xidmətində olmuş, hətta Baş nazir vəzifəsinədək yüksəlmişdur. 1863-cü ildə Əmirin vəfatından bir qədər sonra vərəsə və qəbilə çəkişmələri zamanı oradan uzaqlaşmışdı. ”Əfqani” təxəllüsü də onun Əfqanstandakı siyasi fəaliyyəti ilə bağlı idi. O, ərəb, fars, türk dillərini mükəmməl öyrənmiş, hər üç dildə elmi əsər lər və məqalələr yazmış, ingilis, fransız və rus dillərinə də bələd olmuşdur.[5; s. 7]

Ömrünü əsasən səyahətlərdə keçirən C.əl-Əfqani bir müddət Hindistanda və Misirdə yaşamış, M.Ə.Rəsulzadənən qeydlərinə görə, Misir Universitetinin professoru vəzifəsində işləmiş, məşhur Ərabi paşa üsyanlarının rəhbərlərindən biri olmuşdur. Sonra o, Hindistana köçüb Heydərabadda məskunlaşmış, ingilislərin təqibi üzündən oranı da tərk etmişdir. C.əl-Əfqani Amerikada da olmuş, sonra Parisə qayıtmış, bir müddət qəzetçiliklə və publisistika ilə məşğul olmuşdur. Hindistanın azadlığı uğrunda mübarizəni öz əsərlərində təbliğ etməsi onu Qərb müstəmləkəçilərinin qorxulu və təhlükəli düşməni kimi tanıtmışdır. Osmanlı sultanı II Əbdülhəmid onu Türkiyəyə dəvət edir, İstanbulun zəngin insanlar yaşayan Nişantaşı məhəlləsində ev ilə təmin edir, ona ayda iki min lırə təqaüd də ayırır. Əbdülhəmidin himayəsində olmasına baxmayaraq, C.əl-Əfqani milli-azadlıq hərəkatının ideoloqu olan qorxulu, inqilabi əhval-ruhiyyəli, təhlükəli azad fikirli şəxs kimi müsəlman ölkələrinin despotik monarxlarını çox narahat edirdi. Hətta İran şahı Nəsrəddin şahın 1896-cı ildə özünün yaxın adamlarından olan Mirzə Rza Həmədani tərəfindən öldürülməsinə baxmayaraq, sui-qəsddə onun da əlinin olmasından şübhələnərək onu istintaqa cəlb etmişdilər, onun özü də 1897-ci ildə İstanbulda müəmmalı şəkildə vəfat etmişdir.[5; s. 7]

Şeyx Cəmaləddin əl-Əfqani yazırdı ki, “islamın müasir halını başı İstanbulda qərar tutan, bir əli Şimali Afrikaya, digəri Krım və Orenburqdan Çinə qədər uzadılan, ayaqları qərbi Asiya boyunca gedən, bütün əzaları əzilmiş və eybəcər hala salınmış nəhəng xəstə bir bədənə bənzətmək olar… Vəzifə:mübahisə etmək deyil, parçalanıb tökülməkdə olan bu bədəni müalicə

etmək, onu hərəkətə gətirməkdir". [4] C.əl-Əfqaniyə qədər və onun müasirləri olan, islam dinini hakim siniflərin mənafeyinə uyğunlaşdırmağa çalışan bir çox müsəlman alimləri və ziyalıları islam aləminin geriliyi, onun burjua qərbinin zülmünə məruz qalması və s. haqqında mübahisələr etmiş, "islamiyyətin xəstəliyinin" səbəblərini müxtəlif cür izah etmiş, onun "müalicəsi" üçün müxtəlif yollar, üsul və vasitələr irəli sürmüşdülər.

Cəmaləddin əl-Əfqani israr edirdi ki, "aləmi-islamın tənəzzülünün səbəbi" nə islam dini, nə Quran, nə də şəriətdir. Günahgar "islamı eybəcər hala salanlar"-üləmalar, "şəriəti yaramaz edənlər-qazılar və müsəlman dövlətlərinin müstəbid hökmdarlarıdır. Onun fikrincə islam maarif, mədəniyyət, demokratiya, azadlıq və bərabərlik kimi keyfiyyətlərlə əlaqədardır, islam "dövrün ruhuna zidd deyildir". O, "sökülüb-tökülməkdə olan nəhəng bədəni"-islam aləmini hərəkətə, fəaliyyətə gətirmək üçün islam dinini olduğu kimi, mükəmməl surətdə öyrənməyi, dərk etməyi, onu "tərzi hərəkatın və əxlaqın" çıxış nöqtəsi saymaqla müsəlmanlar arasında maarıf, elm və sənayenin yayılmasına, onların tərəqqisinə çalışmağın zəruri olduğunu bildirirdi. C.əl-Əfqaninin fikrinçə, "İslam elm və fənlə, nur və həqlə qaimdir", həqiqi islamiyyət elmlərin nuru və fənlərin şüası ilə təzahür edər. Vaxtı ilə Avropa elmləri və fənləri məhz müsəlmanlardan əxz və kəsb etmişdir. Bu iş üçün "Avropaya müraciət edirsək, öz malımızı geri istəmiş olarıq". O, bunun üçün islamın mahiyyətini anlayan, Quran və hədislərin, şəriətin elmi şərhini verməyə qadir olan, islamı xristianlığın hücumlarından qoruya bilən yeni üləmalar, ziyalılar yetişdirmək, bu məqsədlə yeni məktəblər, mədrəsələr, universitetlər və s. təsis etmək lazım olduğunu bildirirdi.[8; s.131]

Şeyx Cəmaləddinə görə , islamiyyət tarixən və mahiyyətcə Avropanın dövlət idarəçilik üsullarına , onların siysi təşkilat formalarına zidd deyildir. İslam "üsuli-məşvərət və "ictimai –ümmət"ə yad olmayıb, əksinə, bunların əsasını təşkil edir. Müsəlmanlar öz dinlərini, tarixlərini mükəmməl bilsələr, dərk edərlər ki, zülm və cəbrə əsaslanan idarə üsulu islamiyyətə ziddir. Bu gün müsəlmanların, müsəlman alimlərin ən birinci vəzifəsi "islamı xürafat yükü altından qurtarmaq, islamiyyəti olduğu kimi həqaiq və fəzaili ilə göstərməkdir… Bunun üçün ən doğru vasitə yeni üsul və fünun ilə mücəhhəz olaraq həqaiqi-islamiyyəi siyasi, ictimai, iqtisadi və əxlaqi nöqteyi-nəzərdən mütaliə etməkdir. İştə ancaq o zaman aləmi-islam özünə müsaid və əmrazına ilac bulacaqdır". [8; s.131]

Cəmaləddin əl-Əfqaninin fikrincə, cəhalətin, mövhumatın əleyhinə, maarif, elm və mədəniyyətin lehinə olan islamiyyət müsəlmanların birliyini, vəhdətini tələb edir. Müsəlman aləmini islam bayrağı altında vahid bir cəbhədə birləşdirmək nəinki mümkündür, bu təbii və zəruridir. O, "ittihadi-islam"-müsəlmanların mənəvi, mədəni, siyasi birliyi yolu ilə xristian qərbinə, Avropa kapitalizminə qarşı vahid cəbhə yaratmaq fikrini irəli sürürdü. C.əl-Əfqani

deyirdi ki, müsəlmanların siyasi cəhətdən vahid bir xilafətdə birləşdirilməsi mümkün olmazsa, ilk dövrlərdə bu birliyi islam konfederasiyası formasında meydana gətirmək mümkündür.
Cəmaləddin əl-Əfqani islamda azadfikirliliyi mümkün və zəruri hesab edir, islamın tənəzzülünün səbəblərini araşdırmağa və onun qarşısını almağa çalışırdı. O, müsəlmanları ehkamlardan uzaqlaşmağa, təriqət parçalanmalarına son qoymağa, Qərbin elmi, mədəni nailiyyətlərini mənimsəməyə çağırırdı. Şeyx Cəmaləddin millətin birliyi və həmrəyliyi üçün iki mühüm amili: dil və din birliyini əsas götürürdü. O yazırdı: «...Dil birliyi, yəni milli birlik dini birlikdən daha möhkəm və sabitdir...Dil birliyindən hasil olan əlaqə və ittifaqın təsiri dini əlaqələrin təsirindən daha artıqdır». O, qeyd edirdi ki, «Dil birliyi olmasa, milli vəhdətin həqiqi mənası və həyati gücü də ola bilməz. Dil birliyi insanlar arasında son dərəcə böyük gücə - qüvvəyə malik olan əsas əlaqə vasitəsidir».[2; s.26-27]

Şeyx Cəmaləddin əl-Əfqani müstəmləkə zülmünə qarşı mübarizədə millətçilikdən bir silah kimi istifadə olunmağın əleyhinə idi. O, bütün müsəlmanların bir hakimiyyət altında birləşməsinə inanırdı, kökə qayıdışı mühüm vasitə kimi qiymətləndirirdi. Əfqani Hindistanda fars dilində nəsr olunan “Cəmaliyyə məqalələri” məcmuəsndə “Nəslin (millətin ) birliyinin fəlsəfəsi” adlı məqaləsində yazırdı ki, millətdən kənarda xoşbəxtlık, dinsiz isə millət yoxdur. C.əl-Əfqani yazırdı ki. Islam birliyinə təkcə milli birlik kimi deyil, imperializmə qarşı mübarizədə siyasi birlik, müttəfiqlik kimi yanaşmaq lazımdır. O deyirdi ki, tərəqqinin, müstəqilliyin birinci və başlıca şərti xalqın elmə yiyələnməsidir. Böyük mütəfəkkir bildirirdi ki, “Dünya elm üstündə bərqərar olur… Elm bir nəfərin gücünü on nəfərə, min və on min nəfərə bərabər edər.” [8; s.35]

Cəmaləddin əl-Əfqani islam dünyasının dirçəlişi və yüksəlişi üçün milli özünüdərki vacib hesab edir, islam dünyasının mövcudluğuna və inkişafına olan ümidləri milli özünüdərketmə şüuru və müsəlmanların milli tərəqqisi ilə əlaqələndirirdi. O, müstəmləkə zülmünə qarşı mübarizədə millətçilikdən bir silah, vasitə kimi istifadə olunması mövqeyindən çıxış edir, bütün imperiyaların, müstəmləkəçi ölkələrin dağılmalı olduğu fikrini qətiyyətlə müdafiə edirdi. C.əl-Əfqani Şərq dünyasında ilk dəfə olaraq milli inkisaf ideyasını irəli sürmüş, “Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti” adlı əsərində yazmışdır ki, hər kəs öz millətinin tərəqqisinə nail olmaq istəyirsə, birinci növbədə özünü tanımalıdır, soyuna- kökünə bağlanmalıdır, dilinə, dininə sarınmalıdır. [8; s.35]

Şeyx Cəmaləddin əl-Əfqani dini milli vəhdətin ikinci mühüm vasitəsi hesab edirdi: “İslam elmi dindir, cihad və mübarizə dinidir, yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmək dinidir, içrət dini və zilləti qəbul etməmək dinidir, məsuliyyət dinidir”-deyirdi.

M.Ə.Rəsulzadə Türkiyədə olarkən "müsəlman millətlərinin milli şüura sahib olmaları", islam aləminin yaşaması, inkişaf etməsi üçün "müsəlman xalqlarının şüurlu millətçi olmalarının" vacib olması, dil və din birliyinin zəruri olması, milliyət xaricində səadətin olmaması fikirlərini özündə əks etdirən Şeyx Cəmaləddin əl-Əfqaninin məşhur " Vəhdəti cinsiyyə" əsərini türkcəyə çevirib "Türk yurdu" jurnalında çap etdirmişdir. [1; s. 208] M.B.Məmmədzadənin fikrincə Ş.C.Əfqaninin bu fəlsəfəsi "Müsavat" firqəsinin, onunla birlikdə Azərbaycan milli demokratlarının "ümmətçilikdən" "millətçiliyə" və "islamçılıqdan" "türkçülüyə" keçməsində mühüm rol oynamışdır. [1; s. 208-209]

Qafqazda, o cümlədən Azərbaycanda panislamizm hərəkatının yayılmasını müşahidə etmək haqqında mərkəzdən göstəriş alan yerli jandarm idarələrinin məlumatında göstərilirdi ki, panislamizmi Türkiyə sultanı II Əbdülhəmid və alman imperatoru II Vilhelm müdafiə edir. «İttihadi-İslam»ın məqsədi bütün müsəlmanları birləşdirmək, ruslar və xristianlar arasında islamı yaymaq, Avropa dövlətlərinin siyasətinə müdaxilə etmək və s. ibarətdir. [ 6; s.48]

Dağılmaqda olan Osmanlı imperiyasının nüfuzunu müsəlman xalqlarının nəzərində artırmaq məqsədi ilə bütün dünya müsəlmanlarının xəlifəsi Sultan Əbdülhəmid (1876-1909) 1892-ci ilin sentyabr ayında C.əl-Əfqanini İstanbula dəvət etdi. C.əl-Əfqani İstanbula gəlib, orada "İttihadi-islam" cəmiyyətini yaratdı. Bu cəmiyyət müsəlmanlar arasında mövcud olan dini ixtilafları, xüsusil sünni-şiə ixtilaflarını aradan qaldırmaq və onları müstəmləkə zülmünə qarşı vahid cəbhədə birləşdirməyi öz qarşısına məqsəd qoyaraq, bu yolda bütün müsəlman ölkələrinin yüzlərcə üləmalarina, ruhanilərinə yazılı müraciət göndərmiş, onları ittihada çağırmışdır.

Sultan Əbdülhəmid və C.əl-Əfqani dəfələrlə görüşmüş və "İttihadi-İslam"ın prinsipləri əsasında yaranacaq siyasi idarəçiliyin forması haqqında məsələ müzakirə etmişlər. Birləşməsi nəzərdə tutulan müsəlman ölkələrinin siyasi birliyinin mərkəzi İstanbul, ali hakimiyyət orqanı isə konqres olmalı idi. İki məclisdən ibarət təşkil ediləcək bu konqresə hər bir müsəlman ölkəsindən seçki yolu ilə iki nümayəndənin biri yerli hökumət orqanları tərəfindən, digəri isə görkəmli ruhanilər tərəfindən seçilməli idi. Müsəlman ölkələrinə aid bütün mühüm məsələlər bu konqresdə müzakirə olunmalı və onun qərarı qanun formasında həyata keçirilməli idi. C.əl-Əfqani hər bir məclis üçün ayrı-ayrı rəhbər seçilməsini tələb etdiyi halda, Sultan Əbdülhəmid hər iki məclisin yalnız bir sədrinin olmasını, yəni ali hakimiyyətin xəlifənin əlində -öz əlində cəmlənməsini tələb etmişdir. Bu məsələ üstündə də onlarin arasinda fikir ayrılığı baş vermişdir. [3; s. 75-76] Tarixçi alim S.Süleymanovanın fikrincə, müasir dövrdə fəaliyyət göstərən və Azərbaycan Respublikasının da daxil olduğu "İslam Əməkdaşlıq Təşkilatı"nın nəzəri əsası məhz C. əl-Əfqani tərəfindən qoyulmuşdur. [9; s. 64]

Cəmaləddin əl-Əfqani yeni dövrün tələblərinə uyğun formada Quranın, hədislərin şərhini verməyə, islamın ayın və mərasimlərini burjua münasibətləri baxımından mənalandırmağa çalışmış, islam dinində bəzi dəyişikliklərin həyata keçirilməsinə tərəfdar olmuşdur. O, bütün müsəlman ölkələrində məşrutənin və respublika dövlət quruluşunun bəqərar olması yolunda çalışmış, millətlərin müstəqil həyat tərzi, onların milli mədəniyyət ideyasını müdafiə etmişdir.

**Nəticə.** Azərbaycanda islamçılıq cərəyanı, Şeyx Cəmaləddinin ideyaları müxtəlif formalarda yayılırdı. Onunla təmasda və ünsiyyətdə olan Azərbaycan ziyalılarından Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu, Məhəmməd ağa Şahtaxtlı, Ö.F.Nemanzadə, M.Sidqi və s., əsərləri ilə tanış olan M.Ə.Rəsulzadə, C.Məmmədquluzadə, C.Cabbarlı və s. ziyalılar ictimai-siyasi fikrin inkişafına böyük təsir göstərirdilər. [5; s. 80] Azərbaycan milli azadlıq hərəkatının ideoloqları islamlaşmaq deyərkən, heç də hər hansı din nümayəndəsinə islam dininin zorla qəbul etditilməsini deyil, islam dininin xurufatdan təmizlənməsini və Quranın elmi təməl üzərində inkişafini nəzərdə tuturdular.

C.əl-Əfqaninin islamçılıq, "İttihadi-İslam" ideyaları, islamçılıq cərəyanı Azərbaycan milli azadlıq hərəkatının inkişafında mühüm rol oynamışdır. Milli hərəkat liderlərinin ictimai-siyasi inkişafı islam ümmətçiliyindən islam millətçiliyinə, oradan da türk millətçilinə keçidlə nəticələnmişdir.

## Ədəbiyyat


1. Boran Əziz. Cümhuriyyətə gedən yol: milli azadlıq hərəkatının aktuallığı, mənbələri, dövrləri və cərəyanları. Bakı, Çapar. 2020, s. 208, 208-209.
2. Əmrahov M. XX əsrdə Azərbaycanda milli azadlıq hərəkatı. Bakı, 2009, s. 35.
3. İbrahimov T.A. (Şahin). İranda siyasi cəmiyyətlər və təşkilatların yaranması və onların fəaliyyəti(1858-1906-cı illər), Bakı, 1967, s. 75-76.
4. «Kaspi» qəzeti, 21 aprel 1900, № 87.
5. Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası. Bakı, 1996, s.7, 80.
6. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, 1992, s. 48.
7. Musayev İ., Cəfərova T. «Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət və milli-demokratik fikir (XIX əsrin sonu-XX əsrin əvvəli)». B., 1995, s.10.
8. Mustafayev Q.İ. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı, "Maarif", 1973. s. 35, 129.
9. Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat. (XIX əsrin sonları-XX əsrin əvvəlləri). Bakı, 2022, s. 64.

## MÜNDƏRİCAT

**Cavid Bayramov.** QAFQAZ ALBANİYASININ ANTİK DÖVR HƏRB SƏNƏTİ YAZILI MƏNBƏLƏRDƏ ..................................................................3
**Nübar E. Bəşirli.** ROTŞİLDLƏRİN AZƏRBAYCAN NEFT SƏNAYESİNİN İNKİŞAFINDA ROLU.........................................................13
**Gülsabah Əmirova.** BAKALAVRLARIN PEŞƏKAR SƏRİŞTƏLƏRİNİN FORMALAŞMASI PROBLEMLƏRİ..............................................................22
**Günay Həsənova.** XVIII YÜZİLLİYİN İKİNCİ YARISI – XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ QUBA BÖLGƏSİNDƏ SƏNƏTKARLIĞIN SAXSI MƏMULATI İSTEHSALI HAQQINDA...........31
**Марзия Искендерова.** К ИСТОРИИ РОССИЙСКОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНЕ ВО II ПОЛОВИНЕXVIII- НАЧ. XIX ВВ......................41
**Aygün Kərimova.** İKİNCİ QARABAĞ MÜHARİBƏSİNİN QƏLƏBƏ İLƏ BAŞA ÇATMASINDA ÖLKƏ PREZİDENTİ, ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEVİN ROLU..........................................................................54
**Aydın Məmmədov.** XX ƏSRİN İKİNCİ YARISI AZƏRBAYCAN VƏ RUSİYA TARİXŞÜNASLIĞINDA TARİXİ DEMOQRAFİYANIN AKTUAL MƏSƏLƏLƏRİ.............................................................................66
**Elmira Məmmədova**. ORTA ƏSRLƏRDƏ XRİSTİAN MAARİFÇİLİYİ VƏ ŞUŞA.................................................................................................79
**Sultanəli Qurbanov, Eldar Muxtarlı.** AZƏRBAYCAN MUİLLİ İDMAN OYUNLARININ İNKİŞAF TARİXİ..............................................................89
**Ləman Qarayeva, Tamilla Rzayeva.** ETNİK TOLERANTLIQ SOSİAL-PSİXOLOJİ HADİSƏ KİMİ...........................................................................96
**Əzizağa Qəni-zadə.** KƏLBƏCƏR UĞRUNDA DÖYÜŞ (1993-CÜ İL 27 MART-2 APREL)..............................................................104
**Səbuhi Qurbanov.** AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN İDARƏÇİLİK TƏCRÜBƏSİNDƏN İSTİFADƏNİN İCTİMAİ-TARİXİ VƏ ELMİ NƏZƏRİ MƏSƏLƏLƏRİ...........................125
**Eldar Hacıyev**. QUBA 1918-CI ILIN APREL-MAY SOYQRIMI DÖVRÜNDƏ……………………………………………………..…137
**Xəqani Məmmədov.** ŞEYX CƏMALƏDDİN ƏL- ƏFQANİ VƏ İSLAMÇILIQ CƏRƏYANININ AZƏRBAYCANIN MİLLİ AZADLIQ HƏRƏKATINDA ROLU…………………………………………….....146

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – jhhsadpu@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2023, 1 (38)*

***Çapa imzalanmış 15.03.2023-cü il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 9***
***Sifariş 73, sayı 100***

***ADPU-nəşriyyatı***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail:*** *jhhsadpu@mail.ru*
***www.adpu.edu.az***